AZƏRBAYCAN XALQININ MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİNİN QƏDİM KÖKLƏRİ

(ELMİ-KÜTLƏVİ FİLMİN SENARİSİ)

Bəxtiyar Tuncay

BAKI 2007

1-ci seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Azərbaycanın tarixin müxtəlif dövrlərinə aid xəritələri bir-birini əvəz edir. Kadr arxasından diktorun səsi:

"Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını birmə-nalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmışdır."

Ekrandakı xəritələr öncə müxtəlif təbiət mənzərələri, daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur. Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

"Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dünyada insanın formalaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu torpaq bəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir. Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximi-zin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uza-nan zəngin folklor nümunələri əks etdirir."

Ekrandakı qayaüstu təsvir nümunələrini arxeoloji qazıntılar nəticəsində tapılmış daş və tunc alətlər,saxsı qablar və sairə əvəz edir.

Diktor mətni:

"Son zamanlar Azərbaycan tarixinin müxtəlif sahələri üzrə sanballı elmi araşdırmalar aparılmış,siyasi,iqtisadi,etnik problemlərin,o cümlədən mədəniyyət məsələlərinin tədqiqində müəyyən nailiyyətlər əldə edilmişdir.Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkəmizin ərazisində ibtidai insan cəmiyyətlərinin formalaşması qədim daş dövrünün-Paleolitin ən erkən mərhələlərindən başlamış,uzun və mürəkkəb inkişaf yolu keçmiş və üst ,yəni son Paleolitə keçid dövründə başa çatmışdır."

Ekranda Azıx,Tağlar,Zar və Qazma mağaralarının xarici və daxili görüntüləri,eləcə də bu mağaralarda aparılmış arxeoloji qazıntıları əks etdirən şəkil və video süjetlər canlanır.

Diktor mətni:

"Qarabağ ərazisində yerləşən Azıx və Tağlar ,Kəlbəcər ərazisindəki Zar, Naxçıvandakı Qazma,Qazax bölgəsində yerləşən Daşsalahlı və Aveydağ kimi mağara düşərgələri və Qədirdərə,Çaxmaqlı,Kəkilli kimi açıq düşərgələrdə aparılan arxeoloji tədqiqatlarla qədim Daş dövrü insanlarının təşəkkülü və inkişafı ,ibtidai cəmiyyətin yaranması,ilkin əmək alətlərinin formalaşması ,ibtidai məşğuliyyət sahələri və sairə haqqında məlumat əldə edilmşdir."

Ekranda tarixçi alim H.Cəfərov görünür.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Tədqiqatlar nəticəsində Azərbaycanda dünyada hələlik məlum olan ən qədim insan mədəniyyəti izlərindən biri öyrənilmişdir.Bu mədəniyyət,tapıldığı yerin adı ilə Quruçay arxeoloji mədəniyyəti adlanır.Quruçay mədəniyyəti üç mərhələyə bölünür.Birinci mərhələ Paleolitin ilk təşəkkül dövrünü-Aşölə qədərki dövrünü əhatə edir.İkinci mərhələ erkən və orta Aşöl dövrünü,üçüncü mərhələ isə son Aşöl və Mustye dövrünü əhatə edir.Bu mədəniyyətin 1,5 milyon ildən artıq yaşı var.Quruçay mədəniyyəti insanları öncə Quruçay hövzəsində açıq düşərgədə yaşamış ,sonralar iqlim şəraitinin dəyişməsi ilə bağlı yaxınlıqdakı Azıx mağarasına köçmüşlər."

Ekranda H.Cəfərovu tarixçi alim,arxeoloq Rəşid Göyüşov əvəz edir.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

" Azıx mağarasında aparılmış arxeoloji tədqiqatlar göstərmişdir ki,qədim insanlar buraya 1-1,2 milyon il əvvəl köçmüşlər.Quruçay mədəniyyətinin ilkin dövrü Afrikada öyrənilmiş Olduvey mədəniyyəti ilə eyni tarixə malikdir.Həmin dövr arxeoloji bölgüdə Aşölə qədərki mərhələyə uyğun gəlir.İlkin mərhələnin əmək alətləri adi çay daşlarından çox kobud hazırlanmışdır.İnsanın ilkin vərdişləri-nin məhsulu olan bu alətlər qeyri-adi ölçüsü və 4 -5 kiloqrama çatan çəkisi ilə fərqlənir.Bu mərhələnin insanları təbii daşlardan qəlpələr qoparmağı və onlardan kəsmək,doğramaq aləti kimi istifadə etməyi bacarırdı.Alətlər əsasən kvars və çaxmaq-

daşından hazırlanırdı.Azıx mağarasının alt təbəqələrində Quruçay mədəniyyətinin ilk dövründəki kimi kobud daş alətlərlə yanaşı,daşlaşmış heyvan sümükləri də tapılmışdır.Bəzi sümüklər itiağızlı alətlər ilə çapılıb sındırılmışdı.Sümük qalıqları Quruçay mədəniyyətinin ilk pilləsinin heyvanat aləmi haqqında təsəvvür yaradır."

Ekranda İngiltərə istehsalı olan və milyon il öncə yaşamış insanların həyatından bəhs edən "Milyonuncu illər" bədii filmindən səssiz kadrlar görüntülənir.Bu kadrların fonunda diktor mətni səslənir:

"Bu dövrdə ovçuluq bəsit idi.Əsasən xırda heyvanlar,iri heyvan balaları, habelə kirpi,tısbağa və sairə ovlanırdı. Çox güman ki,insanlar artıq təbii oddan isti-fadə edə bilirdilər. İbtidai ovçuluqla yanaşı,giləmeyvə yığmaq vərdişi də təşəkkül tapmağa başlamışdı.

Quruçay mədəniyyəti dövründə yaranan ibtidai insanların nəsli-icma dövrünə qədəm qoyması ilkin cəmiyyətin başlanğıcına təsadüf edir.İbtidai icma quruluşunun Mustye dövründə,yəni 120-100-cü minilliklərlə 40-30-cu minilliklər arasında formalaşdığı hesab edilir."

Ekranda yenidən tarixçi alim H.Cəfərov görünür və ekranın altında onun adı,soy adı və elmi rütbəsi yazılır.O,sözünə belə davam edir:

"Quruçay mədəniyyətinin ikinci inkişaf mərhələsi erkən və orta Aşöl dövrünü əhatə edir ki,bu dövrün tarixi 700-150 min il arasındadır. Erkən və orta Aşöl dövründə əmək alətləri xeyli təkmilləşmiş (Ekranda daş alətlər görünür.),eyni zamanda yeni növ alətlər meydana gəlmişdir. Azıx mağarasın müvafiq təbəqələrindən tapılmış çoxsaylı qəlpələr və istehsal tullantıları əmək alətlərinin elə yerindəcə, yəni düşərgədə hazırlanmasını sübut edir. Əmək alətləri çay daşlarından,caxmaq daşı və başqa daş növlərindən hazırlanırdı.Bunların içərisində əl çapacaqları, habelə itiuclu alətlər,müxtəlif növ qaşovlar,dişli-gəzli iskənəyə bənzər alətlər və sairə vardı. Bu alətlər kəsmək.deşmək.sıyırmaq işlərində tətbiq olunurdu."

Ekranda Balaxanı yaxınlığında yerləşən Yanardağ görünür.Daşlar və qayalar arasından cıxan təbii alov öncə ümumi planda,daha sonra isə iri planda görüntülənir.Bu kadrları Astara rayonu ərazisində yerləşən yanan bulağı və Suraxanıdakı atəşgahı müxtəlif planlardan ekrana daşıyan kadrlar əvəz edir.Həmin kadrların fonunda diktor mətni eşidilir:

"Arxeoloji tədqiqatlar nəticəsində məlum olmuşdur ki,Azərbaycanın ən qədim sakinləri hələ ən azı 700 min il öncə süni yolla od əldə etməyi və onu uzun müddət yanar vəziyyətdə saxlamağı öyrənmişdilər.Ocaqdan isinmək,vəhşi heyvanlardan qorunmaq,yemək hazırlamaq üçün istifadə olunurdu.Azıx mağarasında aparılan qazıntılar nəticəsində aşkar olunanan və yaşı təqribən 700 min ilə

bərabər olan ocaq izləri indiyə qədər bütün dünyada tapılan ən qdim ocaq izidir.Bu fakt ölkəmizin dünyada süni yolla od əldə edərək,onu uzun müddət yanar vəziyyətdə sax-lamaq texnologiyasının ilk dəfə kəşf və tətbiq edildiyi ərazi olduğunu söyləməyə əsas verir.Bu da təbiidir.Çünki Azərbaycan ərazisi ən qədim zamanlardan odun yerdən təbii şəkildə çıxdığı yeganə ərazidir.Bu baxımdan Balaxanı kəndi yaxınlığındakı Yanardağ və Astara rayonundakı yanan bulaq deyilənlərə ən gözəl misaldır.Təsadüfi deyil ki,qonşularımız ən qədim zamanlardan Azərbaycanı "Odlar yurdu" adlandırmışlar."

Ekranda "Milyonuncu illər" bədii filmindən ibtidai insanların ocaq başında ət qızartdıqları səhnələr nümayiş etdirilir.Diktor mətni davam edir:

"Maraqlıdır ki,təmiz türk sözü olan "ocaq"kəlməsi bu gün heç bir dəyi-şikliyə məruz qalmadan və ya cüzi dəyişikliklə qonşu xalqların dilində də işlən-məkdədir.Bu baxımdan rus,erməni,gürcü,tat, ləzgi,avar,tabasaran,lak,fars,dargin və sairə dilləri misal gətirmək olar.Bu isə onu göstərir ki,qonşu xalqlar ocaq qalamaq və onu yanar vəziyyətdə saxlamaq texnologiyasını məhz bizim ulu babalarımızdan əxz etmiş və bu texnologiya ilə birlikdə "ocaq"kəlməsi də onların dilinə keçmişdir.Deyiənləri qonşu xalqların,eləcə də qədim yunanların əfsanələri də sübut etməkdədir..."

Ekranda qədim yunan şairi Esxilin "Seçilmiş əsərləri" kitabının üz qabığı görünür.Kitab yavaş-yavaş açılır və aramla səhifələr bir-birini əvəz edir.

Diktor mətni:

"Qədim yunan şairi və dramaturqu Esxil özünün məşhur "Zəncirlənmiş Prometey"əsərində minilliklərin dərinliklərindən gələn miflərə istinad edərək,odun tanrılardan oğurlanaraq insanlara təslim edildiyi yer kimi İskitlər,yəni türklər ölkəsi və Qafqazın adını çəkir.Bu,insanların odla ilk tanışlıq yerinin Qafqazdakı türklər ölkəsinin olduğu deməkdir.Esxil sözügedən əsərin ən başında Hakimiyyət və Qüdrətin dili ilə deyir."

Ekranda aktyor peyda olur.Onun əlində Esxilin kitabı var və o,kitabdan oxuyur:

"Bir uzaq guşəsinə gəlib yetişdik yerin,
Boş,tənha çöllərinə yırtıcı iskitlərin.
Atanın buyruğuna itaət eyləyərək,
Bu yaramaz canini öz əllərinlə gərək
Mıxlayasan qayaya,Hefest,budur vəzifən;
Ona bir zindan yarat zəncir həlqələrindən.
O sənin çiçək kimi açılan atəşini,
Şəfəqləri dörd yana saçılan atəşini,
Oğurlayıb aparmış,vermişdir insanlara..."

Ekranda zəncirlənmiş Prometeyin rəsmi peyda olur.
Diktor mətni:

"Təqdim olunan sitatdan da göründüyü kimi, qədim yunan mifologiyası insanların odla tanışlıq yeri kimi İskitlər ölkəsini tanıyır.Qədim yunanların isə türkləri "iskit"adlandırdıqları məlumdur.Əsərin başqa yerində də hadisənin məhz İskitlər,yəni türklər ölkəsində baş verdiyi qeyd edilir.Bu dəfə bu,Prometeyin öz dilindən söylənir."

Ekranda yenidən peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Bir an dinclik bilməyən sonsuz ləpələriylə
Başdan-başa dolaşan yeri elədən-belə.
Ey atamız Okeanın və çox uşaqlı Tifin
Gənc nəsli,yaxın gəlin,vəhşi gəzən iskitin
Yurdu olan bu yerdə,bu yüksək qayalarda
Zəncirlərlə bağlanıb qalmışam necə darda."

Ekranda öncə Azıx mağarasının görüntüləri,ardınca daş əmək alətləri,daha sonra isə Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü canlanır.Bu görüntüləri diktor mətni müşayiət edir:

"*Aşöl dövrü adamlarının,yəni süni oddan ilk dəfə istifadə etmiş adamlaın fiziki tipi və antropoloji xüsusiyyətləri barədə Azıx mağarasından tapılan ibtidai insana məxsus cənə parçası müəyyən təsəvvür yaradır.Çənə sümüyü ilə yanaşı qədim əmək alətləri və nəsli kəsilmiş heyvanların sümükləri də tapılmışdır.Sözügedən çənə fraqmentinə əsasən Azıx mağarasının qədim sakinlərinin antropoloji tipini müəyyən etmək mümkün olmasa da,onların müasir insan tipindən heç nə ilə fərq -lənmədiyini birmənalı çəkildə söyləmək olar.Əmək alətlərinin olması isə onların normal şüura sahib olduqlarını göstərməkdədir.Tapıldığı yerin adı ilə əlaqədar olaraq bu dövr adamı Azıxantrop,yəni Azıx adamı adlandırılmışdır."*

Ekranda arxeoloq Rəşid Göyüşov peyda olur və deyir:

"Azıxantrop təkcə Azərbaycanda deyil,həm də Ön Qafqazda Aşöl dövrü insanlarının fiziki tipini öyrənmək üçün baza rolunu oynamışdır.Məlumat üçün deyək ki,bu tapıntı dünyada eyni tipli bir neçə tapıntıdan biridir.Azıxantrop təxminən 400 min il əvvəl yaşamışdır.Maraqlıdır ki,Azıx mağarasının Aşöl təbəqəsində qədim tikinti qalığı da aşkar edilmişdir.

Dünyada analoquna rast gəlinməyən bu tapıntının yaşı 350 min ilə bərabərdir.Bu, memarlaıq sənətinin elmə məlum ilk nümunəsidir və memarlıq sənətinin beşiyinin Azərbaycan ərazisi olduğunu söyləməyə tam əsas verir.Ocaqdan istifadə

və yaşayış binasının müəyyən bir elementinin tikintisi bəşər tarixinin ən qədim nailiyyətləri sırasına daxildir.Aşöl dövründə insanlar tədricən ətraf aləmi dərk edir, ibtidai dini təsəvvürlər yaradır və sadə incəsənətlə məşğul olurdular."

Ekrandakı təsviri Azıx mağarasından tapılmış ayı kəllələrində cızılmış işarələrin təsvirləri əvəz edir.Diktorun səsi davam edir:

" Azıx mağarasında xüsusi düzəldilmiş gizli taxçalarda tapılmış ayı kəllələrindən bəzilərinin üzərində xüsusi işarələr,başqa sözlə, tamğalar,yəni ideoqramlar cızılmışdır. Bu yolla qədim ovçular həmin ayıların kimlər tərəfindən ovlandığını bildirmiş olurdular.Bu tamğalar,yəni ideoqramlar dünyada ən qədim ideoqrafik yazı nümunələri hesab edilməlidir."

Ekrana dəvəgözü və nukleuslardan düzəldilmiş alətlərin təsvirləri gəlir.Diktorun səsi deyir:

"Quruçay mədəniyyətinin üçüncü inkişaf mərhələsi son Aşöl və erkən Mustye dövrlərini əhatə edir.Üçüncü mərhələnin tarixi 150-120 min il arasındadır. Bu dövrdə insanların fiziki və zehni inkişaf səviyyəsi artmış,əmək alətlərinin yeni növləri meydana gəlmiş,əmək vərdişləri təkmilləşmişdir.Alətlərin hazırlanmasında çaxmaq daşı,felzit,bazalt tipli daşlarla yanaşı,dəvəgözü daşından da geniş istifadə olunurdu.Son Aşöl və erkən Mustye insanları ətraf aləmə yaxşı bələd olmuş, təbii sərvətdən xammal kimi istifadə etmişlər.Bu dövrdə nukleusdan qoparılmış qəlpələrdən dişli, dişli-gəzli, ucu oymalı, qaşov tipli alətlər, kəsicilər hazırlayırdılar."

Ekranda Tarix Muzeyinin ümumi planda görünüşü canlanır.Bu görüntünü muzeyin giriş qapısı və qapının yanında divara bərkidilmiş və üzərində "Tarix Muzeyi"yazılmış lövhə əvəz edir.Daha sonra ekrana Azərbaycanın ən qədim tarixini əks etdirən eksponatlar gəlir.Bütün bu kadrları Soltan Hacıbəyovun "Karvan"simfonik suitasının sədaları müşayiət edir.

Ekranda görünən muzeyin əməkdaşı mövzu üzrə ayrı-ayrı eksponatları nümayiş etdirə-etdirə deyir:

"Orta Paleolit və erkən Mustye dövründə insanlar Azərbaycan ərazisində daha geniş yayılmış,Kiçik Qafqazın cənub yamacında,Qarabağdan tutmuş Ceyrançölə qədər məskən salmışdılar.Bu dövrdə ovçuluq əsas peşəyə çevrilir.İnsanlar əsasən Qafqaz maralı,mağara ayısı,boz ayı,tur,dağ keçisi,vəhşi at və sairə ovlayırdılar. Şübhəsiz,Mustye insanları meyvələrdən,həmçinin yabanı bitkilərdən ərzaq məhsulu kimi istifadə etməyə başlamışdılar.

Paleolitin son mərhələsi təxminən 40-30 min il əvvəl başlamış və 12-ci minilliyə qədər davam etmişdir.Bu dövrdə iqlim mülayimləşmiş,bitki və heyvanat aləmində yaşayış üçün əlverişli dəyişikliklər baş vermişdir."

Ekranda Qobustan qaya təsvirlərindən ov səhnələri peyda olur.Kadr arxasından muzey əməkdaşının səsi eşidilir:

“ Qədim daş dövründə yaşamış bir çox heyvanların-kərkədanların,nəhəng ma-ralların,mağara ayılarının və sairənin nəsli kəsildiyindən son Paleolit dövründə in-sanlar əsasən Qafqaz maralı,ceyran,cüyür,dağ keçisi və sairə ovlamışlar.”

Muzeyin əməkdaşı bəzi eksponatları göstərə-göstərə deyir:

“Son Paleolit dövrünün əmək alətləri içərisində uclu qaşovlar, biz,kəsici, dairəvi yarımdairəvi və uzun qaşovlar,gəzli və üçbucaq alətlər,prizmatik nukleuslar,habelə istehsal tullantıları geniş yer tuturdu.

Üst Paleolitdə məhsuldar qüvvələrin inkişafı obyektiv olaraq ictimai həyatda da öz əksini tapmalı idi.Əqli və fiziki cəhətdən daha da inkişaf etmiş insan kollektivi birgə fəaliyyət göstərə biləcək daimi qruplarda birləşmişdi.Nəsli-qəbilə quruluşunun əsasını qan qohumluğuna malik insanların qəbilə birliyi təşkil edirdi.Nəsli--qəbilə quruluşu dövründə insanlar ana xətti üzrə qohumluq əlaqələri əsasında bir-ləşmişdi.Nəsli –qəbilə quruluşunun anaxaqanlıq,başqa sözlə matriarxat,yəni ana nəsli quruluşu adlanması da bununla bağlıdır.”

Qobustanın ümumi planda görünüşü.Bu görünüşü qayaüstü təsvirlərin iri planda görüntüləri əvəz edir və ən nəhayət,kameranın obyektivi Böyükdaşın yuxarı mərtəbəsində ,29№-li daşın şimal tərəfində cızılmış çoxfiqurlu kompozisiyanın üzərində durur.Kompozisiyanın təbii şəklini onun qrafik surəti əvəz edir və onun fonunda tarixçi alim F.Muradova peyda olur.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır.Alim deyir:

“Azərbaycanın ən gözəgəlimli abidələrəndən biri də Qobustan tarixi– arxeoloji kompleksidir. Burada minlərlə qayaüstü təsvir, onlarca Daş dövrü düşərgəsi və sonrakı dövrlərə aid məskən və məzar yerləri tapılmışdır. Qobustanın qaya təsvirləri 1939-cu ildə tanınmış arxeoloq İshaq Cəfərzadə tərəfindən kəşf edilmlşdir. 1947-1965-ci illərdə onun başçılığı altında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitunun ekspedisiyası 750 qaya və daş parçası üzərində 2500 təsvir, o cümlədən qonşu Şıxqaya və Sonqardagda 30 təsvirli daş təsbit etmişdir. Hazırda Qobustanın Böyükdaş, Kiçidaş, Cinqirdag-Yazılıtəpə abidələrində, eləcə də Şıxqayada yüzdən artıq daşın üzərində 6 mindən çox qədim təsvir və arxeoloji abidə aşkar edilmiş və öyrənilmişdir.”

Ekranda qayaüstü təsvirlər bir-birini əvəz edir.Diktorun səsi deyir:

“Tanınmış rus alimi Formozov Böyükdaşın Mezolit,yəni Orta Daş dövrü qaya təsvirlərini,başqa sözlə petroqliflərini tədqiq edərkən iki mədəni təbəqə kəşf

etmişdir.(Ekranda Formozovun şəkli görünür.): 1-ci mədəni təbəqə ilk Mezolit dövrünü – eramızdan əvvəl 12-10-cu minillikləri,2-ci mədəni təbəqə isə son Mezolit dövrünü – eramızdan əvvəl 10-8-ci minillikləri əhatə edir.(Ekranda yenidən bir-birini əvəz edən qayaüstü təsvirlər peyda olur.) 1-ci təbəqə gizləncəklər- ov müqəvvaları,kürəklərində kaman, əllərində daş bıçaq olan ucaboylu ovçuların gen dəri şalvarda və qısa önlükdə qazılmış siluet təsvirləri aşkar edilmişdir.

Qeyd edilməlidir ki,bəzi təsvirlər hər iki mədəni təbəqə üçün səciyyəvidir. Belə qaya təsvirlərinə misal olaraq kollektiv şəkildə rəqs edənlərin və gizləncəklərin siluet rəsmlərini göstərmək olar.İkinci təbəqədə ovçuların kiçik və sxematik rəsmləri,ovçuların itlə ov etməsi, tur,at və qabanların kontur xətli təsvirləri aşkar edilmişdir."

Ekranda tarixçi alim,arxeoloq Rəşid Göyüşov görünür.O deyir:

"Azərbaycan ərazisində 10-12 min əvvəl qədim Daş dövrü orta Daş dövrü ilə,yəni Mezolit dövrü ilə əvəz olunur.Mezolit abidələrində təsadüf olunan çox kiçik ölçülü,mikrolit adlanan daş alətlərin ilkin variantları hələ Paleolitin son inkişaf mərhələsinin axırlarında təşəkkül tapmış,Mezolit dövründə isə mükəmməl formaya salınmışdır. Mezolit dövründə insanların əmək fəaliyyətində,dünya görüşündə,ətraf alə-mə münasibətində dəyişikliklər baş verir,qədim insanların ən mühüm ixtiralarından biri olan ox və yay meydana gəlir.Şübhəsiz,ox və yayın kəşfi insanların min illər boyu əldə etdikləri bir çox vərdişlər sayəsində,müxtəlif texniki üsullara bələd ol-maları nəticəsində mümkün olmuşdur."

Ekranda tarixçi alim H.Cəfərov peyda olur.O deyir:

"Ox və yayın kəşfi ilə ovçuluq sahəsində əsaslı dəyişiklik yarandı və heyvanları uzaq məsafədən ovlamaq mümkünləşdi.Bununla daha çox ərzaq ehtiyatı əldə etməyə nail olan insanlar eyni zamanda heyvanları əhliləşdirməyə başlayırlar.İlk vaxtlar heyvanları yem ehtiyatı kimi saxlayırdılar.Beləliklə,ibtidai heyvandarlı-ğın əsası qoyulur.Əlbəttə,bu heyvanları hələ ev heyvanları hesab etmək olmazdı. Vəhşi heyvanların əhliləşdirilməsi, heyvandarlığın təşəkkülü və inkişafı çox uzun və mürəkkəb yol keçmişdir.Lakin heyvanların bir qisminin ehtiyat üçün saxlanma-sı və bu işin vərdiş halına keçməsi obyektif surətdə ibtidai maldarlığın bünövrəsini qoymuşdur. Mezolit dövründə ibtidai maldarlıqla yanaşı,ilkin əkinçilik vərdişləri də təşəkkül tapmışdır.Ət ehtiyatının artması ərzağa olan tələbatı ödədiyindən yaba-nı bitki toxumlarının bir hissəsinin ehtiyat üçün saxlanmasına şərait yaratmış,bu isə öz növbəsində ibtidai əkinçiliyin təşəkkülünə səbəb olmuşdur."

Ekranda ox və yayla ,itlə ov səhnələrinin təsvir edildiyi,eləcə də əyinlərində şalvar olan adam təsvirləri bir-birini əvəz edir.Diktorun səsi eşidilir:

"Hələ qədim Daş dövründə,daha dəqiq desək,700 min il öncə süni od qalamaq və onu uzun müddət yanar vəziyyətdə saxlamaq texnologiyasının kəşf edildiyi ilk ərazi olan Azərbaycan ərazisinin ox və yayın ilk dəfə kəşf edildiyi,itin ilk dəfə əhliləşdirildiyi və ondan ov zamanı ilk dəfə isyifadə edildiy məkan olduğunu Qobustanın Mezolit dövrünə aid petroqlifləri sübut edir.Bəs, görəsən, bəşər tarixində böyük sıçrayışa səbəb olan bu misilsiz kəşfləri etmiş xalq kim olmuşdur,hansı dildə danışmışdır?"Bu suala cavab tapmağa bizə Qobustanın qədim Firuz yaşayış məskənindən tapılan,yaşı təqribən 12 min il olan Mezolit dövrü insanlarının skeletləri yardımçı olur."

Ekranda tarixçi alim Kərəm Məmmədov görünüür.Ekranın altında onun adı, soy adı və elmi rütbəsi yazılır.O deyir:

"Qafqaz ərazisində məskun olan xalqların sayının çoxluğu,onların müxtəlif dil ailələrinə mənsub dillərdə danışması,bölgənin fiziki- coğrafi şəraitinin mürəkkəbliyi və bu mürəkkəbliyin ayrı-ayrı etnosların təcridinə gətirib çıxarması etnogenez proseslərinin öyrənilməsi baxımından Qafqaz ərazisindən əldə edilmiş paleoantropoloji materialın önəmini artırmaqdadır.Qafqaz ərazisində məlum olan ən qə-dim kəllə sümükləri Qobustandan,Kiçikdaşın ətəyindəki "Firuz"mağarasından ta-pılmışdır.Bu tapıntılar Mezolit dövrünə aiddir.Eyni dövrə aid edilən və eyni morfo-loji xüsusiyyətləri daşıyan insan qalıqları Cənubi Azərbaycan ərazisindən də tapılmışdır.Üzün nisbətən ensizliyi və kəllənin nisbətən uzunsovluğu ilə fərqlənən bu tip bütün Qafqaz və Cənubi Azərbaycan üçün təkcə Mezolit dövründə deyil,Eneolit,yəni Mis-daş və Tunc dövrlərində də xas olmuşdur.Bu insan tipi elm aləmində "kaspi" və ya "oğuz"tipi adlanır və öz parametrlərinə görə Azərbaycan türklərinin antropoloji tipinə uyğundur və digər qonşu xalqların göstəricilərindən əsaslı surətdə fərqlənir."

Alim danışdıqca ekranda müxtəlif kəllə sümükləri və kəllələri ölçməklə məşğul olan antropoloqların təsvirləri görünür.Eyni zamanda ayrı-ayrı vaxtlarda Qafqazın müxtəlif bölgələrindən tapılan və müxtəlif dövrləra aid olan kəllə sümüklərinin ölçülərinin Qafqazın müxtəlif xalqlarının kəllə ölçüləri ilə müqayisəsini əks etdirən cədvəllər də nümayiş etdirilir.

Eyni təsvirlərin fonunda diktorun səsi deyir:

"Antropoloji tədqiqatlar Bütün Qafqaz və Cənubi Azərbaycan ərazisində Mezolit dövründə yaradılan zəngin mədədniyyətin qurucularının məhz Azərbaycan türklərinin əcdadları olduğunu birmənalı şəkildə sübut etməkdədir.Bu faktı Qobustan ərazisində təsbit edilən və ayrı-ayrı türk soy və boylarına aid soy tamğaları da sübut etməkdədir."

Ekranda F.Muradova peyda olur və deyir:

"Qobustanda insan,heyvan,balıq və sairə təsvirləri lə yanaşı,müxtəlif işarə və tamğalara da rast gəlinməkdədir."

Ekranda yenə də müxtəlif qayaüstü təsvirlər bir-birini əvəz edir. Kadr arxasından diktorun səsi deyir:

"Tədqiqatlar nəticəsində məlum olmuşdur ki,qəbilə və soylar özlərinin hesab etdikləri əşyaları və yaşadıqları ərazilərin sərhədlərini işarləmək üçün tamğalardan istifadə etmişlər.(Ekranda professor Cəfər Cəfərovun şəkli peyda olur.)Professor Cəfər Cəfərovun yazdığına görə,türk soy və boylarının ən qədim düşərgələrini,ata-baba yurdlarını,onların doğma vətənlərini,habelə mövcud olmuş ünvanlarını müəy-yənləşdirmək üçün həmin tamğaların müstəsna əhəmiyyəti vardır.Tamğa və işarə-lər, bir sıra başqa xalqlarda olduğu kimi,türk xalqlarının,o cümlədən Azərbaycan türklərinin də etnogenezində iştirak etmiş soy və soybirləşmələrinin qədim yazı nü-munələri kimi qiymətlidir.Azərbaycanın bir sıra rayonlarından tapılmış və 10-12 min əvvələ və daha sonrakı dövrlərə aid edilən müxtəlif işarə və tamğalar haqqın-da Cəfər Cəfərov və (Ekranda Əbülfəz Hüseyninin şəkli görünür.) Əbülfəz Hüseyni kimi tədqiqatçılar fikir söyləmiş,Əbülfəz Hüseyni Gəmiqaya təsvirləri,Cəfər Cə-fərov Qobustan petroqlifləri içərisindən üzə çıxartdıqları,(Ekranda F.Muradovanın şəkli görünür.) Firəngiz Muradova isə Şirvan zonasında tapdığı tamğalardan söhbət açmışlar.Müəlliflər bu işarələrin hansı soya mənsub olduğunu,həmin işarələrin qə-dim türk yazı sistemində paralellərini müəyyənləşdirə bilmişlər."

Ekranın sol tərəfində Yazıçıoğlu Əlinin oğuz soylarının sıralamasını və tamğalar sistemini əks etdirən cədvəli əks olunur.Diktorun səsi deyir:

" Maraqlıdır ki,həmin işarələrin paralellərinə digər qədim xalqların əlifbalarında da rast gəlinir.Məsələn,Yazıçıoğlu Əliyə görə 11-ci oğuz tayfası olan beg-dililərin soy damğasına (Cədvəldəki 11-ci ad və tamğa qırmızı haşiyəyə alınır və ekranın sağ tərəfində sözügedən tamğanın böyüdülmüş surəti peyda olur.) Gəmiqaya işarələri arasında cüzi fərqlə rast gəlinir."

Ekranın sol tərəfində qaranoqayların as (az) soyunun tamğası peyda olur. Sağ tərəf boşdur.

Diktorun səsi:

"Qaranoqayların as və ya az soyunun tamğası isə Sofu Novruz pirində tapılmış işarə ilə eyni olmaqla yanaşı,(Ekranın sağ tərəfində hind-brahmi əlifbası görünür.) həmin işarəyə eramızdan əvvəl 3-cü əsrdə Hindistanda formalaşdığı ehti-mal edilən brahmi əlifbasının "ça" və "ba" hecalarının qrafik təsvirində də rast gə-linir."

Əlifbadakı "ça" və "ba" qrafemləri,eləcə də ekranın solundakı tamğa qırmı-

zı haşiyəyə alınır.

Soldakı tamğa yoxa çıxır,yeri boş qalır.Əlifbadakı qırmızı haşiyələr də aradan qalxır.

Diktorun səsi:

"Həmin əlifbada "tha"hecasını bildirən qrafem də ağnoqayların türkmən soyunun tamğası ilə eynidir və bu işarənin ən qədim nümunəsi gəmiqayadan tapılmışdır."

Ekranın sol tərəfində sözügedən tamğanın təsviri peyda olunur.Əlifbadakı "tha"qrafemi isə qırmızı haşiyəyə alınır.

Diktorun səsi:

"Brahmi əlifbasındakı "dha" hecasının işarəsi isə (Əlifbadakı qırmızı haşiyə "tha"qrafemindən "dha" qrafeminin üzərinə köçür,türkmən soyunun tamğasını isə konqes(kəngər) soyunun tamğası əvəz edir.) qaranoğayların konqes və ya kəngər soyunun tamğası ilə üst-üstə düşür və eyni işarəyə Sofu Novruz pirində də rast gəlinməkdədir."

Ekranda at çapıb ox atan türkləri əks etdirən süjet canlanır.Süjeti cəngi sədaları müşayiət edir.

Ekranın sol tərəfində e.ə.5-3-cü əsrlərə aid arami əlfbası,sağ tərəfində isə Dəməşq-səfaid əlifbası peyda olur.

Diktorun səsi:

"Maraqlıdır ki, Şirvan damğalarından bəziləri də sami əlifbalarındakı hərflərə uyğun gəlməkdədir.Belə ki,qaranoğayların qazan boyunun ergenekli soyunun damğası ilə eyni olan işarə eramızdan əvvəl 5-3 -əsrlərdə işlənmiş arami əlifbasının "h"hərfi ilə üst-üstə düşür."

Ekranın sol tərəfindəki əlifbanın "h"hərfi qırmızı haşiyəyə alınır.

Diktor mətni:

"Şirvan tamğalarından bir qismi Dəməşq-səmud və Dəməşq-səfaid əlifbasının bəzi hərfləri ilə eynilik təşkil edir."

Ekranın sağ tərəfindəki əlifbanın da "h"hərfi qırmızı haşiyəyə alınır.

Ekrandakı əlifbaları növbə ilə görüntülənən çox sayda qayaüstsü təsvirlər əvəz edir və bu təsvirlər musiqi parçası ilə müşayiət olunur.

Ekranda Orxon və Yenisey əlifbaları əks olunur.

Diktorun səsi:

"Qobustan və Gəmiqyadan tapılmış türk tamğalarının bir qisminin paralel-lərinə də Orxon və Yenisey əlifbalarında rast gəlinir.Beləki,bu tamğalarla sözüge-dən əlifbalardakı "nt" və ya "nd", " s" və ya "ş", "ı" və ya "i", "p", "b", "d", "t","z", "k", "ç"səslərinin qrafik təsvirləri ilə eynidir."

Diktor səs və qrafemləri saydıqca hər iki əlifbadakı müqabil qrafemlər qırmızı haşiyəyə alınır.

Diktorun kadr arxasından eşidilən səsi davam edir:

"Bütün bu faktlar Qobustan və Gəmiqaya təsvirlərini yaradan xalqın məhz əcdad türklər olduğunu təkzibedilməz şəkildə sübut etməklə yanaşı,ulu babalarımızın soy tamğalarının sonrakı dövrlərdə ən qədim fonetik və ideoqrafik əlifbaların qrafemlərinə çevrildiyini göstərir.Bu isə o deməkdir ki,Azərbaycan dünya yazı mədəniyyətinin ilk beşiyi olmuşdur."

Ekranda yenidən musiqi sədaları altında Qobustan təsvirləri bir-birini əvəz edir.

Ekranda Mahmud Kaşğarlı və Yazıçıoğlu Əliyə görə oğuz boylarının sıralanmasını və onların tamğalarını əks etdirən cədvəllər görüntünəlir.

Diktor mətni:

"Mahmud Kaşğarlıya görə 6-cı oğuz boyu olan əfşarlara aid olan tamğaya (Birinci cədvəldə müvafiq tamğa qırmızı haşiyəyə alınır.),eləcə də Yazıçıoğlunun əfşarlara aid etdiyi (İkinci cədvəldə də müvafiq tamğa qırmızı haşiyəyə alınır.), fəqət Mahmud Kaşğarlının təsvir etdiyi tamğadan fərqlənən tamğaya Gəmiqaya işarələri sırasında,eləcə də Abşeronun Duvannı qəsəbəsinin şimal-qərbində yerləşən Sofu Novruz qəbristanlığında qeydə alınmış tamğalar içərisində rast gəlinir.

Mahmud Kaşğarlının 3-cü oğuz tayfası kimi qeyd etdiyi bayandurların tamğası isə Şamaxının Quşçu kəndində yerləşən Abdal damı mağarasında qeydə alınmışdır.(Birinci cədvəldə müvafiq tamğa qırmızı haşiyəyə alınır.) Maraqlıdır ki,bu işarənin ekvivalentinə Egey yazılarında da "şərab"mənası verən heroqlif kimi rast gəlinir.

Yazıçıoğlu Əlidə 11-ci oğuz boyu kimi qeyd edlmiş begdelilərin tamğaları Gəmiqaya işaələri içərisində də qeydə alınmışdır.(İkinci cədvəldəki müvafiq tamğa qırmızı haşiyəyə alınır.)Eyni müəllifin 16-cı oğuz tayfası kimi göstərdiyi çepnilərin tamğası da eyni təsvirlər içərisində yer almaqdadır."

İkinci cədvəldə çepnilərin də tamğası qırmızı haşiyə ilə digərlərindən fərqləndirilir.

Ekranda bir-birini əvəz edən Gəmiqaya təsvirləri peyda olur.Bu təsvirlərin fonunda kadr arxasından eşidilən diktor səsi deyir:

"Gəmiqayada rast gəlinən tamğalar içərisində Yazıçıoğlu Əlinin 19-cu oğuz boyu olduqlarını söylədiyi ulay-unduğların və Bahadır xanın 17-ci oğuz boyu kimi təsvir etdiyi samurların tamğaları da vardır."

Ekranda Tarix Muzeyinin öncə xarici,daha sonra isə daxildən görüntüləri canlanır.Muzeyin əməkdaşı eksponatları göstərə-göstərə deyir:

"Mezolit dövründə mühüm prosesin,yəni təbiətin hazır məhsullarını mənimsəməkdən onların bilavasitə istehsalına keçidin əsası qoyulmuşdur.Çox uzun və mürəkkəb yol keçmiş bu proses yalnız Neolit dövründə əsaslı surətdə formalaşmışdır. Mezolit dövründə yaşamış insanların həyat tərzi Qobustan abidələri əsasında öyrənilmişdir.Arxeoloji qazıntılar göstərmişdir ki,burada həyat 12-14 min il öncə başlamışdır.Mezolit dövründə Qobustanda insanların məşğuliyyəti ovçuluq,balıqçı-lıq,yığım,zaman keçdikcə isə maldarlıq və əkinçilik olmuşdur. Burada "Öküzlər", "Ana Zağa", "Firuz" və başqa Mezolit dövrü düşərgələrində çaxmaqdaşı və çay daşından,habelə sümükdən hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Qobus-tan sakinləri tərəfimdən mikrolit lövhələrindən itiuclu ,gəzli,bıçaqvari,kiçik qaşov və sairə tipli iskənəyə bənzər kəsici alətlərin istehsalı mənimsənilmişdi.

Sümükdən biz,ox ucu,balıq torunun toxunmasında istifadə olunan alətlər hazırlanırdı.Qədim qobustanlılar bəzək əşyalarını müxtəlif dəniz ilbizlərinin çanaq hissəsindən,ayrı-ayrı heyvanların sümük və dişlərindən düzəldirdilər."

Ekranda tarixçi alim H.Cəfərov peyda olur.O deyir:

"Qobustanın Mezolit dövrü qayaüstü rəsmlərinin ibtidai incəsənətin və əhalinin dini görüşlərinin,xüsusən ovsun-totem inamlarının öyrənilməsində əhəmiyyəti çox böyükdür."

Ekranda Qobustanın Böyükdaş qayalıqlarındakı mağaralar görünür.

Diktor mətni:

"Qobustanın Böyükdaş qayalıqlarında çoxlu mağara vardır.Mezolit dövrünün petroqlifləri əsasən bu mağaraların ətrafındakı və daxilindəki qayalarda həkk olun-muşdur.(Ekranda həmin təsvirlərdən bəziləri görüntülənir.)Bu qayalar qədim rəs-samların ,bir növ,qədim "rəsm qalereyası"dır.Böyükdaşın yuxarı mərtəbəsindəki bu "qalereya"da əzəmətli ovçuların surətləri (Ekranda 5№-li mağara,29№-li daşın üzərindəki təsvir canlanır.),bir cərgədə rəqs edən adamların rəsmi (Ekrana 3№-li mağara,45№-li daşın üzərindəki təsvir gəlir.),gizləncəklər-müqəvvalar (Ekranda 49 daşın üzərindəki təsvir peyda olur.),gizləncəklərdən istifadə edərək ov edən iki ovçu (3№-li mağara,45№-li daş),vəhşi atların

qovularaq tələyə salınması (3№-li mağara,45№-li daş) və bu kimi dəyərli təsvirlər gözə dəyməkdədir.”

Ekrana yenidən yallı rəqsini ifa edənlərin təsviri (3№-li mağara,45№-li daş) gəlir. Bu təsviri milli geyimdə yallı rəqsi ifa edən rəqqaslar əvəz edir.Yenə də eyni təsvir görüntülənir.

Diktor mətni:

“Böyükdaşın 3№-li mağarasındakı 45№-li daşın üzərindəki təsvirdən də göründüyü kimi,xalqımızın bu günə qədər sevə-sevə ifa etməkdə olduğu yallı rəqslərini ulu babalarımız hələ ən azı 12-14 min il əvvəl ifa etməyə başlamışlar.Bu isə o deməkdir ki,rəqs mədəniyyəimizin kökləri ən azı Mezolit dövrünə qədər uzanır.Elə təsviri sənətimizin kökləri də eyni dövrlərə qədər uzanıb gedir.”

Ekranda 29№-li daşın şimal tərəfindəki çoxfiqurlu kompozisiya canlanır.

Diktor mətni:

“Qayalarda nisbətən dərin qazılmış ovçuların böyük fiqurlu siluet şəkilli təsvirləri ilk Mezolit dövrü rəssamlarının yardıcılığı üçün xarakterikdir.Belə rəsmlərdən ibarət böyük bir təsvir kompozisiyası Böyükdaşın yuxarı mərtəbəsində,29№-li daşın şimal tərəfində qazılmışdır.Kompozisiyanın mərkəzi hissəsində göstərilən ovçuların siluet şəkilli təsvirləri sxematik və şərti xarakter daşıyır,qulaq,burun,göz, ağız və sairə hissələr göstərilmir.Bu rəsmlər təxminən natural böyüklükdədir.Buradakı insan fiqurlarının təsvirində nisbət və sairə realistik xüsusiyyətlər gözlənilməmişdir.Buna baxmayaraq,qədim rəssamlar ovçuların üç baxımdan—ön,yan və arxa tərəfdən təsvir edilməsinə çalışmışlar.Bunu kamanların tam və yarımçıq şəkildə təs -vir edilməsindən anlamaq olur.Arxa tərəfdən göstərilmiş ovçuların kamanları bütövlüklə,ön tərəfdən rəsm edilmiş ovçuların kamanlarının isə ancaq kənar ucları təsvir edilir.Bundan başqa bu təsvirlərdəki kamanların yönləri də bir-birinin əksinə olan diaqonal xətlər istiqamətindədir.Arxa tərəfdən rəsm edilmiş ovçuların cinsi əlamətləri də bir qayda olaraq göstərilmir.Buradan aydın olur ki,qədim rəssamlar Insanların ön və arxa baxımdan rəsm edilməsinə ancaq bu yolla nail ola bilmişlər. Mezolit rəssamlarının bu nailiyyətini nəzərə alaraq həmin daşın petroqliflərinə diqqətlə baxdıqda aydın olur ki,burada çevrə boyu düzülmüş ovçular təsvir edilmiş,dairəvi kompozisiya yaradılmışdır.Ona görə də bu petroqlif ibtidai rəsm xüsu-siyyətlərinə baxmayaraq,Mezolit dövründə yardılmış müəyyən kompozisiya tərtibatına malik çoxfiqurlu,monumental xarakterli nadir təsviri sənət əsəri kimi çox qiymətlidir.”

Ekrandakı təsvirin fonunda sənətşünas alim Nəsir Rzayev peyda olur.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır. O,mövzunu davam etdirərək deyir:

"Həmin petroqlifin mərkəzi hissəsində insan təsvirlərinin ayrı-ayrı fraqmentlərinə bənzər rəsmlər görünür.Onlar bir necə ovçunun profildən primitiv şəkildə qazılmış təsvirləridir.Bu yarımçıq və anlaşılmaz rəsmlər qədim rəssamların yaradıcılıq axtarışlarında çox cəsarətli bir addım idi.

Petroqlifdə göstərilən ovçuların əllərindəki daş bıçaqlar və çiyinlərindəki kamanlar Mezolit dövrünün xarakterik xüsusiyyətlərindəndir.Bu dövrün yetişdirdiyi təsvir motivlərindən biri də insan fiqurlarında əl və ayaqların statik və standart vəziyyətdə verilməsidir.Əksər hallarda ovçuların qolları yanlara doğru açılmış halda, qıçları isə yarımbükülü vəziyyətdə təsvir edilir.Bu təsvir motivləri qanun şəklini alaraq sonrakı dövrlərdə də təkrar edilmişdir.

Petroqlifin mərkəzində görünən ovçunun qıçları öz kobudluğu ilə diqqəti çəkir.Bu onunla izah edilir ki,rəssam ovçunu heyvan dərisindən enli şalvar geymiş vəziyyətdə təsvir etməyə çalışmışdır.Ovçular qısa önlükdə də rəsm edilir.Lakin petroqliflərə əsasən demək lazımdır ki,Mezolit ovçuları bəzi hallarda enli,dəri şalvarlar geyirdilər.Belə şalvarda asan hərəkət etmək üçün ovçular diz və topuqlarını sarıyırdılar."

Ekranda Böyükdaşın yuxarı mərtəbəsindəki 49№-li qayanın üzərindəki təsvir görüntülənir.

Diktor məni:

"Qobustanın Mezolit dövrü ovçuları ox və yayı ixtira etdikdən sonra yeni bir çətinlik qarşısında qalmış oldular.O da bundan ibarət idi ki,daş ucluqlu primitiv oxla uzaq məsafədən vəhşi heyvanları vurmaq olmurdu.Ona görə də ovçular hey-vanlara daha çox yaxınlaşa bilmək üçün və onları yaxın məsafədən oxlamaq üçün tədbirlər axtararkən yeni-yeni kəşflər etmiş oldular.Qobustanın Mezolit dövrünün qaya təsvirlərində o dövrün bir sıra kəşfləri öz əksini tapmışdır.Bu kəşflər bizim qədim əcdadlarımızın –ovçuların fərasət və əməllərinin nəticəsi idi."

Ekranda eyni təsvirin fonunda görünən Nəsir Rzayev deyir:

"Bir zamanlar Almaniyanın Frankfurt şəhərinin zooloji qoruğunun direktoru olmuş professor Bernard Qrijmekin elmi kəşfi bizim üçün xüsusi maraq kəsb edir.

Professor Qrijmek uzun illərdən bəri müxtəlif ölkələrdə vəhşi heyvanlar üzərində təcrübələr apararaq belə nəticəyə gəlmişdir ki,əksər heyvanlar özlərinin qüvvətli iy duymaq qabiliyyətindən daha çox pis görən zəif gözlərinə arxalanırlar və etibar edirlər.Alim bu məqsədlə yüngül materiallardan hazırlatdırdığı heyvan fiqurların-dan gizləncək kimi istifadə edərək çox asanlıqla heyvanlara yaxınlaşa və onların arasında gəzə bilmişdi.Qobustan təsvirlərindən isə belə görünür ki,alman alimin 20-ci əsrdə etdiyi kəşfi əcdadlarımız ondan 14 min il öncə ediblərmiş.

Qobustan ovçularının düzəltdikləri gizləncəklərin yan baxımdan qazılmış daha böyük və aydın təsvirlərini Böyükdaşın yuxarı mərəbəsindəki 49№-li qayada

görürük.Bu petroqlifdə bir ovçunun yanında yan görünüşdən qazılmış iki gizləncək siluetinin rəsmi görünür.Həmişə profildən təsvir edilən belə gizləncəklərdə daha çox nəzərə çarpan cəhətlər onların boyunlarının uzun olması,qarınlarının şişmanlı-ğı və aşağı ayaq hissənin getdikcə ensizləşən formada verilməsidir.Rəssam bu cə-hətləri və onların heyvan başlarını olduğu kimi təsvir etdiyindən indi biz həmin gizləncəkləri təsəvvür edirik.Petroqlifdən göründüyü kimi,gizləncəklərin başları ilə bədənləri düz ağac vasitəsi ilə bir-birinə bərkidilmişdir.

Bu petroqlifdən aydın olur ki,qədim ovçular diz və topuqdan sarınmış gen şalvarlarını gizləncəklərin tələbinə uyğun olaraq geyirmişlər.Bəzən bu şalvarlara arxadan heyvan quyruğu da bənd edilir ki,gizləncəkdə olan ovçu arxa tərəfdən də heyvana bənzəmiş olsun."

Ekranda Böyükdaşın yuxarı mərtəbəsində 42№ -li daşın cənub tərəfindəki qayaüstü təsvir canlanır.Ekran arxasından alimin səsi eşidilir:

"Bu xüsusiyyətə Mezolit dövrü ovçularının təsvirlərində tez-tez rast gəlirik.Misal üçün Böyükdaşın yuxarı mərtəbəsində 42№-li daşın cənub tərəfindəki qayada qazılmış petroqlifdə soldakı ovçunun gen şalvarının arxasından asılmış heyvan quyruğu aydın görünür."

Qavaldaşda ifa edilən ritmlərin fonunda müxtəlif qayaüstü təsvirlər bir-birini əvəz edir. Ən sonda öküz təsvirlərinə yer verilir və kameranın obyektivi onlardan birinin-42 №–li daşın şərq tərəfindəki təsvirin üzərində durur.

Diktor mətni:

"Mezoli,yəni orta Daş dövrünün son mərhələsi üçün uzunluğu iki metrə çatan böyük öküz təsvirləri xarakterikdir.Bu rəsmlər konturlu xətlərlə ,əsasən realistik səpgidə işlənmişdir.Onlardan yuxarı mərəbədə yerləşmiş 42№-li daşın şərq tərəfindəki və 29№-li daşın mağara divarında cızılmış öküz təsvirlərini göstərmək olar.Bu təsvirlərdə sözügedən heyvanların güc və əzəməti ifadə edilmişdir."

Ekranda tədqiqatçı alim İ.Avşarov peyda olur.Ekranın altında onun adı,soy adı,elmi dərəcəsi yazılır.O deyir:

"Azərbaycan ərazisindən tapılan maddi mədəniyyət abidələri üzərində təsvir edilən heyvan rəsmləri və zoomorf elementlər qədim mifologiyada xüsusi yerə sahibdirlər.Təbii ki,bu,heyvanat aləminin ibtidai insanların həyatlarında oynadığı rolla bağlıdır.Təsadüfi deyil ki,bəzi heyvanlar qədim tayfa və qəbilələrin totemi kimi çıxış etmişlər.

Məlum olduğu kimi,oğuzlar çox qədim və zəngin mədəniyyətə sahib olmuşlar.Tarixçi-etnoqraf Qoşqarlı özünün "Azərbaycanlıların maddi mədəniyyəti" adlı əsərində "Oğuznamə"yə istinad edərək oğuzların mifik ulu əcdadı olan Oğuz xanın Ayla Öküzün izdivacından döğulduğunu qeyd etmişdir.Elə bu səbəbdən də

son Tunc-erkən Dəmir dövrləri abidələrindən əldə edimiş tunc kəmərlərin üzərində təsvir edilən öküz başlarının buynuzları aypara formasında təsvir edilmişdir.

Göründüyü kimi, Azərbaycanın qədim sakinlərinin inanc sistemində öküzə inam xüsusi yer tutmuşdur.Bu baxımdan Xocalı-Gədəbəy abidələrindən üzə çıxarılan fiqurların bir çoxu məhz öküz başı formasındadır.Belə fiqurlar Cənubi Azərbaycan və şimali Qafqaz ərazisindən də tapılmışdır.Rus alimi Avdeyevin fikrincə, öküzə inam ən qədin zamanlardan Qafqaz və Şərqdə geniş yayılmışdı.Azərbaycan ərazisində hətta öküzün xüsusi hörmət və təmtəraqla dəfn edilməsi halına da rastlanmışdır.Məsələn,arxeoloq Resler Xocalı kurqanında apardığı qazıntılar zamanı belə bir məzara rast gəlmişdir.Burada dəfn edilmiş öküzün başına bütöv ayın rəmzi olan dairəvi disk bərkidilmişdi."

Ekranda "Oğuznamə"nin uyğur versiyasının birinci səhifəsinin təsviri görünür.Səhifə türk-uyğur əlifbası ilə yazılmışdır və yuxarıda göy öküz təsviri vardır.

Diktor mətni:

"Tolstov,Bernştam və Bekmıradov kimi tanınmış türkoloq alimlər də oğuzların ən qədim zamanlarda öküzə totem münasibəti bəslədiklərini söyləmişlər.Bu alimlər bu halda "Oğuznamə"də yer alan sözlərə istinad etmişlər..."

Ekranda səhifənin fonunda yazılır və yazılanları kadr arxasından eşidilən diktorun səsi də eynən təkrarlayır:

"Olsun dedilər.Onun anqağusu budur."

Ekrandakı yazı itir.Səhifənin şəkli isə qalır.Diktorun səsi davam edir:

" "Oğuznamə"nin uyğur versiyasının birnci səhifəsinin birinci sətrində təsvir edimiş göy öküz oğuzların əcdadı Oğuz xanın şəkli,daha dəqiq desək,anqağusu, yəni ideoqrafik işarəsi kimi təqdim edilir.Bu şəkil əsərə sadəcə bir illüstrasiya kimi qəbul edilə bilməz.Çünki o,mətnin ayrılmaz tərkib hissəsi kimi çıxış edir və

Oğuz xanın mətndəki sözlü təsviri ilə üst-üstə düşmür.Mətndə Oğuz xanın sözlü təsviri fərqlidirdir..."

Ekrandakı səhifə itir.Əvəzində isə yazılır:

"Yenə günlərin bir günü Ay kağanın gözləri yarıdı,bir oğlu oldu .Bu oğlanın üzü göy idi.Ağzı atəş kimi qırmızı,gözləri ala,saçları,qaşları qara idi.Gözəllikdə mələkdən də gözəl idi...

...Ayağı öküz ayağına,beli qurd belinə,kürəyi samur kürəyinə,köksü ayı köksünə bənzəyirdi."

Eyni sözlər diktorun ifasında da təkrarlanır.

Ekranda “Oğuznamə”dəki göy öküz təsviri peyda olur.
Diktor mətni:

“Gördüyümüz kimi, sözlü təsvirdə söhbət oğlan uşağından gedir və onun xarici görünüşü bu təsvirdən əsaslı surətdə fərqlənir.Deməli,bu halda öküz təsviri “Oğuz”kəlməsinin sadəcə ideoqrafik ifadəsidir.Elə bu səbəbdən də Əbülfəz Hüseyni və Zelen Yampolski kimi alimlər Qobustandakı öküz təsvirlərini oğuzların ulu babalarının cızdıqlarını söyləmişlər.Burada sıhbətin məhz piktoqrafik yazıdan, yəni şəkil-yazıdan getdiyini elm aləmində şərti olaraq “7gözəl”adlanan petroqlif də sübut etməkdədir.”

Ekrana “7 gözəl”petroqlifi gəlir.Burada böyük öküzün fonunda 8 qadın təsvir edilmişdir.
Diktor mətni:

“Şərti olaraq, “7 gözəl”adlanan bu piktoqramda böyük öküz təsvirinin fonun-da 8 qadın təsvir edilmişdir. Burada öküz oğuz xalqını,8 qadın isə 8 oğuz soyunu təmsil etməkdədir.Nəzərə alsaq ki,ilk soybirləşmələri məhz Mezolit dövründə formalaşmışdır və bu birliklərdə birləşən soyların başında qadınlar dururdu,tam cəsa-rətlə deyə bilərik ki,burada söhbət 8 oğuz soyunun birləşməsini ifadə edən böyük bir qəbilədən,daha doğrusu bu qəbilənin özünü ifadəsindən gedir.”

Ekranda türk-run əlifbası ilə yazılmış mətnlər,yəvi Orxon-Yenisey mətnləri canlanır.
Diktor mətni:

“Orxon-Yenisey mətnlərində Üçok,Onok,Onuyğur,Otuztatar,Üçoğuz, Altıoğuz,Doqquzoğuz,Üçkarluq və sairə soybirləşmələri ilə birlikdə Səkkizoğuz soybirləşməsindən də söhbət açılmaqdadır...”

Ekranda “Moyonçur” abidəsinin şərq tərəfinin mətni görüntülənir.Buradakı 15-ci sətrin altında qırmızı xətt çəkilmişdir.
Diktor mətni:

“...Beləki, “Moyonçur”abidəsinin şərq tərəfində belə bir cümlə yer almaqdadır—Səkkizoğuz,Otuztatar qalmadı gəldi...”

Ekranda Nəsir Rzayev peyda olur və deyir:

“İlk Azəraycan piktoqramlarını,yəni şəkil-yazılarını Qobustanın qədim rəssamları yaratmışlar və bu,orta Daş,yəni Mezolit dövründə baş vermişdir.Bu proses sonrakı dövrlərdə də davam etmişdir.”

Ekranda Qavaldaşıda çalınan ritmlərin səsli fonunda Qobustan təsvirləri bir-birini əvəz edir.

Ekranda yenidən Nəsir Rzayev peyda olur və deyir:

"Böyükdaşda aparılmış arxeoloji qazıntı işləri nəticəsində tapılmış, çaxmaqdaşından hazırlanmış əmək alətləri və bişmiş dulusçuluq məmulatları yeni Daş,yəni Neolit dövrünün ilk mərhələsi üçün səciyyəvidir.5 №-li yaşayış məskənində gil qabın sivri formalı dibi və düz xətlərlə naxışlanmış boğazı tapılmışdır.(Ekranda sözügedən qabın təsviri görünür və itir.)Qabın divarları naxışsızdır. Həmin mağarada çox sayda cilalanmış çay daşı və deşilmiş dəniz daşlarından və balıqqulaqlarından ibarət asma bəzək əşyaları da tapılmışdır.Bu dövrdə Qobustanda ilk dəfə daş alətlərinin və əşyaların bəzədilməsinə başlanmışdır."

Ekranda öncə Tarix Muzeyinin xaricdən,daha sonra daxildən görünüşü canlanır.Görüntüyə muzeyin əməkdaşı gəlir və deyir:

"Neolit dövrü Azərbaycanda eramızdan əvvəl 7-ci minilliyin əvvəllərindən başlamış və 6-cı minilliyə qədər davam etmişdir.Neoliti, yəni yeni Daş dövrünü başqa dövrlərdən fərqləndirən əsas xüsusiyyət bu dövrdə əkinçilik və maldarlıq mədəniyyətinin əsaslı surətdə təşəkkülü və inkişafı ilə bağlıdır.Bu dövrdə insanlar istehsal mədəniyyətini mənimsəyir,təbiətdə hazır şəkildə mövcud olmayan yeni materialların istehsalına başlayır.Toxuculuğun kəşfi və gil qabların hazırlanması istehsalda xüsusi yer tutur.İlk vaxtlar toxuculuq materialı qismində gicitkan,kətan və sairə kimi yabanı texniki bitkilərdən istifadə olunurdu.

Neolit dövründə əhali oturaq həyat sürmüş,ovçuluq və balıqçılıqla da məşğul olmuşdur.Əmək alətləri əsasən çaxmaqdaşından hazırlanır və bıçaqlar,iskənə və deşici alətlər üstün yer tuturdu.Dövrün tələblərinə uyğun olaraq,xüsusilə istehsal təsərrüfatının inkişfı ilə əlaqədar yeni alətlər meydana gəlirdi.Daş toxa və oraq ki-mi alətlərdən əkin-biçində geniş istifadə olunurdu."

Muzeyın əməkdaşı danışdıqca,paralel olaraq,müvafiq eksponatları da nümayiş etdirir.

Ekranda Gəncə yaxınlığındakı Gillidağ,ardınca da Neolit dövrünə aid arxeoloji tapıntılar göstərilir.Bu görüntüləri diktorun səsi müşayiət edir:

"Gəncə yaxındakı Gillidağ adlı yerdə qədim çaxmaqdaşı istehsalı ilə bağlı izlər,istehsal tullantıları və çoxlu hazır məhsullar tapılmışdır.Burada daş balta,çəkic və müxəlif lövhələrə daha çox təsadüf edilmişdir. 133 №-li düşərgədən çaxmaqdaşından bıçaqvari lövhələr,qaşovlar daş toxa ,dəvəgözüdən əmək alətləri aşkar olun-muşdur.Bu alətlərdən təsərrüfatın müxtəlif sahələrində və məişətdə,Damcılı mağa-rasından tapılmış ağlı dişli və pardaqlanmış lövhələrdən

isə biçində istifadə edilmişdir.Toxuculuq və saxsı qablar istehsalı ilə bağlı sahələrin meydana gəlməsi əc-dadlarımızın həyatında mühüm rol oynamışdır.Saxsı qablar istehsalı ərzaq məhsullarının saxlanılmasını asanlaşdırmış,məişətin bütün sahələrində əsaslı dəyişikliklərə şərait yaratmışdır.Saxsı qablar 133№-li Gəncəçay düşərgəsində,Təbriz yaxın-lığındakı Yanıqtəpə və Urmiya gölü yaxınlığındakı Firuztəpə abidələrinin müvafiq təbəqələrindən daha çox məlumdur."

Ekranda Nəsir Rzayev peyda olur və deyir:

"Qobustanın yeni Daş dövrünə aid petroqliflərində düz xətlərə çox tez-tez rast gəlinir."

Ekranda Böyükdaşın aşağı mərtəbəsindəki 2№-li daşın üzərindəki petroqlif görünür.Kadr arxasından alimin səsi eşidilir:

" Misal üçün Böyükdaşın aşağı mərtəbəsindəki 2№-li daşda cızılmış gizləncək təsvirində bu xüsusiyyətləri görürük.Bu sxematik,şərti şəkildə verilmiş rəsmdə gizləncəyin gövdəsi və başı düz xətlərlə və onların birləşməsindən yaradılmış bucaqlarla bəzədilmişdir.Rəsmdən göründüyü kimi,bu gizləncək-yalançı heyvan fiquru əvvəllər rast gəldiyimiz müqəvvalardan həm həcmi,kiçikliyi,həm də vəzifəsi ilə fərqlənir.Bu petroqlif eramızdan əvvəl 7-ci minilliyə aiddir."

Ekrandakı təsviri Böyükdaşın yuxarı mərtəbəsindəki 104 №-li daşın üzərindəki təsvir əvəz edir.Alimin səsi kadr arxasından deyir:

"Bu dövrə aid balıq təsvirinə Böyükdaşın yuxarı mərtəbəsində,104 №-li daşda rast gəlrik.Bu petroqlifdə balıq siluet şəklində,realistik səpgidə işlənmişdir."

Ekrandakı təsvir itir və onun yeinə yenidən görüntüyə gələn Nəsir Rzayev deyir:

"Bu təsvir Neolit dövründə Azərbaycan ərazisində balıqçılığın inkişafından, yeni bir təsərrüfat sahəsinin yaranmasından xəbər verməkdədir."

Filmin başında gedən epizod-Soltan Hacıbəyovun "Karvan"simfonik suitasının müşayiəti altında hərəkət edən dəvə karvanını əks etdirən epizod növbəti dəfə təkrarlanır.

Ekranda Eneolt dövrü abidələrindən tapılmış nümunələr və o dövrün gilmöhrə evlərinin qrafik təsvirləri nümayiş etdirilir.

Diktor mətni:

"Eramızdan əvvəl 6-cı minillikdən başlayaraq Azərbaycanda Neolit dövrünü

Eneolit,yəni Mis-Daş dövrü əvəz etdi.Eneolit dövrü istehsal təsərrüfatının əsaslı surətdə formalaşması və sürətli inkişafı ilə xarakterizə olunur.Bu dövrü tarixin əvvəlki dövrlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri həmin dövrdə məişətdə daş məmulatları ilə yanaşı,metaldan istifadə olunmağa başlanmasıdır."

Ekranda arxeoloq Rəşid Göyüşov peyda olur.Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Bəşər tarixində ilk kütləvi metal olan misin kəşfi ilə başlayan Eneolit dövrü eranızdan əvvəl 6-4-cü minillikləri əhatə edir.Mis yumşaq metal olduğundan daş alətləri bütünlüklə sıradan çıxara bilmədiyi üçün sözügedən dövrə Mis-Daş dövrü deyilir.

İnsanlıq tarixinin inkişafında misli görünməmiş dəyişikliklər döğuran bu dövr –də cəmiyyətin ictimai inkişafında xüsusi irəliləyiş müşahidə olunur.Əkinçilik və maldarlıq daha da inkişaf edir,tayfalararası əlaqələr genişlənir,sinifli cəmiyyətlər üçün zəmin yaranır.Misdən ilk dövrlərdə soyuq döymə üsulu ilə xırda alətlər:bıçaqlar,iynələr,bizlər və sairə,həmçinin bəzək əşyaları hazırlanmışdır.İnsanlar mis külçəsinə əvvəllər daşın bir növü kimi baxmışlar.Bu külçələrin daşdan fərqləndiyi onlara yalnız 6-cı minilliyin sonlarında məlum olmuşdur.Misin yüksək istidə əriməsi,müxtəlif formaya düşməsi,soyuyarkən yenidən bərkiməsi və sairə daşdan fərqləndirilməsinə əsas vermiş,ondan müxtəlif məqsədlər üçün istifadə edilməsinə imkan yaratmışdır."

Ekranda Eneolit dövrünə aid gil qadın heykəllərinin,möhrə evlərin və toxaların qrafik təsvirləri canlanır.

Diktor mətni:

"Alimlər bütövlükdə Eneolit dövrünün 5 xarakterik xüsusiyyətini qeyd edirlər:1.Təsərrüfatın digər sahələrinə nisbətən toxa əkinçiliyinin Eneolit dövründə daha da üstünlük təşkil etməsi; 2.Çaxmaqdaşıdan hazırlanmış alətlərlə yanaşı,mis alətlərin də meydana gəlməsi; 3.Möhrədən tikilmiş qəbilə evlərinin mövcud olması; 4 Ana nəsli üçün xarakterik olan gil qadın heykəllərinin yaranması; 5.Fırça ilə naxışlanmış gil qabların hazırlanması.

Bütün bu əlamətləri Azərbaycanın Eneolit dövrü abidələrində tam təfərrüatı ilə izləmək mümkündür."

Ekranda Tarix Muzeyinin öncə xaricdən,sonra isə daxildən görünüşü təsvir edilir.Muzeyin əməkdaşı deyir:

"İndiyədək Azərbaycanda Eneolit dövrünə aid oturaq əkinçi tayfalara məxsus 60-dan çox yaşayış məskəni aşkar olunmuşdur.Bunlardan Naxçıvan ərazisindəki 1-ci Kültəpə abidəsi,Mil-Qarabağdakı İlanlıtəpə, Çalağantəpə, Qaraköpəktəpə, Zərgər-təpə, Meynətəpə,Çalırtəpə,Şəkəryalı,Muğan düzündəki Əlikömək təpəsi, Sulutəpə, Üçtəpə,Mişarçay,Qurudərə,Kür çayının sağ sahilində,Qazax rayonu

ərazisində 1-ci Töyrətəpə,Şomutəpə,Babadərviş,Qarğalar təpəsi və sairə çox zəngindirlər."

Ekranda Eneolit dövrü yaşayış evlərinin qrafik təsvirləri canlanır.Kadr arxasından muzeyin əməkdaşının səsi gəlir:

"Eneolit dövrünün yaşayış məskənləri əsasən hündür təpələr formasında olub müxtəlif ölçülüdürlər.Bu məskənlərə həm düzən,həm də dağətəyi zonalarda təsadüf edilir.Həmin məskənlər mədəni təbəqələrin qalınlığı ilə səciyyələnir.Bu isə özlüyündə oturaq həyat tərzinin güclü olması ilə bağlıdır."

Ekrandakı təsvir itir.Yenidən peyda olan muzey əməkdaşı sözünə davam edərək deyir:

"Azərbaycanda qədim oturaq əkinçilik və maldarlıq mədəniyyətini öyrənmək üçün mövcud abidələri tədqiqatçılar iki qrupa bölürlər.Naxçıvanda öyrənilmiş 1-ci Kültəpənin alt təbəqəsi,Mil-Qarabağ və Muğan düzlərindəki yaşayış məskənləri bi-rinci qrupa aid edilir.İkinci qrup abidələrə Kiçik Qafqaz dağ silsiləsi ilə Kür çayı arasında yerləşən yaşayış məskənləri daxildir."

Ekranda Eneolit dövrünə aid yaşayış məskəninin qrafik planı canlanır.
Diktor mətni:

"Yaşayış sahələri 0,5-2 hektar ərazini əhatə edirdi.Eneolitin ilk mərhələsində evlər möhrə və ya kərpicdən dairəvi formada tikilirdisə,son mərhələdə dördbucaqlı evlər də tikilməyə başlamışdır.Bundan başqa qazma tipli evlər də mövcud olmuşdur.Yaşayış binaları 10-15 kvadratmetr,bəzən 24 -28 kvadratmetrə kimi sahəyə malik,təsərrüfat tikililəri isə kiçik ölçülü idi.Vahid planda deyil,pərakəndə halda tikilən yaşayış binalarının davamlılığını artırmaq üçün evlərin divarların qarşısında xüsusi dayaqlar hörülürdü.

Eyni dövrə aid eyni mədəniyyətin izlərinə Şərqi Anadolu və Cənubi Azərbaycanda da rast gəlinmişdir.Bu baxımdan cənubda Urmiya gölü bölgəsində və Təbriz yaxınlığında öyrənilmişYanıqtəpə,Dolmatəpə,Göytəpə,Anadoludakı Çatal-Hüyük və sairə Eneolit dövrü məskənlərini misal çəkmək mümkündür."

Ekranda tarixçi alim H.Cəfərov peyda olur və deyir:

"Həmin dövrdə gön-dəri emalı və bununla bağlı sahələrin də inkişaf etməsi nəticəsində aşılanmış dəridən ayaqqabı,paltar və sairə də hazırlayırdılar.

Hələ Eneolit dövründə təşəkkül tapmış toxuculuq sənəti daha da inkişaf etmişdi.Azərbaycanın bir sıra Eneolit abidələrindən—Kültəpə 1,Hacı Firuz,İlanlıtəpə,Babadərviş,Leylatəpə və sairə abidələrdən tapılmış iy ucları,habelə Əlikömək-təpəsindən tapılmış saxsı qabın səthində qalmış toxuma izi bunu sübut edir.

Eneolit dövrü ev sənətkarlığının müxtəlif sahələri içərisində dulusçuluq daha kütləvi istehsal xüsusiyyətləri ilə fərqlənirdi.Neolit dövrünün bəsit və kobud qablarından fərqli olaraq Eneolit dövründə istehsal olunmuş saxsı qablar həm forma,həm də hazırlanma texnologiyasına görə diqqəti cəlb edir.Əhalinin artan tələbatına uy-ğun yeni qab növlərinin istehsalı mənimsənilirdi."

Ekranda Eneolit dövrünə aid dulusçuluq məmulatlarının təsvirləri görüntülənir.H.Cəfərovun səsi bu dəfə kadr arxasından eşidilir:

"Onların davamlılığını artırmaq və keyfiyyətini yüksəltmək üçün yeni texniki üsullardan istifadə olunurdu.Bu dövrdə ən mühüm yeniliklərdən biri saxsı qabların bişirilməsi üçün dulus kürələrinin meydana gəlməsidir .Kültəpə, Şomutəpə, İlanlıtəpə,Əlikömək̇təpə,Çalağantəpə yaşayış məskənlərində dulus kürələri qalıqlarına da çox təsadüf edilmişdir.Burada dulus kürələri əsasən iki qatlıdır.Alt qatda ocaq qalanır,üst qatda isə saxsı qablar yığılırmış.Əlikömək̇təpə və Leyletəpə abidələrində dulus kürələri yaşayış yerinin kənarında cəmlənmişdi."

Ekrandakı təsvir itir.Yenidən görünən H.Cəfərov sözünə davam edir:

" Tədqiqatçıların fikrincə,bu faktı eramızdan əvvəl 5-ci minilliyin axırı və 4 – cü minilliyin əvvəllərində meydana çıxan "icma sənətkarlığının"varlığı kimi qiymətləndirmək lazımdır.Maraqlıdır ki,bu abidələrdə tapılmış saxsı qabların bir qismi sadə quruluşlu dulus çarxında hazırlanmışdır."

Ekranda dulus çarxında qab hazırlayan usta və ardınca da hazırlanmış saxsı qabların təsviri peyda olur.Kadr arxasından diktorun səsi eşidilir:

"Öncələr elə hesab edilirdi ki,Azərbaycanda dulus çarxı yalnız son Tunc dövründən tətbiq edilməyə başlamışdır..Dulus çarxının kəşf və ilk dəfə tətbiq edildiyi yerin isə qədim Şumer ərazisi olduğu hesab edilirdi.Ölkəmizin ərazisindən əldə edilmiş arxeoloji tapıntılar dulus çarxının ilk dəfə kəşf edilib,tətbiq edildiyi məkanın məhz Azərbaycan ərazisi olduğunu söyləməyə əsas verir və bu,məhz son Eneolit dövründə baş vermişdir.Maraqlıdır ki,qədim yunan müəllifləri dulus çarxının kəşfini iskitlərə,başqa sözlə türklərə aid etmişlər.Məsələn,Posidoniy və Seneka saxsı qabların hazırlanmasında istifadə olunan dulus çarxını iskit Anaxarın icad etdiyini yazmışlar.O da maraqlıdır ki,Eneolit,yəni Mis-Daş dövrünün başlamasına səbəb olan misin kəşfi məsələsində də qədim yunanlar birinciliyi iskitlərin ayağına yazmışlar.(Ekrandakı təsvirləri mis və metal əşyaların təsvirləri əvəz edir.) Məsələn, Pliniy Sekund misgərlik sənətinin əsasını iskit xaqanı Lidin qoyduğunu bildir-mişdir.Qədim yunanlara görə,ümumiyyətlə,metallurgiyanın kəşfi iskitlərlə,yəni türklərlə bağlıdır.Belə ki,Esxil İskitlər ölkəsini dəmirin doğulduğu ölkə adlandır-mış, Mitelenli Hellanik isə ilk dəmir alətləri iskitlərin xaqanı Sansvinin qayırdığını yazmışdır."

Ekranda H.Cəfərov görünür və deyir:

"Mis-Daş dövrünün son mərhələsində yeni qab növləri,habelə naxışlanmada yeni üsul və motivlər yaranırdı.Bu yeniliklər Eneolit dövründən erkən Tunc dövrünə keçid mərhələsi üçün səciyyəvidir.

Azərbaycanın Eneolit əhalisinin həyatında dini ayin və ovsun mərasimləri də müəyyən yer tuturdu. Qarğalar təpəsində kiçik çalada tapılmış və odun təsirindən qaralmış daş topasını tədqiqatçılar quraqlıq zamanı yağış "çağırmaq"mərasimi ilə bağlayırlar."

Ekranda yenidən dəvə karvanı ilə bağlı süjet canlanır və yenə də bu süjeti Soltan Hacıbəyovun "Karvan"simfonik suitası müşayiət edir.Süjet bitər –bitməz ekranda Lev Qumilyovun şəkli və ardınca da onun "Qədim türklər" kitabının üz qabığı görüntülənir.

Diktor mətni:

"Böyük rus türkoloqu Lev Qumilyov özünün məşhur "Qədim türklər"kitabında ən qədim zamanlardan etibarən türklər arasında "yada daşı" ,yəni cadu daşı adlanan magik daşların köməyi ilə quraqlıq zamanı yağış yağdırmağın mümkünlü-yünə inamın mövcud olduğunu qeyd etmiş və türklərin bu sənətlə məşğul olduqları barədə müxtəlif qaynaqlarda məlumatlar bulunduğunu yazmışdır."

Ekranda Lev Qumilyovun sözügedən kitabını tutmuş aktyor peyda olur.O,kitabdan oxuyur:

"Yuebanlar haqqında olan rəvayətdə soyuq hava və yağış çağırmağı bacaran cadugərlərdən söhbət açılır.Jujanlarla döyüş zamanı yueban cadugərləri qarlı fırtına çağırıb düşmənlərin üzərinə göndərmişdilər.Bənzər rəvayəti Turlu Qriqori də nəql etmişdir.Avarların franklarla döyüşü zamanı avar cadugərləri şimşəkli tufan yarat-mış,şimşək frank düşərgəsini vurmuş və onlar bunun nəticəsində məğlub olmuşdu-lar.Eyni cadu gücü naymanlara da aid edilmişdir.Rəşidəddin yazır ki,Çingiz xana qarşı döyüşən və başında Camuxanın durduğu soy birləşməsinin cadugərləri də tufan yaratmış,fəqət hesablamada səhvə yol verdiklərindən tufan öz başlarına çaxmışdır."

Ekaranda yenidən öncə Qumilyovun şəkli,sonra isə sözügedən kitabı görünür.Kadr arxasında diktor deyir:

"Türklərin yağış yağdırmaq gücünə sahib olan daşlardan istifadə etdikləri barədə bir çox müəlliflərin,o cümlədən Təbəri,Səəlibi,Balimi,Firdovsi,Mirxond, Sebos və başqalarının əsərlərində,eləcə də 7-ci əsrin anonim Suriya və 10-cu əsr fars anonim mənbələrində çox sayda məlumat olduğunu söyləyən Lev Qumilyov

daha sonra yazır ki,yalnız Firdovsi bu halı izah etməyə çalışmış və baş verənləri kütləvi hiptnoz kimi şərh etmişdir.Qədim türklərin bu sənəti "yada",yəni cadu ad-landırdıqlarını diqqətə catdıran müəllifin bildirdiyinə görə,ayrı-ayrı türk xalqların-da bu inam 20-ci əsrin əvvəllərinə qədər davam etmişdir."

Ekranda dilçi alim Firudun Ağasıoğlu peyda olur.Ekranın altında onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Təbərinin yazdığına görə,Həzrət Nuh peyğəmbərin oğlu,türklərin ulu babası hesab edilən Yafəs türk xalqına yağış yağdıran yada daşı vermişdir.Başqa bir rəva-yətdə isə həmin daşın türklərə Həzrət İbrahim peyğəmbərdən miras qaldığı bildiri-lir."

Ekranda İbn Əl-Fəqih Əl-Həmadaninin "Əxbar əl-buldan"kitabının üz qabəğı görüntülənir.

Diktor mətni:

"Türklərin yada daşının köməyi ilə yağış yağdırdıqları barədə məlumat verən müəlliflərdən biri də 10-cu əsrdə yaşamış məşhur alim İbn Əl-Fəqih Əl-Həməda-nidir.O,ərəb dilində qələmə aldığı "Əxbar əl-buldan",yəni "Ölkələr haqqında xə-bərlər" adlı kitabının "Türklər,onların ölkəsi və bu ölkədəki möcüzələr haqqında "başlıqlı bölümündə mövzu ilə bağlı maraqlı fikirlər söyləmişdir."

Ekranda peyda olan aktyor sözügedən müəllifin sözügedən kitabından oxu-yur:

"Türklər ölkəsinin möcüzələrindən biri də onların köməyi ilə türklərin yağış, qar,dolu yağdırdıqları və istədikləri digər bənzər təbiət hadisələrini meydana gətirə bildikləri daşlardır.Onlarda bu daşlar böyük önəmə sahibdirlər və geniş istifadə edilməkdədirlər.Bunu türklərin heç biri inkar etmir,fəqət həmin daşlar doqquzo-ğuzlar arasında daha çox qiymətləndirilir."

Ekranda qavaldaşda çalınan ritmlərin fonunda Qobustanın qaya təsvirləri bir-birini əvəz edir.Daha sonra bu təsvirlərin yerini müəllifi məlum olmayan "Əcaib əd-dünya"kitabının üz qabığı tutur.

Diktor mətni:

"Müəllifi məlum olmayan,13-cü əsrdə fars dilində qələmə alındığı bilinən "Əcaib əd-dünya",yəni "Dünyanın qəribəlikləri"adlı kitabda da maraqlı bir qeydə rast gəlmək mümkündür."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

“ Deyirlər ki,Ərdəbildə böyük daş var,əlinlə onu vurduqda xoş səs çıxarır. Quraqlıq düşdüyü zaman bu daşı şəhərdən kənara çıxarırlar və o saat yağış yağır. Onu yenidən şəhərə qaytaranda yağış kəsir.”

Ekranda folklorşünas alim Azad Nəbiyev peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

“Xalqımızın ilkin inam və etiqdlarının,ovçuluq,əkinçilik,maldarlıq həyatı ilə bağlı mifik təsəvvürləri bizə əsasən xalq yaradıcılığı nümumələri ilə gəlib çatmışdır. Bu nümunələr improvizə edilmiş formalarda,əksər halda isə türkdilli xalqların poetik yaradıcılığı üçün ənənəvi olan ibtidai ölçü qəliblərində yayılmışdır.Türk boy -larının ilkin magik təsəvvürlərinin poetikləşməsi ,şifahi bədii yaradıcılıqda əks olunması dövrünün məhsulu olan ovsunlar müəyyən mərhələdə ibtidai insanın gündəlik həyatında,həyatı dərketmə və öz bildiyi kimi idarə etmə prosesində mühüm mövqe tutmuşdur.Zaman keçdikcə,təbiətin sirləri insan üçün açıldıqca ovsun təsəvvürləri də zəifləmiş, bir janr kimi arxaikləşmişdir.

Ovsun sözün gücünə inamı əks etdirən bir janrdır.Bu janrda oxşar səslər, sözlər vasitəsilə insan psixikasına təsir göstərilir,sözün gücü,təsiri inamın təntənəsinə çevrilir.

Xalq içərisində uzun müddət quraqlıq olarkən müəyyən “müqəddəs”ocaqlardan götürülmüş daşları ortadan dəlib suya salardılar.Məsələn, Quba – Qonaqkənd zonasında Baba dağdan gətirilmiş daşları suya salıb ipin başını sahildəki ağaclardan birinə bağlayardılar.İpin bağlandığı ağac adətən qarağac və ya fındıq ağacı olmalı idi.Daşlar suya salınarkən xorla oxuyardılar:

Daş başım,
Yaş başım,
Yaş oldu
Üst-başım.
Sonra daşı suya salardılar.Bu vaxt ovsun oxunardı”

Ekranda çay qırağında durmuş milli geyimli qızlar görünür.Onlar xorla deyirlər:

“Suda daşım,
Baba daşım,
Gələr,getməz
Yağışım.

Suda daşım,
Yaş başım,
Yaş oldu
Üst-başım.”

Ekranda yenidən Azad Nəbiyev peyda olur və deyir:

"Məlumdur ki,hələ çox qədimlərdən arası kəsilməz yağışlar zamanı günəşi çağırış mərasimləri xalq arasında geniş yayılmışdı.İbtidai insanlar bu görüşlə bağlı ovsunlar da yaratmışlar.Onlardan biri belədir :Günəşin çıxmasını arzulayan insanlar Baba dağından gətirilmiş daşları ocaqda,küldə basdırar və ocaqda xəşil bişirərdilər. Xəşili ananın ilki çalmalı idi.Ovsunçu basdırılan daşların üstünə közləri yığa-yığa ovsun oxuyardı."

Ekranda ocaq başına yığışmış milli geyimli qızlar görünür.Onlardan biri ocaqdakı daşların üstünü közlərlə örtə-örtə oxuyur:

"Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı."
Sonra qızlar birlikdə oxuyurlar:
"Budu daşı,
Bulutların
Kudu daşı,
Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Godu başı,
Gətirsin
Qızıl günü,
Aparsın

Yağışı.
Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı."

Ekranda eyni səhnə yenidən,fəqət bu dəfə səssiz təkrarlanır.Kadr arxasından diktorun səsi eşidilir:

"Qarğalar təpəsindən tapılan ocaq yeri və ocaqdan qaralmış daşlar bu qə-dim türk inancının köklərinin ən azı Eneolit dövrünə,yəni 6-8 min il öncələrə qədər uzandığını və bu mərasim zamanı oxunan ovsunların da 6-8 min il öncəyə aid po-etik nümunələr olduğunu sübut edir.Bu isə o deməkdir ki,Azərbaycanda türk xalq teatr sənətinin,ağız ədəbiyyatının və xor ifaçılığının yaşı minilliklərlə ölçülür."

Ekranda bir-birini əvəz edən qaya təsvirləri görüntülənir.Kadr arxasından eşidilən diktor səsi deyir:

"Deməli,şifahi xalq ədəbiyyatımızın tarixi də Qobustanda izlərinə rastladı-ğımız təsviri incəsənətimiz və rəqs mədəniyyətimiz qədər qədimdir.Lakin gerçək-dənmi əcdadlarımızın minillər öncə danışdıqları dil bu günkündən bu qədər az fərqlənirmiş və 6-8 min il öncə işlənilən sözlər günümüzə qədər dəyişmədən gəlib çıxa bilmişdir?"

Ekranda Sayalı Sadıqovanın öncə qələmə aldığı "Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı"kitabını üz qabığı,daha sonra müəllifin özü görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.Alim deyir:

"İstehsalat prosesinin genişlənməsi,ictimai-iqtisadi həyatın,elmin inkişafı terminologiyanın zənginləşməsində həlledici amildir.İstehsalatın inkişafı yeni-yeni əmək alətlərinin yaradılması və müntəzəm olaraq təkmilləşdirilməsi zərurətini yaradır.Yeni yaradılan və təkmilləşdirilən modellər onların adlandırılmasından doğan ehtiyac zəminində hər bir dilin ayrı-ayrı leksik laylarının inkişafına səbəb olur.

Azərbaycan türkcəsində terminologiyanın təşəkkülü və inkişaf tarixi qədimdir. Tədqiqatçıların müəyyənləşdirdiklərinə görə hələ Eneolit dövründə Azərbaycanda kənd təsərrüfatı,əkinçilik.maldarlıq kimi sahələr aparıcı sahələr olmaqla, onun iqtisadi həyatının əsasını təşkil etmişdir.Bu dövr Azərbaycan mədəniyyətinin inkişaf tarixi baxımından bir sıra əlamətdar xüsusiyyətləri ilə diqqəti çəkir."

Ekranda dilçi alim K.M.Musayev görünür.Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Söhbət terminologiyadan gedəndə bir çox mütəxəssislər ilk növbədə yazılı ədəbi dilə müraciət edirlər.Halbuki bir çox sahə terminologiyası yazısı olmayan dillərdə,həmçinin ədəbi dilin yazıyaqədərki dövrlərində də formalaşmışdır."

Ekranda dilçi alim Ağamusa Axundov peyda olur .Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Ümumiyyətlə,terminoloji tədqiqatlara və termin yaradıcılığına da yenidən qayıtmağa ehtiyac var.Çünki cəmiyyətin tarixində baş verən bütün ictimai-siyasi dəyişikliklər,tarixi hadisə və proseslər dildə öz əksini tapır."

Ekranda "Milyonuncu illər" filmindən mağara həyatını təsvir edən kadrlar canlanır.

Diktor mətni:

“Məlum olduğu kimi qədim insanlar ilk dəfə məhz Eneolit dövründə yaşayış evləri tikməyə başlamışlar.Bundan öncə isə onlar üçün ev rolunu təbii mağaralar oynamaqda idi.Ana dilimizdə “mağara”kəlməsinin bir neçə sinonimi var.”

Ekrandakı kadrlar itir və onun əvəzinə yazılır:

" OVUQ------OVULMUŞ YER
OYUQ ---- OYULMUŞ YER
EŞİK ----- EŞİLMİŞ YER”

Kadr arxasından diktor sözünə davam edərək deyir:

“Ovuq,yəni ovulmuş yer. Oyuq,yəni oyulmuş yer.Eşik,yəni eşilmiş yer.Bütün bu sözlər fel bildirən kökə artırılan sözdüzəldici şəkilçi vasitəsi ilə düzəlmişdir.”

Ekrandakı yazıları aşağıdakı yazılar əvəz edir:

“OV+UQ= OVUQ
OY+UQ= OYUQ
EŞ+ İK = EŞİK”

Diktor mətni aralıqsız davam edir:

“Ov kökü və uq şəkilçisi.Oy kökü və yenə uq şəkilçisi.Eş və ik şəkilçisi.”

30

Ekrandakı yazılar dəyişir:

“OV(MAQ)
OY(MAQ)
EŞ(MƏK)”

Diktor mətni:

“ Söz kökləri bunlardır:ov,oy və eş.Maraqlıdır ki,əcdadlarımız mağaralar-dan özlərinin qurduqları evlərə köçərkən,əski evlərinin,yəni mağaraların adlarını yeni yaşayış yerlərinə daşımışlar.Beləcə,ana dilimizdə “ev” termini və onun müx-təlif şivə variantları və sinonimləri meydana çıxmışdır.”

Ekrandakı yazılar yeniləri ilə əvəz olur:

“OV ---- EV
OY ---- ÖY
EŞ ---- EŞİK ---- EV-EŞİK”

Diktor mətni yenə aralıqsız davam edir:

"Ov kökü bir qədər dəyişərək "ev"sözünə,oy kökü cüzi dəyişikliklə "öy" kəlməsinə, eş kökü isə "eşik" kəlməsinə və "ev-eşik"termininə başlanğıc vermişdir.Bu isə o deməkdir ki,dilimizdə bu gün də eyni mənada işlənməkdə olan həmin terminlərin ən azı 6-8 min il yaşı var. Və bunlar eyni dövrdə formalaşan və günümüzədək yaşayan yeganə terminlər deyil.

Ekrandakı yazıları Eneolit dövrünə aid saxsı qabların təsvirləri əvəz edir.
Ekran arxasından diktorun səsi gəlməkdə davam edir:

"Eneolit dövründə əcdadlarımızın məişətinəinə daxil olan yeniliklərdən biri də, artıq qeyd edildiyi kimi, saxsı qablar olmuşdur.Bəs,görəsən, saxsı qablar kəşf edilməmişdən öncə insanlar müxtəlif ərzaq növlərini,xüsusən də suyu nədə saxlayır və bir yerdən digər yerə necə daşıyırdılar.Quru ərzağı hələ Neolit dövründən məlum olan toxuma səbətlərdə saxlamaq və daşımaq mümkün olsa da, su üçün bu imkansızdır."

Ekranda balqabaq və kudu təsvirləri fonunda xarici görkəmcə onları xatırladan gil qabların təsvirləri çanlanır.Diktorun səsi sözünə davam edərək deyir:

"Ən qədim qabların formalarının qabağın məlum iki formasını-balqabaq və kudu formalarını xatırlatması ,eləcə də yaxın vaxtlara qədər məişətdə içi oyulmuş qabaq qabıqlarından qab kimi istifadə edilməsi Enrolit dövrü gil qablarının prototipinin məhz içi ovulmuş qabaq olduğunu söyləməyə əsas verir."

Ekranda pedaqoq alim Allahverdi Eminov peyda olur.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir.

"Azərbaycanda tərəkəmələrin məişətində içi ovulmuş balqabaqdan yaxın zamanlara qədər qab kimi istifadə edilmişdir. Mən bu halı ikinci dünya müharibəsi dövründə Balakən rayonunda görmüşəm."

Ekranda yenidən öncəki şəkillər peyda olur.
Diktor mətni:

"Deməli,Eneolit dövründə yaşamış əcdadlarımız dulusçuluq sənətini kəşf etməmişdən öncə qab kimi içi ovulmuş qabaqdan istifadə edərmişlər.Və bu, gil qabların istifadəyə girməsindən sonra da uzun əsrlər boyu məişətdə davam etmişdir."

Ekrandakı təsvirləri aşağıdakı yazı əvəz edir:

"QABAQ ----- QAB
QABIQ ----- QAPAQ

Diktorun səsi sözünə davam edir:

"Bu fakt dilimizdəki "qab" və "qapaq" kimi terminlərin "qabaq" və "qabıq"kimi sözlərdən törədiyini və sözügedən yeni terminlərin məhz Eneolit dövründə,yəni ən azı 6-8 min il öncə yarandığını sübut edir.

Madam ki,dilimizdə bu gün də ən azı 6-8 min il bundan öncə yaranmış sözlərimiz heç bir əhəmiyyətli dəyişikliyə uğramadan yaşayır və fəal şəkildə işlənir,deməli,o dövrün ovsun mətnlərinin günümüzədək cüzi dəyişikliklərlə gəlib çatmasında təəccüblü bir şey olmamalıdır."

Ekranda Nəsir Rzayev görünür və deyir:

"Ovsunçuluq qədim mədəniyyətimizdə,folklorumuzda dərin köklər saldığı üçün onun ənənəvi davam edən izləri dövrümüzədək gəlib çıxmışdır.Bu izlər təsərrüfat həyatında,təbiətdə və məişətdə baş verən hadisələri ovsunlamaq məqsədi ilə,dilimizə canlı və cansız varlıqları ovsunlayan sözlər gətirmişdir.Azərbaycan ərazisində,son vaxtlara qədər ovsunlama ayinlərinin ayrı-ayrı formaları,daha doğrusu,fraqmentləri icra edilirmiş.Ovçuluq,maldarlıq,əkinçilik təsərrüfatlarına dair bir neçə ovsun ayini nümunəsi göstərək.Ovçu gələcək ovun müvəffəqiyyətlə keçməsi üçün ovu nişan alaraq oxu atarkən belə deyir:

Haş getdi,
Huş getdi,
Bu ox sənə
Tuş getdi.

Maldar mal-qaranı canavardan qorumaq üçün bıçaq və ya qayçını bükülmüş halda parçaya sarıyaraq deyir:

Qurdun ağzını bağladım."

Ekranda tarixçi alim Nəcəf Müseyibli peyda olur və deyir:

"Azərbaycanda geniş yayılmış ovsun folkloru nümunələrindən biri də "Qurd ağzı bağlama" ovsunudur.Maraqlıdır ki,Gəmiqaya təsvirləri içərisində rast gəlinmiş bir təsvir bilavasitə qurd ağzı bağlama ovsunu ilə birbaşa bağlıdır."

Ekranda Gəmiqaya təsvirlərindən biri-üzərində qurd,qoyun və yumağa dönüşən ip şəkli cızılmış petroqlif görünür.Alim kadr arxasından sözünə davam edir:

"Sözügedən petroqlifdə qurd və qoyun,eləcə də onların arasından keçə-rək onları bir-birindən ayıran və ucu yumağa çevrilən ip şəkli çəkilmişdir."

Ekranda qavaldaşda ifa edilən ritmlərin müşayiəti ilə Gəmiqaya təsvirləri bir-birini əvəz edir və sonda yenidən öncəki epizoddakı təsvir,yəni qoyun və qurdun birlikdə olduğu petroqlif peyda olur.

Diktor mətni:

"Gəmiqayadan tapılmış bu petroqlifin əhəmiyyəti ondadır ki,onun ifadə etdiyi təsviri informasiyanın səsli-sözlü variantı da dövrümüzədək gəlib çatmışdır və o da "yağış çağırmaq" və "yağış kəsmək" ovsunları kimi sadə bayatı formasındadır.

Yağladım,
Dağladım,
Qurdun ağzın
Bağladım.

İstər bu fakt,istərsə də Qarğalı abidəsindən tapılan magik daşlar və müvafiq ovsun mətnləri folklor ədəbiyyatımızın,şerimizin ən qədim formasının məhz bayatı forması olduğunu,byatı yaradıcılığının ən azı 6-8 min il bundan öncə formalaşdığını sübut edir.

Ekranda yenidən Nəsir Rzayev görünür.O deyir:

"İlk Azərbaycan piktoqramını qədim Qobustan rəssamları hələ orta Daş dövründə yaratmağa,yazmağa cəhd etmişlər."

Ekranda Böyükdaşın yuxarı mərtəbəsində 78 №-li daşın üzərindəki " 7 gözəl" təsviri canlanır.Alim ekran arxasından sözünə davam edir:

"Bu baxımdan Böyükdaşın yuxarı mərtəbəsindəki 78 №-li daşın üzərindəki təsvir deyilənlərə ən gözəl misaldır.Qobustan rəssamları Mis-Daş dövründən başlayaraq öz əsərlərində təsvirli yazılara daha tez-tez müraciət etmişlər."

Ekranda görünən Nəsir Rzayev daha sonra deyir:

"Totemistik sehrkarlıq ayinlərinin keçirilməsi haqqında xəbər verən,xronikal səciyyəli, qəbilənin gündəlik həyatında baş verən hadisələri nəql edən təsvirli yazılara,yəni piktoqramlara bu dövrün petroqliflərində rast gəlirik.Totemistik ovsunlama ayini keçirərkən ovçu və ya maldarların iki cərgədə sərbəst vəziyyətdə rəqs etdiklərini Böyükdaşın yuxarı mərtəbəsindəki 67 №-li daşın təsvirlərində görürük."

Ekranda Böyükdaşın yuxarı mərtəbəsindəki 67 №-li daşın təsviri canlanır.Alimin səsi kadr arxasından eşidilir.O,sözünə davam edərək deyir:

“Burada aşağı cərgənin ortasında üç fiqurun üzündə müxtəlif totemlərin maskası görünür.Demək,bu sehrkarlıq ayini rəqsində üç adam totem obrazında çıxış edir.Ovlanacaq və ya sayı çoxaldılmalı olan əhliləşdirilmiş heyvan rəsmlərinin ovsunlanmasına həsr edilmiş bu ayin rəqsində totemin iştirakı bu sehrkarlıq tədbirinin müvəffəqiyyətlə nəticələnməsi üçün mühüm amil hesab edilirdi.”

Ekrandakı təsvir itir,onun yerini Nəsir Rzayev tutur.O.sözünə belə davam edir:

“Belə ovsunlanma ayini keçirilməmişdən öncə ovlanılacaq və ya bəslənərək artırılacaq mal-qaranın rəsmləri qayada cızılırdı.Bundan sonra qəbilə üzvləri bu təsvirlərin qarşısında rəqs edir,ovsun duası oxuyur,mərasim keçirirdilər.”

Ekranda Böyükdaşın yuxarı mərtəbəsindəki 46№-li daşın (cənub tərəfi) üzərindəki təsvir görüntülənir.Alimin səsi ekran arxasından eşidilir:

“Misal üçün Böyükdaşın yuxarı mərtəbəsində,46№-li daşın cənub tərəfindəki təsvirdə qəbilə atlarını təmsil edən çox sayda at düz xətlərlə ovsunlanmış vəziyyətdə gözə dəyir.Bir atın balalı halda rəsm edilməsi göstərir ki,bu təsvirlər atların çoxalması üçün ovsunlanmalı imiş.Xronikal səciyyəli bu tipli piktoqramlar həmin hadisələri nəql edirlər.”

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda yazılır: “ 1-ci seriyanın sonu." Bütün bunlar Soltan Hacıbəyovun “Karvan” simfonik suitasının müşayiəti ilə cərəyan edir.

2-ci seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun “Karvan” simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Bütöv Azərbaycanın xəritəsi.Kadr arxasından diktorun səsi:

“Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib

olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını birmə-nalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmış-dır."

Ekrandakı xəritə öncə müxtəlif təbiət mənzərələri,daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur.Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

"Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dönyada insanın for-malaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu torpaq bəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir.

Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximi-zin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uza-nan zəngin folklor nümunələri əks etdirir."

Ekranda İohannes Fridrixin "Yazı tarixi"kitabının üz qbığının təsviri və ardınca da müəllifin öz şəkli görünür.

Diktor mətni:

"Görkəmli alman alimi,yazı tarixinin gözəl bilicisi İohannes Fridrix özünün məşhur "Yazı tarixi"kitabında deyir ki,söhbət piktoqrafiyadan düşəndə tədqiqatçılar bir qayda olaraq,nəzərlərini qayaüstü təsvirlərə tərəf çevirirlər.Əksər halda da misal kimi Şimali İspaniya ərazisindəki Pasyeqa mağarasındakı qayaüstü təsviri misal çəkirlər."

Ekranda Pasyeqa mağarasında tapılmış təsvir canlanır.

Diktor mətni:

"Alimin yazdığına görə,sol tərəfdəki iki ayaq təsviri mütəxəssislər tərə-findən "getmək"kimi,sağdakı təsvir isə inkar işarəsi kimi qəbul edilir və iki təsvir birlikdə "giriş qadağandır" kimi şərh edilir.

Bu "oxunuş" və şərhin nə qədər doğru olduğunu söyləmək çətindir.Lakin bir şeyi tam əminliklə söyləmək olar ki,Gəmiqayadan tapılan "qurd ağzı bağlamaq" ovsununu əks etdirən piktoqram qədim piktoqrafiya sənətinin ən gözəl və sözün əsl mənasında klassik nümunəsi kimi əvəzsizdir.Çünki bu piktoqramda ifadə edilən informasiya səsli-sözlü formada da dövrümüzədək gəlib çatmışdır."

Diktorun son cümləsi səslənərkən ekrandakı təsviri sözügedən Gəmiqaya piktoqramı əvəz edir.

Ekranda Azərbaycanın müxtəlif dövrlərə aid maddi mədəniyyət nümunələri,ardınca küp qəbirlər,ən son da isə mingəçevirdən tapılmış küp qəbrin üstündəki piktoqramlar görüntülənir.

Diktor mətni:

"Ölkəmizin ərazisində ən azı Mezolit,yəni orta Daş dövründən məlum olan piktoqram,başqa sözlə təsvirli yazı mədəniyyəti minillər boyunca nəsildən-nəslə ötürülərək eramızın ilk əsrlərinə qədər davam emişdir.Bu baxımdan Mingəçevirdən tapılan bir küp qəbirin üzərindəki piktoqramlar deyilənlərə ən gözəl misaldır."

Ekranda Nəsir Rzayev peyda olur və deyir:

"Eramızın birinci əsrində də çəhrayı rəngli keramik küplər üzərində oxra vasitəsilə təsvirl yazılar yazılmışdır.Belə abidələr Mingəçevirin küp qəbirlərindən tapılmışdır.Bir küpün çiyinlərində,dairəvi kompozisiyada çəkilmiş üçbucaqlar,iki quş.iki maral və bir ağac rəsmlərini biz piktoqram,yəni təsvirli yazı hesab edirik."

Ekranda sözügedən piktoqramların qrafik təsviri görünür.Alim kadr arxasından sözünə davam edir:

"Bu yazı küpün xarici səthində iki dəfə təkrar edidiyi üçün ümumi kompozisiyada hər rəsmə iki dəfə rast gəlirik."

Ekranda Nəsir Rzayev görünür və sözünü tamamlayır:

"Bu rəsmlər o dövrdə ortaya çıxmış konkret anlayışların simvolik təsvirləridir."

Ekranda Qavaldaşda ifa edilən ritmlərin fonunda Qobustan və Gəmiqaya təsvirləri bir-birini əvəz edir.

Ekranda yenidən Mingəçevir küpünün üzərindəki piktoqram təsvir olunur.

Diktor mətni: .

"Mingəçevirdən tapılan və üzərində hər biri bir məna verən şəkillər olan küpdən qəbir kimi istifadə edildiyi üçün,şübhəsiz ki, onun üzərindəki piktoqramın məzmunu da dəfn mövzusu ilə bağlı olmalıdır.Çünki qəbirlərin üzərindəki bütün yazılar adətən mərhum barədə informasiya xarakerli məlumatdan ibarət olur.

Bu piktoqramdakı ağac həyatı,yəni bu dünyanı simvolizə edir.Tanınmış mifiloq alim Mirali Seyidov göstərmişdir ki,ağac bir çox Şərq xaqlarında,o cümlədən qədim türklərdə həyatı ifadə etmişdir.Buradakı quş təsviri isə ruhun bədəndən

ayrılaraq uçub getməsini,yəni ölümü və o biri dünyanı simvolizə edir.Maraqlıdır ki,qədim türk dilində "uçmaq"feli "ölmək" felinin sinonimi kimi işlənmişdir."

Ekranda Orxon-Yenisey mətnləri görünür və bir-birini əvəz edir.Diktorun səsi eşidilməkdə davam edir:

"Orxon-Yenisey abidələrində bir sıra hallarda "ölmək" yerinə "uçmaq" yazılıb.Məsələn, Kül Təkin abidəsinin şərq tərəfində,16-cı sətirdə deyilir: Kanım kağan uçdukta özüm səkiz yaşta kaldım,yəni xaqan atam ölində səkkiz yaşımda idim.

24-cü sətirdə isə deyilir:Ecüm kağan uca bardı,yəni xaqan əmim öldü.

Bənzər halla eyni abidənin şərq tərəfinin 30-cu sətrində,şimal tərəfinin 1-ci sətrində,eləcə də Bilgə Xaqan abidəsinin cənub tərəfinin 10-cu,qərb tərəfinin 2-ci,Moyunçur abidəsinin 12-ci sətirlərində və sairə üzləşirik.

Qeyd etmək lazımdır ki,qədim türk dilində "uçmaq" kəlməsinin bir mənası da cənnət,behişt olmuşdur.Bu kəlməyə Azərbaycan klassik ədəbiyyatında,o cümlədən Məhəmməd Füzuli və Şah İsmayıl Xətainin şerlərində sıx-sıx rast gəlinməkdədir.

Deməli,Mingəcevir küpünün üzərindəki piktoqramdakı ağac və quş təsvirləri birlikdə bu dünyadan o biri dünyaya köçü ifadə edir.Piktoqramdakı üçbucaqlar isə kurqanı,yəni goru simvolizə edir.Məlumat üçün bildirək ki,qədim şumerlərdə üçbucaq üç mənada – şəhər,dağ və gor mənalarında işlənirdi və "kur" kimi oxunurdu.Bu oxunuş türk dillərindəki "gor"sözü ilə üstiüstə düşür.

Səkkiz guşəli ulduza gəlincə,qədim şumerlərdə bu işarənin də iki mənası var idi:1)göy,2)Tanrı.Həmin işarə "dingir" kimi oxunurdu ki,bu da qədim türk dilindəki "Tenqri",yən "Tanrı" kəlməsinə uyğundur.Ulu babalarımız Tanrıya həm də "Gök Tenqri",yəni göyün Tanrısı və yaxud göydəki Tanrı deyirdilər.

Piktoqramdakı maral isə çox güman ki,mərhumun mənsub olduğu qəbilənin totemidir və onun hansı qəbilədən olduğunu göstərir.Bütün bu deyilənlərdən belə çıxır ki,piktoqramı belə oxumaq lazımdır:Maral qəbiləsinin bir üzvü bu dünyadan ayrılaraq cənnətə,Tanrı dərgahına köçdü.

Ekranda Azərbaycan,Şərqi Anadolu və Türkmənistan ərazisindən tapılan, Eneolit dövrü abidələrindən tapılan müxtəlif gil qadın heykəl təsvirləri birbirini əvəz edir və ən sonda qarın nayihəsində ağac şəkli cızılmış bir heykəlcik təsviri canlanır.

Diktor mətni:

"Eneolit dövrünün sənət əsərləri içərisində gil və daş qadın heykəlciklərinin xüsusi yeri olmuşdur.Belə heykəllər tədqiqatçılar tərəfindən anaxaqanlıq dövründə qadına verilən yüksək dəyər və onun ilahiləşdirilməsi kimi qiymətləndirilir.İndiyə qədər Azərbaycan,Şərqi Anadolu və Cənubi Tükmənistan ərazisində yüzə yaxın belə heykəlcik tapılmışdır.Maraqlıdır ki,onların bir çoxunun qarın nayihəsində ağac təsviri cızılmışdır.Bu fakt qədim türk mifoloji təsəvvürləri ilə sıx surətdə

bağlıdır.Məsələ burasındadır ki,qədim türk miflərində ağac qadınla,doğum ilahəsi ilə birbaşa bağlıdır.”

Ekranda Mirəli Seyidovun “Azərbaycan mifik təfəkkürün qaynaqları kitabının üz qabığının,daha sonra isə alimin öz şəkli peyda olur.

Diktor mətni:

“Azərbaycan və türk dünyasının mifologiyasının böyük bilicisi,dahi Azərbaycan alimi mərhum Mirəli Seyidov özünün çox sanballı “Azərbaycan mifik təfəkkürünün qaynaqları”adlı monoqrafiyasında mövzu ilə bağlı çox maraqlı fikirlər söyləmişdir.”

Ekranda peyda olan aktyor sözügedən kitabdan oxuyur:

“Son vaxtlara qədər Azərbaycanın bir çox yerlərində ağac pirləri olmuşdur.Həmin pirlər əsasən uşqa-doğum pirləri kimi də məşhurdur.Buraya doğmayan qadınlar övlad arzusu ilə gəlib tapınar,səcdəyə düşərmişlər.Ağacın doğum piri olması ,onun həm dünya ağacının atributu olmasına işarədir, həm də bu inamın Umayla mifoloji əlaqəsinin təzahürüdür.Bizcə,ardıca və başqa ağaclara belə münasibət ağac onqonu ilə əlaqədardır, ağaca sitayişin əlamətidir. Bir çox axtarışlar göstərir ki,ağaca sitayiş ulu türkdilli xalqlarda ən çox yayılmış görüş olmuşdur.Bu məsələ ilə əlaqədar Ermitajdakı Altay qəbilələrinə aid edilən maddi-mədəniyyət nümunələri elmə xeyli maraqlı material verir.Eradan əvvəl 4 -3-cü əsrlərə aid edilən həmin sənət nümunələri içərisində bir əl-üz dəsmalında şəkil xüsusi əhəmiyyət kəsb edir.”

Ekranda sözügedən əl-üz dəsmalının üzərindəki şəkil canlanır.

Diktor mətni:

“Həmin şəkildə ilahənin əlində müqəddəs ağac təsvir olunmuşdur.Dəsmal haqqında bəhs edən tanınmış rus tədqiqatçısı Qryaznova qeyd etmişdir ki,burada döğum və bərəkət ilahəsi və onun əlində ağac təsvir olunmuşdur.Dəsmaldakı təsvir Sübut edir ki, qədim türklər,o cümlədən Altay türkləri ən qədim zamanlardan ağaca müqəddəs şey kimi baxırmışlar.Mirəli Seyidovun sözlərinə görə,hətta bəzi abidələr göstərir ki,türk xalqları ağacı doğum və uşaqların hamisi olan ilahə ilə birgə təsəvvür etmişlər.Bu mifoloji baxımdan təbii haldır.Dünya ağacı bütün dünyanın, eləcə də yaradıcısı,hamisi sayılırmış.Belə inam hökm sürürdüsə, deməli,uşaqları himayə edən ilahə,yəni Umay təbii olaraq ağacla qoşa yad edilməli idi.”

Ekranda dahi rus türkoloqu V.Radlovun şəkli görüntülənir.

Diktor mətni:

"Məşhur türkoloq Radlovun türk xalqlarından topladığı ağız ədəbiyyatı materialları ona belə bir fikir yürütməyə imkan vermişdir ki,türk xalqlarının şifahi ədəbiyyatında ilahə Umayla ağac həmişə qoşa xatırlanmışdır və bu hal 19-cu əsrin sonu-20-ci əsrin əvvəllərinə qədər davam etmişdir. Alimin Sibir və Altay türklərindən topladığı materiallarda deyilir:Biz ilkin atamız Ülgendən törədiyimiz zaman bu iki çayın ağacı da Umay ilə bərabər göydən enmişdir."

Ekranda qarın nayihəsində ağac təsviri cızılmış qadın heykəlciyi peyda olur.
Diktor mətni:

"Bu sitatdan göründüyü kimi,qədim türklər ağacın doğum ilahəsi Umayla birgə endiyinə inanmışlar.Bütün bu faktlar sözügedən inamım məhz türk düşüncə tərzi ilə bağlı olduğunu və həmin düşüncə tərzinin də ən azı Eneolit dövündə formalaşdığını sübut edir.Deməli,bu heykəlciklər qədim türk doğum ilahəsi Umayı əks etdirir.

Ağac təsvirlərinin ilahənin məhz qarın nayihəsində cızılması da hüykəlciklərin məhz Umaya aid olduğunu sübut edir.Məsələ burasındadır ki,qədim türk dilində ana bətninə,yəni qadın uşaqlığına "umay" deyilmişdir.Bu fakt Radlovun "Qədim türk lüğəti"ində də təsbit edilmişdir.Bu səbəbdən də ilahə heykəlciklərinin qarnında cızılan ağac təsvirləri ideoqrafiya nümunəsi kimi də gözdən keçirilə bilər."

Ekranda Orxon-Yenisey abidələrinin təsvirləri bir-birini əvəz edir.Sonda ekrana Kül Təkin abidəsinin şərq tərəfi gəlir.
Diktor mətni:

"Kökü minilliklərin dərinliklərinə enən Umaya inamınn izlərinə Orxon-Yenisey abidələrində də rast gəlimnməkdədir.Belə ki,Kül Təkin abidəsinin şərq tərəfində,31-ci sətirdə yazılıb:Umay tək ögim katun kutunqa inim Kül Tiqin at bultı.Yəni, Umay tək anam xatunun bəxtinə kiçik qardaşım Kül Təkin ad qazandı."

Ekrandakı təsviri Tonyukuk abidəsinin qərb tərəfinin təsviri əvəz edir.
Diktor mətni:

"Tonyukuk abidəsinin qərb tərəfində,38-ci sətirdə belə deyilir:Tenqri, Umay,ıduk Yer-Sub basa berti erinc.Yəni,Tanrı,Umay və müqəddəs Yer-Su qələbə bəxş etdilər."

Ekranda Azərbaycanın müxtəlif xalça çeşnilərinin təsvirləri bir- birini əvəz edir.
Diktor mətni:

"Eneolit dövründə təşəkkül tapmış toxuculuq sənəti daha da inkişaf etmişdi.Azərbaycanın bir sıra Eneolit abidələrindən—Kültəpə 1,Hacı Firuz,İlanlıtə-

pə,Babadərviş,Leylatəpə və sairə abidələrdən tapılmış iy ucları,habelə Əlikömək-təpəsindən tapılmış saxsı qabın səthində qalmış toxuma izi bunu sübut edir.

Ekranda İngilis arxeoloqu Jeyms Mellartın şəkli görüntülənir.
Diktor mətni:

"Əldə olan məlumatlar xalçaçılıq sənətinin artıq Neolit-Eneolit dövrlərin-də formalaşdığını sübut etməkdədir.Məşhur ingilis arxeoloqu Jeyms Mellart Anadolu ərazisində yerləşən Çatal-Hüyük abidəsində qazıntılar apararkən kö-mürləşmiş xalı qalıqlarına rast gəlmiş və həmin xalının üzərindəki naxışların qorunub saxlanmamasından böyük təəssüf hissi keçirmişdi.Lakin qazıntıların son-rakı mərhələsində o son Eneoli dövrünə aid yaşayış binasının divarında xalça naxışlarını xatırladan naxışlara rast gəlmiş,bu naxışların bu günə qədər Anadoluda toxunmaqda olan türk xalçalrının naxışları ilə tam eyni olduğunu görüb təəccüb-lənmişdi."

Ekranda rus arxeoloqu Sarianidinin şəkli peyda olur.
Diktor mətni:

"Eyni halla cənubi Türkmənistanda qazıntılar aparan tanınmış rus arxeoloqu Sarianidi də üzləşmişdi.O,tapdığı son Eneolit-erkən Tunc dövrlərinə aid saxsı qabların üzərindəki naxışların bu gün də həmin ərazidə toxunmaqda olan türkmən xalçalarının naxışları ilə eynilik təşkil etdiyini görüb son dərəcə heyrət-lənmişdi."

Ekranda türkmən xalcası fonunda Türkmənistan ərazisindən tapılmış qabların təsvirləri canlanır.
Diktor mətni:

"Sarianidi digər bir tanınmış rus arxeoloqu Masson ilə birlikdə qələmə aldıqları "Qaraqum:Sivilizasiyanın ilk şəfəqi" adlı kitabında bu mövzuya toxunaraq yazır."

Ekranda peyda olan aktyor eyni təsvirlərin fonunda sözügedən kitab-dan oxuyur:

"Eramızdan əvvəl 3-cü minilliyin ikinci yarısından etibarən Cənubi Türkmənistan qəbilələrinin dulusçuluq sənətində böyük dəyişikliklər baş verməyə başladı.Zoomorf motivlərin yerini həndəsi naxışlar tutdu.Bu naxışlar ağlasığmaz bir şəkildə xalça naxışlarını xatırlatmaqdadır."

Ekranda sənətşünas alim Kübra Əliyeva görünür.Ekranın aşağı tərəfində onun adı,soy adı,elmi dərəcəsi yazılır.O deyir:

"Hər bir xalqın naxış sənəti nüəyyən etnik xüsusiyyətlərə sahibdir və digər xalqların naxış sənəti ilə ümumi cəhətlərə malikdir.Xalqın mədəniyyəinin əhəmiyyətli tərkib elementlərindən biri olan və onun tarixi ilə sıx bağlı olan naxışlar etnik mədəniyyət tarixinin öyrənilməsində də mühüm mənbə rolunu oynayır.Naxış sənəti xalqın məişəti,ictimai şəraiti ilə sıx bağlı olmaqla yanaşı,onun fəlsəfi-dini və magik dünyagörüşünü də əks etdirir.Naxış motivləri təkrarlanaraq ritmlər yaradır.Təsadüfi deyil ki,ornament motivlərini ritmlər də adlandırırlar.Bu baxımdan Tunc dövrünə aid keramika məmulatlarının naxışlarının öyrənilməsi böyük önəm daşımaqdadır.Həmin dövrə aid Naxçıvan saxsı qablarının üzərlərindəki naxışları gözdən keçirməklə ornamentlərin xarakterini müəyyənləşdirmək mümkündür.Bu qabların üzərindəki naxışlar içərisində nəndəsi fiqurlar:romblar,üçbucaqlılar,latın əlifbasının "S"hərfini və üç rəqəmini xatırladan spiralvari elementlər,spirala çevrilən düz xətlər və sairə geniş yayılmışdır.Eyni motivlərə Azərbaycan xalçalarında da rast gəlinir."

Alim danışdıqca arxa fonda xalça və saxsı qab naxışları görüntülənir.

Ekranda "Azərbaycan nağılları" kitabımın üz qabığı görüntülənir.
Diktor mətni:

"Mütəxəssislər xalça naxışlarının qədim pikoqrafiya və ideoqrafiya nümunələri kimi qiymətli mənbə olduğunu və qədim insanların dünyagörüşü barədə informasiya daşıyıcıları olduğunu qeyd edirlər.Belə hesab edilit ki,hər bir naxış müəyyən bir sözü ifadə edir və bu naxışlar əslində mənaları unudulmuş təsvirli yazılardır.Bu fikri "Şahla qız" adlı bir Azərbaycan nağılının məzmunu da təsdiq etməkdədir.(Ekrandakı kitab açılır və səhifələr bir-birini əvəz edir.).Həmin nağılda şahın bir qıza aşiq olmasından,qızınsa ona şərt olaraq bir sənət öyrənəcəyi halda ərə gedə biləcəyini söyləməsindən,şahın da xalçaçılıq sənətini öyrənməsindən söz açılr.Bir gün şah əsir düşür.O,əsirlikdə bir xalça toxuyur.Arvadı həmin xalçanın naxışlarını oxuyaraq şahın başına gələnlərdən xəbərdar olur və onun əsir olduğu yeri başa düşür.Bundan sonra şahı əsirlikdən xilas edirlər."

Ekranda tanınmış qumuq tədqiqatçısı Murad Aci peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və məşğuliyyəti yazılır. O deyir:

"Практичные тюрки,оказывается, не просто так укзрашали свои шашки, шлемы, колчуги, сбрухи коней. Орнамент означал принадлежность вещи ее хозяину из того или иного тухума,рода, он служил своеобразной меткой. Этим подчеркивалось единство рода.У тюрков стандартизировались даже орнаменты. Потому что орнаменты несли информацию!

Оригинально и талантливо расшифровал эту информацию чувашский ученый Трофимов,очень наблюдательный человек.Он устоновил,что в орнаментах предки часто шифровали слова и фразы.Мастерство

художника позволяло придать руническим письменам витеаватый вид узора. Иследовав вышивки украинцев,казаков,чувашей Трофимов прочитал их и сделал неожиданный вывод, что еще в глубокой древности именно орнаменты выполняли роль визитной карточки человека. В них была не просто красота. А, красота , понятная только своим: тайнопись!"

Murad Aci danışdıqca kadr arxasından diktor onun sözlərini sinxron tərcümə edir:

"Praktik insanlar olan türklər,demə,öz qılınc,dəbilqə və zirehlərini,eləcə də at nəsnələrini bəzəmək xatirinə bəzəmirdilər.Naxış onun sahibinin bu və ya digər soy və ya boya mənsub olduğunu bildirirdi,yəni işarə rolunu oynayırdı.Beləcə soyun birliyi vurğulanmış olurdu.Türklərdə hətta ornamentlər standartlaşdırılırdı.Çünki naxışlar informasiya daşıyıcısı idilər.

Bu informasiyanı çox istedadlı və diqqətli adam olan çuvaş alimi Trofimov orijinal yolla və çox uğurla deşifrə edə bilmişdir.O,əcdadlarımızın adətən ornamentlərin köməkliyi ilə söz və kəlmələri ifadə etdiklərini təsbit etmişdir.Rəssamlar ustalıqla tamğalara naxış şəkli verirdilər.Ukraynalı,kazak və çuvaşların tikmələrini araşdıran Trofimov onları oxudu və gözləniçməz bir nəticəyə gəldi:Ən qədim dövrlərdə insanların vizit kartı rolunu məhz naxışlar oynayırdılar. Onlar sadəcə gözəlliyə xidmət etmirdilər,yalnız özünkülərin başa düşəcəyi gizli yazı kimi də çıxış edirdilər."

Ekranda Murad Acini dilçi alim Firidun Ağasıoğlu əvəz edir. Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır. O deyir:

-XlX əsrdən üzü bəri Tomsen, Şifner, Aristov, mallitski, Polivanov, Emre, Batmanov, Bekmıradov və bir çox başqa alimlər türk - run əlibasının qədim türk tamğalarından yaranması fikrini söyləmişlər. Lakin onlardan daha öncə türkmən şairi Əndalipin qələminə məxsus "Oğuznamə"də bu fikir söylənmiş, əski türk hərflərinin 24 oğuz boyunun tamğalarından törədiyi vurğulanmışdır.

Azərbaycan xalçalarında rastlanan qədim loqoqram, tamğa və runik işarələr artıq ilkin unksiyasını itirərək naxışlaşmışdır.Lakin onların bugünə qədər xalçaçılıqda işlədiımə gələnəyi göstərir ki, vaxtilə onlar inormativ yük daşımış və geniş şəkildə işlədilmişdir...

Ekranda Azərbaycan xalçalarında rastlana tamğa və loqoqramlar görünür. Alim sözünə kadr arxasından davam edir:

-...Runik əlifba və tamğaların yayılma arealını tədqiq edən türkiyəli tədqiqatçı alim Doğana görə, mərkəzləri Doğu Anadolu və Quzey Qafqaz olan bu əlifba loqoqramdan tamğaya keçid dönəmini Qafqazda keçirmişdir.

Ekranda "Damğalı"tipindən bir xalça təsviri görünür.

Dikor mətni:

"Ornamentlərinin hər biri "gizli yazı"nın ayrı-ayrı kəlmələri kimi çıxış edən,yəni ideoqrafik işarə rolunu ifa edən Azərbaycan xalçalarından biri də "Damğalı" tipli xalça növüdür.Adından da göründüyü kimi bu xalçanın naxışları kimi qədim türk tamğaları çıxış etməkdədir."

Ekrandakı xalçanın fonunda sənətşünas alim Rasim Əfəndi peyda olur və deyir:

"Orijinallıq baxımından 1960-cı ildə Almaniyanın Münhen şəhərindəki əntiq mallar mağazasında nümayiş etdirilən Qazax xalçası da diqqəi cəlb edir.Bu xalça da əksər xalçalarımız kimi üç haşiyəli yelən və enli arasahədən ibarətdir.Uzunu 235 santimetr,eni 168 santimetr olan bu xalçanın arasahəsi xüsusən bəzəkli və rəngarəngdir.Xalçanın al qırmızı yerliyində ardıcıl olaraq təkrarlanan rəngli 7 göy sxematik xonça yerləşdirilmişdir.

Öz konstruktiv quruluşu ilə Şərq aləmində geniş yayılmış,ucları 4 müxtəlif tərəfə ayrılan svastikanı andıran bu bəzəklər elə real səpgidə toxunmuşdur ki, sanki onlar bir nöqtə ətrafında fırlanaraq hərəkət edir.Bu ornament elementinə biz təkcə "Damğalı"adını almış bu tipli Qazax xalçalarında deyil,dekorativ-tətbiqi sənətimizin başqa növlərində də rast gəlirik.

Azərbaycan dekorativ-tətbiqi sənət tarixinin,demək olar ki, bütün mərhələlərində bu bəzək həmişə səma cisimlərinin "şahı" sayılan günəşi təmsil etmişdir."

Alim ekrandan itir,xalça təsviri isə qalır.

Diktor mətni:

"Damğalı" tipli xalçalarda diqqəti cəlb edən ikinci element latın əlifbasındakı "S"hərfini xatırladn elementdir."

Ekrandakı xalçanın üzərində yer alan sözügedən element böyüdülmüş vəziyyətdə təsvir edilir.

Diktor mətni:

"Folklorşünas alim Məhəmməd Hatəmi Tantəkin və sənətşünas alim Kübra xanım Əliyevanın yazdıqlarına görə,bu element əjdahanı təmsil etməkdədir.

Xalçada diqqəti çəkən üçüncü element isə qoç buynuzlarını xatırladan naxışdır."

Ekranda sözügedən naxışın böyüdülmüş şəkli təqdim olunur.

Diktor mətni:

"Sənətşünas alim,Azərbaycan xalçalarının ən gözəl bilicisi Lətif Kərimov bu naxışın "qoç","qoyun"mənaları verdiyini bildirmişdir."

Ekranda yenidən "Damğalı" xalçası təsvir olunur.
Diktor mətni:

"Deməli qarşımızda üç ideoqrafik elementli bir "yazı" vardır.Bu "yazı"nı əski tük dilinin sinonim və omonimlər sistemini bilmədən "oxuya" bilmək qeyri-mümkündür.Öncə günəşi təmsil edən svastikavari ideoqramla əjdahanı əmsil edən "S"vari ideoqramın birlikdə nə məna ifadə etdiklərini anlamağa çalışaq.

Məlum olduğu kimi türk xalqlarının,o cümlədən Azərbaycan türklərinin folklorunda əjdahanın günəşi udması ilə bağlı süjet geniş yayılmışdır.Bu süjet türk xalqlarından digər xalqların da folkloruna keçmişdir.Şübhəsiz ki,bu mifoloji süjetin əsasını günəşin üzünün qara buludlar tərfindən örtülməsi kim real təbiət ha-disəsi təşkil etməkdədir.(Eranda qara buludun günəşi örtməsi ilə bağlı süjet göstərilir və bu süjet yenidən həmin xalça təsviri ilə əvəz olunur.) Buludun əjdaha ilə eyniləşdirilməsinin səbəbi isə odur ki,qədim türk dilində həm buluda,həm də əj-dahaya "buka"deyilmişdir.Yəni "buka"ifadəsi həm "bulud",həm də "əjdaha sözünün sinonimi idi.Üstəlik də bulud mənasındakı "buka" ilə əjdaha mənasındakı "buka"omonim sözlər idi.

İndi isə üçüncü elementə keçək və hər üç elementi birlikdə "oxumağa"çalışaq.İlk öncə qeyd etmək lazımdır ki,qədim türk dilində "qoyun" sözünün "koy" və "ud" kimi sinonimləri olmuşdur. Bu sinonimlərdən "ud" eyni zamanda "udmaq" felinin kökü olan "ud" kəlməsi ilə omonimdir. Deməli, buradakı "qoç"işarəsi ilə "ud"kəlməsi "yazılmış və bu kəlmə udmaq mənasında işlənmişdir.Odur ki,xalcadkı ideoqrafik yazı belə oxunmalıdır: Buka,yəni bulud və ya əjdaha günəşi uddu.

Bu baxımdan başqa bir Azərbaycan xalçası da özündə çox maraqlı bir mifoloji informasiya daşımaqdadır.Söhbət Nyu-Yorkda Berq Andonyanın şəxsi kolleksiyasında saxlanılan 19-cu əsrə aid bir Quba xalçasından gedir."

Ekranda sözügedən xalçanın təsviri görünülənir.
Diktor mətni:

"Minilliklər boyu nəsildən nəslə ötürülərək dövrümüzədək ulaşmış bu motivi bizim üçün maraqlı edən xalçada, sxematik şəkildə də olsa, əllərini yuxarı qaldırmış bir qadın təsvirinin boğaz nayihəsini bəzəyən ağac təsviri ilə birlikdə əks edilməsidir ki,bu da Eneolt dövrünə aid olan,qarın nahiyələrində ağac təsvir edilən, Umay ilahəsini təmsil edən heykəlciklərlə eyni semantik məna yükünü daşımasıdır."

Ekrandakı xalçanın fonunda Eneolit dövrünə aid olan,qarın nahiyələrində ağac təsviri bulunan heykəlcik təsvirləri peyda olur və qısa müddət sonra itir.
Diktor mətni:

“Xalçadakı ilahənin qarnı iki kameralı əsvi edilmişdir.Bunda məqsəd bir yandan onun hamilə olduğunu diqqətə çatdırmaq,digər yandan diqqəti buna çəkərək söhbətin Umaydan getdiyini vurğulamaqdır.Çünki,artıq qeyd etdiyimiz kimi qədim türk dilində qadın bətninə “umay” deyilirdi.Ən maraqlı cəhətlərdən biri isə odur ki, bu təsvirdə ağac ilahənin qarın nahiyəsində deyil, boğaz nayihəsində təsvir edilmişdir.Bunun da səbəbini bilmək üçün qədim türk dilindəki omonimlər sistemindən xəbərdar olmaq lazımdır.

Məsələ burasındadır ki, qədim türk dilində “boğaz” kəlməsi təkcə insan bədəninin gövdəsini başla birləşdirən hissəsinə deməmişlər,eyni zamanda bu kəlmə ilə hamiləliyi də ifadə emişlər.Bu gün də Azərbaycan türkcəsində hamiləlik mənasında “boğaz” kəlməsi işlənməkdədir.Eyni kəlmə əski türk yazılı abidələrində daha məhsuldar olmuşdur.”

Ekranda “Oğuznamə”nin uyğur variantının birinci səhifəsinin təsviri görüntülənir.

Diktor mətni:

“Məsələn,“Oğuznamənin uyğur variantında bu kəlməyə “töl boğaz” söz birləşməsi şəklində rast gəlirik.”

Ekrandakı təsvirin fonunda yazılır:

“TÖL BOĞAZ BULDİ, KÜNLERDEN SONQ,KECƏLƏRDƏN SONQ YARUDİ.”

Bir qədər aşağıda isə bu cümləni Azərbaycan türkcəsindəki tərcüməsi yazılır:

“O,DÖL BOĞAZ OLDU,GÜNLƏR,GECƏLƏR SONRA YÜKÜNÜ YERƏ QOYDU.”

Diktor hər iki cümləni oxuyur.

Ekranda yenidən Quba xalçası görünür.

Diktor mətni:

“Bu xalçada diqqəti çəkən daha bir maraqlı məqam Umay ilahəsini ətrafını 22 çiçəyə bənzər elementin bəzəməsidir.Çox güman ki,bu,22 oğuz boyuna işarədir.Məsələ burasındadır ki,oğuz boylarının sayını 24 kimi qeyd edən Yazıçıoğlu Əlidən fərqli olaraq Mahmud Kaşğarlı onların sayını 22 göstərmişdir.”

Ekrandakı xalça təsvirini bir vaxtlar Macarıstanın paytaxtı Budapeştdəki əntiq mallar mağazasında saxlanılan,19-cu əsrə aid Şirvan xalçasının təsviri əvəz edir.

Diktor mətni:

"Bir vazxtlar Macarıstanın paytaxtı Budapeşt şəhərindəki əntiq mallar mağazasında saxlanılan və haqqında Azərbaycan elmi ictimaiyyətinə sənətşünas alim Rasim Əfəndi tərəfindən məlumat verilən,19-cu əsrdə toxunmuş Şirvan xalçasında da oğuz boylarına işarə edilməkdədir.Beləki bu xalçanın üzərindəki 3 romba bənzəyən 8 bucaqlı fiqurlardan ən altdakında 24 qarmaqvari işarə gözə dəyir.Ola bilsin ki,bunlar 24 oğuz boyunu təmsil edir.

Diqqəti ən çox cəlb edən isə xalçanın alt tərəfindəki simmetrik şəkildə iki dəfə təkrarlanan 3 oxdur.Görünür bu oxlar, haqqında "Oğuznamə"də söz açılan üçoxları təmsil edir. "Oğuznamə"də deyilir..."

Ekrandakı xalça təsvirinin fonunda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Oğuz Kağanın yanında ağ saqqallı,ağ saçlı bir kişi vardı.Xeyirxah,müdrik bir kişi idi,yuxu yozan,qeybdən xəbər verəndi.Onun adı Uluğ Türük idi.Günlərin bir günü o,yuxuda bir qızıl yayla üç gümüş ox gödü.Bu qızıl yay gündoğandan günbatanacan uzanmışdı,üç gümüş ox isə quzeyə tərəf qanadlanmışdı.Oyandıqdan sonra Uluq Türük yuxuda gördüklərini Oğuz kağana bildirdi.Söylədi:

-Ay Kağanım,sənin ömrün olsun uzun!Ay Kağanım,qoy ədalət olsun sənə qanun!Göy Tanrı mənə yuxumda bildirdi.Qoy yuxum çin olsun!Aldığın torpağı sənin uruğuna versin!

Oğuz Kağan Uluq Türükün sözünü bəyəndi,öyüdünü dinlədi,öyüdünü tutub əməl elədi.Sonra sabah olunca,böyük qardaşları,kiçik qardaşları çağırtdırıb gətirtdi.Onlara belə söylədi:

-Könlüm ov istəyir.Qocalıqdan yox məndə daha taqət.Gün,Ay,Ulduz,siz gündoğana tərəf gedin,Göy,Dağ,Dəniz,siz də günbatana tərəf gedin.

Bundan sonra üçü gündoğana,üçü də günbatana doğru getdi.Gün,Ay,Ulduz çoxlu vəhşi heyvan,çoxlu quş ovlayıb,sonra yoldan qızıl bir yay tapdılar.Yayı götürüb,atalarının yanına gəldilər.Oğuz Kağan sevindi,güldü,onu üç hissəyə böldü. Dedi:

-Ay böyük qardaşlar,yay sizin olsun.Oxları göylərə atın!

Bundan sonra Göy,Dağ,Dəniz çoxlu vəhşi heyvan,çoxlu quş ovlayıb,sonra yoldan üç gümüş ox tapdılar.Götürdülər,atalarına verdilər.

Oğuz Kağan sevindi,güldü,oxları hər üçünün arasında bölüşdürdü.Belə söylədi:

-Ay kiçik qardaşlar oxlar sizin olsun.Yay oxu atdı.Sizlər olun oxlar tək."

Ekranda Şirvan xalçasının üzərindəki üç ox təsviri iri planda görüntülənir.

Diktor mətni:

"Dastandan belə məlum olur ki,Oğuz Kağan yayı verdiyi oğullarının nəslini Bozoklar,oxları verdiyi oğullarının nəslini isə Üçoklar adlandırmışdır.Deməli,sözügedən Quba xalçası üçok, yəni üçox tayfasının yaratdığı çeşnilərdəndir."

Ekrandakı təsviri 24 xanalı Anadolu türkmən xalçasının təsviri əvəz edir.
Diktor mətni:

"Anadoluda geniş yayılmış 24 xanalı türkmən-oğuz xalılarındakı xanaların sayı da 24 oğuz boyunu ifadə etməkdədir."

Ekrandakı 24 xanalı Anadolu xalısını Altaydakı Pazırıq kurqanından tapılan xalçanın ümumi görüntüsü və ayrı-ayrı elementlərinin təsvirləri əvəz edir.
Diktor mətni:

"20-ci əsrin ortalarında Altayda yerli türklərin "Pazırıq",yəni "Basırıq" ad-landırdıqları yerdə qazıntı aparan rus arxeoloqları iskitlərə aid qədim bir kurqandan Hamını heyrələndirən əşyalar tapdılar.iskit-saqa boylarına məxsus bu sənət nümunələri içərisində salamat qalmış və rəngini itirməmiş bir xalı da var idi."

Ekranda dilçi alim Firidun Ağasıoğlu peyda olur.Ekranın alt tərəfində onun adı,atasının adı və elmi dərəcəsi yazılır.O deyir:

"Pazırıq xalısı adı altında bu gün Sakt-Peterburqun "Ermitaj"muzeyində saxlanılan və nümayiş etdirilən bu xalının yaşı miladdan əvvəl 5-ci əsrə aid edilir.180 x 200 santimetr ölçüsündə olan Pazırıq xalısını üzərindəki naxışların-at və maralların ortasındakı çərçivədəki 24 xananın anlamı bir çox alimin tədqiqat mövzusuna çevrilmişdir."

Ekranda yenidən Pazırıq xalısının ümumu görüntüsü çanlanır.
Firidun Ağasıoğlu kadr arxasından deyir:

"Tədqiqatçılar bir-birindn xəbərsiz bunun 24 oğuz boyu ilə bağlı olduğunu söyləmişlər."

Ekranda Nəsir Rzayev görünür və deyir:

"Qədim Şərqdə yazı mədəniyyəti üç inkişaf mərhələsi keçmişdir.Birinci mərhələ piktoqrafik yazıların,yəni təsvirli yazıların yaranması və inkişaf dövrüdür. Bu dövrdə piktoqrafik yazıların ortaya çıxması qədim insanların magik təfəkkürü ilə üzvü surətdə bağlı olmuşdur.Piktoqramlar magik təfəkkürün məhsuludur.Magik təfəkkür isə ibtidai şüur səviyyəsində olan insanların təxmini və şərti anlayışlarının

nəticəsi idi.Qədim insanların magik təfəkkürü müxtəlif vaxtlarda formalaşdığı üçün piktoqramlar qədim xalqların hamısında eyni vaxtda yaradılmamışdır.Misal üçün,təsvirli yazılar Çin,Hindistan,Misir kimi qədim ölkələrdə yeni Daş dövründə meydana çıxdığı halda,bu mədəniyyət Azərbaycanda daha əvvəl,orta Daş dövründə yaranmağa başlamış,Mis-Daş dövründə isə özünün ikinci mərhələsinə-ideoqrafik yazı mərhələsinə keçmişdir."

Ekranda İohannes Fridrixin öncə öz,daha sonra isə "Yazı tarixi" kitabını üz qabığının təsvirləri görüntülənir.

Diktor mətni:

"İohannes Fridrixin yazdığına görə,piktoqrafik yazı vasitəsi ilə yalnız baş vermiş hadisə barədə ümumi məlumat çatdırılır və buradakı şəkillər ayrı-ayrı sözləri ifadə etmir.İdeoqrafik yazıda isə hər bir şəkil və ya işarə,tamğa konkret bir sözü bildirir.Alim qeyd edir ki,bu iki yazı növündən daha qədim yazı növü əşya yazısı olmuşdur.Bu yazı növündə şəkillərin yerinə sözləri ayrıayrı əşyalar ifadə etməkdə idi."

Ekranda "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Bir qalanın sirri filmindən Mətanətin Elşənə bir boxçada əşya yazısı təqdim etməsi və gəncin onu oxuması səhnəsini əks etdirən süjet canlanır.

Ekranda "Azərbaycan nağılları" kitabının üz qabığı görünür.O acılır və səhifələr bir-birini əvəz edir.

Diktor mətni:

"Azərbaycanda piktoqrafiya və ideoqrafiya mərhələlərindən öncə əşya yazısının da mövcud olmuş olması barədə Azərbaycan folklorunda,ilk növbədə də nağıllarımızda kifayət qədər məlumat vardır. Bu baxımdan Daşdəmirin nağılı deyilənlərə ən gözəl misaldır."

Ekranda peyda olan aktyor əlində tutduğu kitabdan oxuyur:

"...Qadın çadrasının altından bir boşqab çıxarıb Daşdəmirin qabağına qoydu.Daşdəmir baxıb gördü ki,boşqabda bir nar,bir top iynə,bir qayçı var,bir vərəq kağız var,bir tikə ət var,bir də bıçaq var.

Qadın dedi:

-Əgər Mirzə Möhsündən öyrəndiklərin yadından çıxmayıbsa bu şeylərdə gərək çətinlik çəkməyəsən.

Daşdəmir heç bir söz demədi.Bıçağı götürüb əti tikə-tikə doğradı.Qayçını götürüb kağızı kəsik-kəsik elədi,sonra iynələri bircə-bircə nara sancıb boşqaba qoydu.Qadın güldü,dedi:

-Afərin!Ancaq de görüm bununla nə demək istəyirsən?

Daşdəmir dedi:

-Xanım,mən başa düşdüm ki,sən mənə gizli bir sirr demək istəyirsən,ancaq qorxursan.Mən bununla demək istəyirəm ki,əgər mənim bədənimi bu ət parçası kimi parçalasalar,bu kağız kimi tikə-tikə doğrasalar,bu nar kimi oxla doldur-salar,yenə də bu sirri heç kəsə açmaram.Qorxma,danış!

Bunu deyəndə qadın üzünü açdı.Daşdəmir baxdı ki,Mirzə Möhsünün qızı nardandı.

Daşdəmir soruşdu:

"Bu nə haldı,atan haradadı?

Nardan dedi.."

Ekranda aktyorların ifasında milli geyimli Nardan və Daşdəmir görünür.On-lar gül-cicəkli bir bağçada ayaq üstə dayanmışlar.Qız deyir:

"Dayan!Elə bunun üçün gəlmişəm."

Nardan yerdəki üzərinə döşəkçə və mütəkkələr döşənmiş xalçanın üstündəki döşəkçələrdən birini üstünə oturur və deyir:

"Daşdəmir,o gün ki,atam saraya,padşahın yanına getdi,daha geri qayıtmadı.Bu günə qədər də başına nə gəldiyini bilmirəm.Ancaq elə haman gün bizim qonşumuz mənə bir şey gətirdi ki,atan bazarda məni gördü,bu şeyləri alıb verdi ki,sənə çatdıram.

Mən şübhələndim ki,atamın başına bir iş gəlib.Odur ki,daha o evdə qalmayıb,gecə ilə köçdüm.Atamın göndərdiyi şeylərdən üçünü başa düşürəm,ikisini başa düşə bilmirəm.Səni buna görə axtarırdım ki,mənə kömək eyləyəsən."

Daşdəmir də oturub soruşur:

"Atanın göndərdiyi şeylər nədi?

Qız cavab verir:

"Atam bir armud,bir gavalı,bir əl dəyirmanı,bir parça dəmir,bir dənə də daş göndərib.Əl dəyirmanı ovdandır.Daşla dəmir də sənsən.Amma armudla gavalını başa düşə bilmirəm.(O,çadrasının altından bir armud və gavalı çıxarıb oölana verir.)

Daşdəmir meyvələrə baxır,gülür və deyir:

"Sən düz tapıbsan.Daş,dəmir,əl dəyirmanı sən dediyin kimidi.Ancaq mən bu meyvələri də tapdım."

Nardan soruşur:

“Nədi?”

Daşdəmir armudu qıza göstərib deyir:

“Nardan,bu armudun adı Abbasbəyi armududur.Bu gavalıya da bağbanlar “Vəzir Alı” deyirlər.Atan demək istəyir ki,Daşdəmirin xaraba dəyirmanda başına gələn iş padşahın qoşun böyüyü Abbas bəylə,bir də vəzirlə əlaqədardır.”

Ekranda yenidən İohannes Fridrixin şəkli görünür.
Diktor mətni:

“Yazı tarixinin gözəl bilicisi,tanınmış alman alimi İohannas Fridrixin sözlərinə görə,ideoqrafik yazı əşya yazısının bazasında,yazıda istifadə olunan əşyaların şəklinin çəkilməyə başlaması ilə ortaya çıxmışdır və bu yazılardan birincisindən ikincisinə keçidin nə zaman baş verdiyini,eləcə də onlar arasında sərhədi müəyyən etmək çətindir.Fəqət “Daşdəmirin nağılı”ndakı bir epizod bunun tədricən baş verdiyini və bir müddət əşya yazısı elementləri ilə ideoqrafik yazı elementlərinin birlikdə işlədildiyini söyləməyə əsas verir.”

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

“Daşdəmiri məclisə apardılar.Padşah çevrəni ona göstərib cavab istədi.Daşdəmir əlinə bir ağac alıb,çevrəni ortadan iki yerə boldü.Düşmən tərəf işi belə görəndə gətirib çevrənin bir tərəfində bir ox qoydular.Daşdəmir də padşahın qılıncını götürüb ikinci tərəfə qoydu.Belə olanda düşmən tərəf çevrənin içinə bir ovuc darı tökdü.Daşdəmir tez əmr elədi,bir xoruz tutub gətirgilər.Xoruz bütün darını dənlədi.Düşmən tərəf heç nə deməyib,yola düzəldi.

Bu danışıqsız sual-cavaba hamı məəttəl qalmışdı.

Padşah soruşdu:Daşdəmir,mən heç nə başa düşmədim.De görüm onlar nə soruşdu,sən nə cavab verdin?

Daşdəmir dedi:

-Padşah sağ olsun,o çevrəni ki,onlar çəkmişlər,demək istəyirdilər ki,bütün dünya gərək bizim ola.Mən də arada xətt çəkib dedim ki,bizim bu dünyada öz yerimiz var,heç kəsi ora qoymarıq.Sonra onlar oraya ox qoydular ki,əgər belə olsa, biz dava eləyəcəyik.Mən də sənin qılıncını çəkib onların qabağına qoydum ki,biz sizdən qorxmuruq.Sonra onlar çevrəyə darı tökdülər ki,bizim qoşunumuzun sayı-hesabı yoxdu.Mən də bütün darını bir xoruza dənlətdim ki,bizdə də belə oğlanlar var.Ona görə də durub getdilər.”

Ekranda Azərbaycan xalcaları və Qobustan təsvirləri sıra ilə bir-birini əvəz edir.
Diktor mətni:

"Nağılın bu epizodunda hər iki yazı növünün elementi birlikdə çıxış edir. Beləki,düşmənlərin yerdə çəkdikləri çevrə və Daşdəmirin çəkdiyi xətt ideoqrafik, tərəflərin istifadə etdikləri ox,qılınc,darı və xoruz isə əşya yazısının elementləridir."

Ekranda Herodotun "Tarix"kitabının üz qabığının təsviri görünür.
Diktor mətni:

"Herodotun fars şahı Daranın iskitlər ölkəsinə hücumu zamanı iskit türklərinin ona göndərdikləri əşya yazısı barədə verdiyi məlumat da çox maraqlıdır."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"İskit xanları vəziyyəti belə görüb Daraya qasidlə quş,siçan,qurbağa və beş ədəd ox göndərdilər.Farslar qasiddən bunların mənasını soruşdular,fəqət qasid ona yalnız bu şeyləri çatdırmaq və dərhal geri dönmək əmr edildiyini söylədi və dedi ki,əgər ağlınız varsa,onların mənasını özünüz başa düşərsiniz.Bunu eşidən farslar məsləhətə toplandılar.Dara belə düşündü ki,iskitlər bununla ona boyun əyməyə hazır olduqlarını bildirmək istəmişlər.Lakin Qobriy bu fikrə qarşı çıxdı və dedi ki, iskitlərin bununla söyləmək istədikləri budur: Əgər siz-farslar quş olub göyə qalx-masanız,siçan olub yerin altına girməsəniz və ya da qurbağa olub bataqlığın dərinliklərinə enməsəniz,geri qayıda bilməyəcək,bizim oxlarımızdan məhv olacaqsınız."

Ekranda Araz çayı görünür.
Diktor mətni:

"Qədim yunanlar,artıq qeyd etdiyimiz kimi,Eneolit dövrünün başlanğıcına start verən hadisəni,yəni misin kəşfini iskitlərlə bağlamışlar.Həm Herodot,həm də Siciliyalı Diador iskitlərin ilk öncə Araz çayı sahilində yaşadıqlarını,sonradan Avrasiyanın geniş torpaqlarına yayıldıqlarını bildirmişlər.Bu qədim türk xalqı haqqında elmə məlum ən qədim yazılı mənbələr eramızdan əvvəl 7-6-cı əsrlərə aid Aşşur mənbələridir və bu mənbələr həmin xalqdan Azərbaycan əhalisi kimi söz açmaqdadır.Təbi ki,Eneolitin başlanğıcına təsadüf edən yazılı mənbələr ola bilməzdi və yox idi də.Lakin fakt budur ki,bu gün Araz çayı sahillərində yerləşən Naxçıvan ərazisi dünyada misin ilk dəfə emal edilməyə başladığı ən qədim ocaqlardandır."

Ekranda tarixçi alim A.Seyidov peyda olur.Ekranın alt tərəfində onun adı,atasını adı və elmi dərəcəsi yazılır.O deyir:

"Naxçıvan ərazisi çox-çox qədim zamanlardan,eramızdan əvvəl 6-cı minillikdən başlayaraq,yaxın Şərq və Qafqazın müstəqil metallurgiya mərkəzlərindən biri kimi çıxış etmişdir.Burada çox sayda qədim metal məmulatı nümu-

nəsi,eləcə də metal emalı sənayesi qalıqları tapılmışdır ki,bu da Naxçıvanda ən qədim zamanlardan metallurgiya sahəsində bilik və vərdişlrin ortaya çıxdığını sübut edir.Eyni zamanda bu tapıntılar bir sıra həllini gözləyən məsələlərin həllinə yardım edir.

Görkəmli Azərbaycan alimi Səlimxanov bu diyarın erkən Eneolit abidələrindən olan Kültəpə abidəsindən əldə edilmiş ilk metal məmulatlarının spektral analizini apararkən onların tərkibində mislə yanaşı arsen qarışığının da olduğunu üzə çıxarmışdır.Kültəpənin erkən Eneolit dövründən son Tunc dövrünə qədərki bütün mərhələlərini əks etdirən və qalınlığı 22,2 metr olan mədəni təbəqəsindən tapılan məmulatların təhlili əsasında edilmiş bu böyük kəşf sayəsində Azərbaycanda və sonrakı dövrlərdə bütün Qafqaz ərazisində ayrıca bir mis-arsen mərhələsinin olduğu dünyaya məlum oldu."

Ekranda Naxçıvan mənzərələri görüntülənir.Alimin səsi kadr arxasından eşidilir:

"Məlum olduğu kimi,metallurgiyanın yaranması və inkişafı üçün xammal bazasının olması vacibdir.Naxçıvan ərazisində belə bir baza vardır.Bu,mis,arsen və polimetal yataqlarıdır.Azərbaycanda qalaydan başqa bütün zəruri metal yataqları mövcuddur.Və bu yataqlarda malaxit ,azurit, xalkopirit ,helenit ,sfalerit ,antimonit və sairə minerallara da rast gəlinir.Onların erkən dövrlərdən emal edildiyini sübut edən çox sayda qədim metalçıxarma və metalişləmə sənayesi izləri tapılmışdır."

Ekranda yenidən A.Seyidov görünür və sözünə davam edir:

"Belə izlərə Ordubad rayonu ərazisindəki Misdağ , Dizixçay,Parağaçay, Göy-göl,Ağyurd və Şəkərdərədə rast gəlinmişdir."

Ekranda kurqanlar görünür.
Diktor mətni:

"İslama qədərki türklərin,o cümlədən iskitlərin ayrılmaz atributlarından biri də kurqanlardır.Bütün qədim müəlliflər iskitlərin və ümumiyyətlə türklərin öz ölülərinin məzarlarının üzərində qum və ya daş kurqanlar ucaltdıqlarını söyləmişlər.Eyni hal qədim şumer mədəniyyətinə də xasdır.Maraqlıdır ki,yer üzündə ən qədim kurqan qəbirlərinin izlərinə məhz Azərbaycan ərazisində rast gəlinmişdir.Söhbət son Eneolit dövründən və Ağstafa rayonu ərazisindən gedir."

Ekranda tarixçi alim Nəcəf Müseyibli peyda olur.Ekranın alt tərəfində onun adı,atasının adı və elmi dərəcəsi yazılır.O deyir:

"20-ci əsrin 80-ci illərində Azərbaycanda,Ağdam rayonu ərazisində,aran Qarabağda son Eneolit dövrünə aid Leylatəpə məskəni tədqiq edilərkən,buradan

digər yerlərdən tapılan və eyni dövrə aid olan maddi mədəniyyət nümunələrindən keyfiyyət baxımından fərqlənən saxsı qablara rast gəlinmişdi.Buradan tapılan,dulus çarxında hazırlanmış yüksək keyfiyyəli qablar Messopatamiyadan tapılmış Əl-Übeyd mədəniyyəti ilə eynilik təşkil etməkdə idi.Sonralar eyni bölgədə bənzər mədəniyyətin izləri Çinartəpə,Şomutəpə və Abdal Əziztəpə abidələrdən də üzə çıxarıldı.

Leylatəpə və digər analoji abidələrin tədqiqi nəticəsində Güney Qafqaz üçün yeni mərhələ olan və son Eneolit dövrünə uyğun gələn mədəniyyət ortaya çıxmış oldu.20-ci əsrin 80-ci illərində analoji mədəniyyətin izlərinə Gürcüstan ərazisindəki Beri Kldeebi abidəsində də rast gəlindi.

2004-2005-ci illərdə Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin keçdiyi marşrut boyunca aparılan arxeoloji qazınılar zamanı Ağstafa rayonu ərazisində daha bir neçə Leylatəpə tipli abidə aşkar edilərək tədqiq edildi.Bu,sözügedən marşrutun 409-kilometrindəki Poylu 1 və Poylu 2,eləcə də 438-ci kilometrindəki Böyükkəsik 1və Böyükkəsik 2 qədim məskənləri idi.

Bu dövrə qədər bütün Güney Qafqaz,o cümlədən Azərbaycan ərazisində Eneolit dövrünə aid xüsusi məzar yerlərinə rast gəlinməmişdi.Tapılmış bütün məzarlar yaşayış yerlərinin döşəmələrinin altında və ya evlərin həyətində idi.Yəni Eneolit dövrü insanları ölüləri bilavasitə öz evlərində basdırardılar."

Ekranda rəşid Göyüşov peyda olur və deyir:

"Eneolit dövründə hətta dəfn adətlərindən də danışmaq olar.Məsələn,Kür çayının orta axarında yaşayan əhali öz ölülərini yaşayış yerlərindən xeyli kənarda,Azərbaycanın cənub rayonlarında yaşayan əhali isə bilavasitə yaşayış yerlərinin özündə-evlərin arasında,döşəmənin altında və yaxud da həyətdə dəfn etmişdir.Çox vaxt ölü tək və bükülü vəziyyətdə basdırılmışdır,ancaq az da olsa kollektiv dəfn adətinə rast gəlmək mümkündür.1-ci Kültəpədə olduğu kimi,Babadərviş və Əlikömək təpə abidələrində də qəbirlərdən oxra tapılmışdır."

Ekranda yenidən Nəcəf Müseyibli görünür.O deyir:

"Son Eneolit dövrünə aid olan kurqan qəbirlər böyük maraq kəsb etməkdədir.Biz bu kurqanları 2004 –cü ildə,neft və qaz kəmərlərinin 432-ci kilometrində,Ağstafa rayonu ərazisində,Soyuqbulaqdan bir kilometr aralıda təsbit etdik.Bir vaxt çox sayda kurqanın bulunduğu böyük bir sahədə onların yalnız bir hissəsi qorunmuşdur.Onların sayı otuza qədərdir."

Ekranda kurqan təsvirləri görüntülənir.
Diktor mətni:

"Elmi ədəbiyyata Soyuqbulaq kurqanları kimi düşən bu kurqanlar təkcə Qafqazda deyil,eyni zamanda bütün dünyada məlum olan ən qədim kurqanlardır.

Onların tarix səhnəsinə çıxışı yerli əhalinin dini dünyagörüşündə baş verən dəyişikliklər ilə bağlı olmuşdur.”

Ekranda tarixçi alim Q.Qoşqarlı peyda olur.Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

“2004-2005-ci illərdə Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin marşrutu boyunca aparılan arxeoloji qazıntılar zamanı son Eneolitdən orta əsrlərə qədərki geniş bir dövrü əhatə edən otuzdan artıq qədim yaşayış və məzar yeri tədqiq edilmişdir.2002-2003-cü illərdən fərqli olaraq qazıntılar daha çox ən qədim maldarlıq və əkinçilik mədəniyyətlərinin izlərinə sahib Kür boyu ərazilərdə aparılırdı.Sözügedən marşrut üzrə aparılan qazıntılar zamanı tapılan xro-noloji baxımdan ən qədim məskənlər Eneolit dövrünə aid məskənlər olmuşdur ki, onlar Böyük Kəsik 1,Böyük Kəsik 2, Poylu 1,Poylu 2 və Ağılı Dərədən üzə çıxmışdır.Bunların içərisində daha geniş tədqiqatlar Böyük Kəsik 1 ərazisində aparılmışdır.Bu bölgənin Şomutəpə və Leylatəpə mədəniyyətləri ilə eynilik təşkil edən mədəni qata sahib olduğu məlum idi.Fəqət yeni qazıntılar buradakı Əl-Übüeyd və erkən Uruk mədəniyyəti ilə eyni olan mədəni təbəqələr barədəki biliklərimizi daha da artırmış oldu.”

Ekranda tarixçi alim F.Quliyev görünür.Ekranın alt tərəfində onun adı,atasının adı və elmi dərəcəsi yazılır.O deyir:

“Ağstafa rayonunun Böyük Kəsik qəsəbəsində 1,5 kilometr aralıda 60-70 metr radiusunda çox sayda saxsı qab qalığı tapılmışdır.Bu qalıntılar yer səthindən 80 santimetr aşağıda yerləşən mədəni təbəqədən aşkar edilmişdir.Tapılan keramika nümunələri bir neçə tipə bölünür.Onlar küp,nimçə,su qabı və müxtəlif qablardır.Buradakı keramika ilə Uruk keramikası arasındakı eynilik etnik birlikdən xəbər verməkdədir.”

Ekranda Ağstafa rayonu ərazisindən tapılmış son Eneolit dövrünə aid maddi mədəniyyət nümunələri əks olunur:

Diktor mətni:

“Məlumat üçün bildirək ki, “Əl-Übeyd mədəniyyəti” adı ilə məşhur olan mədəniyyət qədim Messopatamiyanın,yəni bu günkü İraq ərazisində, Dəclə və Fərat cayları arasında Nuh tufanından öncə yaşamış insanların yaratdıqları və tufan zamanı onu yaradanlarla birlikdə məhv olmuş mədəniyyətin adıdır. “Erkən Uruk mədəniyyəti” kimi tanınan mədəniyyət isə tufandan sonra Messopatamiyaya köçərək orada böyük bir sivilizasiyanın əsasını qoymuş xalqın-şumerlərin yaratmış olduqları zəngin mədəniyyətin adıdır.Tədqiqatçılar Əl-Übeyd mədəniyyətinin şumer,yəni erkən Uruk mədəniyyətinin sələfi olduğunu,ikincinin birincisinin üzərində ucaldığını söyləyirlər.Fəqət Messopatamiya ərazisində bu iki mədəniyyəti (Ekrandakı təsvirləri şumer mədəniyyətinə aid maddi mədəniyyət abidələrinin,o

cümlədən gil kitabələrin təsvirləri əvəz edir.) bir-birindən Nuh tufanının nəticəsi olan qədim lil qatı ayırır.Azərbaycanda isə bu iki mədəniyyət iç-içədir və onlar arasında qırılma müşahidə edilmir.Bu isə şumer mədəniyyətinin Azərbaycanda formalaşdığını və qədim şumerlərin Azərbaycan ərazisindən Messopatamiyaya köçdüyünü sübut edir.

Şumerlər kimdir?

Tədqiqatçılar ilk dəfə "şumer"ifadəsinə Aşşur hökmdarı Aşşurbanipal dövrünə aid mixi yazıları araşdırakən rast gəlmişlər.Əslində bu kəlmə "sumer"şəklində qeyd edilmişdir.Lakin termin rus elmi ədəbiyyatına nədənsə "şumer" şəklində daxil olmuş,azərbaycan elmi ədəbiyyatına da beləcə daxil olmuş-dur.Aşşur hökmdarının mirzəsi "gizli şumer sənədləri haqqında məlumat vermiş, sonralar Fərat çayının aşağı axarında aparılmış qazıntılar nəticəsində üzə çıxan və Aşşur-Babil mədəniyyətindən də qədim olan mədəniyyətə "şumer mədəniyyəti"adı verilmişdir.Alimlərin şumer adlandırdıqları xalq isə özünü "kenqir" və ya "kəngər"adlandırmış, qonşuları isə onlara "qarabaşlar" və ya "qarapapaqlar" demişlər."

Ekranda tarixçi alim,mərhum Yusif Yusifovun şəkli və ardınca onun qələmə aldığı "Qədim Şərq tarixi"kitabının üz qabığı görüntülənir.

Diktor mətni:

"Tarix elmləri doktoru,mərhum Yusif Yusifov şumerlərin daşıdığı və qonşuları tərəfindən onlara şamil edilmiş bütün adlara sonrakı minilliklərdə də türk soy və boyları içərisində rast gəlindiyini xüsusi qeyd etmişdir."

Ekranda üzərində mixi yazılar olan gil kitabələr çanlanır.

Diktor mətni:

"Şumerlər Messopatamiyanın,yəni İkiçayarasının adı elmə məlum ən qədim xalqı idi.Onlar bu əraziyə kənardan gəlmişdilər.Belə hesab edilir ki,eramızdan əvvəl 4-cü minilliyə aid edilən əl-Übeyd,eradan əvvəl 3000-2800-ci illərə təsadüf edən Uruk və eradan əvvəl 2800-2600-ci illəri əhatə edən Cömdət-Nəsr mədəniyyətləri bu xalq tərəfindən yaradılmışdır.

Ayrı-ayrı alimlər şumerlərin Messopatamiyaya,başqa sızlə İkiçayarasına Anadoludan,Şərqi Qafqazdan,yəni şimali Azərbaycandan,Cənubi Azərbaycandakı Urmiya gölü sahillərindən,eləcə də Cənubi Türkmənistandan köçüb gəldikləri baraədə fikirlər irəli sürmüşlər.Bu da təbiidir.Cünki alimlər həm Anadolu,həm Azərbaycan, həm də Cənubi Türkmənistan ərazilərində şumer mədəniyyəti ilə üst-üstə düşən mədəniyyətin izlərinə rast gəlmişlər."

Ekranda məşhur amerikalı arxeoloq Samuel Kramerin şəkli və onun qələminə məxsus "Tarix Şumerdən başlayır" adlı kitabının üz qabığı göstərilir.

Diktor mətni:

"Şumer mədəniyyətiniən görkəmli tədqiqatçılarından biri,tanınmış arxeolq samuel Kramer özünün "Tarix Şumerdən başlayır" adlı kitabında şumerlərin İkiçayarasına Cənubi Azərbaycanda yerləşən Urmiya gölü sahillərindən köçdüyünü,bunu eradan əvvəl 4 –cü minillikdə baş verdiyini yazmaqdadır."

Ekranda məşhur Norveç səyyahı və alimi Tur Heyerdalın şəkli və Qobustandakı gəmi təsvirləri görünür.

Diktor mətni:

"Məşhur norveçli səyyah və alim Tur Heyerdal da Qobustandakı gəmi təsvirlərini tədqiq etdikdən sonra şumerlərin Messopatamiyaya buradan köçüb getdiklərini bildirmişdir."

Ekranda Nəsir Rzayev peyda olur və deyir:

"Qədim mədəniyyət və incəsənətimizdə şumer izlərinə həm Cənubi,həm də Şimali Azərbaycanda rast gəlinir.Bu izlər qadim azərbaycanlıların şumerlərlə qaynayıb qarışmasının,etnik yaxınlığının bir əlaməti kimi də çox maraqlıdır.Bu etnik yaxınlığın digər bir göstəricicsi Aydın Məmmədov və digər dilçilərimizin dilimizdə üzə çıxardıqları şumer dili paralellərdir.Bu dil qohumluğu həm qədim,həm də uzun tarixi bir prosesin nəticəsidir.

Qədim əcdadlarımızın şümerlərlə olan mədəni yaxınlığından,qan qohumluğundan xəbər verən bir çox maddi mədəniyyət,incəsənət abidələri içərisində Qobustanın günəş gəmiləri xüsusi yer tutur.

1981-ci ildə məşhur səyyah və alim Tur Heyerdal və onu müşayiət edən SSRİ Elmlər Akademiyasının Etnoqrafiya institutunun baş elmi işçisi Henrix Anoxin Qobustan petroqliflərinə baxmış,eramızdan əvvəl 3-cü minilliyə aid günəş gəmilərinin təsvirlərində qədim şumer mədəniyyətinin izini görmüşlər."

Ekranda üzərində mixi yazılar olan gil lövhələr və şumer incəsənəti nümunələri bir-birini əvəz edir.

Diktor mətni:

"Qədim şumer yazılı abidələrindən belə məlum olur ki,Messopatamiyaya köçən və burada öz dövlətlərini quran şumerlərin ilk hakim sülaləsi Kiş sülaləsi,ilk şəhərləri də Kiş şəhəri olmuşdur.Buradakı "Kiş"adının Şəki rayonu ərazisindəki Kiş çayı və Kiş kəndinin adı ilə üst-üstə düşməsi heç də təsadüfi deyildir.Görünür,qədim şumerlər Azərbaycandan İkiçayarasına köçərkən əski yurdlarının adlarını da özləri ilə aparmışlar.Məlumat üçün bildirək ki,eyni adlı çay Naxçıvanın Şərur rayonu ərazisində də vardır."

Ekranda "Tövrat"ın üz qbığının təsviri görünür.Kitab açılır və vərəqlər bir-birini əvəz edir.

Diktor mətni:

"Allah –Təalanın Həzrət Musa əleyhissəlama və onun vasitəsilə İsrail oğullarına endirdiyi müqəddəs "Tövrat"da Nuh tufanından,Həzrət Nuh əleyhis-səlamın oğulları və onların soyları barədə məlumat verildikdən sonra tufandan sağ çıxmış insanların soylarından yaranan xalqın Şumer ölkəsinə köçməsindən də bəhs edilir. Köçənlərin Şərq ölkəsindən köçdükləri bildirilir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Yer üzndə bir dil və bir ləhcə var idi.Nuh övladları Şərqdən hərəkətə keçərək Şumer ölkəsində düzənlik bir yer tapdılar."

Ekranda yenidən "Tövrat" görünür.O açılır və vərəqlər bir-birini əvəz edir.
Diktor mətni:

"Gördüyümüz kimi, Tövratda şumerlrin Şumer ölkəsinə Şərq ölkəsindən gəldiyi bildirilir.Qədim və orta əsrlər yəhudi və xristian abidələrində,o cümlədən Musa Kağankatlının "Alban tarixi"kitabında "Şərq ölkəsi" deyilərkən şimali Azərbaycan ərazisi nəzərdə tutulur."

Ekranda Musa Kağankatlının "Alban tarixi" kitabının üz qabığı göstərilir.
Diktor mətni:

"Musa Kağankatlı eyni zamanda Şəkidəki Kiş kəndinin Şərq ölkəsində olduğunu qeyd edərək yazır:Müqəddəs patrik Kişə gəlir,burada kilsə tikir və qansız qurban verir.Bu yer Şərqin bütün kilsə və şəhərlərinin başlanğıcıdır...

Musa Kağankatlının qədim yəhudi və xristian mənbələrinə istinadən verdiyi bir məlumat da çox maraqlıdır.Onun yazdığından belə aydın olur ki,qədim Çol,yəni Dərbənd şəhəri də Şərq ölkəsinə daxil olmuşdur.Deməli,şumerlər İkicayarasına,başqa sözlə Messopatamiyaya Şərq ölkəsindəki,yəni Azərbaycandakı Kiş çayı hövzəsindən köçmüşdülər."

Ekranda yanidən mixi yazılı gil kitabə təsvirləri və qədim şumer incəsənəti nümunələri bir-birini əvəz edir.
Diktor mətni:

"Əski şumer mənbələrinin yazdığına görə, Kiş sülaləsinin və Şumer dövlətinin ilk hökmdarı Etana olmuşdur.Bu adın bir türk adı olduğu,Anadolunun bir parçasında bir müddət bəylik etmiş türk sülalələrdən birinin Eretana oğulları ad-landığı məlumdur.Qədim şumerlr Etana ilə bağlı bir dastan da qoşmuşdular və bu dastanın süjeti Azərbaycanda çox məşhur olan Məlikməmməd nağılının süjeti ilə ağlasığmaz dərəcədə üst-üstə düşür.Dastanda əbədi həyat çiçəyini tapmaq qərarına gələn Etana şah tanrıların məsləhəti ilə yola çıxır və bir quyuya düşür.O orada balaları qartal tərəfindən yeyilmiş ilanın həmin qartalla döyüşünün şahidi

olur və ilanı öldürür. Etana qartalın belinə minib göyə qalxır.Göyə qalxanda Etana ilə qartal arasında dialoq baş verir. Quş qəhrəmana yerə baxmağı və onun nəyə oxşadığını təsvir etməyi təklif edir.Etana yeri öncə xəlbirlə,sonra çörəklə müqayisə edir."

Ekranda zümrüd quşunun üstündə uçan Məlikməmmədin şəkli təsvir edilir.
Diktor mətni:

"Dastanın yazıldığı gil lövhə qırıldığından onun ardı məlum deyil.Lakin elə bu qədər də söhbətin "Məlikməmmədin" şumer variantından,daha dəqiq desək,prototipindən getdiyinə heç bir şübhə oyatmır.Beləki,bizim qəhrəman da əbədi həyat çiçəyi axtaran Etana kimi,cavanlaşdırıcı almanın dalınca gedir.O da quyuya düşür.O da əjdaha ilə zümrüd quşunun konfliktinin şahidi olur.O da əjdahanı öldürür və quşun belində uçur.Ona da quş yerə baxmağı və nə gördüyünü söyləməyi təklif edir.Məlikməmməd də eynən Etananın verdiyi cavabı verir."

Ekranda Erix Tserenin "Bibliya təpələri"adlı kitabının üz qabığının təsviri,daha sonra isə müəllifin şəkli görünür.
Diktor mətni:

""Bibliya təpələri" kitabının müəllifi,qədim Şərq tarixinin böyük bilicisi Erix Tseren vaxtilə yazmışdır: "Alimlərin çoxu şumer dilini türk dili saymış və bu gün də saymaqda davam edirlər.""

Ekranda mixi yazılı gil kitabə təsvir olunur.
Diktor mətni:

"Şumer və türk dillərinin qohumluğu müddəasını ilk dəfə irəli sürənlər görkəmli dilçi alimlər Hommel və Qroznı olmuşlar.Sonralar bu fikir Əhməd Cavad ,Naili Boratav və başqaları tərəfindən daha da inkişaf etdirilmişdir.Bu iş sonrakı dövrlərdə də davam edirilmişdir və bu sahədə görkəmli Azərbaycan dilçisi Aydın Məmmədov və tanınmış qazax alimi Amanjolov,məşhur qazax şairi Oljas Süleymenov,qaraçay-balkar alimi Miziyev,türkiyəli tədqiqatçı Osman Nədim Tuna və başqalarını əməyini xüsusi qeyd etmək lazımdır."

Ekranda növbə ilə Hommel, Qroznı və Amonjolovun şəkilləri görüntülənir.
Diktor mətni:

"Hommel və Qroznı bu dillərin genetik qohumluğu müddəasını ilk növbədə həmin dillərin hər ikisinin aqqlünativliyinə əsaslanaraq irəli sürmüşlər.Amanjolov da bu yolla gedərək, 20-dən artıq şumer sözünün türk sözləri ilə eyniliyini fonetik qanunauyğunluqlar əsasında açıb göstərmişdir."

Ekrandakı şəkilləri mixi yazı təsvirləri və şumer incəsənəti nümunələri əvəz edir.

Diktor mətni:

"Əhməd Cavad,Naili Boratav və Miziyev də Hommel kimi bir çox şumer-türk sözlərinin qarşılıqlı müqayisəsini vermiş və bu dillərin genetik qohum olduqları versiyasını müdafiə etmişlər.Osman Nədim Tuna şumer və türk dillərinin tarixi əlaqəsinə həsr etdiy əsərində 170-ə qədər şumer kəlməsini türk kəlməsi ilə tutuşdurmuş və linqvistik qanunauyğunluqlar əsasında şumer-türk leksik uyğunluqlarını müəyyən etmişdir.Alim fonetik səs əvəzlənməsi prinsipinə istinad edərək belə nəticəyə gəlmişdir ki,şumer dilində həm qərbi,həm də şərqi türk ləhcə və şivələrinin ünsürlərinə rast gəlinir."

Ekranda yazılır:

"Şumer dilinin turani dillərə bənzədiyi artıq qəbul edilmişdir.Şumerlər haqqında ən yeni və mötəbər əsər nəşr etdirən Vulley şumerlərin morfoloji cəhətdən əski türkcəyə bənzər bir dildə danışdığını qəbul edir: Şumerlərin türk olduğu məsələsinin çoxlu sübutu var.Bizi bu qənaətə gətirən ən güclü sübut ikidir: 1)Dil sübutu; 2)Geoloji və arxeoloji sübut.

Əhməd Cavad"

Diktor eyni mətni kadr arxasından oxuyaraq təkrarlayır.

Ekrandakı yazını aşağıdakı yazı əvəz edir:

"Şumerlərin dili ayrıca bir dildir. Bizə məlum olan dillərlə onu bağlamaq hələlik əsaslı və mübahisəsiz nəticələr verməmişdir.Yalnız onu qəti demək olar ki, o,iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər.

Dmitri Reder"

Kadr arxasından səslənən diktorun səsi bu mətni də təkrarlayır.

Ekranda yeni yazı peyda olur və oda diktor tərəfindən təkrarlanır:

"Bizə gəlib çatmış şumer mətnlərinin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də,dünyada ən qədim mədəni dil olan şumer dilinin ümumi xarakteri barədə kifayət qədər bizdə təsəvvür yaranıb.Bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi quruluşlu dildir və sami dillərinin quruluşundan tamamilə fərqlənir.

Qulo Vinkler"

Ekranda filoloq alim Elməddin Əlibəyzadə peyda olur.Ekranın alt tərəfində

nun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Məşhur Amerika şumerşünası Samuel Kramer şumerlərə həsr etdiyi kitabını belə adlandırıb: "Tarix Şumerdən başlayır." Kitabın ayrı-ayrı fəsil və bölmələri bu məntiqi davam edir: "İlk məktəblər",İlk ikipalatalı Parlament", "İlk tarixçi", "Heyvanlar haqqında ilk təmsillər", "İlk ədəbi mübahisələr", "Bəşəriyyətin ilk qəhrəmanlıq əsəri", "İlk matəm nəğmələri", "İlk ədəbi əxzetmə", "İlk məhəbbət nəğməsi", "İlk kitabxana kataloqu" və sairə.Hər şeyin ilki,hər şeyin çıxış nöqtəsi,yəni tarixin başlanğıcı.

Kitabda zəngin mətnlər , yazılar əsasında təsdiq edilir və göstərilir ki,miladdan öncə ən azı 3 min il əvvəlki qədim Şumerdə güclü mədəniyyət,elm,ədəbi ənənə olmuşdur.Şumerdə məktəblər,sistemli oxu mətnləri,sabit dərsliklər,müəllimlər,mirzələr,xəttatlar var idi.Şumerdə zəngin kitabxana və orada gil lövhələrdən ibarət kitablar,yüzlərcə müxtəlif növ kitablar,elmi əsəsrlər vardı.Rəsm və şumer dili müəllimləri fəaliyyət göstərirdi,yaxşı işlənmiş qrammatika kitablarından istifadə edilirdi.Elmin ayrı-ayrı sahələrinə aid dərs vəsaitləri,proqramlar yaradılmışdı və sairə."

Ekranda Oljas Süleymenovun şəkli görüntülənir.
Diktor mətni:

"Tanınmış qazax ədibi və tədqiqatçısı Oljas Süleymenov belə hesab edir ki,qədim mixi yazılarda qeyri-dəqiq ifadə olunmuş şumer vokal sisteminin bərpası məsələsində müasir türk dili materialı ilə müqayisənin böyük əhəmiyyəti vardır. Onun fikrincə,bu halda U-Ü və A-Ə qarşıdurması nəzəri cəlb edir.

Oljas Süleymenov şumer cingiltili samitlərinin bir qayda olaraq türk kar samitlərinə uyğun gəldiyini söyləyir və fikrini aşağıdakı nümunələrlə əsaslandırır..."

Ekrandakı şəkli aşağıdakı mətn əvəz edir:

Şumercə	*Türkcə*
DİNGİR	*TENQRİ (TANRI)*
UD	*UT (OD)*
UDUN	*UTUN (ODUN)*
ADA	*ATA*
DİRİQ	*TERİK (DƏRİN)*
TAQ	*TAK (TƏK)*

Diktor mətni:

"Məsələn,şumerlər Tanrıya "Dinqir" dedikləri halda əski türk dilində bu kəl-mə "Tenqri" formasında qeydə alınmışdır. Əski türk mənbələrində "od" kəlməsi "ut"şəklində yazıldığı halda, şumer mətnlərində eyni kəlmə "ud"kimi yazılmışdır. Şumercədəki "D" cingiltili səsinə əski türkcədəki "T" kar samitinin uyğun gəlməsini dərin mənasında olan "diriq-terik"qarşıdurmasında da müşahidə edə bilərik.Bu halda "Q-K" qarşıdurması da diqqəti çəkir.Eyni hal "taq-tak" münasi-bətlərində də özünü göstərir."

Ekranda yenidən Oljas Süleymenovun şəkli peyda olur.
Diktor mətni:

"Şumer dilinin morfologiyasından söhbət açan Oljas Süleymenov həmin dilin morfologiyasına istinadən "məsdər +k =isim"türk sözdüzəldici sxeminin qədimliyi haqqında fikir söyləyərək maraqlı nəticələrə gəlmişdir."

Ekrandakı şəkli aşağıdakı yazılar əvəz edir:

Şumercə	*Türkcə*
URU	*QURmaq,QURUluş*
URUQ	*QURĞU,tikili,şəhər*
YÜZÜ	*ÜZmək*
YÜZÜK	*ÜZGÜ,ÜZən,su quşu*
EŞTİ	*EŞİTmək*
QEŞTUQ	*qulaq*
TURU	*DİRİ olmaq*
TURUQ	*DİRİLİK,həyat*

Diktor mətni:

"Şumercə "uru" türkcədəki "qur" feli ilə üst-üstə düşür. Şumer dilində bu felə "q" sözdüzəldici şəkilçisi artırmaqla feldən isim düzəldilmişdir.Nəticədə yeni "uruq"kəlməsi yaranmışdır ki,bu kəlmə dilimizdəki "qurğu" kəlməsinə uyğundur və tikili,şəhər mənalarını da ifadə edir.Eyni yolla,yəni "k" və ya "q" sözdüzəldici şəkilçisinin artırılması ilə üz, üzmək mənasında olan "yüzü" felindən üzgü, üzgüçü vəya da su quşu mənalarını verən "yüzük" kəlməsi törəmişdir.

Bu sözlərdən göründüyü kimi ortada.5 min illik bir fasilə olsa da şumer dilinin sözləri ilə bugünkü dilimizin sözləri arasında fərq o qədər də böyük deyildir.Feldən isim düzəldilməsi mexanizmi də,bu zaman işlədilən sözdüzəldici şəkilçilər də eynidir."

Ekranda Elməddin Əlibəyzadə peyda olur və deyir:

"Artıq 19-cu əsridən dünya tarixində yeni bir elm sahəsi-Şumeşünaslıq yaranıb və inkişaf etməkdədir.Dünyanın bi çox görkəmli şumerşünas alimləri yetişib və fəaliyyət gösərir. Bu sahədə qarşıya çıxan ilk problem şumerlərimn kimliyi,hansı müasir xalqların əcdadları olması problemidir. Problem ətrafında çoxlu mübahisəli fikir və mülahizələr də söylənib və söylənilir.Bu,təbiidir;lakin bir həqiqət gün kimi aydındır ki,əsas şumerşünasların fikir və rəyləri üst-üstə düşür, bir-birindən xəbərsiz gəldikləri nəticələr bir nöqtədə birləşir:Şumerlər dünyanın ilk sivilizasiyalı xalqıdır;şumerlər müasir türk xalqlarının əcdadlarıdır."

29

Ekranda Oljas Süleymenovun şəkli əks olunur.

Diktor mətni:

"Oljas Süleymenovun araşdırmalarından belə məlum olmuşdur ki, şumer dilində türk dilinə xas olan nümunəvi "imperativ + en və ya an şəkilçisi =keçmiş zaman feli sifəti " sxemi də mövcud olmuşdur.Bu isə ümümi sintaktik quruluşdan xəbər verməkdədir.Ümumi cəhətlərdən biri də şumer dilində rastlanan "ra" yönlük hal şəkilçisinin Orxon-Yenisey kitabələrində hələ məhsuldar şəkilçi kimi çıxış et-məsidir.Eyni şəkilçi bu gün də dilimizdə işlənir.Məsələn,ora,bura...

Oljas Süleymenov 60 şumer sözünü türk sözləri ilə müqayisə edərək, hər iki dilin leksikonunun eyni bazaya malik olduğunu göstərmişdir.Özü də bu halda həmin 60 söz Dyakonovun nümunə kimi göstərdiyi 100-dən bir qədər artıq şumer sözü içərisindən seçilmişdir.Bu isə o deməkdir ki, 5 min öncəki türk dilində,yəni şümer dilində mövcud olmuş sözlərin ən azı 60 faizi bu gün də öz yaşarlılığını sürdürməkdədir.Məsələn..."

Ekranda yazılır:

Şumercə	*Türkcə*
AB,EB	*EV,OBA*
EŞ	*EŞİK*
ED	*GET*
ZAQQİN	*YAXIN*
QULŞE	*GÜLÜŞ*
ME	*MƏN*
QAŞ	*QUŞ*
DEŞ	*DEŞİK*
UŞ	*ÜÇ*
HAME	*NƏ,NƏMƏNƏ*
EN	*ƏN*

Diktor mətni:

"Eb-ev, ab-oba, eş-eşik, ed-get, zaqqin-yaxın, qulşe-gülüş, me-mən, qaş-quş, deş-deşik, uş-üç."

Ekranda yenidən Elməddin Əlibəyzadə görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Hazırda elmi ədəbiyyatda çox-çox qədim və Şumerdən əzəli olan Kür-Araz mədəniyyətindən söz açılır.Kür-Araz mədəniyyəti,onun daha qədimliyi, inkişafı.əhatə dairəsi barədə tədqiqatlar aparılır,fikir və mülahizələr söylənilir. Azərbaycanın Kürlə Araz qoynuna sığınmış Qarabağında,bu ana torpağın dağlı - düzənli yerlərində miladdan öncə çox qədim mədəniyyətin nişanələri olan çoxsaylı kurqanlar məhz bu mədəniyyətin canlı yadigarları deyilmi?Bunlar bizim şumer-türk əcdadlarımızın məskəni,ocaqlarıdır."

Ekranda yazılır:

"...Şumer dili ilə türk dillərinin tarixi əlaqəsinin mahiyyətini daha aydın duymaq üçün ilk növbədə bu dilləri müqayisə etmək və onları yaxınlaşdıran fonetik,leksik, və qrammatik eyniyyətlər bir tərəfdən Şumer dilinin genetik mənşəyini daha obyektiv şəkildə öyrənməyə şərait yaradırsa,digər tərəfdən də türk dillərinə məxsus sözlən tərkibində daşlaşmış bəzi köklərin arxetiplərini bərpa etməyə tutarlaı əsas verir.

Aydın Məmmədov"

Ekranda Aydın Məmmədovun şəkli görünür.
Diktor mətni:

"Görkəmli Azərbaycan dilçisi,mərhum Aydın Məmmədov özünün "Şumer-Türk leksik paralelləri" adlı məqaləsində dillərin yaxınlıq səviyyəsini müəyyənləşdirməkdə leksik qatın əvəzsiz rol oynadığını nəzərə alaraq, şumer dili ilə türk dillərinin genetik bağlılığını sübut edən 120 leksik paraleli misal gətirmişdir.Məsələn..."

Ekrandakı təsviri aşağıdakı yazılar əvəz edir:

Şumercə	*Türkcə*
UZU	*OZAN*
UD	*ÖD (zaman)*
UŞ	*US, HUŞ (ağıl)*
UŞ	*UŞAQ*
İZİ	*İSTİ*
ARA	*ARA (orta)*
KAŞ	*QAÇ(maq)*

AŞTAR	*AÇAR*
E	*DE*
UMA	*UMMAQ*
DURU	*DURU*
BAR	*BARDAQ*
PA	*BAĞIR(maq)*
PA	*BAĞ(lamaq)*
SA	*SÖZ*
DE	*DEMƏK*
BE	*BƏY*
BADARA	*BAYRAQ*
SA	*SAĞ*
SAA	*SAP (kəndir)*
QUM	*QUM*
SU	*SU*
Mİ	*MƏMƏŞ*

Diktor ekranda yazılanları oxuyaraq təkrar edir.

Ekranda yenidən Aydın Məmmədovun şəkli görünür.
Diktor mətni:

"Maraqlıdırki,Aydın Məmmədovun müqayisəyə çəkdiyi sözlərin, bir neçəsi istisna olmaqla, heç biri Oljas Süleymenovun 60 sözü ilə üst-üstə düşmür.Yəni bu halda tamam başqa sözlər müqayisəyə çəkilmişdir.Bu deyilənlərlə kifayətlənməyən alim "Türk dillərində ilkin köklərin bərpasının nəzəri məsələləri" adlı digər məqaləsində müqayisələrdə daha da dərinə getmiş,bu dəfə ayrı-ayrı türk ləhcə və şivələrində rast gəlinən sözləri deyil,ümumtürk mahiyyəti daşıyan sözləri bütün semantik yuvalarına görə müqayisə etmiş və hər iki dilin genetik qohumluğunu təkzibolunmaz bir şəkildə ortaya qoymuşdur. Daha sonra prototürklərin,yəni əcdad türklərin Ön Asiyada təşəkkül tapdığı və oradan Avrasiyanın geniş ərazilərinə yayıldığı fikrini ifadə edən alim Azərbaycanın da həmin təşəkkül zonası ilə bağlı olduğunu qeyd etmişdir."

Ekranda mixi yazıların olduğu lövhə təsvirləri görüntülənir.
Diktor mətni:

Şumer-türk paralellərinin və bu paralellər əsasında genetik qohumluq əlaqələrinin üzə çıxarılması sahəsində professor Tofiq Hacıyevin əməyi də yüksək qiymətləndirilməlidir.İstər fonetika,istər leksika,istər morfologiya və istərsə də sintaktik quruluş baxımından böyük maraq doğuran paralelləri üzə çıxaran alim müqayisə edilən dil materiallarının fonetik qanunauyğunluqları barədə deyir..."

Ekranda professor Tofiq Hacıyev görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Şumercədə bəzi mütəxəssislər 4,bəziləri 6 sait qəbul edirlər.18 camit qeydə alınmışdır.Bunlar müasir türk dilinin sait-samit sisteminə uyğun deyildir,ancaq həmin səslərin hamısı türk dilində var.Əlbəttə,bu, tipoloji uyğunluqdur və kök sözlərdə,iki heca həcmində yalnız eyni sait çıxış edir.Bu,ahəng qanununun ardıcıl izlənməsi deməkdir.Bu prinsip yalnız alınma sözlərdə pozulur.Samitlərin inkişafında,əvəzlənməsində də uyğunluq nəzərə çarpır. Köhnə və yeni şumercədəki p-b, t-d-z, s-z, s-ş və sairə səs uyğunluqları türk dillərində də mövcuddur.Hətta müvafiq səs uyğunluqlarını tutuşdurmaqla bir çox şumer və türk sözləri arasında etimoloji əlaqə alınır.Məsələn,şumercə də Tuş və suş,yəni düşmək,oturmaq,türkcə-də tüş və düş.Burada əlaqə birbaşa görünür.Şumer dilində sipa,yəni çoban kəlməsini götürək.Həm şumercədə,həm də türkcədə s-ç və p-b samit uyğunluqlarını qəbul etdikdə sipa- çoban əlaqəsi təbiiləşir.

Bu dillər arasında bir sıra maraqlı fonetik-morfoloji uyğunluqlar da müşahidə edilir.Şumer dilindəki "tibira",yəni misgər sözü türk dillərindəki "təmir","dəmir" sözü ilə bir kökdəndir.Buradakı "t" səsi qeyri sabitdir.Eyni hal səma ,göy mənasını verən "an" kəlməsində də görünür.Bu sözə "t" səsini artırmaqla göy anlamına gələn "tan" sözü alınır."

Ekranda mixi yazılar görüntülənir.
Diktor mətni:

"Mütəxəssislərin bir çoxunun qeyd etdiyi kimi,eləcə də Qobustandakı şumer gəmi təsvirlərinin və Ağstafa rayonu ərazisindəki arxeoloji tapıntıların da sübut etdiyi kimi,qədim şumerlər bugünkü İraq ərazisinə məhz Azərbaycandan köçmüşdülər.Bunu Gəmiqayadakı araba təsvirləri də sübut edir."

Ekrandakı təsvirlər Gəmiqayadan tapılmış araba təsvirləri ilə əvəz olunur.
Diktor mətni:

"Alimlər təkəri və arabanı şumerlərin kəşf etdiklərini bildirməkdə-dirlər.Gəmiqayadan tapılan bu rəsm sözügedən kəşfin Azərbaycan əazisində edildiyini,şümerlərin də bu sahədə bilikləri İkiçayarasına Azərbaycandan apardıqlarını söyləməyə əsas verir."

Ekrandakı təsviri "Oğuznamə"nin uyğur variantının birinci səhifəsinin təsviri əvəz edir.
Diktor mətni:

""Oğuznamə"nin verdiyi bir məlumatdan belə aydın olur ki,arabnın kəşfi məhz türk-oğuz mühitində baş vermişdir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Vuruşdan sonra Oğuz Kağanın ordusuna,əsgərlərinə,el-gününə o qədər çox qənimət düşdü ki,yükləyib daşımağa at,qatır,öküz azlıq etdi.Oğuz Kağanın ordusunda təcrübəli,usta bir kişi vardı.Onun adı Barmaqluq Cosun Bilik idi.Bu usta bir araba qayırdı.Arabanın üstünə cansız qənimətləri qoydu,canlı qənimətləri arabaya qoşdu.Dartdılar,getdilər.Əsgərlər,el-gün bunu görüb mat qaldı.Arabalar düzəltdilər.Kanğa,kanğa deməklə kanğa sözü belə yarandı.Bunun üçün də onlara kanğa adını qoydular."

Ekranda Gəmiqayadakı araba təsviri görüntülənir.
Diktor mətni:

"Maraqlıdır ki qədim mixi yazılarda şumerlər özlərini kəngər və kanq adlandırırlar.Bu fakt da şumerlərin türk-oğuz mühitindən qopduqlarını və Azərbaycandan köçüb getdiklərini sübut etməkdədir.Elə bu üzdən də şumer dili və ədəbiyyatının öyrənilməsi bizim üçün böyük önəm daşıyır.Çünki bu yolla 5 min il öncəki dil və ədəbiyyatımı barədə müəyyən təsəvvür əldə etmiş oluruq.Eyni zamanda bu gün də yaşamaqda olan bəzi adət və ənənələrimizin kökləri barədə dolğun məlumat almış oluruq.

Ekranda karvanın getməsini əks etdirən süjet canlanır.Süjeti Soltan Hacıbəyovun "Karvan simfonik" suitası müşayiət edir və süjetin fonunda yazılır:

İKİNCİ SERİYANIN SONU

3-cü seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Bütöv Azərbaycanın xəritəsi.Kadr arxasından diktorun səsi:

"Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını

birmə-nalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmışdır."

Ekrandakı xəritə öncə müxtəlif təbiət mənzərələri,daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur.Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

"Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dönyada insanın formalaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu torpaqbəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir.

Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximizin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uzanan zəngin folklor nümunələri əks etdirir."

Ekranda "Azərbaycanfilm"in istehsalı olan "Yeddi oğul istərəm" filmindən bir qadının atlıların dalınca su atması səhnəsi çanlanır.

Diktor mətni:

"Bu gün Azərbaycanda,eləcə də digər türk ölkələrində bir kəsi yola salarkən arxasınca su atmaq adəti yaşamaqdadır.Belə hesab olunur ki,yolçunun arxasınca su atmaq yolun uğurlu olmasına kömək edir. Şumer ədəbiyyatının şah əsəri olan "Bilqamıs"dastanında eyni adət və inancın izlərinə rast gəlinmişdir.Bu isə o deməkdir ki,yola çıxan adamın ardınca su atmaq adətinin ən azı 5 min il yaşı var."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Sabunlu köklər ilə bədənini yudu o.
Öz qamətinə layiq gözəl paltar geydi o.
Sinəsinə yaraşan boyunbağı da asdı
Belinə qurşaq vurub,başına tac qoydu o.
İgidlərin ardınca bir cam təmiz su atdı.
Pillələrlə çıxıb o evin damına qalxdı."

Ekranda yenidən Tofiq Hacıyev görünür.O deyir:

"Türk dillərindəki bir sıra köməkçi sözlərin əslini şumer dilində tapmaq mümkündür.Məsələn ,türk dillərindəki çoxaltma mənasında işlənən "ən" ədatının şumercədə "yüksək", "qam", "kahin"mənalarında "an" kəlməsi müstəqil leksik vahid kimi çıxış edir. "Kimi", "gibi" qoşmalarının məqamında da şumercədə müqayisə bildirmək üçün "qi-qim-qimi" variantlarında çıxış edən ünsürün işləndiyi də məlumdur."

Ekranda İraqın Kərkük şəhərindən və İraq türkmənlrinin həyatından görüntülər canlanır.

Diktor mətni:

"Qədim şumerlərin birbaşa nəsilləri olan İraq türkmənləri bu gün də İraqda,əsasən Kərkük, qismən də Mosul,Ərbil və Süleymaniyyə şəhərlərində yaşayırlar və türk dilinin oğuz qrupuna daxil olan Azərbaycan türkcəsinin fərqli bir şivəsində danışırlar.Bu üzdən onları İraq azərbaycanlıları da adlandırırlar.Sayları 3 milyondan artıqdır.İranın cənubunda yaşayan kəngərlilər də şumerlərin birbaşa varislərindəndir.Onlar da Azərbaycan türkcəsinin şivələrindən birində danışırlar. Sayları 1 milyona yaxındır."

Ekranda "Yeddi oğul istərəm" və "Dəli Kür"filmlərindən Novruz bayramı ilə bağlı səhnələr canlanır.

Diktor mətni:

"Bir çox Şərq xalqlarının,ik növbədə də türk xalqlarının hər il mart ayında sevə-sevə keçirdikləri Novruz bayramının təşəkkülü və tarixi ilə bağlı bir çox mülahizələr irəli sürülmüşdür.Bəziləri onu zərdüştiliklə,bəziləri isə İslamla,daha dəqiq demsək,Həzrət Əlinin doğum günü ilə bağlamağa çalışmışlar.Həqiqət isə budur ki,sözügedən bayram barədə ilk yazılı mənbələr 5 min il öncəyə aid şumer mətnləridir ki,bu mətnlərdən eyni bayramı martın 21 –də şumerlərin qeyd eməkdə olduqları və bu bayramın məhsuldarlıq və cobanlar tanrısı Dumuzu şərəfinə keçiildiyi məlum olur.Şumerlər həmin bayramı eyni tanrının adı ilə Dumuzu bay-ramı adlandırırdılar.Bununla bağlı ayrıca bir mifik süjrt də var idi və həmin süjet barədə Lipin və Belov birgə qələmə aldıqları "Gil kitabələr"adlı kitablarında məlumat verməkdədirlər.Süjetin qısa məzmunu belədir: Yeraltı ölülər dünyasının hakimi Ereşkiqal məhsuldarlıq və çobanlar tanrısı Dumuzunu öz qaranlıq dünyasında əsir edir.Bu səbəbdən də yer üzündə bütün çiçəklər solur,ağacların yarpaqları tökülür. Sevgi tanrısı İninni Dumuzunu xilas etmək üçün yeraltı dünya-ya enir,7qapı keçir və uzun sərgüzəştlərdən sonra Dumuzunu əsirlikdən xilas edir. Bu martın 21-də baş verir.Həmin gün ağaclar yenidən çiçək açır,təbiət oyanır."

Ekranda Tofiq Hacıyev görünür və deyir:

"Şumer dilində yerlik hal üçün işlənən "ra"şəkilçisi "ra" və "ru" formasında türk dillərində, o cümlədə, Azərbaycan dilində eyni mənada fəaliyyət göstərmişdir. Məsələn,sonra,yuxarı və sairə.Şümer dilinin çıxışlıq halındakı "ta",yerlik halındakı "a" yenə maraq doğurur.Azərbaycan dilində yerlik və çıxışlıq,yönlük və yerlik hallarının sistem şəklində bir-birini əvəz etməsinin şahidi oluruq.Deməli,bu qrammatik hadisənin kökü onunla bağlıdır ki,vaxtilə "ta" ,"da" şəkilçisi çıxışlıq məzmunu bildirmiş,sonralar çıxışlıq halı kim "tan", "dan" müəyyənləşərkən,o , "ta", "da" yerlik halı vəzifəsinə keçdiyi zaman xeyli

müddətdə bu göstəricilər birbirinin mənasını əvəz etmişdir.Yəni yeni mənasını bildirməklə,köhnə-ilkin mə-nasında da qeyri-fəal şəkildə xidmət göstərmişdir.

Yönlük və yerlik hallarının Azərbaycan dili tarixində müəyyən dövrlərdə qeyri-sabitliyi də anoloji prosesin nəticəsidir.,yəni "a"morfemi yerlik vəzifəsindən yönlük funksiyasına keçdiyi zaman əzəllər ikimənalı olmuşdur.Hətta bu qeyri-differensiallıq,görünür,o qədər çəkmişdir ki,şumercədə xüsusi yerlik-yönlük hal yaranmışdır.Çıxışlıq halı şəkilçisinin yerlik,yerlik halı şəkilçisinin yönlük məzmuna keçməsi bu halların arasında üçbucaqlı məna əlaqəsi yaranmasına səbəb olmuşdur.Bunun nəticəsidir ki,Azərbaycan dili tarixinin təşəkkülü dövründə,ümumiyyətlə,məkani halların hər biri o birilərinin mənasını ifadə etmişdir.Məsələn "Kitabi Dədə Qorqud"da oxuyuruq: "...Günlüyü yer yüzünə tikdirmişdi." Burada "yüzündə" əvəzinə "yüzünə"işlənmişdir.Eyni mənbədə belə bir ifadəyə rast gəlirik: "Topuğunda sarmaşanda qara saçlum."burada isə "topuğuna" əvəzinə "topuğunda"
işləndiyinin şahidi oluruq.Şah İsmayıl Xətaidə də "muna",yəni buna əvəzinə "munda",yəni bunda ifadəsi ilə rastlaşırıq: "Munda əqilli kimsa gülməz."Bənzər halı Nəsimi yaradıcılığında da müşahidə etmək olar: "Sorma,ey dilbər,mana..." Əslində belə olmalıdır: "Sorma,ey dilbər,məndən""

Ekranda Elməddin Əlibəyzadə peyda olur və deyir:

"Təsəvvür edin ki,arada 6500 illik zaman məsafəsi var.Amma tellər,bağlar qırılmayıb.Müasir dilimizin qayda-qanunlarının çox dərin kökləri üzə çıxır.Ayrı-ayrı ifadə şəkilləri,şairin özünə poetik müraciətləri və sairə də ulu şumer dili ilə müasir Azərbaycan –türk və ümumən türk dilləri arasında əbədi tellər,bağlar olduğunu təsdiq edir."

Ekranda kurqan təsvirləri əks olunur.
Diktor mətni:

"Şumerlər öz ölülərini kurqanlarda basdırırdılar və kurqana "kur",yəni gor deyirdilər.Onlar kurqan mədəniyyətini də özləri ilə Azərbaycandan aparmışdılar.Təsadüfi deyil ki,Azərbaycanın Ağstafa rayonu ərazisindən tapılan kurqanlar şumer kurqanlarından daha qədimdir və son Eneolit dövrünə aiddir.Şumer kurqanları isə Tunc dövrünün məhsuludur.Yeri gəlmişkən qeyd edək ki,Tunc dövründən başlayaraq Azərbaycanda da kurqan qəbirlərinə daha geniş rast gəlinməyə başlanmışdır."

Ekranda Rəşid Göyüşov görünür və deyir:

"İlk Tunc dövrünə aid qəbir abidələri Mingəçevir.Qəbələ,Vardanlı,Xoşbulaq,Xankəndi,Gəncə və Xanlar zonalarında öyrənilmişdir.

Mingəçevirdə üzə çıxarılan sadə torpaq qəbirlərdə skelet bükülü vəziyyətdə,müxtəlif istiqamətlərdə dəfn edilmişdir.Hər qəbirdə,skeletin baş tərəfin-

də bir gil qab qoyulmuşdur.Xoşbulaqda isə daş örtüklü kurqan tipli qəbirlər vardır. Kurqanların altında dördkünc qazılmış,planlı və küncləri yarımoval düzəldilmiş qəbirlər yerləşir.Bu qəbirlərdə skelet arxası üstə oynaqları bükülü vəziyyətdə,başı qərbə doğrudur.Belə qəbirlərdə, bir qayda olaraq,qara rəngli,küpə formalı üçqulplu qablara daha çox təsadüf olunur.Nəhayət, kurqanlarda tək qəbirlərlə yanaşı, kol-lektiv dəfn adətinə də rast gəlinmişdir."

Ekranda şumer mixi yazıları ilə yazılmış gil kitabə və şumer mədəniyyəti nümunələrinin təsvirləri bir-birini əvəz edir.

Diktor mətni:

"Qeyd etdiyimiz kimi,şumerlər özlərinini "kəngər" və "kanq" alandırmışlar.Qonşuları isə onlara "qarabaş" və ya "qarapapaq" demişlər.Maraqlıdır ki,bu gün də Azərbaycanın qərb hissəsində,Qazax-Qarabağ-Naxçıvan-Maku xətti üzrə onlarca "Kəngərli", "Kəngər" adlanan kəndlərimiz var.Görkəmli coğrafiyaşünas və etnoqraf alim Vəliyev-Baharlının yazdığına görə,qarapapaq tayfaları da kəngərlilərdən olmuşlar.

Tanınmış şərqşünas alim Süleyman Əliyarov "kanqlı" və "kəngər" etnonimlərinin sinonim olduğunu bildirmişdir.Görünür,elə bu səbəbdən də şumer mixi yazılarında "kəngər"adı əvəzinə bəzən "kanq" adı işlənmişdir.Bu etnonim sonuncu dəfə mixi yazılarda eramızdan əvvəl 2-ci minillikdə yad edilmiş,bundan sonra mixi yazılarda kəngərlər barədə heç bir məlumata rast gəlinməmişdir.Lakin eradan əvvəl 5-ci əsrdə qələmə alındığı məlum olan "Avesta"da "kanqlı etnonimi ilə yenidən üzləşirik ki,həmin kitabda bu etnonim turanlıların,yəni türklərin sinonimi kimi işlənir."

Ekrandakı təsvirləri "Dədə Qorqud" filmindən oğuzların həyatlarından bəhs edən süjetlər əvəz edir.

Diktor mətni:

"Eramızdan əvvəl 3-2-ci minilliklərə aid mənbələr kəngərlərlə suvarların qonşuluqda yaşadıqlarını bildirməkdədir.Həmin qaynaqlardan belə bəlli olur ki,kəngərlər İkiçayarasının cənubunda,suvarlar isə şimalında yaşamışlar.Maraqlıdır ki,1-2-ci əsrlərə aid mənbələr də bu iki türk boyunun qonşuluqda,fəqət əvvəlki yurdlarından bir xeyli aralıda, Xəzər dənizi sahillərində yaşadıqlarını qeyd etməkdədir.Söhbət Ptolomeyin qeydlərindən gedir.O bu iki xalqın Xəzər sahilində, Qafqaz dağlarından Dərbəndə kimi uzanan geniş sahədə yaşadıqlarını yazmışdır.

Orta əsr mənbələri kəngərləri oğuzlarla birlikdə yad etməkdədir.Məsələn,10-cu əsr salnaməçisi Konstantin Baqryanorodnıy oğuz tayfalarından olan beçeneklərin bir hissəsinin Kanqar,yəni kəngər adlandığını bidirməkdədir.Qiyasəddin Qeybullayevin yazdığına görə,Kanqlı tayfasının oğuz-Səlcuq birləşmələrində yer aldığını qeyd edilmişdir.Moravçikin də fikrincə,oğuz-beçenek tayfasının bir qismi kanqlı adlanmışdır.

Tarixi mənbələr kəngərlilərin adını Azərbaycanla bağlamaq ənənəsi baxımından çox genişdir.Məsələn,orta əsrlərə aid erməni tarixçilərinin verdiyi məlumatlardan belə məlum olur ki,kəngərlər Qərbi Azərbaycandakı Kəngər dağlarında,eləcə də Albaniya ,yəni Şimalı Azərbaycan ərazisindəkə kəngərlər ölkəsində yaşamışlar.Erməni mənbələrinin birində deyilir ki,482 –ci ildə erməni və iber ordusu Kəngərlər ölkəsində fars ordusu ilə müharibəyə girişmişdilər. "7-ci əsr erməni coğrafiyası"ndan belə məlum olur ki,Göyçə gölündən şimala yrləşən torpaqlar Kəngərlər ölkəsi adlanmışdır.

Tarixi mənbələr 18-ci əsrdə kəngərlilərin bir hissəsinin Gürcüstan ərazisindən Qarabağa köçdüyünü qeyd edir.Naxçıvan ərazisindəki kəngərlilərdən 6-cı əsrə aid bir anonim Suriya mənbəyi sönbə açmaqdadır."

Ekranda Rəşid Göyüşov peyda olur və deyir:

"Eneolit dövrünün dini dünyagörüşünü öyrənmək baxımından Əlikömək-tə-pədə tapılan dairəvi otağın böyük əhəmiyyəti var.Otağın divarları gillə suvanmış, üstündən isə ağ gillə şirələnmişdir.Hamar divarda həndəsi xarakterli naxışlar çəkil-mişdir.Bu bina çox güman ki,ovsun mərasimlərinin keçirilməsi üçün istifadə edilmişdir.. Daşdan və gildən düzəldilən insan fiqurları Eneolit dövrünün ən maraqlı abidələridir."

Ekranda "Bilqamıs dastanı" kitabı görünür.O açılır və vərəqlər bir-birini əvəz edir.

Diktor mətni:

"Eneolit dövrünə aid ən maraqlı mərasimlərdən biri də müxtəlif insan fiqur-ları ilə bağlı olmuşdur. Bilqamıs dastanının məzmunundan belə görünür ki, Eneolit dövrü sakinləri, eləcə də sonrakı dövrdə şumerlər bu gil heykəlləri günəş tanrısı Utuya qurban vermişlər."

Ekranda peyda olan aktyor əlində tutduğu kitabdan oxuyur:

"Bilqamıs özü gildən bir heykəlcik düzəltdi.
Sonra taxtadan böyük bir masa da çıxartdı.
Əqiqdən qayrılmış qabı balla doldurdu.
Lacivərddən düzəlmiş qabı yağla doldurdu.
Masanı bəzəyərək Utu üçün apardı."

Ekranda ocaq başına yığışmış milli geyimli qızlar görünür.Onlardan biri ocaqdakı daşların üstünü közlərlə örtə-örtə oxuyur:

"Qodu daşı,
Odu daşı,
Qodu kəssin

Yağışı.”

Sonra qızlar birlikdə oxuyurlar:

“Budu daşı,
Bulutların
Kudu daşı,
Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Godu başı,
Gətirsin
Qızıl günü,
Aparsın
Yağışı.
Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”

Ekranda eyni səhnə yenidən,fəqət bu dəfə səssiz təkrarlanır.Kadr arxasından diktorun səsi eşidilir:

“Günəş tanrısı Utunun adı Azərbaycan folklorunda bu yaxın zamanlara qədər “Qodu” şəklində yaşamışdır. Bilqamıs Utuya bal,yağ kimi yeməli şeylər apardığı kimi,Azərbaycanda da Qodu üçün xəmiraşı bişirilməliymyş.Qeydə alınmış “Qodu-Qodu”nəğmələri içərisində bal və yağın xatırlanması xüsusi maraq doğurmaqdadır.”

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

“Qoduya qaymaq gərək,
Qablara yaymaq gərək,
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.
Yağ verin yağlamağa,
Bal verin ballamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.”

Ekranda “Bilqamıs” dasanının üz qabığı görünür.
Diktor mətni:

“5 min il öncə Günəş tanrısı Utuya bal və yağ qurbanlığı verən Bilqamıs bu mərasim zamanı gildən heykəl düzəltdiyi kimi,Azərbaycan türkləri də 20ci əsrin ortalarınadək “Bal verin ballamağa,yağ verin yağlamağa”- deyərək “Qodu-Qo-du” mərasimi keçirərkən, müqəvva düzəldərmişlər.”

Ekranda tanınmış rəssam və tədqiqatçı Elçin Aslan peyda olur.Ekranın altında onun adı,soy adı və məşğuliyyəti yazılır.O deyir:

“Azərbaycanda vaxtsız və uzun müddət yağan leysan yağışına son qoymaq, günəşi çağırmaq məqsədi ilə icra olunan kütləvi xalq tamaşası “Qodu-Qodu” günəş tanrısına həsr olunurdu.Vaxtilə yaşlılar tərəfindən göstərilən bu

8

əsatiri tamaşa,get-gedə ilkin önəmini itirmiş və 20-ci yüzilin əvvəllərində subay gənclər və uşaqlar tərəfindən oynalınan hərəkətli,sözlü-nəğməli bir oyuna çevrilmişdir. Oyun iştirakçıları müqəvva Qodunu qapı-qapı gəzdirib,onun şəninə tərifər deyir, məzəli səhnələrdə kuklanı çomaqla vurub “öldürür”,sonra yenidən “dirildirdilər.”

Ekranda Nəsir Rzayev görünür və deyir:

“Tunc dövründə,eramızdan əvvəl 3-2-ci minilliklərdə Azərbaycanda günəş kultu çox geniş yayılmışdı.O vaxt günəş tanrısının bir sıra simvolları məişətdə,ictimai həyatda tətbiq edilərək bədii yaradıcılığa daxil olmuşdur.Tunc dövrünün sonunda əmək məhsuldarlığının artması,istehsalın,maldarlığın inkişafı varlanmaqda olan qəbilə və ailə başçılarının,əcdadların hüququnu genişləndirir,yeni dini etiqadların yaradılmasına səbəb olurdu.Odur ki,günəş tanrısının “funksiyasında” yeni elementlər ortaya çıxırdı.Onlardan biri günəş tanrısının əcdadlara və bununla əla-qədar olaraq ölülərə himayəkarlıq göstərməsi idi.Bunun nəticəsində cəmiyyətdə “atalar kultu” və “ölülər kultu” kimi yeni ideoloji tendensiya yaranırdı.Bununla əlaqədar olaraq qəbir daşları günəş rəngli oxra ilə boyadılırdı ki,qəbir isti,işıqlı ol-sun, axirət evinə dirilik bəxş edilsin və ölüləri kurqanlarda dəfn etməyə başlayırdı-lar.Kurqan qəbirlərinin yerləşdirilməsində vahid bir sistemə, “şüa sistemi”nə riayət edilirdi.Kurqanların daxilində də kromlexlər tikilirdi.

Görkəmli arxeoloq Hummel Xanlar rayonunun kurqanlarını tədqiq edərkən, onların səpələnmiş halda deyil,müəyyən ərazidə toplanmasına diqqət yetirmişdir. O, qərara gəlmişdir ki,bütün qəbirlər bir nöqə ətrafında- günəş şüasının çevrə boyu yayılması istiqamətində tikilmişdir.Onun kəşf etdiyi bu qanunauyğunluq “şüa sistemi” adlanır.Alimlər bu sistemin Orta Asiya kurqanlarına da aid olduğu fikrini irəli sürmüşlər.

Təsərrüfatda günəşə ehtiyac olanda,onu buludlar arxasından çıxarmaq lazım gələndə,günəşə təsir etmək üçün ovsun ayini keçirilir və “Qodu-Qodu”nəğməsi oxunurdu.”

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Qodu palçığa batmışdı,
Qarmaladım çıxartdım.
Qızıl qaya dibindən
Qırmızı gün çıxartdım.
Yağ verin yağlamağa,
Bal verin ballamağa.
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa."

Ekranda Rəşid Göyüşov görünür.O deyir:

"Tarixdə Eneolitdən sonra gələn dövr Tunc dövrü adlanır.Bu dövr eradan əvvəl 4-cü minilliyin sonu və 3-cü minilliyin əvvəllərindən başlayaraq eradan əvvəl 2-ci minilliyin əvvəllərinədək davam edir.Misin qalay və ya sürmə ilə qarışığından alınan tunc daha möhkəm və əlverişli metal olduğundan-insan fəaliyyətinin bütün sahələrinə yarmışdır.Ondan müxtəlif növ silahlar,əmək alətləri,məişət avadanlığı,bəzək əşyaları və sairə hazırlanmışdır.Arxeoloji tədqiqatlar göstərmişdir ki, Azərbaycan ərazisi Tunc dövrü abidələri ilə zəngindir."

Ekranda Rəşid Göyüşovu H.Cəfərov əvəz edir.O deyir:

"Azərbaycan ərazisində Tunc dövrü bir neçə inkişaf mərhələsi keçmişdir. Həmin mərhələlər şərti olaraq ilk,orta və son Tunc dövrləri adlanılar.Bu mədəniyyətin əsas təşəkkül və yayılma sahəsi Kür-Araz ovalığıdır.Lakin Kür-Araz mədəniyyətinə xas olan əlamətlər daha geniş ərazidə təmsil olunmuşdur.Bu mədəniyyətin izlərinə Qafqazdan başqa Anadolu yaylası,Şimali İran.,Suriya və s.ərazilərdə tə-sadüf edilmişdir.Şübhəsiz ki bu mədəniyyət Kür-Araz ovalığında formalaşmış təd-ricən ətraf ölkələrə yayılmışdır.

Kür-Araz mədəniyyətinə uyğun gələn ilk Tunc dövrü Azərbaycanda eradan əvvəl 4-cü minilliyin ikinci yarısından 3-cü minilliyin sonuna qədərki dövrü əhatə edir.Ölkəmizin bu dövrə aid Babadərviş,Göytəpə,Qarahacılı,Ağtəpə,Üçoğlan,Cüttəpə,Dəyirmanyeri,Mişarçay,Qaraköməktəpə,Günəştəpə,Xantəpə,Kültəpə, Sərkərtəpə və sairə kimi yaşayış məskənləri bir qayda olaraq çay kənarında,bulaqların yaxınlığında,başqa sözlə yaşayış və təsərrüfat üçün əlverişli sahələrdə,strateji baxımdan yaxşı mühafizə edilən təbii təpə üzərində salınırdı.Füzuli rayonu ərazisindəki Qaraköməktəpə,Təbriz yaxınlığındakı Yanıqtəpə,Urmiya ətrafındakı Göytəpə kimi bəzi yaşayış məskənləri qalın müdafiə divarı ilə əhatə edilmişdi.

Bu dövrün Cüttəpə,Üçoğlan,Qarahacılı,Qaraköməktəpə,Qobustandakı "Dai-rə" və sairə kimi bəzi yaşayış məskənləri əvvəllər yaşayış olmayan sahələrdə,Kül-təpə, Babadərviş, Yanıqtəpə, Göytəpə və sairə kimi məskənlər isə

Eneolit dövrü kəndlərinin yerində yaranmışdı. Bu məskənlərdə bir neçə tarixi dövrün izləri qal-mışdır. İlk Tunc dövründə əhalinin sayı artmış, yaşayış məskənləri daha böyük sahəyə,bir çox halda 3 hektardan artıq sahəyə malik olmuşdur. Tikinti texnikasında Eneolit dövrünün ənənələri,Yəni dairəvi və düzbucaqlı binaların inşası davam etdi-rilmişdir.Lakin binalar həm ölçü baxımından,həm də davamlılıq baxımından xeyli fərqlənirdi.Evlərin və təsərrüfat tikililərinin bünövrəsi əsasən daşdan,divarı çiy kərpicdən inşa edilmiş, binaların bir qismi isə çubuqdan hörülüb suvanmışdır.Mingə-çevir ərazisində yarımqazma tipli evlərə də təsadüf edilmişdir.Binanı qızdırmaq və yemək hazırlamaq üçün nəzərdə tutulmuş ocaqlar evin mərkəzində və ya künclə-rində qurulurdu.Xüsusi quruluşlu ocaq qurğuları Kür-Araz mədəniyyətinin səciy-yəvi əlamətlərindən biridir.Gildən hazırlanmış ocaq qurğuları əsasən nal şəklində-dir.Başqa tip ocaq qurğuları da geniş yayılmışdı."

Ekranda ilk Tunc dövrünə aid yaşayış evlərinin və məhəllələrinin qrafik təs-virləri görüntülənir.

Diktor mətni:

"İlk Tunc dövrünün yaşayış məskənlərindən,xüsusən də ətrafına müdafiə sədləri çəkilmiş məskənlərdən ilk şəhərlər kimi söz açmaq mümkündür.Şumer şə-hərlərinin yaşıdı,hətta daha qədim olan bu şəhərlərin İkiçayarasının erkən şəhər-ləri ilə əsas ümümi cəhətlərindən biri müdafiə sədlərinin qurulması idi.Bu ba-rədə "Bilqamıs dastanı"nın akkad variantında maraqlı məlumat bulunmaqdadır."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"O hər sirri bilərdi,o hər şeyi görərdi,
Yeri su basmasından bizə xəbər verərdi.
Uzun yollar dolaşıb,yorulub əldən düşdü,
Başına gələnləri sal bir qayaya döydü,
Sonra hasara alıb,adını Uruk qoydu.

Müqəddəs Eananın qalası oldu Uruk.
Divarlara nəzər sal,bürcləri düzüm-düzüm,
Bu cür səddə bərabər sədd görməz əsla gözün.
Keçmişin yadigarı bu qədim divara bax,
İştarın mənzilinə-Eanaya gəl çıxaq.

Heç gələcək şahlar da tikə bilməz bu sayaq.
Çıx Uruk qalasının divarı üstə, yeri,
Gor bünövrə necədir,necədir kərpicləri.
Divar bişmiş kərpicdən bərk hörülüb başa-baş,
Yeddi müdrikmi qoyub qalanın himinə daş?"

Ekranda Rəşid Göyüşov görünür və deyir:

"İlk Tunc dövründə binalar və onlara bitişik inşa olunmuş təsərrüfat tikililəri çox zaman ümumi bir kompleks təşkil erir və təbii ki,bu komplekslər ayrı-ayrı ailə-lərə məxsus idilər.Yaşayış və təsərrüfat tikililəri ilə yanaşı, ibadət,dini ayinlərin ic-rası üçün də xüsusi binalar mövcud olmuşdur.Məsələn,Sərkərtəpədə çiy kərpicdən tikilmiş dairəvi quruluşlu böyük ibadət evi üzə çıxarılmışdır.Bina səliqəli suvan-mış,əhənglə ağardılmışdı,divarının qarşısına mehrab ucaldılmış,dini ayinlər zamanı istifadə olunmuş saxsı qablar düzülmüşdü.

Yaşayış məskənlərində xüsusi sənətkarlıq məhəllələri yaranırdı.Əslində sə-nətkarlıq sahələrinin meydana gəlməsi hələ Eneolit dövrünün son mərhələsində başlamış,ilkTunc dövründə isə həm dulusçuluğun,həm də metallurgiyanın inkişafı ilə əlaqədar xüsusi sənətkarlıq məhəllələri meydana gəlmişdi."

Ekranda Tarix muzeyinin öncə xaricdən,daha sonra isə daxildən görüntüləri canlanır.Muzeyin əməkdaşı eksponatları nümayiş etdirə-etdirə deyir:

" Kür-Araz mədəniyyəi dövrü insanları sənətkarlığın müxtəlif sahələri ilə məşğul olmuş,ənənəvi sənət nümunələrini yeni dövrün tələbləri səviyyəsində yaratmış və inkişaf etdirmişdir.Onların içərisində dulusçuluq sənəti xüsusi yer tuturdu.Kür-Araz mədəniyyətinin dulusçuluq məmulatı bir çox əlamətləri ilə,yəni forması,tipi,hazırlanma texnologiyası və sairə ilə seçilirdi .Dulus çarxından istifadə nəticəsində bu dövrdə məhsuldarlıq daha da artmışdı.Qabların forma və növ müxtəlifliyi,estetik dəyərinin yüksəkliyi,dulus çarxının varlığı sənətkarlığın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.Qabların səthinin pardaqlanması və şüyrələnməsinin yeni sirlərinə bələd olmaqla dulusçular əsl sənət nümunələri yaratmışdılar.

Bu dövrün mühüm yeniliklərindən biri metallurgiya və metalişləmənin sürətlə inkişafıdır.Azərbaycanın ilk Tunc dövrü yaşayış məskənlrində metallurgiya və metalişləmə ilə bağlı texnoloji proseslərin bütün mərhələlərini əks etdirən arxe-oloji materiallar-soba,buta,parç,qəliblər və hazır məhsul tapılmışdır.Məsələn ,Baba-dərviş yaşayış məskənində metaləridən soba üzə çıxarılaraq öyrənilmişdir.Tuncdan muncuq,qolbaq və sairə kimi bəzək və biz,iynə,bıçaq və sairə kimi məişət əşyaları ,əmək alətləri və silah nümunələri,qızıldan isə Xankəndi və Xaçınca kurqanla-rından tapılmış bəzək əşyaları kimi şeylər düzəldirdilər.Metallurgiyanın inkişafı ilə əlaqədar olaraq daş alətlərin məişət və təsərrüfatda istifadəsi getdikcə azalırdı."

Ekranda H.Cəfərov görünür.O deyir:

"Tunc dövründə yerli əhalinin dünyagörüşündə və bədii təfəkkürünün inkişafında mühüm yeniliklər baş verir və bunlar ətraf aləmə.axirət dünyasına mifik aləmə inam,qəbir abidələri-kurqanlar və sairə,dəfn məasimi,ölülərin yanına

müxtəlif avadanlığın qoyulmasında,məişət və təsərrüfat avadanlığının naxışlanmasında və nəhayət çoxsaylı qaya təsvirlərində özünü göstərir."

Ekranda qayaüstü rəsmlər bir-birini əvəz edir və ən sonda Qobustandakı Yazılı təpənin 24 №-li daşında cızılmış maral şəkli görüntülənir.

Diktor mətni:

"Son Eneolit və ilk Tunc dövrü qaya təsvirləri üçün xarakterik olan əsas cəhətlərdən biri təsvirlərin realistikliyldir.Bu dövrdə ən çox rast gəlinən petroqliflər müxtəlif maral və aslan təsvirləridir. Qobustandakı Yazılı təpənin 24 №-li daşında cızılmış realistik səpkili maral silueti özündən əvvəlki dövrlərə aid təsvirlərdən öz gözəlliyi ilə fərqlənməkdədir.Eyni sözləri Böyükdaşın yuxarı mərtəbəsindəki 59 №-li daşda təsvir edilən qoşa maral təsviri barədə də söyləmək olar."

Ekrandakı maral təsvirini sözügedən qoşa maral təsviri əvəz edir.Daha sonra Sibir və Altayın maral daşlarının təsviləri,ardınca isə Pazırıq xalcasındakı maral təsvirləri görüntülənir.

Diktor kadr arxasından sözünə davam edir:

"Bu motivlər sonrakı minilliklərdə türklərin yayıldığı bütün bölgələrdə,yəni Avropanın içlərindən uzaq Sibir,Altay və Qobi çollərinə qədər səpələnmiş və elmi ədəbiyyata "İskit maral daşları" adı altında düşmüş daşlarda,daha sonra isə iskit zərgərlik və xalça sənətində yüzillər boyu davam edərək təkmilləşmişdir.Qobustan marallarının elmi baxımından əsas önəmi ondadır ki,bu təsvirlər iskit-türk mədəniyyətinin köklərinin bilavasitə Azəbaycan ərazisi ilə bağlı olduğunu söyləməyə ciddi əsas verir.Onsuz da bu mədəniyyətin ən qədim nümunələri Cənubi Azərbaycan ərazisindəki Ziviyə kurqanından tapılmışdır və bu fakt istər-istəməz iskit incəsənətinin ölkəmizlə bağlı olduğuna dəlalət edir.Fəqət Qobustan təsvirləri eynən Soyuqbulaq kurqanları kimi bu mədəniyyətin daha dərin köklərini gözlər önünə sərməkdədir.

Ekranda tədqiqatçı alim X.Mahmudova peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Maral daşları iskitlər dövrünün incəsənətini,ideologiyasının və sosial həyatının öyrənilməsi baxımından əvəzsiz mənbədir.20-ci əsrin 70-ci illərindən geniş tədqiq edilməyə başlayan bu daşlar təkcə Asiyada deyil,Avropada təsbit edilmişdir.Belə abidələrə Kabarda-Balkar ərazisindəki Qızburun-1 kurqanında, Rumıniyada ,Dinoqeti-Tarvan adlı yerdə,Bolqarıstanda,Almaniyada,Gürcüstanda,Şərqi və Mərkəzi Qazaxıstanda,Baykal gölü ətrafında və Monqolustan ərazisində rast gəlinmişdir.

Maral daşları iskit qəbilələrinin özünəməxsus incəsənət nümunələridir.Bu nümunələr özündə sözügedən xalqın dini və kosmoqonik dünyagörüşü ilə bağlı olmuşdur."

Ekrandakı təsvirlərin yerini növbə ilə Yazılı təpənin 134 №–li daşındakı maralı qovalayan atlı təsviri və 9№–li daşındakı maral ovlayan atlıların təsviri tuturlar.

Diktor mətni:

"Tunc dövrünə aid təsvirlər içərisində diqqəti ən çox çəkən məqamlardan biri də həmin dövrdə,daha dəqiq desək,erdan əvvəl 3- cü minillikdə atlı süvarilərin əks olunmasıdır.Bu təsvirlər Azərbaycan ərazisinin təkcə od,ox,yay,şalvar,dəri geyim,dulus kürəsi və çarxının,eləcə də metallurgiya, təkər və arabanın ilk dəfə kəşf edildiyi məkan deyil,həm də atın ilk dəfə əhəliləşdirilərək minildiyi məkan olduğunu sübut etməkdədir.Atın ilk dəfə məhz ölkəmizin ərazisində əhəliləşdirildi-yini Cəlilabad rayonunun Üçtəpə kəndi ərazisindəki Əlikömək-təpədən əldə edilən arxeoloji materiallar da təsdiqləməkdədir.Qədim yunan və Çin mənbələrindən belə məlum olur ki, farslar və qədim çinlilər minillər sonra şalvar geyib,at minməyi və ox atmağı məhz türklərdən öyrənmişlər.Məsələn, qədim Cin salnaməçilərinin yazdığına görə,eradan əvvəl 325-298-ci illər arsında bu ölkənin hökmdarı olmuş Vu Lunq Cində hərbi islahatlar gerçəkləşdirərək,öz əsgərlərinə hun türkləri kimi at minməyi,ox atmağı və gen dəri şalvar geyməyi öyrənməyi əmr etmişdi.Bundan ön-cə bu ölkədə atlar yalnız arabaya qoşulmaq üçün istifadə edilərmiş,əsgərlərin silahı isə qılınc və nizədən ibarət imiş.Eyni mənbələrdən o da məlum olur ki,cinlilərin tunc əşyalarla tanışlığı da hunlar vasitəsilə baş vermiş və bu ölkəyə ilk tunc məişət və təsərrüfat alətləri Altaydan gətirilmişdir.

Ekranda qədim əlyazmaların saxlandığı kitabxana rəfləri və bu rəflərdəki kitablar görüntülənir.

Diktor mətni:

"Antik müəlliflər odun,metalın,dulus çarxının və sairənin türklər,daha dəqiq desək,iskitlər tərəfindən kəşf edildiyini söyləməklə yetinməmiş,erməni və farsların öz mədəniyyətlərini Azərbaycan türklərinin ulu babalarından hesab edilən midiyalılardan əxz etdiklərini,farsların şalvar geymək,at minmək və ox atmaq sənətini də onlardan öyrəndiyini qeyd emişlər.Bu baxımdan Strabonun söylədiklə-ri böyük önəm daşıyır."

Ekranda görünən aktyor əlindəki kitabdan oxuyur:

"Deyilənlərə görə,midiyalılar ermənilərin,onlardan daha öcnə isə farsların adət-ənənələrinin əsasını qoyanlardır. Farsların ox atmağa,at minməyə,şahlara qulluq eməyə olan həvəsləri və geyimləri midiyalılardan qaynaqlanır.Tia-ra,kitara,uzunqollu xiton,yun papaq və şalvar midiyalılardan farslara keçmişdir.Bu da təbiidir.Çünki bu cür geyimləri midiyalıların ölkəsi kimi soyuq ölkələrdə geyinmək daha rahatdır."

Ekranda türkoloq alim Əfzələddin Əsgər görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Ox-yay qədim türk təfəkküründə həm dini,həm siyasi,həm də dövlət quruluşunda müəyyən simvolik məna ifadə edirdi.Oxun qədim türk təfəkküründə belə çoxşaxəli məna daşıması heç şübhəsiz onun əmək aləti olmasından,ən başlıcası isə hərbi funksiysından irəli gəlirdi.

Yay-ox istə hun ürklərinin,istərsə də göytürklərin ən çox işlətdikləri silah növü olmuşdur.Türklər silahın bu növündən məharətlə istifadə edirdilər.Bizim eradan əvvəl 2-ci əsrə aid olan Çin qaynağında deyilir:Yay və ox işlətməkdə təcrübə və hünərləri çoxdur.hər atdıqlarının hədəfə dəyəcəyinə əmindirlər.

Yenə də həmin dövrə aid başqa bir Cin yazısında deyilir:Hunlar at üstündə dördnalla çaparkən belə,ox ata və yay çəkə bilirlər.

Türklərin yay çəkmə bacarığı haqqında məlumatlara ərəb və farsdilli mənbələrdə daha çox tuş gəlirik.Bəsrəli Cahiz türklərin bu fitri qabiliyyətini incədən –incəyə açıqlamışdır:Əgər min türk süvari oxu çəkib bir dəfə atsalar,min atlı həlak olacaq və belə zərbədən sonra ordudan heç bir əsər qalmayacaq.Nə xarici, nə bədəvi atı üstündə belə ox ata bilmir.Türk isə oxşar şəkildə həm vəhşi heyvanları,həm quşları,həm yarış zamanı nişani,həm adamları,həm hərəkətsiz fiquru,həm çəkilmiş təsviri,həm də yırtıcı quşları oxlayır.O,ox ata-ata öz atını irəli,geri,sağa.sola ,yuxarı,aşağı sürür,xarici bir ox atınca türk doqquzunu atır..."

Ekranda Nəsir Rzayev peyda olur və deyir.

"Tunc dövrü abidələrindən danışarkən Azərbaycanda "Çoban daşı" adı ilə məşhur olan menhirlərdən də söz açmaq lazımdır.Dağ və dağətəyi zonalarda rast gəlinən,hündürlüyü təqribən 1metr və daha çox olan və şaquli şəkildə yerə basdırılan bu abidələrə ancaq qəbiristanlıqlarda təsadüf edilir.Arxeoloqlar müəyyən etmişlər ki,menhirlər Tunc dövründən sonra öz əhəmiyyətinin itimişdir.Qədim qəbiristanlıqlarda cərgələrlə düzülmüş bu şaquli,yonulmamış daşlar ölülər kultu ilə əlaqədar olmuşdur.Belə güman edilir ki,hər daş ölən adamı təmsil edərək onu bu dünyada əbədi yaşadacaqmış.Göründüyü kimi, menhirlər ilk insan heykəlləridir, xatirə səciyyəvi abidələrdir.Maraqlıdır ki,tədqiqatçılar belə daşlar arasında, ibtidai şəkildə olsa da,kişi və qadın heykəllərinə rast gəlmişlər."

Ekranda üzərində baş heykəlləri olan menhir təsvirləri görünür.
Diktor mətni:

"Üzərində baş heykəlləri olan daşlar ilk baş daşlarıdır və dilimizdəki "başdaşı" ifadəsi həmin daşlarla bağlıdır.Bu daşların ölülərin qəbri üərində ucaldığını "Bilqamıs dastanı" da təsdiq etməkdədir."

Ekranda görünən aktyor əlindəki kitabdan oxuyur:

"Ürəyini dinlədi,ürəyi vurmur daha,
O,dostunun üzünü örtdü gəlin tək.
Özü fırlanıb qartal kimi gəşt edirdi
Elə bil ki,balası tələyə düşən şirdi,

Qəzəblə var-gəl edib,ora-bur gedirdi.
Kətan kimi dartırdı,saçlarını yolurdu,
Paltarını didib,cırıq cındır olurdu.
Üfüqə səda düşüb ağaranda dan yeri
Bilqamıs ölkəsini çağırdı adbaad.
Misgərlər,dəmirçilər,daşyonanlar gəlirdi,

Heykəltaraşlar gəlir,daş qoyanlar gəlirdi.
-Dostum,sənə mən elə başdaşı düzəldəcəm,
Beləsini heç kəs dostuna düzəltməyib.
Saçı lacivərd,altı daşdan hörüləcək,
Üzü əhəngdən,özü altundan yonulacaq."

Ekranda Nəsir Rzayev görünür və deyir:

"Menhirlərin Azərbaycanda dəmir dövründə yaradılmış insan heykəlləri ilə müəyyən yaxınlığı vardır."

Ekranda daş heykəl-balbal təsvirləri görüntülənir.Alim sözünə kadr arxasından davam edir:

"Belə heykəllər döyüşçülərin qəbri üstünə qoyularmış.Menhirlərdə olduğu kimi,bu heykəllər də ölmüş döyüşçünün özünü təmsil edirdi."

Ekranda yenidən Nəsir Rzayev görünür və sözünə davam edir:

"Göründüyü kimi,menhirlər ilə qədim türk heykəllərinin ideoloji əsası eynidir.Hər ikisi animistik təsəvvürə-ölümdən sonrakı əbədi həyat fəlsəfəsinə əsaslanır."

Ekranda sənətşünas alim Rasim Əfəndi peyda olur.Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Azəraycanın daş plastika sənəti nümunələri içərisində daş insan fiqurları önəmli yer tutur.Şamaxı və Ağdam şəhərləri ətrafında tapılmış bu monumental plastik sənət nümunələri alimlərin böyük marağına səbəb olmuşdur."

Ekranda yenidən müxtəlif daş balbal təsvirləri göüntülənir.

Alimin səsi kadr arxasından eşidilir:

"Şamaxının Dərə Xınıslı və Dağ Kolanlı yaxınlığından tapılmı heykəllər üslub etibariylə bir-birinə bənzəsə də,ayrı-ayrı vəziyyətdə və ölçüdə düzəldilmiş müxtəlif tipli kişi fiqurlarını təsvir edir.Şamaxıdan tapılmış fiqurların ən böyüyünün hündürlüyü 2,23 metr,ən kiçiyinin isə 1,35 metrdir.

1946-cı ildə Dərə Xınıslı kəndində tapılmış daş heykəl xüsusilə maraqlıdır.Yerli əhəng daşından yonulub düzəldilmiş bu heykəl ucaboylu, naməlum bir şəxsi təsvir edir.Həmin fiqur bu ərazidə aşkar edilmiş bir neçə başqa heykəl kimi başsızdır.Baş yerinin formasından məlum olur ki,fiqurun başı sonralar hansısa səbəbdən sındırılmışdır.Fiqurun əllərinin vəziyyəti də bu ərazidə tapılan əksər heykəllərdə olduğu kimidir.Onların əksəriyyətində sol əl ürək, sağ əl isə bel tərəfdə təsvir edilmişdir.

Fiqurun bədənində geyim olduğunu bildirən xətlərin izləri görünür.Kürəyin yuxarı hissəsində bu ərazidən tapılan digər heykəllərdə olduğu kim dalğavari xətlər vardır ki.bu da təsvir olunan şəxsin uzun saç saxladığını göstərir.

Tarixi mənbələrdən belə aydın olur ki.türk xalqları islamdan öncə hər bir igidin məzarı üstə insan fiqurlu heykəllər qoyardılar.İlk orta əsrlərə aid "Veyşu"adlı Çin mənbəsindən,eləcə də Əl-Bələzuri və Əl Xarəzmi kimi müsəlman tarixçilərin əsərlərindən göründüyü kimi,bu tipli heykəllər müqəddəs sayılır və onlara sitayiş edilirdi.

Musa Kağankatlı özünün "Alban tarixi"kitabında Azərbaycan ərazisində yaşayan soy və boyların daşdan heykəllər yonub, ona sitayiş etdiyini,onların şərəfinə hətta at,qoç,sığır qurbanları verdiklərini xüsusi qeyd edir.Musa Kağankatlının yazdığına görə, bu boylar uzun saç saxlayıb mahir ox atan idilər."

Ekranda Rasim Əfəndinin yerini yenidən Nəsir Rzayev tutur və deyir:

"Tunc və dəmir dövrü üçün xarakterik olan abidələrdən söz açarkən, dolmenlərdən də söhbət etmək lazımdaır.Dolmenlər daşların şaquli vəiyyədə yerə basdırılması nəticəsində yaranmış.hər tərəfi bağlı düzbucaq qəbirlərdir.Onların üstü sal daşla örtülür.Dolmenləin qurulmasında 10 ton ağırlığı olan nəhəng daşlardan istifadə edilmişdir.Bu qəbirlər tək,ikimərtəbəli və koridorla birləşən qəbirlər sırası şəklində olur.Belə abidələrə Avopa,İran,Hindistan,Yaponiya, Koreya, Krım,Qara dəniz sahilləri və Azərbaycanda rast gəlmək olur.Fransız alim Jak de Morqan Lənkəran rayonunun Körükdi kəndi yaxınlığında ikimərtəbəli dolmenlər aşkarlamış və ilk dəfə onların tarixi və dini mahiyyəti barədə məlumat vermişdir. Xocalıda da dolmenlər üzə çıxarılmışdır.

Dolmenlərin yaradılması üçün əsas olmuş axirət dünyası ideyası və ruhun ölməzliyinə inam ənənəvi olaraq zamanəmizə qədər gəlib çıxmışdır.Buna misal olaraq Şamaxıdakı "Dədə Günəş"pirini ziyarət edənlərin balaca daşlardan evlər tikməsini göstərmək olar.Guya bu evlər xəstələrin öləndən sonra axirət dünyasında yaşamasına xidmət edəcəkmiş.

Bu pirin adı təsadüfi olaraq "Dədə Günəş" adlandırılmamışdır.Günəş Azərbaycanın ən qədim kultlarındandır.Bu kult Tunc dövründə çox böyük tərəqqi tapmışdı."

Ekranda Qobustanın gəmi təsvirləri canlanır.
Diktor mətni:

"Günəş kultundan söhbət düşmüşkən Qobustandakı gəmi təsvirlərini də unutmamaq lazımdır.Şumer gəmilərinin prototipi olan bu gəmilərin uclarındakı günəş təsvirləri diqqəti çəkməkdədir.Şumer mifologiyasında bu qayıqlar günəş tanrısı Utu ilə əlaqəli təsəvvür edilmişdir.Şumerlər inanıdılar ki,ölən insanlar ölülər dünyasına belə qayıqlarda yollanırdılar.Bunun üçün onlar Kur çayını keçməli idilər.Sonradan bu mifiloji təsəvvür qədim sami və yunan mifologiyalarına da keçmişdir.Onun izlərinə hətta Amerika hindularının əfsanələrində də rast gəlinməkdədir.Maraqlıdır ki,qədim yunan tarixçisi Herodot iskit xaqanlarını Kür çayının yuxarı axrında kurqanlarda basdırmaq adətindən söz açmışdır.

Görünür,şumelərin bu dünya ilə o biri dünyanı bir-birindən ayıran Kur,yə-ni Kür çayı barədə,eləcə də ölüləin bu çayı günəş qayıqlarında keçməsi barədə təsəvvürləri əski vətənlərindəki real hadisənin yeni vətəndə əfsanələşdirilməsi ilə meydana gəlmişdir.Hər halda belə düşünməyə ciddi əsaslar vardır.Əvvəla,Qobus-tanın gəmi təsvirləri və Herodotun iskit xaqanlarının dəfni ilə bağlı verdiyi məlumat,eləcə də Kür çayının yuxarı axarında son Eneolit dövrünə aid Soyuqbulaq kurqanlarının aşkar edilməsi bu versiyanın ciddi bir versiya olduğunu göstərir.Deyilənlərə kurqanlaın "şüa sistemi"nə uyğun yerləşdiyini də əlavə etmək lazımdır."

Ekrandakı gəmi təsvirlərini Qobustanın öküz təsvirləri əvəz edir.
Diktor mətni:

"Tunc dövründə insanların dünyagörüşündə baş verən köklü dəyişikliklər Qobustanın həmin dövrə aid qayaüstü təsvirlərindən çox aydın hiss edilir.Əvvəlki dövrlərdən fərqli olaraq,bu dövrdə artıq öküz təsvirlərinə rast gəlinmir.Bu isə o deməkdir ki,onlar artıq sitayiş obyekti olmaqdan çıxmışdılar.Bunu o fakt da təsdiq edir ki,əgər Mezolit və Neolit dövrü insanlarının rasionun nümayiş etdirən heyvan sümükləri arasında öküz sümüklərinə rast gəlinmirdisə, Eneolit və ilk Tunc dövrünə aid məskənlərdən tapılan sümük qalıqları içərisində iribuynuzlu malqaraya aid sümüklərə də rast gəlinir. Bu isə o deməkdir ki,həmin dövrlərdən etibarən öküzləri yeməyə başlamışlar.Çünki artıq onları müqəddəs varlıq hesab etmirdilər.Bir sözlə,öküz kultu yerini tədricən günəş kultuna vermişdir."

Ekranda "Bilqamıs dastanı kitabı göünür.Kitab açılır və səhifələr bir-birini əvəz edir.
Diktor mətni:

"Tunc dövründə günəş kultunun öküz kultunu üstələməyə başlamasını və hətta həmin dövrdə öküzün kəsilərək günəşə qurban verildiyini yazılı mənbələr də təsdiq etməkdədir.Bu baxımdan şumer ədəbiyyatının şah əsəri hesab edilən "Bilqamıs dastanı"nda təsvir edilən bir olay deyilənlərə ən gözəl sübutdur."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

" "Dostum,mən də görürəm buğada çılğınlığı,
Bizi qorxuda bilməz onun bu azğınlığı.
O buğanı ikimiz bir yerdə öldürərik,
Mən onun ürəyini çıxardaram yerindən,Utuya apararam.
Buynuzuna zeytun yağı doldurub ,Luqalbandaya çatdıraram.
Sən onun quyruğunun yapış yoğun yerindən,
Alnına,peysəinə xəncər vuracağam mən."
Enkidu hərləyərək onun dalınca qaçdı,
Quyruğunun lap yoğun yerindən o yapışdı.
Bilqamıs öz dostunun igidliyini gördü,
Buğanın alnına,peysərinə xəncər vurdu.
Gətirdilər qoydular Utunun qarşısına,
Bir az kənarda durub,səcdə etdilər ona."

Ekranda Gəmiqaya təsvirləri bir-birini əvəz edir,sonda isə ekranda yallı rəqsini təsvir edən petroqliflər görünür.

Diktor mətni:

"Tunc dövünə aid təsviri sənət nümunələri və piktoqrafik yazılar kimi Ordubad rayonu ərazisində yerləşən Gəmiqaya təsvirlərinin böyük əhəmiyyəti var. Buradakı yallı rəqsləri xüsusi önəm daşımaqda və kökü ən azı Mezolit dövrünə qədər uzanan bu rəqsin Tunc dövründə də dəbdə olduğunu göstərməkdədir.Fəqət dövrün təsviri sənəti və musiqi mədəniyyətini öyrənmək baxımından Təbriz yaxınlığındakı Cığamış yaşayış məskənindən tapılan və eradan əvvəl 3-cü minilliyə aid edilən bir daşın önəmi heç bir ölçüyə sığmır."

Ekranda Cığamış daşı və onun üzərindəki musiqiçilər qrupu təsvir edilir.

Diktor mətni:

"Bu daşın üzərindəki təsvir özünün realistliyi və yüksək sənət nümunəsi olması ilə seçilr.Lakin həmin təsviri əhəmiyyətli edən onun təkcə bu məziyyəti deyil,həm də daşıdığı informasiya yüküdür.Təsvirdə Azərbaycanın qədim musiqi alətlərindən olan cəng,qara zurna,qoşanağara və saxsı qablarda ifa edən musiqiçilər qrupu,başqa sözlə dünyanın elmə məlum ən qədim orkestrı,eləcə də eynən bu günkü xanəndələr kimi əlini qulağının dibinə qoyub mahnı ifa edən müğənni təsvir edilmişdir.Bu tapıntı sayəsində qədim musiqi mədəniyyətimiz, alətlərimiz,ifaçılıq və vokal sənətimiz barədə müəyyən təsəvvür əldə etmiş oluruq."

Ekranda Rafiq İmraninin "Muğam Şumerdən başlayır" kitabının üz qabığı görünür və rast muğamından bir parça səslənir.

Ekranda Rafiq İmrani peyda olur,Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Cığamış təsvirində biz dünyanın ən qədim orkestrini və qədim musiqi alətlərimizi görürük.O dövrdə musiqi mədəniyyəti çox yüksək səviyyədə olmuşdur və bunu amerikalı mütəxəssislərin üzə çıxararaq çözə bildikləri qədim şumer notları sübut edir.Sözügedən notlarda ifadə edilən musiqi özünün professionalizmi ilə seçilir və öz səs ssteminə görə Azərbaycan musiqisinə tam uyğun gəlir.Tədqiqatlar nəticəsində məlum olmuşdur ki,azərbaycan muğamının kökləri şumer mədəniyyətinə dayanır."

Ekranda Soltan Hacıbəyovun "Karvan"simfonik suitasının sədaları altında hərəkət edən karvan görüntülənir.

Ekranda üst-üstə yığılmış çox sayda qalın kitab görünür və bu görüntünü kitabxana rəfləri və onlarda yan-yana düzülmüş coxlu kitab görüntüsü əvəz edir.

Diktor mətni:

"Azərbaycanda qurulan ilk dövlət,onun qurulma tarixi və ilk xaqanları haqqında dəqiq söz söyləyə bilmək üçün yetərincə yazılı məlumat vardır.Lakin tədqiqatçılar bu məlumatları nədənsə gözardı etmiş və ya onları ciddiyə almamışlar. Həqiqət isə budur ki, bu məlumatlar müxtəlif minilliklərə və əsrlərə aid olsalar da bir-biri ilə üst-üstə düşməkdə,bir-birini tamamlamaqdadırlar.Həmin məlumatlara əsasən,Azərbaycanda xaqanlıq institutunun təsisi və dövlətçilik tarixinin başlanğıcı Nuh tufanından sonraya təsadüf edir və bilavasitə Nuh əleyhissəlamın adı ilə bağlanır.Azərbaycanın və ümumiyyətlə türklərin ilk xaqanı kimi isə Həzrət Nuhun oğlu,samilərin Yafəs,türklərin isə Olcay adı ilə tanıdıqları şəxsin adı çəkilir."

Ekranda Musa Kağankatlının "Alban tarixi"kitabı görünür.Kitab açılır və səhifələr bir-birini əvəz edir.

Diktor mətni:

"8-ci əsrdə yaşmış alban tarixçisi Musa Kağankatlı özünün "Alban tarixi" kitabında Yafəsin soyu və bu soyun hakimiyyəti altında olan torpaqlar barədə çox maraqlı və qiymətli məlumatlar verilməkdədir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Qardaşlar Nuhun təkidi ilə bir-birini qarət etməyəcəkləri barədə and içdikdən sonra Nuhun Yafəsə təyin etdiyi sahə şimalda Midiyadan Qadriona qədər uzanıb,Midiyanı Babildən ayıran dəclə çayının aşağı axarına qədər idi."

Ekranda yenidən "Alban tarixi" kitabı görünür.
Diktor mətni:

"Bu məlumatdan göründüyü kimi,8-ci əsr tarixçisi Yafəsə verilən torpaqlardan söz açarkən Midiyanın adını çəkir.Midiya isə eramızdan əvvəl 7-5-ci əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətin adıdır.Müəllif bununla sadəcə sözügedən əraziyə işarə etmişdir. O,kitabının "Yafəs və Arandan başlayaraq 3-cü Vaçaqana qədər Albaniyada hakim olan hökmdarların siyahısı" adlı 7-ci fəslində Yafəsi Albaniyanın,yəni Azərbaycanın ilk xaqanı kimi təqdim edir,ondan hökmdar kimi söz açır. Kitabının 2-ci fəslində Yafəsin soyundan və bu soyun hakim olduğu ölkələrdən danışarkən Musa Kağankatlı yenə də Azərbaycanı birinci sırada göstərir və ilk iki yerə Atropatena və Albaniyanı,yəni Azərbaycanın cənub və şimalını yerləşdirir.

Ümumiyyətlə, bu ardıcıllıq eyni mövzuya toxunmuş əksər xristian müəlliflərin əsərlərində var.Bu baxımdan 4 –cü əsr tarixçisi Pamfilanın oğlu Yevseviyin yazdıqları da maraq doğurur."

Ekranda yazılır:

"...Bunlar isə Nuhun üçüncü oğlu Yafəsin soyundan olan xalqlardır. Midiyadan Speriyaya,okeandan Akvelona qədər onlar belə düzülmüşlər; midiyalılar,albanlar,qarqarlar..,sarmatlar..,meotlar,iskitlər,tavriyalılar..,bastaranlar..

Yerləşdikləri ölkələr isə bunlardır;Midiya,Albaniya,Meotiya,Sarmatiya, Taorvaniya, İskitlər ölkəsi..."

Diktor kadr arxasından yazılanları təkrar edir.

Ekranda üst-üstə yığılmış çox sayda qalın kitab görünür və bu görüntünü kitabxana rəfləri və onlarda yan-yana düzülmüş coxlu kitab görüntüsü əvəz edir.
Diktor mətni:

"Bənzər fikrə Portlu İppolitdə də rast gəlirik. O da Yafəs oğullarından söz açaraq onların torpaqlarını sıralayarkən Midiya və Albaniyanın adını ilk sırada çəkir."

Ekranda Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" kitabının,daha sonra isə müəllifin şəkli göüntülənir.
Diktor mətni:

“19-cu əsrin görkəmli Azərbaycan tarixçisi və maarifçisi Abbasqulu Ağa Bakıxanovun yazdığına görə,Yafəs türklərin ilk hökmdarı olmuşdur.O,13-14 –cü əsrlər müəllifi Həmdullah Müstövhi Qəzvininn “Tarixi-Güzidə” və 15-ci əsr müəllifi Xondəmirin “Xülasətül-Əxbar”əsərlərinə istinad edərək Yafəsin oğulları barədə ətraflı məlumat vermiş,onun birinci oğlunun adının Türk olduğunu qeyd etmişdir.”

Ekranda yenidən qalaq-qalaq kitablar peyda olur.
Diktor mətni:

“Yafəsin şahlığının mərkəzi kimi Azərbaycan ərazisini göstərən xristian tarixçilərdən fərqli olaraq, müsəlman tarixçilər bu mətkəz kimi Türküstsnı qeyd etməkdədirlər.Bu baxımdan 14-cü əsrin böyük tarixçisi Fəzlullah Rəşidəddin və onun məşhur “Cami ət-Təvarix” əsəri də istisna deyildir.”

Ekrana gələn aktyor kitablardan birini götürüb oxuyur:

“Türk tarixçiləri və yüyrək dilli salnaməçilər bildirirlər ki,Nuh əleyhissəlam, Allah ona rəhmət eləsin,yer üzünün adamlar yaşayan hissəsini oğlanları arsında bö-ləndə şərq ölkələrini,Türküstanı və ona yaxın yurdlarla birlikdə böyük oğlu Yafəsə verdi.Yafəs türklərin təbirincə Olcay xan ləqəbini aldı.O,səhrada yaşayırdı. Olcay xanın yaylağı və qışlağı Türküstan torpaqlarında idi:Yaz aylarını o,İnanc şəhərinin yaxınlığında olan Ortaq və Kurtaqda keçirir,qışlayanda isə yenə o tərəflərdə- Qaraqorum adı altında məşhur olan qaraqumdakı Borsuk adlanan yerdə olurdu.Həmin yerdə iki şəhər vardı:Biri Talas,o biri Karı Sayram və bu sonuncu şəhərin qırx böyük qızıl qapısı vardı.İndi orad müsəlman türklər yaşayır,həmin yer Kunçi mülklərinin yaxınlığındadır və Kaydudan asılıdır..Olcay xanın paytaxtı da burada yeləşirdi.”

Aktyor əlindəki kitabı yerinə qoyub kameranın obyektivindən çıxır.Kadr arxasından diktorun səsi eşidilir:

“Olcay xanın,yəni Nuh oğlu Yafəsin xaqanlığının mərkəzi barədə xristian və müsəlman tarixçilərinin verdikləri məlumatlar bir-birindən fərqlənsə də birincilərin daha düzgün məlumat verdiklərini söyləyə bilərik.Çünki həm yazılı mənbələr,həm də mövcud arxeoloji və yerüstü abidələr bir-birini heyrətamiz şəkildə tamamla-yaraq Azərbaycan ərazisinə işarə etməkdədir.Deyilənlərin ən əsas və təkzibedilməz sübutu Həzrət Nuh əleyhissəlamın məzarının Azəbaycanda,daha dəqiq desək,Naxçıvanda olmasıdır.

Həzrət Nuh və tufan barədə ən qədim məlumata “Bilqamıs dastanı”nda rast gəlirik.Tövrat və Qurani-Kərimdəki süjetlərlə, cüzi fərqlər nəzərə alınmazsa,bütünlüklə üst-üstə düşən şumer süjetində sözügedən peyğəmbər Utnapişti adı ilə yad

edilməkdədir. Baş verənlər isə onun öz dilindən nəql edilir.Xatırladaq ki,söhbət Tövratdakı süjetdən təqribən 2 min il daha qədim olan süjetdən gedir."

Ekranda Elməddin Əlibəyzadə peyda olur.Alt tərəfdə onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Zəngin Şumer mədəniyyəti bəşər sivilizasiyasının hələlik ilk mənbəyi və çıxış nöqtəsidir.Çox qədim zamanlardan insanları kainatın və adamların yaranması məsələsi məşğul etmişdir,əcdadlarımız bu barədə düşünmüş,öz ilk miflərini yaratmışlar. "Bibliya"da kainatın və insanın yaranması barədə bir sıra müddəalar öz qaynağını məhz şumer miflərindən almışdır.Bu baxımdan Nuh tufanı ilə bağlı süjet də istisna deyildir.

Nuhun adı "Bilqamıs dastanı"nda Ubar Tutunun oğlu Utnapişti şəklində xatırlanır.Dastanda deyilir ki,dəhşətli leysan-tufan gözlənildiyindən xeyir tanrısı Eyanın məsləhəti ilə Ubar Tutunun oğlu var-dövlətindən,mal mülkündən,ev-eşiyindən əl çəkib gəmi düzəldir.Ən vacib olan şeyləri,külfətini,nəslini,heyvanları gəmiyə yığıb xilas edir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Mən biyara çağırdım elin ərənlərini,
Evlərimi sökdülər,hasarı dağıtdılar.
Uşaqlar da işləyir,qətran daşıyırdılar,
Güclülər ağır yükü çəkib aparırdılar.
Beşcə günün içində mən banı düzəltdirdim,
Sahəsi bir hektarın üçdə biri olardı.
Yanların hündürlüyü düz iyirmi dirsək,
Üst yanların hərəsi,ayrılıqdaca tək-tək,
Olardı nə az-nə şox,düz yüz iyirmi dirsək.
Naxışlar da düzəltdim,cızdım quruluşunu."

Ekranda yenidən Elməddin Əlibəyzadə görünür və deyir:

" "Bilqamıs dastanı"nda gəmini ərənlər,uşaqlar el və əl birliyi ilə qururlar. "Bibliya"da bu işi Nuhun üç oğlu görür. Gəminin uzunluğu üç yüz,eni əlli,hündür-lüyüotuz dirsək kimi göstərilir."

Ekranda görünən akyor kitabdan oxuyur:

"Altı gün,yeddi gecə küləklər əsir,
Tufanlar yer üzünü daşqınlara bürüyür.
Bu cürə qovğa ilə gəlib yeddi gün oldu,
Daşqın tamam dayandı,qasırğalar sovuşdu,

Mən nəfəsliyi açdım,üzümə işıq düşdü.
Baxdım sakit dənizə,gördüm qəzəbi sönüb,
Bütün bəşəriyyətsə tamam torpağa dönüb.
Yerlə yeksan olmuşdu dünya dümdüz dam kimi,
Mən diz çökdüm,yaş tutdu gözlərimi...”

Ekranda Elməddin Əlibəyzadə görünür:

““Bibliya”ya əsasən Nuh gəmini Tanrının göstərişi ilə düzəldir,onun bütün yırtıqlarını içdən və çöldən qətranlayır.,heyvanları və ərzaqla birlikdə ailəsini gəmiyə yığır.7 gündən sonra yağış tökür və 40 gün davam edir. “Bilqamıs dastanı”nda da eyni şeylər təsvir edilir.”

Ekranda alimi əvəz edən aktyor oxuyur:

“Mənim nəyim var idisə,o gəmiyə yüklədim,
Nə gümüşüm vardısa, o gəmiyə yüklədim,
Nə qızılım vardısa, o gəmiyə yüklədim,
Nə heyvanım vardısa,o gəmiyə yüklədim.
Külfətimi,nəslimi yığışdırdım gəmiyə,
Çöl heyvanlarını da yerləşdirdim gəmiyə...”

Elməddin Əlibəyzadə aktyoru əvəz edir.

““Bibliya”da deyilir ki,yağış kəsdikdən sonra Nuh qırx gün də gözləyir,sonra pəncərədən qarğa buraxır. Bilmək istəyir ki,su çəkilibmi,quru yer varmı?Qarğa uçub gedir,quru yer tapmayıb yenidən geri dönür.Bir müddət sonra yenidən qarğanı buraxır və o,axşam dimdiyində zeytun budağı ilə qayıdır.Nuh başa düşür ki,artıq su çəkilməyə başlayıb.Qarğanı növəti dəfə buraxanda o gedib qayıtmır.Şumer dastanında da bənzər olay təsvir edilib.”

Yenidən aktyor görünür:

“Baxırdım sahillərə,görüm nə var orada.
On iki mənzillikdə göründü bir ada.
Həmin Nisir dağında dayandı bizim gəmi,
Dağ gəmini saxlayıb tutmuşdu dayaq kimi.
Düz iki gün gəmini qoymadı tərpənməyə,
Üç-dörd gün qoymadı,dağ gəmini saxladı,
Beş-altı gün də keçdi gəmini buraxmadı.
Yeddinci gün gələndə mən göyərçin çıxarıb buraxdım göyə,
Göyərçn uçdu,uçdu,gedib döndü geriyə,
Qonmağa yer tapmadı bir də geri qayıtdı.

Qaranquşu çıxarıb,onu buraxdım göyə,
Qaranquş uçdu,uçdu,gedib döndü geriyə,
Qonmağa yer tapmadı bir də geri qayıtdı.
Mən quzğunu çıxarıb, onu buraxdım göyə,
Quzğun yol gedib tapdı suyu çəkilmiş yeri.
Orda yedi,qığladı,daha dönmədi geri.
Mən çıxıb dörd tərəfin dördünə qurban verdim,
Qalxıb dağın başına göylərə alqış dedim."

Ekranda peyda olan Elməddin Əlibəyzadə deyir:

"Dastanda deyilənlərdən göründüyü kimi,Ubar Tutunun oğlu Utnapişti gəmini tərk edər-etməz qurban verir."Bibliya"da eyni şeyi müşahidə edirik.Nuh gəmidən çıxıb,səcdəgah düzəldir,Tanrıya qurban kəsir."

Ekranda Naxçıvaın mənzərələri bir-birini əvəz edir və ən sonda Həzrət Nuhun məzarı nümayiş etdirilir.

Diktor mətni:

"Tövratda Nuhun gəmisinin yan aldığı dağın Anadolunun şərqindəki Ağrı dağı olduğu bildirilir.Qurani –Kərimədə isə söhbət Cudi dağından gedir."Bilqamıs dastanı"nda isə bu dağ Nisir dağıdır.Bu halda söhbət Naxçıvandakı Nəhcir dağından gedir.Azərbaycan rəvayətlərində isə belə deyilir:

Nuhun gəmisi öncə Cudi dağına,daha sonra Ağrı dağına yan alır,sonra Haçadağa toxunub onun zirvəsini parçalayıb haçalayır və ən sonda Nəhcir dağna ilişib dayanır.Nuh gəmidən burada endiyi üçün əraziyə Nuhçıxan deyilir.Hər halda,fakt budur ki,Nuhun qəbri Naxçıvandadır və minillərdir ki,xalq tərəfindən ziyarət edilir.Nuhun Naxçıvanla bağlılığı barədə mötəbər mənbələrdən biri də 1-2-ci əsrlərdə yaşamış Roma tarixçisi Ptolomeyin yazdıqlarıdır.O, Nuhun Nuksuanada,yəni Naxçıvanda yaşayıb burada öldüyünü,burada yerdən duz çıxarmaqla məşğul olduğunu qeyd etmişdir.

Maraqlıdır ki,Naxçıvanda duz mağarası kimi tanınan və minillərdir duz çıxarılan mağarada aparılmış arxeoloji tədqiqatlar burada duz istehsalına minillər öncə,yəni təqribən Həzrət Nuh dövründən duz çıxarıldığını göstərmişdir ki,bu da Ptolomeyin məlumatını təsdiq edir.

Deyilənlərə Səlcuqlular dövründə peyğəmbərin qəbrinin üzərində sərdabə tikildiyini,sonrakı əsrlərdə bir çox səyyahların bu sərdabəni ziyarət edərək əsərlərində bu barədə qeydlər etdiklərini əlavə etmək lazımdır.Yəni bu şəxsin heç də mifik şəxsiyyət deyil,real tarixi şəxsiyyət olduğu heç bir şübhə oyatmır."

Ekranda dəvə karvanını hərəkətini göstərən süjet nümayiş etdirilir və Soltan Hacıbəyovun "karvan simfonik suitasının sədaları eşidilir.

Ekranda Leonard Vullinin “Haldeylərin Ur şəhəri”kitabının üz qabığı,sonra isə müəllifin şəkli görüntülənir.

Diktor mətni:

“İkiçayarasında uzun müddət arxeoloji qazıntılar aparmış və şumerlərin qədim Ur şəhərinin qalıqlarını üzə çıxarmaqla məşhurlaşmış görkəli amerikalı arxeoloq Leonard Vulli qazıntılar zamanı “Nuh tufanı”nın izlərini aşkarlamış və beləcə sözügedən olayın mif olmadığını sübut emişdir.Deməli, Həzrət Nuh gerçək tarixi şəxsiyyət olduğu kimi,tufan da qədimdə baş vermiş geçək bir hadisədir. Madam ki,bu belədir,deməli,xristian və müsəlman tarixçilərin Yafəsin tüklərin ilk şahı olması və böyük bir dövlətə başçılıq etməsi barədə söylədiklərinə tam ciddi yanaşmaq lazımdır."

Ekranda üzərində mixi yazılar olan gil kitabələrin təsvirləri canlanır.

Diktor mətni:

“Təsadüfi deyil ki, qədim şumer mənbələri ölkəmizin ərazisində mövcud olan və Şumer dövləti ilə iqtisadi-siyasi əlaqələr saxlayan bir dövlətdən söz açmaqdadır. Söhbət mixi yazılarda Aratta adı altında yad edilən və Şumer ilə eyni dövrdə mövcud olmuş qədim bir dövlətdən gedir.”

Ekranda Yusif Yusifovun “Qədim Şərq tarixi”kitabı, ardınca isə alimin öz şəkli görüntülənir.

Diktor mətni:

“Görkəmli Azərbaycan alimi,qədim şərq tarixinin gözəl bilicisi,mərhum Yusif Yusifovun yazdığna görə,Eramızdan əvvəl 3-cü minillikdə Azərbaycanda dövlət qurmlarının meydana gəldiyi müşahidə olunur.”

Ekranda peyda olan aktyor alimin şəklinin fonunda əlindəki kitabdan oxuyur:

“Cənubi Azərbaycan İkiçayarasına yaxın bir ərazidə yerləşirdi.İkiçayarasının qədim Azərbaycan tayfaları ilə erkən siyasi münaqişələri və iqtisadi əlaqələri Şumer-Akkad mixi yazılarında əks olunmuşdur.Bu qaynaqlar göstərilən hadisələrlə əlaqədar Aratta ölkəsini,kuti,lullu və su tayfalarını yad edir.Uruk şumer şəhə dövləti Aratta ilə iqtisadi əlaqələr yaratmaq və hətta ölkəni özünə tabe etmək istəyirdi.Akkad hökmdarları kuti və lullu tayfalarının İkiçayarasına müdaxiləsiniə qarşı mübarizə aparırdılar.Şumerlər və akkadlar Cənubi Azərbaycan,onun təbii sərvətləri barədə müəyyən təsəvvürə malik idlər.”

Ekranda Firidun Ağasıoğlu peyda olur.Altda onun adı,soy adı və elmi dərəcəsi yazılır. O deyir:

"Aratta dövləti Azərbaycan ərazisində yerləşirdi.Şumer və Aratta dövlətləri arasında əlaqələr barədə "En-Merkar və Aratta hökmdarı", "En-Merkar və En-Sukuşsiranna", "En-Merkar və Luqlbanda", "Luqalbanda və Hurrum dağı" kimi bir neçə şumer dastanında əks olunmuşdur. Sözügedən dastanların və digər mənbələrin təhlili Arattanın ərazisinin Cənubi Azərbaycanın ərazisi ilə üst-üstə düşdüyünü,onun cənub sınırlarının Qəzvin və Həmədandan keçdiyini söyləməyə əsas verir."

Ekranda mixi yazılar görünür.
Diktor mətni:

"Aratta Cənubi Aərbaycanda miladdan öncə 3-cü minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlt qurumu idi.Bu dövlətin Şumer dövləti ilə diplomatik, siyasi və iqtisadi əlaqələri ümumdünya diplomatiya,siyasət və iqtisadi əlaqələr tarixinin başlanğıc nöqtəsidir.Aratta və Şumer şahları arasındakı yazışma isə tarixin ilk diplomatik sənədləridir."

Ekranda Şumer və Arattanın xəritəsi görünür.
Diktor məni:

"Mixi yazılardan belə aydın olur ki, Şumerə hökmranlıq edən Uruk sülaləsindən En-Merkar,bugünkü dillə desək, Merkar xan Aratta xanından Uruka tabe tabe olmağı tələb etmiş,Aratta xanı da öz növbəsində Uruku və bütün Şumer şəhərlərini özünə tabe etmək üçün tədbirlər görmüşdür.Mənbələrin məlumatına görə,Şumer xanı Arattanı ziyarət etmiş,bu iki dövlətin başçıları arsında daim məktublaşma aparılmış,sami tayfalarının Şumerə hücumları zamanı Merkar xan Aratta xanına kömək üçün müraciət etmiş,o da Şumerdən yardım əlini əsirgəməmişdir.Hətta Şumerin dağıdılmış məbədlərini bərpa etmək üçün ora tikinti materialları və sənətkarlar göndərmişdir."

Ekranda Yusif Yusifovun şəkli görünür.
Diktor mətni:

"Yusif Yusifovun yazdığına görə, Arattada çoxtanrıcılıq mövcud idi.Şumerdə olduğu kimi,Arattada da İninni və Utu kultları geniş yayılmışdı.Məh-suldarlıq və çobanlar tanrısı Dumuzi də böyük hörmət görməkdə idi.Bundan başqa Lama adlı bir ilahəyə də sitayiş edilirdi.İldırım və şimşək tanrısı İşkur da sitayiş edilən tanrılardan idi."

Ekranda yenidən Firidun Ağasıoğlu görünür və deyir:

"Zəngin yeraltı faydalı sərvətləri olan Arattanın əhalisi qızıl,gümüş, qur-ğuşun, mis, dağ daşı, lacivərd istehsal edirdi. Qiymətli metallardan hazırlanan əşyalar və lacivərd Şumerə ixrac edilirdi."

Ekranda mixi yazılar görüntülənir.
Diktor mətni:

"Şumer mənbələrindən belə görünür ki,həmin dövrdə Arattada yazıdan istifadə edilirmiş.Şumerdə olduğu kimi burada da dövlət institutları fəaliyyət göstərir,elm və təhsilə xüsusi əhəmiyyət verilirdi.Şumerlər Arattanı "saf ənənələr ölkəsi" adlandırırdılar ki,bu da əcdadalarımızın yüksək əxlaqi və mənəvi keyfiyyətlərindən xəbər verir.Mənbələrdən o da məlum olur ki,ölkədə buğda və noxud becərilirmiş."

Ekranda Şumer və Arattanın xəritələri canlanır.
Diktor mətni:

"Mənbələrdən belə aydın olur ki,Şümerlə Aratta arasındakı sərhəddə "Qaradağ" adlı dağ yerləşirmiş.Bu halda söhbət bugünkü İraqla İran sınırında, Süleymaniyyə zonasında yerləşən Qaradağdan gedir."

Ekranda yenidən mixi yazılar görüntülənir.

"Arattada mədəniyyət,incəsənət və sənətkarlıq o qədər yüksək səviyyədə idi ki, Şumer şahları saray və məbədlərin tikintisində arattalı ustalara üstünlük verirdilər.En-Merkar,yəni Merkar xan ilahə İninniyə dua edərək ondan arattalı usataların onun üçün çalışmalarını xahiş etməkdə idi."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Ey mənim xanım ağam ilahə İninni!
Qoy Aratta adamları mənə Urukda qızıl və gümüşü ustalıqla emal etsinlər, təmiz lacivərd parçalarından ,qızıl-gümüş qatışığından,təmiz lacivərddən Urukda-açıq təpədə,sən yaşadığın "Anşan evində" qoy məbəd tiksinlər!
İşıqlı "Kiparın" ortasını-sən yaşadığın yeri Aratta adamları qoy mənim üçün bəzəsinlər!
Aratta adamları dağlardan dağ daşlarını qoy mənim üçün gətirsinlər,qoy mənim üçün böyük ibadətgah tiksinlər!
Qoy mənim üçün böyük məbəd ucaltsınlar!
Böyük məbədi - tanrılar məbədini qoy mənim üçün parıldatsınlar!
Qoy mənim ayinlərimi Kulabda mənim üçün düzgün ifa etsinlər!
Qoy mənim üçün işıqlı dağa bənzər "abzu" qursunlar!
Qoy mənim üçün meşəli dağa bənzər "eredu" təmizləyib hazırlasınlar!
Qoy mənim üçün dərin uçuruma bənzər işıqlı ibadədgah-"abzu" düzəltsin-lər !"

Ekranda mixi yazılar görüntülənir.

Diktor mətni:

"Maraqlıdır ki,En-Merkar qasid vasitəsilə Aratta şahına məktub göndərərək ondan özünə tabe olmasını, Uruka qızıl,gümüş, lacivərd və çox sayda usta gön-dərməyi tələb etmişdi.Aratta hökmdarı En-Sukuşsiranna, yəni Sukuşsiranna xan ağsaqqallar şurasını toplamış,onlardan məsləhət istəmişdi,şura da ona tabe olmağı məsləhət görmüşdü.Fəqət Aratta hökmdarı bununla razı olmur və kahin Urqirnuna-nı Uruku ələ keçirmək məqsədi ilə qoşunun başında Şumerə göndərir.Lakin ən son məqamda Aratta ordusu məğlub olur.

Buna baxmayaraq Aratta hökmdarı yenə tabe olmur və Şumer elçisi Luqal-bandaya diplomatiya tarixinin ilk siyasi bəyanatlarından biri hesab edilən siyasi bir cavab verir."

Ekranda yenidən aktyor peyda olur və oxuyur:

"Mən ali kahinəm və təmiz əl,yəni ilahə İninni tərəfindən təyin olunmuşam. Xoşsifət İninni həqiqətən məni Arattaya – saf ənənələr ölkəsinə gətirdi,məni sanki, böyük darvaza kimi onun önündə qoydu.Məgər Aratta Uruka tabe ola bilərmi?"

Yenidən mixi yazılar görünür.
Diktor mətni:

"Gördüyümüz kimi,arattalılar siyasətdə din faktorundan çox məharətlə istifadə edirdilər.Maraqlıdır ki,Uruk hökmdarının qasid vasitəsilə göndərdiyi ultimatumda da eyni motivlərdən istifadə edilmişdir."

Mixi yazıları aktyor əvəz edir və oxuyur:

"Qasid, mənim adımdan Arattanın ali kahininə de ki,onun şəhərinin əhalisini vəhşi göyərçinlər kimi ağacdan hürküdərəm,onları quş kimi yuvada tutaram,satılmış qul kimi mən onu öldürərəm.,dağılmış şəhər kimi onun toz torpağını yığaram.Arattanın əhalisi tanrı Enlilin lənətinə gəlmişdir,ilahə İninninin Arattaya qəzəbi tutmtşdur."

Ekranda Aratta və Şumerin xəritəsi görünür.
Diktor mətni:

"Şumer mənbələrindən göründüyü kimi,Aratta xanı həm də baş kahin olmuş-dur.Bu isə o deməkdir ki,həmin dövlət teokratik bir dövlət imiş.Mixi yazıların təhlili göstərir ki,Arattanın Şumer şəhər dövlətləri üzərində dini hökmranlığı mövcud imiş və əsas dini ibadətgahlar da bu ölkədə yerləşirmiş.Bu üzdən də bir dünyəvi hökmdar olan Uruk xanı baş məbədlərin öz ölkəsinə daşınmasında və ya da Arattanı özünə tabe etməklə dünyəvi güclə yanaşı dini hakimiyyət gücünə də

sahib olmaqda maraqlı idi.Başqa sözlə,Uruk hökmdaı Arattanın dini-siyasi basqısından qurtulmağa çalışırdı."

Ekranda Yusif Yusifovun şəkli görünür.
Diktor mətni:

"Yusif Yusifovun yazdığına görə,mixi yazılarda Aratta dövlətinin adına eradan əvvəl 3-ci minilliyin birinci yarısından başlayaraq 1-ci minilliyə qədər vaxtaşırı məlumat verilmişdir.Bu da həmin dövlərtin ən azı 2 min il davam etdiyini sübut etməkdədir. "Aratta" kəlməsinin mənası dağ deməkdir.Eradan əvvəl 8-ci əsrə aid şumer-akkad lüğətlərində həmin kəlmənin "arrattu" və "aratu"formalarına da rast gəlinir və mənasının dağ olduğu bildirilir."

Ekranda yenidən xəritə çanlanır:
Diktor mətni:

"Yusif Yusifov qeyd edir ki, qədim dillərin heç birində dağ mənası verən belə söz olmayıb."

Ekranda masa üstündə Yusif Yusifovuv "Qədim Şərq Tarixi" kitabı görüntülənir.Masaya yaxınlaşan aktyor kitabı götürüb açır və oxuyur:

"Bu sözlərə oxşar oronimlər dağ,dağ silsiləsi mənalarında ancaq türk dillərin-də işlənmişdir.Məsələn; Alatta, Alatuu, Alatoo kimi dağ bildirən türk mənşəli adları göstərmək olar.Bu formalar Orta Asiyanını türk xalqlarının dilində işlədilir.

Bundan başqa,türk dillərində Altay,Alatey, Alada,Alatau və sairə formalar da vardır.Çox güman ki,Aratta,eləcə də arattu,aratu sözləri erkən prototürk forması olmuş,sonralar r-l fonetik əvəzlənməsinə məruz qalmış,yəni Alataa,Alatuu, şəklinə düşmüşdü.Belə fonetik dəyişmənin keçid mərhələsi Alatey yer adında özünü təzahür etmişdi.Eradan əvvəl 8-ci əsrdə Urartu qaynaqları keçmiş Aratta ərazisini Alatey adlandırmışdı və ona dağ mənasını vermişdi.Alatey türk dillərində işlənən Alatay,Altay, Alatey və Alatau dağ,dağ silsiləsi bildirən sözlərin erkən forması kimi qəbul edilə bilər.Bu sözlərin prototürk dilinə nənsub olması heç bir şübhə yaratmır."

Ekranda filoloq-alim,millət vəkili Nizami Cəfərov görünür.Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Ən qədim Azərbaycan mədəniyyətinin tipologiyası arxeoloji tədqiqatlar əsasında müəyyən olunur,-əlbəttə,həm maddi,həm də mənəvi mədəniyyətin öz arxeologiyası var; maddi arxeologiya göstərir ki,Azərbaycan xalqı ən qədim

dövrlərdən bütün maddi - mənəvi varlığı ilə indiki Azərbaycan ərazisinə bağlıdır,mənəvi arxeologiya - folklorşünaslıq da eyni həqiqəti təsdiq edir.

"Milli mədəniyyət" dedikdə, əsasən millətin formalaşması ilə bağlı olaraq müəyyənləşən mədəniyyət başa düşülür. Millət birdən - birə formalaşmadığı kimi, kimi,milli mədəniyyət də birdən - birə müəyyənləşmir.Hər iki proses tədricən, eyni zamanda dialektik vəhdətdə gedir."

Ekranda professor Nizami Xudiyev peyda olur.Alt tərəfdə onun adı,soy adı və elmi dərəcəsi yaılır.O deyir:

"Artıq eradan əvvəl 3-cü minilliyin birinci yarısında Azərbaycan ərazisində prototürk etnosları yaşayırdılar.Cənubi Azərbaycanda meydana gəlmiş ilk qədim dövlət olan Aratta Şumer ilə iqtisadi,siyasi və mədəni əlaqələr saxlayırdı.Həmin dövrdə Azərbaycan əhalisindən söz açan Yusif Yusifov belə bir nəticəyə gəlir ki, Aratta əhalisi türk dilində danışırdı. Son illərin araşdırmaları türk etnoslarının eradan əvvəl 3-cü minillikdə və bəlkə də əvvəl Ön Asiyada və Azərbaycan ərazisində məskun olduqlarını aşılayır."

Ekranda Nizami Xudiyevi tanınmış şərqşünas alim Ədalət Tahirzadə əvəz edir. Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yaılır.O deyir:

"Professor Helmoltun ümumi redaksiyası altında 120 tarixçi alimin birgə yazdığı "Ümumi bəşəriyyət tarixi" əsərinin 2-ci cildində,Atropatenaya, yəni Azərbaycana həsr edilən bölümdə belə deyilir: "Tarixin göstərə bilmədiyi məchul bir zamandan bu yerlərdə başdan-başa türklər yaşamaqdadır."

Eyni fikri bir çox başqa qaynaqlar da təsdiqləyir.Məsələn,Übeyd ibn Şəriyyə əl-Cürhuminin 7-ci əsdə qələmə aldığı "Xəbərlər"əsərində yazılır ki,xəlifə 1-ci Müaviyə Azərbaycanın işğalı ərəfəsində ordu komandanından Azərbaycan barədə nə bildiyini soruşmuş,o da cavab vermişdir ki,Azərbaycan ən qədimdən türklər ölkəsidir və orada türklər yaşayır.

1126-cı ildə tərtib edilmiş, müəllifi bilinməyən farsca bir tarix əsərində isə Himyar şahlarından Rəişəyə istinadən bildirilir ki, Azərbaycan ən qədim zamanlardan türklərin əlində olan ölkədir."

Ekranda Musa Kağankatlının "Alban tarixi" kitabı görünür.Kitab açılır və vərəqlər bir-birini əvəz edir.

Diktor mətni:

"8-ci əsrdə yaşamış alban tarixçisi Musa Kağankatlı özünün "Alban tarixi" kitabının Albaniyanın,yəni Aəbaycanın ilk şahlarını sıralayarkən birinci yerdə Nuh oğlu Yafəsin,ikinci yerdə onun oğlu Qamərin , dördüncü yerdə isə onun nəvəsi Toqarmanın adını çəkir."

Ekranda Artomonovun "Xəzələrin tarixi" kitabının üz qabığı görünür.

Diktor mətni:

"Musəvilik dinini qəbul etmiş xəzər xaqanı İosif ona xəzər türklərinin mənşəyi barədə verilən sualın cavabında bildirmişdi ki,xəzələr Toqarmanın 10 oğlundan biri olmuş Xəzərikin nəslindəndirlər.Maraqlıdır ki, xaqan İosif Toqarmanın,yəni Həzrət Nuhun nəvəsi və Azərbaycanın 4-cü şahının digər oğullarının da adını cəkmişdir.Bu oğulların da hər biri özünün adı ilə adlandırılan bir türk xalqının soybabası olmuşdur."

Ekranda dilçi alim Firidun Ağasıoğlu görünür.Alt tərəfdə onun adı,soy adı,atasının adı yazılır.O deyir:

"Xaqan İosif yazdığı məktubda xəzərlərə yaxın qohum olan 10 soyun adını çəkir.Həmin soylar bunlardır: Uyğur,Turis,Avar,Oğuz,Bizal,Trna,Xəzər,Yanur, Bulqar və Savir."

Ekranda Abbasqulu Ağa Bakıxanovun şəkli görünür:
Diktor mətni:

"Abbasqulu Ağa Bakıxanova görə isə, Türk, Bulqar və Xəzər Yafəsin oğullarıdır.O,daha 6 oğulun adını çəkir ki,onların adları xaqan İosifin ondan təqribən 1000 il öncə çəkmiş olduğu adlardan fərqlənir."

Ekrandakı şəkli mixi yazı mətnlərinin təsvirləri əvəz edir.
Diktor mətni:

"Xəzər xaqanının çəkdiyi türk soy adlarından erkən mixi yazılarda,yəni eradan əvvəl 3-2-ci minilliklərə aid mətnlərdə subarların adına rast gəlirik.Əslində İosifin məktubunda bu soyun adı "savir" şəklindədir.Fəqət sözügedən soyun adına müxtəlif mənbələrdə "savir", "sabir", "sibir", "suvar", "subar " şəklində rast gəlinir.Eradan əvvəl 3-cü minilliyə aid mətnlərdə "subir" forması işlənməkdədir. Bu türk xalqı adını Azərbaycan toponimikasında suvar şəklində əbədiləşdirmişdir. Söhbət "Biləsuvar" toponimindən gedir."
Ekranda Biləsuvar rayonu və şəhərindən mənzərələr canlanır.

Ekranda yenidən Firidun Ağasıoğlu görünür və deyir:

"Mixi yazılardan belə aydın olur ki,subarlar İkiçayarsının şimlında yaşayırdılar və şumerlərin qonşusu olmuşlar.Şumerlər ikiçayarasının cənubuna Subar ölkəsinin ərazisindən keçərək gəlmişdilər."

Ekranda yenidən mixi yazılar görüntülənir.
Diktor mətni:

"Mixi yazılarda subarlarla eyni dövrdə "türk" adını daşıyan xalqdan da söh-bət açılır. Eradan əvvəl 2-ci minilliyə aid aşşur mixi yazılarında onların adı "turukku" kimi çəkilir.Akkad və aşşur mənbələrindən belə məlum olur ki, bu xalq Cənubi Azərbaycan və Şərqi Anadolu ərazisində yaşayırdı və Arattada məskun idi. Turukkular Aratta ilə Aşşur arasında qalan ərazilərə sahib olmaq uğrunda aşşurlarla mübarizə aparırdılar."

Ekranda tanınmış Azərbaycan alimi,mərhum Zelen Yampolskinin şəkli görüntülənir.

Diktor mətni:

"Türklərin adının Azərbaycan sakinləri kimi hələ eradan əvvəl akkad və aşşur mixi yazılarında "turukku" kimi qeyd edildiyini ilk dəfə təsbit edən tanınmış alim Zelen Yampolski olmuşdur. O,türklərin mənşəyi və ilk ana yurdu barədə o vaxta qədər rus-sovet tarixşünaslığında mövcud olan rəsmi baxışlara qarşı çıxaraq bildirmişdi ki,akkad mənbələri "türk" etnoniminin qeydə alındığı ən qədim yazılı mənbələrdir. Eradan əvvəl birinci minilliyə aid Urartu mixi yazılarında da eyni xalqın adı,eyni ərazinin sakinləri kimi qeyd edilmişdir.Urartu mənbələrində həmin xalqın adı "turuxi" kimi çəkilr."

Ekranda yenə də Firidun Ağasıoğlu peyda olur və deyir:

"Aşşur mənbəlrində rast gəlinən "turukku"etnonimi "türk"etnik adının aşşur dilindəki səsləniş və yazılış formasıdır.İlk dəfə Zelen Yampolski tərəfindən söylənilən fikrə sonralar Yusif Yusifov,Qiyasəddin Qeybullayev kimi Azərbaycan alimləri də şərik çıxmışlar."Türk"adına erkən orta əsrlərə aid hind qaynaqlarında turukka", Xotan mətnlərində "ttrruki",Tibet mənbələrində "druq" və "druqu" formasında rast gəlmək mümkündür."

Ekranda Yusif Yusifovun şəkli görüntülənir.

Diktor mətnu:

"Mərhum alimimiz Yusif Yusifovun yazdığına görə,eramızdan əvvəl 2-ci minilliyin əvvəlində Urmiya gölü hövzəsində yaşayan türklərin aktiv siyasətə qoşulması başlayır.Onlar Zaqroş dağlarını aşaraq İkiçayarasına daxil olurdular.Türklər Aşağı Zab çayının yuxarı axarında yerləşən Raniyə düzənliyinə çıxır və burada yaşayan hürrilərlə ünsiyyətə girirdilər.Ümumiyyətlə,onlar bu ərazi uğrunda mübarizə aparırdılar və bununla da İkiçayarasının şimalında yaranmış Aşşur dövlətinin sərhədlərində təhlükə yaradırdılar."

Ekranda mixi yazılar görüntülənir.

Diktor mətni:

"Aşşur mixi yazılarından belə məlum olur ki,aşşur hökmdarı 1-ci Şamşi-Adad türklərə qarşı hərbi yürüş təşkil edir,lakin bu tayfaların müdaxiləsinin qarşısını ala bilmir.Türklər aşşurların nəzarəti altında olan Şuşarra vilayətini ələ keçirirlər.Aşşur hökmdarı 1-ci İşme-Daqan baş verənləri cöx maraqlı təsvir etmişdir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"O ki qalda Şuşarra olkəsinə,siz mənə yazırsınız ki,bu ölkə həyacan içindədir və biz onu saxlaya bilmirik.Qoy qasid sizə vəziyyəti izah etsin.Turukkulu Lidaya və bu ölkədə onunla birlikdə olan turukkilər rəqabət aparırdılar və iki yaşayış məntəqəsini dağıtmışdılar.Mən oraya əlavə qoşun gətirdim,onlar dağlara çəkildilər.Mən əhalidən soruşdum və bu qərara gəldim ki, bu ölkə nəzarətə alına bilməz."

Ekranda Firidun Ağasıoğlu görünür və deyir:

"Pratürk mərhələsindən sonrakı dövrdə türkdilli etnoslar iki əsas qola ayrılmış ,bunlardan biri Ön Asiyanın müxtəlif yerlərinə səpələnmiş, digər qolu isə şərq istiqamətində hərəkət edərək oradakı pramonqol,pratunqus-mancur,prakoreya və sairə etnoslarla uzun müddət kontaktda olmuşlar ki, həmin kontakt nəticəsində ortaya çıxan paralelləri Altay nəzəriyyəsi qohumluq kim təqdim edir.Doğrudur,həmin paralellərin toplanması və şərhi türkologiya elminin inkişafına təkan vermişdir,lakin bu nəzəriyyə türk dillərinin daha qədim dövrünə enməyə imkan vermir.Altayşünaslıqda qəbul edilmiş "dil qohumluğu" ifadəsi əvəzinə "dil paralelləri" ifadəsinin işlənməsi daha doğru olar.Bu halda gerçəklik ortaya çıxmış olar.Eyni sözləri qədim Ön Asiya dilləri barədə də deməliyik.Turk dillərinin şərq qolları şərq dilləri ilə kontaktda olduğu kimi,qərb qolları da ondan çox-çox qədim zamanlardan Ön Asiya dilləri ilə kontaktda olmuşdur."

Ekranda karvanın getməsini əks etdirən süjet canlanır.Süjeti Soltan Hacıbəyovun "Karvan simfonik" suitası müşayiət edir və süjetin fonunda yazılır:

ÜÇÜNCÜ SERİYANIN SONU

4-cü seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silu-eti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Bütöv Azərbaycanın xəritəsi.Kadr arxasından diktorun səsi:

"Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını birmə-nalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmış-dır."

Ekrandakı xəritə öncə müxtəlif təbiət mənzərələri,daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur.Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

"Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dönyada insanın for-malaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu torpaq bəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir.

Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximizin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uzanan zəngin folklor nümunələri əks etdirir."

Ekranda Nizami Xudiyev görünür. Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Ön Asiyanın qədim dillərində - bir sıra yerli abidələrdə türk sözləri qeydə alınmışdır ki,bu, türk etnosunun Azərbaycanda,ümumən Ön Asiyada müəyyən rol oynadığını və həmin rolun ardıcıl olduğunu təsdiq edir."

Ekranda öncə Yusif Yusifovun şəkli görünür,sonra isə şəkli aşağıdakı yazı əvəz edir:

"Elam və türk dilləri arasında aparılmış müqayisələr bu dillərin nə vaxtsa yaxın kontaktda olmuş olduğunu sübut edir.Daha doğrusu həmin kontaktın eradan əvvəl 3-2-ci minilliklərdə İran ərazisində baş verdiyini söyləmək üçün əlimizdə kifayət qədər əsas vardır.

Yusif Yusifov."

Diktor yazılanları səsli olaraq təkrarlayır.

Ekranda dilçi alim İ.Məlikov peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Ön Asiyanın qədim dillərindən olan xatt dilində tərtib edilən və eradan əvvəl 3-2-ci minilliklərdə qələmə alınan mətnlər ilk dəfə Qroznı və Forrer tərəfindən öyrənilmiş, daha sonra isə ,bu işi İohannes Fridrix, Laroş, Kemmenhuber, Dyakonov, Dunayevskaya və başqaları davam etdirmişlər. Sözügedən dilin leksik fondunda türkcə ilə ortaq olan bir sıra sözlərə təsadüf olunur ki, bu da həmin etnosların hələ Tunc dövründə Kiçik Asiya ərazisində cox yaxın ictimai-siyasi,mədəni və iqtisadi əlaqədə olduqlarını göstərir."

Ekranda yazılır:

"Xatt dilində	*Türk dilində*
kud	*qut (can,ruh)*
takkıl	*taxıl*
tek	*tik (tikmək)*
aşaq	*acıq*
kuru	*gör (görmək)*
kuba	*qanmaq (anlamaq)*

Kadr arxasından alimin səsi eşidilir.O,sözünə davam edərək deyir:

"Kud. Xatt dilində bu söz əksər hallarda "li-kud" və "li-kuddu" formasında işlədilib ki, mənası onun canı, onun ruhu deməkdir.Türk dilindəki can, həyat gücü,ruh mənalarını verən "qut" kəlməsi ilə üst-üstə düşür.

Takkıl. Tədqiqatçı Dunayevskaya bu sözün kökünün tullamaq,səpmək mənasını verən "kıl" kəlməsi olduğunu,"tak" hissəciyinin isə sözönü olduğunu ehtimal etmişdir.Kammenhuber isə haqlı olaraq göstərmişdir ki,bu sadə sözdür və "səpmək", "dağıtmaq" mənalarında işlənmişdir. Bu söz türk dilində dağılmaq, dağıtmaq və dənli bitki mənalarında işlənən "taxıl" sözü ilə paralellik təşkil edir.

Başqa bir paralel isə ana dilimizdəki "tik" sözünün verdiyi mənanı verən "tek" kəlməsidir.Acıq mənasını verən "aşaq" və görmək mənasında olan "kuru" sözləri də bu qəbildəndir.

Yeri gəlmişkən qeyd edək ki,eyni kəlməyə "kar" və "kur" formalarında şumer dilində də rast gəlinir.

Qanmaq mənasında olan "kuba" kəlməsi şumer dilində "ka" şəklində qeydə alınmışdır."

Ekranda yenidən İ.Məlikov görünür və sözünə davam edir:

"Xatt dili ilə türk dilinin əlaqəsi təsadüfi ola bilməzdi və bu,böyük ictimai-siyasi nüfua malik iki dilin uzunmüddətli əlaqəsinin bəhrəsindən başqa bir şey deyildir.

Bənzər hal türk dili ilə Ön Asiyanın başqa bir dili olmuş hett dili arasında da müşahidə edilir.Eradan əvvəl 2--ci minilliyə aid hett mixi yazı mətnlərində də bir çox türk sözünə rast gəlmək mümkündür."

Ekranda yenidən yazılar peyda olur:

"Hett dili	*Türk dili*
te	*de (demək,danışmaq)*
tür	*dürmələmək*
atta	*ata*
anna	*ana"*

Kadr arxasından alimin səsi gəlməkdə davam edir:

"Te. Bu kəlmə hett dilində danışmaq,söyləmək, demək anlamlarında işlənmiş, Urartu kitabələrində "ti" formasında qeydə alınmışdır.

Tür. Sözün hett dilindəki mənası bağlamaq,bükmək,sarımaq,üzləməkdir. Ana dilimizdəki "dürmələmək" sözü ilə üst-üstə düşür."

Ekranda "Yeddi oğul istərəm" filmindən öküzlə yer şumlanması və dən səpilməsi,eləcə də "Böyük dayaq" filmində taxıl biçilməsi səhnələri canlanır.

Diktor mətni:

"Qədim şumer kitabələrində bu gün də dilimizdə işlənməkdə olan "arpa", "saman", "su", "tum", "şum" və sairə bu kimi əkin-biçinlə bağlı kəlmələrin qeydə alınmış olması,eləcə də 5 min öncəyə aid şumer qaynaqlarında Arattada, yəni bugünkü Azərbaycan ərazisində buğda və noxud əkildiyinin bildirilməsi, hələ Neolit və Eneolit dövrlərindən zəngin əkinçilik mədəniyyətinə sahib olan xalqımızın üstəlik bu mədəniyyətin izlərini dilimizin qədim qatlarında faktlaşdırmış olması şübhəsiz ki,ana dilimizin geniş imkanlarından və konsevativliyindən xəbər verməkdədir. Məhz bu konservativlik sayəsində dilimizin daha qədim qatlarında əksini tapmış bir sıra arxetiplər dövrümüzədək qorunmuşdur.Bu hal dünyanın başqa dillərində ya müşahidə olunmur,ya da çox az müşahidə olunur.

Ön Asiyanın ən qədim dilləindən olmuş xatt dilində türk dilindən alınma taxıl kəlməsinin olması qədim xalqların əkinçilik mədəniyyətini məhz əcdadlarımızdan öyrəndiklərinin ən gözəl sübutudur.Təsadüfi deyil ki, qədim yunan tarixçisi Herodot iskitlərə, yəni tüklərə göydən endirilən hədiyyələr içərisində kotanın, xamıtın adlarını ilk yerdə çəkməkdədir.Ümumiyyətlə dilimiz

istər əkinçilik.istərsə də heyvandarlıq terminologiyası baxımından başqa dillərlə müqayisəyə gəlməyəcək dərəcədə zəngindir."

Ekranda xalça toxuyan qızlar,ardınca da dulus çarxında qab düzəldən sənətkar görünür.

Diktor mətni:

"Eyni sözləri toxuculq və dulusçuluq sənətləri ilə bağlı treminologiya barədə də söyləmək mümkündür.Şübhəsiz ki,bu terminlərin böyük əksəriyyəti Neolit və Eneolit,bir qismi isə Tunc dövrünün məhsuludur.Maraqlıdır ki,eyni dövrlərdə eyni məşğuliyyət növləri ilə bağlı çox sayda folklor nümunəsi yaranmışdır ki,onların bir qismi nəsildən-nəslə ötürülə-ötürülə müəyyən dəyişiklərlə dövrümüzədək gəlib çatmışdır.Daha çox "Əmək nəğmələri" adı altında tanınan bu nümunələrin qiymətini təsəvvür etmək belə çətindir."

Ekranda folkloşünas alim Vaqif Vəliyev görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Azərbaycan xalq şerinin müəyyən hissəsi əmək nəğmələrindən ibarətdir. Əmək prosesi ilə əlaqədar olaraq yaranan folklor nümunələri ibtidai insanların ilk söz sənəti növlərindən biri olmuşdur.

Qədim dövrlərdən başlayaraq, xalqımız əkinçilik və maldarlıqla məşğul olduğuna görə,onun başqa əmək nəğmələrinə nisbətən, təsərrüfatın bu sahəsinin tə-rənnümünə həsr edilmiş nəğmələr üstünlük təşkil edir.Əkin,biçin və səpin zamanı oxunan nəğmələrə holavalar deyilir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Hütə,hütə,hütə,ho,
Hütə,hütə,hütə,ho.
Öküzüm,maralım,hütə,
Qaldı avalım,hütə.
Hütə,hütə.hütə,ho,
Hütə,hütə,hütə,ho.
Gün getdi,yağış gəldi,
Gəl,kəlça kalım,hütə.
Hütə,hütə.hütə,ho,
Hütə,hütə,hütə,ho."

Ekranda yenidən Vaqif Vəliyev peyda olur və deyir:

"Bu mahnıların qədim dövrdə yarandığı güman edilir.Öküzə qoşulmuş kotanla yer əkən zaman heyvanların hərəkətinə,alətlərin çıxartdığı səslərə uyğun olaraq oxunan holavarların ilkin forması və məzmunu bəsit idi."

Ekranda yenə də aktyor görünür və yenə də əlindəki kitabdan oxuyur:

" Ala kəlim,huş ho,
Qara kəlim,huş ho,
Ana kəlim,huş ho.
Huş ho,huş ho...
Huş ho,
Huş ho,
Huş ho..."

Ekranda təkrar görünən Vaqif Vəliyev sözünə davam edir:

"Holavarlar sadəcə əkinçinin mənəvi ehtiyacını ödəyən nəğmələr olaraq qalmır,dövrün ictimai-iqtisadi mənzərisini də özündə əks etdirir."

Ekranda peyda olan aktyor adəti üzrə kitabdan oxuyur:

" Ho-ho,ho-ho,öküzüm,
Ho-ho,ho-ho,öküzüm.
Budu bütə öküzüm,
Bir qarış yerim qalıb,
Ho,ho,ho,
Ho-ho,ho-ho,öküzüm."

Ekranda tarixçi alim İ.Cəfərov peyda olur.Ekranın alt tərəfində onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"İlk Tunc dövründə əkinçilik və maldarlığın inkişafında yeni mərhələ başlanır,toxadan xeyli müddət istifadə olunsa da tədricən toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olunur.Əkin sahələri genişlənir,şumlamada istifadə edilən sümük və daş toxalar tədricən sıradan çıxır.Qoşqu qüvvəsindən istifadə əkinçilikdə məhsuldarlığı xeyli yüksəldir.Yerli əhali əkinçilikdə Eneolit dövrü ənənələri ilə yanaşı yeni mütərəqqi üsullarda tətbiq edərək yeni bitki növlərini mənimsəyir."

Ekranda "Yeddi oğul istərəm filmindən öküzlə yer şumlanması və dən sə-pilməsi epizodu çanlanır.

Diktor mətni:

"Holavarların bir qisminin məzmunu onların məhz erkən Tunc dövründə yarandığını sübut edir.Bu halda əsasən cütçü nəğmələri nəzərdə tutulur.Bəzi nəğmələrdə isə ovsun elementləri çox güclü hiss edilir. Belə nəğmələr isə, təbii ki,daha qədim dövrün-Eneolit dövrünün məhsuludur."

Ekranda peyda olan aktyor oxuyur:

" Broy,broy,broy,
Broy,broy,broy,broy.
Torpağa atdım tumu,broy,
Torpağa qatdım tumu broy.
Broy,broy,broy,
Broy,broy,broy.
Göyər səmənim,broy,
Döyək səməni,broy.
Broy,broy,broy,
Broy,broy,broy.

Ekranda Vaqif Vəliyev görünür və deyir:

"Şifahi poeziya yaradıcılığımızda əkinçiliklə yanaşı,maldarlıq və qoyunçuluqla məşğul olanların yaradıcılığı da geniş yer tutur."

Ekranda Vaqif Vəliyevi əvəz edən aktyor əlindəki kitabdan oxuyur:

" Nənəm o şişək qoyun,
Yunu bir döşək qoyun,
Bulamanı bol elə,
Qırıldı uşaq qoyun.

Nənəm qaraqaş qoyun,
Qarlı dağlar aş, qoyun.

Ay qaranlıq gecədə,
Çobana yoldaş qoyun."

Ekranda folklorşünas alim Azad Nəbiyev peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Xalqımızın qədim dövr maldarlıq həyatı ilə bağlı nəğmələri içərisində sağın nəğmələri mühüm yer tutur.Sağın nəğmələri saya nəğmələrindən fərqli olaraq tərəkəmələr-köçəri tayfalar içərisində yaranmış,fəqət oturaq tayfalar tərəindən də asanlıqla qəbul edilmişdir."

Ekranda Azad Nəbiyevin yerini tutan aktyor oxuyur:

" Dutum,dutum,
Nənəm,dutum.
Səni sağan

Dutum,dutum,
Mənəm dutum
Dutum,dutum,
Bacım,dutum.

Ucaboy maral inək,
Qarnı bir xaral inək,
Doymursan tayalardan
Südü bir aral inək."

Ekranda yenidən Azad Nəbiyev görünür və sözünə davam edir:

"Əmək nəğmələri qrupuna daxil olan ovçu nəğmələri də əcdadlarımızın ovçuluq həyaının müxtəlif cəhətlərinin öyrənmək baxımından faydalıdır."

Ekranda aktyor peyda olu və oxuyur:

" Ova gedən
Ovun tuş.
Ovun olsun
Maral,quş."

Ekranda xalça toxuyan qızlar görünür.
Diktor mətni:

"Peşə və məşğuliyyətlə bağlı əmək nəğmələri içərisində toxuculuq və xalçaçılıqla bağlı hana nəğmələri mühüm yer tutur.Hana nəğmələri bilavasitə əmək prosesində ,yəni ilmə vurularkən və döyülərkən söylənən nəğmələrdir:

Kəndəlaşı dərmişəm,
Dərib yerə sərmişəm.
Üzül boyağım,
Düzül boyağım,
Kətan içindən
Süzül boyağım.
Əzildi,
Üzüldü,
Qırx taxçaya
Düzüldü.

Əgər ovçu nəğmələrinin kökü mezolit dövrünə qədər uzanırsa,hana nəğmələri Neolitin sonları,Eneolitin əvvəllərində förmalaşmağa başlamışdır.Sayaçı və sağın nəğmələrinin isə formalaşma dövrü kimi ilk Tunc dövrü qəbul edilə bilər.Müəyyən vəznə və ritmə tabe olan bu tip nəğmələrin bir

qismi dövrümüzədək heç bir dəyişikliyə uğramadan və ya cüzi dəyişiklikərlə gəlib çata bilmişdir."

Ekranda Azad Nəbiyev görünür və deyir:

"Əmək nəğmələri içərisində balıqçı nəğmələrinin də özünə məxsus yeri var.Bu nəğmələrin dəniz və çay əttafında yaşayan tayfaların şifahi poeziyasında ilkin inkişaf mərhələlərində yarandığı ehtimal edilir.balıqçı nəğmələri çox qədim "Vətəgə nəğmələri" adlı 40 nəğmədən ibarət olmuşdur."

Ekranda "Əhməd haradadır?" filmindən Leylanın atası ilə birlikdə göldə balıq tutma səhnəsinin əks olunduğu süjet əks olunur.Bu səhnəni torla balıq tutan balıqçılarla bağlı başqa bir süjet əvəz edir.

Kadr arxasından alimin səsi eşidilməkdə davam edir:

"Vətəgəyə işə gələnlər bu nəğmələri öyrənməmiş balıq ovuna çıxmazlarmış. Bu nəğmələr ayın doğmasını tərənnüm edən nəğmə ilə başlayır."

Azad Nəbiyevin səsini aktyorun kadr arxasından eşidilən səsi əvəz edir:

" Yahu,hu,hu,
Hu,hu,Yahu.
Gecədən yola düş gəl,
Sübh üstü sala düş gəl.

Ay çıxsın tora baxsın,
Avarçım dora baxsın.
Yel babam nənnidədir,
Giriş ver kirişləyək.
Babamı nənni üstə,
Yelpik ver yelpikləyək."

Ekranda görünən Azad Nəbiyev deyir:

"Fitlə başlayan bu nəğmələr xüsusi nəqarətli xorlarla qurtarmışdı.Toru yığarkən,külək,firtina qoparkən oxunan balıqçı nəğmələi də olmuşdur.Toru atdıq-dan sonra ov gözləyən balıqçıların sevgi nəğmələri daha geniş yayılmışdır.Bu nəğmələr balıqçıların şəxsi arzu və istəkləri ilə bağlı motivləri əks etdirir.balıqçı nəğmələrində mifoloji təsəvvürlərin mühafizəsi-dəniz adamlarının,su pərilərinin, onqonların,tanrıların təsviri çox qüvvətli olmuşdur."

Ekranda peyda olan aktyor oxuyur:

" Tor doldu.

Tarım oldu.
Qayığım
Yarım oldu.
Toru atan,toru çək,
Doru açan,doru çək.
Salı salan,salı tut,
Toru salan,toru tut.
Hu,hu,yahu,
Yahu.hu,hu.
Tor doldu,tarım oldu.
Qayığım yarım oldu.
Yahu,hu,hu,
Hu,hu,yahu.

Ekranda baramadan ipək saplarının alınması, ipək şalların boyanması və üstlərinə bəzək vurulması prosesini əks etdirən süjet görüntülənir.

Kadr arxasından Azad Nəbiyev sözünə davam edir:

"Xalq arasında "gümçü nəğmələri" adı ilə tanınan ipəkçi nəğmələri də böyük maraq doğurmaqdadır.Bu nəğmələrdə barama,onun əhəmiyyəti ,barama qurdlarının bəslənməsi,onlara qulluq edilməsi,baramanın bəd nəzərdən qorunması , insan həyatına gözəllik gətirməsi, dolanacaq vasitəsi olması və sairə tərənnüm olunur.

Əldə edilən ipəkçi nəğmələrində baramaçılıq və ipəkçiliklə bağlı bir sıra etiqad və görüşlər əks olunmuşdur.Başqa janrlarda bəzən nəzərə çarpan bir xüsusiyyət gümçü-ipəkçi nəğmələrində də özünü göstərir.Gündəlik müşahidə zamanı söylənən nəğmə sonradan tapmaca şəklinə düşmüş və hafizələrdə belə yaşamışdır.

Bir quşum var alaca,
Gedib qonar ağaca.
Özünə bir ev tikər,
Nə qapı qoyar,nə baca."

Ekranda "yağış yağdırmaq" və "yağış dayandırmaq" ovsun-ayinlərinin əks olunduğu epizod təkrar göstərilir.Çay qırağında durmuş milli geyimli qızlar görünür.Onlar xorla deyirlər:

"Suda daşım,
Baba daşım,
Gələr,getməz
Yağışım.

Suda daşım,
Yaş başım,

Yaş oldu
Üst-başım.”

Ekranda ocaq başına yığışmış milli geyimli qızlar görünür.Onlardan biri ocaqdakı daşların üstünü közlərlə örtə-örtə oxuyur:

“Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”
Sonra qızlar birlikdə oxuyurlar:
“Budu daşı,
Bulutların
Kudu daşı,
Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Godu başı,
Gətirsin
Qızıl günü,
Aparsın
Yağışı.
Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”

Ekranda eyni səhnə yenidən,fəqət bu dəfə səssiz təkrarlanır.Kadr arxasından diktorun səsi eşidilir:

"Folklorşünas alimlərimizin illərlə fədakarlıqla,böyük zəhmətlər bahasına toplayıb yazıya köçürdükləri folklor nümunələri tariximizin minillər öncələrə aid mərhələlərinin inanc və təfəkkür tərzini öyrənmək baxımından nə qədər böyük önəm daşıyısa, dilimizin minillər öncəki vəziyyətini,onun terminologiya və leksikonunun,morfoloji və sintaktik quruluşunu tədqiq etmək baxımından da bir o qədər qiymətlidir.Sözügedən nümunələr xalq ədəbiyyatımızın,onun janrlarının inkişaf dialektikasını öyrənmək üçün zəngin material verməkdədir.Ən əsası isə, bu nünunələr türk dillərinin,onların ləhcə və şivələrinin praformasının,başqa sözlə ən qədim kökünün oğuz türkcəsinin Azərbaycan variantı olduğunu sübut etməkdədir."

Ekranda akademik N.Marrın şəkli görüntülənir.
Diktor mətni:

"Böyük dilçi alim,akademik Marr vaxtilə yazırdı..."

Şəklin fonunda yazılır:

"Türk dillərinin mənşəyi nəinki aydınlaşmayıb,bu məsələyə heç toxunulmayıb da.Türk dillərinin genezisi,yəni mənşəyi məsələsi əslində heç vaxt və heç kim tərəfindən diqqət mərkəzinə çəkilməyib.Hamıya bəllidir ki,türklər Asiyanın dərinliklərindən baş alıb gəliblər,deməli orada yaranıblar.Ədəbi fəallıqları ilə türklər 6-cı əsrdən bəllidir,çinlilər isə,türkləri ondan min il əvvəl də belə tanıyırmışlar,elə bunun əsasında da mütəxəssislər bizi öyrədirlər ki,türk dilləri öz konservatizmi ilə seçilir.Belə ki, 6-cı əsrə aid abidələr müasir dövrdə mövcud olan dialektləri özündə əks etdirir.Belə çıxır ki,türk dilləri min üç yüz il ərzində,demək olar ki.dəyişməyib.Onu da nəzərə alsaq ki,türk dilləri öz təbii mühafizəkarlığını əvvəlki minilliklərdə də hifz edə bilərdilər ,yəni çinlilərin "zəhmət çəkib" onlar haqqında məlumat verdikləri dövrdə də,ondan qat-qat qədim dövrlərdə də.

Bu belədir.Hələ o da məlumdur ki,əsil izahın olmaması üzündən bu səbəb başqa dillərlə əlaqədar da tətbiq edilir...Lakin dillər təbiətin məhsulu deyil,dillərdə təbiətdən alınma xüsusi cəhətlər yoxdur.Hətta konservatorluğun da öz tarixçəsi var. Bir sözlə,türk dillərinin mənşəyi məsələsi çoxdan həlli çatmış elmi problemdir. Dilin öyrənilməsində və onun tam dərkində bunsuz irəli bircə addım atmaq mümkün deyil. Necə ki, türklərin kütləvi surətdə Asiyada yaşadığı faktı,-əslində,hec bunu da demək olmaz,-əsasında məhz Asiyanın onların əcdadlarının vətəni olması ideyası ilə elmi cəhətdən razılaşmaq olmaz...Aydın məsələdir ki,türklərin və türk dilinin yaranması və inkişafı taleyi ilə müqayisədə bəşəriyyətin tarixi yaddaşının çox qısa bir dövrünə aid olan faktın əsasında Asiya türklərin ana kök vətəni kimi qəbul edilə bilməz... Deməli, türkoloqların ümumi rəyinə görə, türk dillərini fərqləndirən belə statik vəziyyətə və konservatorluğa nail olmaq üçün bu dillər böyük bir ictimai fəaliyyət və dinamik dil yaradıcılığı prosesindən keçməli idi."

Diktor kadr arxasında yazılanları oxuyur.

Ekrandakı yazılar itir şəkil isə qalır.Kadr aexasından diktorun səsi gəlir:

"Akademik Marr türk dillərinin tədqiqində hind-Avropa dilçiliyinin metafiziki metodlarının tətbiqinə etiraz edərək yazırdı..."

Ekrandakı təsvirin fonunda yazılır:

"Bu ki,"quyu"dur və hindavropaçıların "quyu"sundan onunla fərqlənir ki, hind-Avropa dilçiləri öz sahələrində çox dərin qatlara gedib çıxıblar və indi yoldan dönmək istəsələr də. öz dahilərini yerlə bir etmədən buna nai ola bilməzlər.Öz dil sistemlərinin dərinliklərinə enməyə macal tapmamış türkoloqların "quyu"su ilə ortada ümumi bir cəhət var;hər ikisinin metodu formal xarakter daşıyır,canlı və zəngin materiallar ümmanında səslərin maddi reallığına

əsaslanır,hind-Avropa dilçiləri isə türklərin ayağı altında ləngər vuran insanın ilk doğuluş yerindən beşəlli yapışaraq, zəngin türk dilini türklərin...təsərrüfat və ictimai həyatı ilə əlaqələndirə bilmirlər."

Diktor kadr arxasından yazılanları oxuyur.

Ekrandakı təsviri növbə ilə görüntülənən Qobustan və Gəmiqaya təsvirləri əvəz edir.

Diktor mətni:

"Şübhəsiz ki,akademik haqlı idi.Onun türkoloqların türk dilini türklərin təsərrüfatı,ictimai həyatı ilə üzvi surətdə əlaqələndirməli olduqları fikri ilə razılaşmamaq olmur.Döğrudan da dilimizin ən qədim qatlarının üzə çıxarılmasında əcdadlarımızın ən qədim təsərrüfat,məişət və ictimai həyatları haqqındakı məlumatları incələməyin böyük rolu var və məhz qədim daş dövründən başlayaraq ulu babalarımızın həyat və fəaliyyətlərinin ayrı-ayrı sahələrini araşdırmaqla, çağdaş dilimizdə həmin sahələri ifadə edən sözlərin ilkin köklərini bərpa etmək,dilimizin ən ilkin qatlarına qədər enmək mümkündür.Əldə olan zəngin folklor nümunələrimiz bunun üçün ölçüyəgəlməz material verir.Bu baxımdan ovsunların verdiyi material daha qədim qatlara enməyə imkan yaradır."

Ekranda Azad Nəbiyev görünür və deyir:

"Ovsunların yaranmasında xalq inanclarından geniş istifadə edilmişdir. Ovsunların bəzilərini ilk baxışda inanca bənzər xüsusiyyətlərinə görə ayırmaq çox çətin olur.Onların toplanmasına nisbətən yeni başlanmışdaır.Əldə olan materiallar əsasında bu maraqlı janrı aşağıdakı mövzular üzrə qruplaşdırmaq olar; təbiət hadisələrini ram etmək üçün yaranan ovsunlar,insanın yaşayışını təmin edən bitki və heyvanları qorumaq üçün yaranan ovsunlar,insanların gündəlik məişətləri və sağlamlığı ilə əlaqədar ovsunlar."

Ekranda peyda olan aktyor oxuyur:

" İt qapma.

İt üstü,
İtin üstü,
İtin gözünə
Tüstü.
Üfü,üfü,üfü.

Qorxu sındırma

Nəzərbağlama ovsunu

Qoltuğunda üzərlik
Asdırmışam,
Kürəyində qaratikan
Basdırmışam.
Qalxan sındıran
Gözünə,
Kəl çattadan
Sözünə

Həccini nalladım,
Hüccünü nalladım.
Yol gedəndə
Yolun aydın.
Sağın aydın,
Solun aydın.
Ayaq altından
Torpaq aldım,
Başın üstə
Kölgə saldım.
Kürəyinə
Qırmızı taxtım,
Yurd yerinə
Mıxça çaxdım.
Həcci göz,
Hüccü göz.
Kar keçəl,
Kor keçəl,
Çolaq keçəl,
Sənə xətər
Yetirməz.
Tfu,tfu,tfu.
Gözünün oxu
Torpağa,
Ahın torpağa,
Ufun torpağa.
Tfu,tfu,tfu,
Tfu,tfu,tfu."

Ekranda böyük hərflərlə yazılır: "DİL-AĞIZ BAĞLAMA"
Diktor kadr arxasından yazını oxuyur:

Ekrandakı yazını aşağıdakı yazı əvəz edir:

" Il bizim,
Yıl bizim,
İl bizim.
Dil bizim,
Dil bizim,
Dilbizim.
Bil bizim,
Bil bizim,
Bilbizim
Əl bizim,
Əl bizim,
Əlbizim.
Yol bizim,
Yol biim,
Yolbizim.
İl üstə,dil üstə,
Quş dili üstə,
Həzrət Süleyman üstə.
Söz içində söz tutan dilin,
Söz saxlayan,söz sındıran,
Sözün kəsib gözün basan,
Dilin kəsdim,asdırdım.
Şərin-şürün
Torpağa basdırdım.
Yol bizim,
Yol bizim,
Yolbizim.
Dil bizim,
Dil bizim,
Dilbizim..."

Diktorun səsi yazılanları təkrar edir.

Ekrandakı yazının "İl üstə,dil üstə" sətrindən başlayaraq "Torpağa basdırdım" sətrinə qədər bütün misraların altında qırmızı cizgi peyda olur.

Diktor mətni:

"Bu ovsunun 16-cı sətrindən 24-cü misrasına qədərki misralar sonrakı dövrdə,daha dəqiq desək,İslam dövründə edilmiş əlavədir.Bu, həmin misralarda hecaların sayının digər misraların heca sayından əsaslı şəkildə fərqlənməsindən,həmin parçada Həzrət Süleyman əleyhissəlamın adının keçməsindən,eləcə də 23-cü misrada alınma "şər" kəlməsinin istifadə edilməsindən görünür.

Digər misralarda isə bircə dənə də yad söz yoxdur.Üstəlik də onlarda heca sayı sabitdir.Onlarda hecaların sayının üç olması misralarının hər birində dörd heca olan və Eneolit dövrünün məhsulu olduğu bilinən ,"Qodu daşı" misrası ilə başlayan ovsundan daha qədim dövrlərə aid olduğunu sübut edir.Nəzərə alsaq ki,"Haş getdi" misrası ilə başlayan və Mezolit dövrünün məhsulu olan ovsunda da hecaların sayı üçdür, sözügedən ovsunun da ən azı Mezolit dövrünün yadigarı olduğunu söyləmək olar.Bu müqayisədən doğan nəticə budur: Mezolit və daha qədim dövrlərə aid ovsunların misraları üç hecalı,Neolit və ilk Eneolit dövrünə aid nümunələrdə dörd,Tunc dövrünə aid nümunələrdə isə beş və daha çox hecalıdır.

Mezolit dövrünə aid ədəbi nümunələrdə təkhecalı sözlərlə ikihecalə kəlmələrin sayı təqribən bərabərdir və buradakı təkhecalı sözlərin çoxunun mənası anlaşılmır.Eneolit dövrü abidələrində ikihecalı sözlər əksəriyyət təşkil edir və anlaşılmaz kəlmələrin sayı olduqca azdır."

Ekranda Qobustan və Gəmiqaya təsvirləri bir-birini əvəz edir.

Diktor mətni:

"Türk dillərinin praformasını,yəni ilkin vəziyyətini bərpa etmək cəhdləi 19-cu əsrin ikinci yarısında olmuş və bu işin ilk pioneri Qruntsel olmuşdur."

Ekranda öncə İ.Qruntselin, sonra M.Çerkasskinin,daha sonra isə V.Tomsenin şəkilləri peyda olur.

Diktor mətni:

"O belə bir fərziyyə irəli sürmüşdür ki,guya ilk çağlarda türk dillərində üç sait olub: a,i,u. Onun ardıcıllarından Çerkasski də 1965-ci ildə eyni fikri ifadə etmişdir.Sonralar həmin müəllif diqqətini Orxon-Yenisey yazılarına tutmuş və həmin saitlərin sayının dörd olduğunu qeyd etmişdir: a,i,u,ü.Şübhəsiz ki,bu fərziyyələr doğru deyildir,çünki Tomsen hələ 1893-cü ildə qeyd etmişdi ki,Orxon-Yenisey yazılarında 4 sait işarəsi olsa da,bu işarələr müxtəlif kontekstlərdə mövcud olmuş 8 sait səsi ifadə edirdi.

Türk dillərinin praformasını bərpa etmək cəhdində olanlardan biri də Şerbak idi.O bir neçə yüz praformanı bərpa etmiş, bu zaman belə hərəkət etmişdi..."

Ekranda yazılır:

Yakut dilində	*Türkmən dilində*	*Praforma*	*Mənası*
ıır	*aar*	*aar*	*arıqlamaq*
ııs	*ıış*	*ıış*	*iş*
aas	*aaş*	*aaş*	*aşmaq*

Diktor mətni:

"Yakut türkcəsində arıqlamaq mənasında olan "ıır" kəlməsi ilə türkmən dilindəki eyni mənalı "aar" kəlməsini tutuşduran alim üstünlüyü "aar" formasına verir və onu praforma hesab edir.

Yakut türkcəsində:ııs,türkməncə:ıış,praforma:ıış,mənası iş.

Yakut türkcəsində:aas,türkməncə:aaş,praforma:aaş,mənası aşmaq.

Şerbak bu yolla türk dillərinin praformasının məhz oğuz ləhcəsi olduğu nəticəsinə gəlmişdir.Bu nəticənin doğruluğunu Azərbaycan folklorşünaslarının topladıqları və Mezolit dövründən Tunc və Dəmir dövrlərinə qədər uzun bir zaman məsafəsini əhatə edən çox sayda folklor nümunəsi də təsdiq etməkdədir."

Ekranda kurqanlar,qutu və küp qəbirlər görüntülənir.

Diktor mətni:

"Son Eneolit-ilk Tunc dövündən başlayaraq əcdadlarımızın öz ölülərini xüsusi qaydalar əsasında basdırması,qəbirlərə müxtəlif məişət və ərzaq əşyalarının qoyulması,məzarların üstündə kurqnlar,menhirlər,baş daşları ucaltması həmin dövrdə axirət,ölüm və həyat ilə bağlı ideyaların xüsusi aktuallıq qazanmağa başladığını sübut edir.Təsadüfi deyil ki,Tunc dövrünün şah əsəri olan "Bilqamıs dastanı"nda ölüm və əbədi həyat axtarışı ideyaları ön planda yer almaqdadır."

Ekranda Elməddin Əlibəyzadə peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı,elmi dərəcəsi yazılır.O deyir:

"İnsan niyə yox olmalıdır?O,niyə həyatdan köçməli,ölüb getməlidir?Onun əbədi yaşaması,həyat sürməsi niyə də mümkün olmasın?Tanrılara "əbədi həyat" verilib,nə üçün insanlara verilməsin?Buradan da dastanın şah damarı sayılan "əbədi həyat",ölməzliyə qovuşmaq problemi ortaya çıxır,problem bəşəri səviyyəyə yüksəlir."Bilqamıs dastanı"nda bu problem ilkin və əsaslı şəkildə həllini tapıbdır.

Bilqamısı yaxalayan ağır kədər,qəm-qüssə öz əksini dastanda belə tapıb:

Mən də öləcəyəmmi bi gün Enkidu kimi?
Qorxu canımı alır,qüssə yeyir içimi.
Başqa bir yerdə isə oxuyuruq:
Ölüm məni qorxudur,qoymur dayanım rahat,
Tapa bilərəmmi mən,görən,əbədi həyat?"

Ekranda görümnən aktyor əlindəki kitabdan oxuyur:

" Səhraları gəzirəm,yollar olub məskənim,
Necə susum,dayanım,dincliyim yoxdur mənim.
Mənim əziz dostumun artıq çırağı sönmüş,
Mənim dostum Enkidu daha torpağa dönmüş.
Əqrəb,sənə rast gəldim,söylə necə eləyim,
O dəhşətli ölümün üzünü heç görməyim?1"

Ekranda yenidən Elməddin Əlibəyzadə peyda olur və deyir:

""Bilqamıs dastanı"nda iki ağı deyilir.Birinci ağı Bilqamısın dilindən dostu Enkidunun ölüsü üstündə deyilir.İki hissədən ibarət uzun "dildem"dir, 50-52 misradır.Əvvəlinci hissədə Enkidunun doğulması,keçib gəldiyi həyat yolu,bütün çətin,keşməkeşli mübarizə və qələbə səhnələri yığcam şəkildə məharətlə xatırlanır.Ağı dastanda bədii cəhətdən çox təsirli işlənib.Bunun özü dastanın içində yeni və orijinal yolla deyilmiş bir dastandır.Bilqamıs söyləyir ki, Enkidunun ölümünə hamı yas tutub,göz yaşı tökür,bu ölümə dağ-daş da ağlayır.

Ağının ikinci hissəsi üç bənddir,Bilqamısın öz göz yaşları,öz ah-naləsinin tərənnümüdür."

Ekranda Elməddin Əlibəyzadəni əvəz edən aktyor oxuyur:

" Ey hasarlı Urukun qocaları,eşidin!
Dostum Enkidu üçün mən göz yaşı tökürəm,
Ağını arvadlar tək hay salıb hönkürürəm:
"Ağır,güclü baltamı,dayağımı,arxamı,
Əyilməz xəncərimi,dözümlü qalxanımı,
Bayram bürüncəyimi,cəlallı paltarımı
Şər iblis ,yağı iblis mənim əlimdən aldı!
Səhrada heyvanları və vəhşi eşşəkləri
Qovan qardaşım mənim!
Səhraları dolaşan Enkidu,dostum mənim-
Kiçik qardaşım mənim!
Birlikdə uca-uca dağlara çıxdığımız,
Buğanı ikilikdə məhv edib yıxdığımız,
İndi bu nə yuxydur gəlib səni çuğlayıb?
Məni də eşitmirsən,üzünü zülmət alıb."

Ekranda peyda olan Elməddin Əlibəyzadə deyir:

"İnsanların ölümünə yas saxlamaqla yaranan matəm nəğmələri - ağı janrı bizə,"Bilqamıs dastanı"ndan qalıb,tarixən inkişaf edib gəlib.Bu gün də elə.matəm məclislərində qadınlar - bizim analar ağı deyir,məclis aparırlar.Məgər bu,Bilqamısın yaşadığı dövrlə bu gün arasındakı qırılmaz əlaqə,mənəvi bağlılıq deyilmi?"

Ekranda yenə də Elməddin Əlibəyzadəni aktyor əvəz edir və əlindəki kitabdan oxuyur:

" Sel gəldi beldən oldu,
Qan qusdu yeldən oldu.
Vay düşdü sarayıma,
El gəldi harayıma.
Dirsəkli,dirəkliydin,
Sən aslan biləkliydin.
Hay vergil harayıma,
Vay düşdü sarayıma.
Oğul hey,
Oğul hey,
Oğul hey,
Oğul hey!"

Ekranda Azad Nəbiyev peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı, elmi dərəcəsi yazılır.O deyir:

"Nəğmələrin icərisində yas və dəfn mərasimi ilə bağlı nəğmələr də vardır.Bu nəğmələr xalqın kədəri, hüznü ilə yaranmışdır.Xalq baş verən kədəri nəğmələrdə ifadə etməklə bir tərəfdən mərasimin keçirilməsini rəsmləşdirmiş,digər tərəfdən gələcəyə ümidlə baxmış,iztirabı, kədəri yüngülləşdirmişdir.

Yas nəğmələrinin mühüm hissəsini ağılar təşkil edir.Yas mərasimlərində oxunan ağılar bu gün təkcə bayatı şəklində yayılmış nümunələrlə məhdudlaşmır. Xalq içərisində onlardan daha əvvəlki dövrlərdə yarananlardan da dövrümüzədək gəlib çıxanları var."

Ekranda yenidən görünən aktyor oxuyur:

" Mən öldüm ağlamaqdan,
Bağa su bağlamaqdan.
Bağda yarpaq qalmadı,
Yarama bağlamaqdan.

Altımda kilim yandı,
Od düşdü,kilim yandı.
Canım oğul deməkdən,
Ağzımda dilim yandı."

Ekranda folklorşünas alim B.Abdullayev peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Qədim zamanlarda ölənin yaxın adamları saçlarını yolub onun üstünə qoyarmışlar.Saçın insanın həyatını,ömrünü təmin edən,hətta öləndən sonra onu dirildən vasitələrdən olması barədə miflər var."

Ekranda cənazə üstündə saç yonan qadınları əks etdirən süjet canlanır.Süyet bitər-bitməz ekranda yazılır:

"Qədim Azərbaycanda ölən qəhrəmanlar üçün ağlamaq bir adət olmuşdur. Həmin günü camaat bir yerə toplaşardı.Bu toplaşmaya "yuq" deyirdilər. Toplananlar üçün qonaqlıq düzələrdi,xüsusi dəvət olunmuş yuğçular isə ikisimli qopuz çalıb,oynayardılar.Yuğçu əvvəlcə qəhrəmanın igidliyindən danışıb,onu tərifləyirdi.Sonra isə qəmli havaya keçib şanlı qəhrəman üçün ağı deyərdi.Toplaşanlar da hönkür-hönkür ağlayardı...Ölünü ağlamaq,cənazəsi üstündə saç yolmaq adət halını almışdı.

Əbdürrəhim bəy Haqverdiyev"

Ekranda mixi yazılı gil kitabələr görüntülənir.
Diktor mətni:

"Maraqlıdır ki,qəhrəmanın cənazəsi üstündə ağlayaraq saç yolmaq adətinin də ən azı 5 min il yaşı olduğunu söyləmək üçün əldə təkzibedilməz fakt mövcud-dur. Əlbəttə ki,söhbət "Bilqamıs dastanı"nda söylənilənlərdən gedir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

" O kəslər ağlayar ki,qədim adamlar kimi
səninlə öyünərdi,
O kəslər ağlayar ki,sənə öz süfrəsində
bir vaxt çörək verərdi.
Ayağına ətir-yağ çəkən kəniz ağlayar,
Sənə şərab içirən qulun göz yaşı axar,
Canına zeytun sürtən yava qadın ağlayar,
Sənin məsləhətinlə özünə arvad tapıb,
Nigah otağına ilk qədəm basan ağlayar,
Qardaşların ağlayar,bacı kimi hay salar,
Yaslara batar tamam,nalə çəkib saç yolar!"

Ekranda görünən Elməddin Əlibəyzadə deyir:

"Bilqamısın söylədiyi ağının ruhu da, fikir yönümü və ifadə biçimi də ondan təxminən 2000 il sonra Alp Ər Tonqanın ölümünə qoşulmuş ağılara uyğun gəlir.Alp Ər Tonqanın ölümünə ağılar dördlüklə və 7 heca ilə kəkk olunub,bu ölçüdə daha asan qalıb,yayılıb."

Ekranda Nizami Xudiyev peyda olur.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır. O deyir:

"Eradan əvvəl 1-ci minilliyin ortalarından etibarən ümumi türk ədəbi dilinin ünsürləri fəaliyyətə başlayır və regional türk ümumxalq dillərinin,bunun ardınca isə ədəbi dillərin formalaşmasına təsir edir.Qədim türk şerinin mükəmməl şifahi örnəkləri meydana çıxır ki, bunların müəyyən hissəsi sonrakı dövrlərdə yazıya alınmışdır.Turan hökmdarı,farslaın Əfrasiyab adlandırdıqları Alp Ər Tonqanın ölümünə həsr olunmuş ağı Mahmud Kaşğarlının divanında əks olunmuşdur."

Ekranda Nizami Xudiyevi əvəz edən aktyor oxuyur:

" Alp Ər Tonqa öldümü,
İsiz ayun kaldımu,
Ödlək öcin aldımı?
İmdi yürək yırtılır..."

Ekranda yenidən Nizami Xudiyev görünür və deyir:

"Biz bu ağının eradan əvvəl 1-ci minilliyin ortasından eramızın 1-ci minilliyinin ortasına qədərki dövrünə aid Azərbaycan dili nümunəsi olduğunu iddia etmirik,amma fakt budurki,qədim Azərbaycan dilinin fonetik,leksik və qrammatik quruluşu buna bənzər olmuşdur."

Ekranda Nizami Xudiyevi Elməddin Əlibəyzadə əvəz edir və deyir:

"Alp Ər Tonqa miladdan öncə 7-ci əsrin qüdrətli Turan-türk hökmdarı və qəhrəmanı olub.O,qeyri- adi ağlına,tədbirinə və mərdliyinə,müdrikliyinə görə böyük hörmət və ehtiram qazanmış,şöhrət tapmışdır.İran-Turan müharibələrində əfsanəvi qəhrəmanlıq göstərmiş və bu onu dastanlaşdırmışdır."

Ekranda Mahmud Kaşğarlı "Divan"ının üz qabığı görünür.Kitab yavaş-yavaş açılır və səhifələr bir-birini əvəz edir.

Diktor mətni:

"Kaşğarlı Mahmudun yazdığına görə,Türküstandakı Barsqan,Sayram və Koyaş şəhərlərini Alp ər Tonqa saldırmışdır.12 illik türk dövri heyvan təqvimini də o icad etmişdir.Əski fars qaynaqlarında onun Xorəzm,Xorasan.İran və Azərbaycanda çox sayda şəhər saldırdığı qeyd edilməkdədir.Məsələn, Sasanilər dövründə pəhləvi dilində qələmə alınan.müəllifi bilinməyən və elm aləmində şərti olaraq "İran şəhərləri" adlanan bir kitabda Aturpatakandakı,yəni Azərbaycandakı Gəncə şəhərinin əsasının farsların Əfrasiyab adlandırdıqları Alp Ər Tonqa tərəfindən qoyulduğu qeyd edilir."

Ekranda "Avesta" kitabının üz qabığı görüntülənməyə başlayır.
Diktor mətni:

" Zərdüştün "Avesta"sında bu şəhərin adı Qanqxa kimi çəkilir və onun Turanın taxt şəhəri olduğu, Turan xaqanının da bu şəhərdə otuduğu qeyd edilir."Avesta"da bütün turanlılar,yəni türklər kimi ünvanına təhqir və böhtanlar yağdırılan Alp Ər Tonqa həmin kitabda Tranqrasyan adı ilə yad edilir.Qədim yunan mənbələrində onun adı Prototiy kimi çəkilir və onun iskitlərin, yəni türklərin xaqanı olduğu bildirilir."

Ekranda mixi yazılar peyda olur .Diktor sözünə davam edir:

"Bu bötük türk xaqanı haqqında məlumat verən və eradan əvvəl 7-ci əsrə aid olan aşşur mixi kitabələrində onun adı Partatua kimi qeyd edilib və o,İşkuz, yəni İç oğuz hökmdarı adlandırılıb."

Ekranda "Dədə Qorqud" filminidən kadrlar canlanır və həmin kadrlarda iç oğuzların adı çəkilir.

Ekranda yenidən "Avesta" kitabı görünür.
Diktor mətni:

""Avesta" Alp Ər Tonqanın bol duzlu Çiçəstə gölü sahilində qətlə yetirildiyi bildirilir."Bundaxşinin kitabı"nda söylənilənlərdən isə belə məlum olur ki, Çiçəstə gölü Aturpatakanda.yəni Azəbaycanda yerləşir."

Ekranda Cənubi Azərbaycandakı Urmiya gölündən mənzərələr,ardınca isə bütöv Azərbaycan xəritəsi və sözügedən gölün xəritədəki yeri çanlanır.Diktor sözünə davam edərək deyir:

"Bu məlumatlardan göründüyü kimi, Alp Ər Tonqa Cənubi Azərbaycanda yerləşən bol duzlu Urmiya gölü sahilində qətlə yetirilmişdir.Deməli, ona həsr edilən ağı da məhz həmin bölgədə,başqa sözlə,Azərbaycanda yarnmışdır.Təsadüfi deyil ki,Azərbaycanda yaradılmış digər ağılar kimi bu ağı da təmiz oğuz türkcəsin-dədir və öz dilinə görə Kaşğarlı Mahmudun nümunə kimi verdiyi digər ağılardan

fərqlənir.Buradakı digər ağılar uyğur dilində,başqa sözlə xaqaniyyə tükcəsindədir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

" Ulsıp ərən börləyü,
Yırtıb yağa urlayu.
Sıkrıp üni yurlayu,
Sıqtab gözi örtülür."

Ekranda yazılır:

" İSİZ -ədalətsiz
AJUN -dünya
ÖDLƏK -zaman,zamanə
ÖC -intiqam

Diktor mətni:

"Alp Ər Tonqaya həsr edilən ağıda arxaikləşərək çoxdan canlı danışıq dilimizdən çıxmış "isiz","ajun", "ödlək" və "öc" kimi qədim türk kəlmələrinə rast gəlirik.İndi dilimizdə həmin sözləri ərəb dilindən keçmiş "ədalətsiz", "dünya","zaman" və "intiqam" kimi ifadələr əvəz etməkdədir.Təkcə bu fakt ağının ən azı İslamdan öncə yarandığını söyləmək üçün yetərlidir."

Ekranda Elməddin Əlibəyzadə görünür və deyir:

"İslamaqədərki dövr dedikdə bu dövrün,bu qədimliyin özü,təxminən də olsa,müəyyənləşməli , aşkar edilməlidir.Mahmud Kaşğarlı "Divan"ının folklor nümunələrinin də fərqli yaranma tarixləri olmalı idi.Çünki bu şerlər bir-birindən çox uzaq,mühüm və ibrətamiz tarixi hadisələrlə bağlı olmuşdur.Məsələn,miladdan öncə 7-ci əsrdə yaşamış Alp Ər Tonqanın ölümünə ağı həmin əsrdə deyilsə,hansı əsrdə yaranmışdır? Təbii ki,sözügedən ağı məhz həmin əsrdə yaranmalı idi və yaranmışdır da..."

Ekranda "yağış yağdırmaq" və "yağış dayandırmaq" ovsun-ayinlərinin əks olunduğu epizod təkrar göstərilir.Çay qırağında durmuş milli geyimli qızlar görünür.Onlar xorla deyirlər:

"Suda daşım,
Baba daşım,
Gələr,getməz
Yağışım.

Suda daşım,
Yaş başım,
Yaş oldu
Üst-başım.”

Ekranda ocaq başına yığışmış milli geyimli qızlar görünür.Onlardan biri ocaqdakı daşların üstünü közlərlə örtə-örtə oxuyur:

“Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”
Sonra qızlar birlikdə oxuyurlar:
“Budu daşı,
Bulutların
Kudu daşı,
Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Godu başı,
Gətirsin
Qızıl günü,
Aparsın
Yağışı.
Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”

Ekranda eyni səhnə yenidən,fəqət bu dəfə səssiz təkrarlanır.Kadr arxasından diktorun səsi eşidilir:

"Beləliklə, biz artıq ən azı üç qədim folklor nümunəmizin təxmini də olsa, yarnma tarixini müəyyən etmiş olduq.Bunlardan "yağış yağdırmaq" və "yağış kəsmə" ovsunları tarixi arxeoloji dəlillərlə sübut edilə bilən ən qədim nümunəmizdir.Təbii ki,söhbət ən qədim nümunədən yox,sübut edilə bilən ən qədim nümunədən gedir.Eneolit dövrünə aid Qarğalartəpədən tapılan ovsun daşları bu nümunənin ən axı 8 min il öncə yarandığını söyləməyə əsas verir.Sübut edilə bilən ikinci qədim abidəmiz "qurd ağzı bağlama " ovsunudur."

Ekranda üzərində "qurd ağzı bağlama" ovsunu ilə bağlı piktoqram olan Gəmiqaya təsviri görüntülənir.Diktor sözünə davam edir:

"Bu ovsun ən azı 5 min il öncə yaranmışdır ki,bunu Gəmiqayadan tapılan və üzərində eyni mövzuda piktoqram olan qayaüstü təsvir sübut edir.Üçüncü nümunə isə təqribən 2700 il öncə yardılmış matəm nəğməsi, yəni Alp Ər Tonqanın ölümünə həsr edilən ağıdır."

Ekranda zümrüd quşunun belində uçan Məlikməmmədin şəkli görünür.Diktor sözünə davam edir:

"Yaranma tarixinin təqribən 5 min il öncəyə aid olduğunu söyləyə biləcəyimiz daha bir folklor nümunəmiz "Məlikməmmədin nağılı"dır.Bu nağılın bir çox elementlərinin ən incə detallarına qədər 5 min il öncə qələmə alınmış bir şumer dastanı ilə,yəni Etana haqqında dastanın süjeti ilə üst-üstə düşməsi deyilənlərə ən gözəl sübutdur.Sözügedən nağıl bir qədər öncə haqlarında söhbət açdığımız folklor nümunələrindən fərqli olaraq şer formasında deyil, nəsr formasında olduğu üçün o, daha çox dəyişikliyə məruz qalmışdır.Bu da təbiidir.çünki şer formasında olan nümunələr sabit ölçülərə və ritmlərə sahib olduğu üçün dəyişikliyə çox cüzi uğrayır.Nəsr şəklində olan nümunələrin isə onları zamanın təsirindən qoruya biləcək "immun sitemi" ya yoxdur,ya da çox zəifdir."

Ekrandakı təsviri kəndirlə quyuya salınan Məlikməmmədin təsviri əvəz edir.

Diktor mətni:

"Sözügedən nağılın qəhrəmanı şah oğludur və onun adı Məmməd, yəni Məhəmməd adının yerli forması, daşıdığı titul isə məlikdir.Məmməd adı ,təbii ki,islamla bağlı addır və bu fakt islam təsirinin bariz nümunəsidir."Məlik" tituluna gəlimcə, qeyd etmək lazımdır ki, Azərbaycan nağıllarının bir çoxunun qəhrəmanı şah oğludur və "məlik " titulu daşımaqdadır.Məsələn,Məlik Məhəmməd,Məlik Cümşüd və sairə.Tarixi mənbələrdən belə aydın olur ki,Azərbaycanda şah oğulları 13-cü əsrdə,yəni Elxanlılar dövründə bu titulu daşımışlar.Bu o deməkdir ki, Məlikməmmədin nağılı" son şəklini 13-cü əsrdə almışdır.Deməli, eradan əvvəl 3-cü minillikdə,yəni 5 min il öncə yaranan nağıl təqribən 4 min 300 illik təkamül prosesi keçmiş və bu prosesdə yeni-yeni elementlər qazanmışdır. Həmin elementlər hansılardır və hansı dörün məhsuludur.? Bu suala cavab tapmaq üçün nağılın ilkin şəkli ilə,yəni Etana dastanı ilə son,yəni bugünkü şəklini müqayisə etmək,ümumi və fərqli cəhətləri üzə çıxartmaq lazımdır."

Ekranda yazılır:

Etana haqqında dastan	*Məlikməmmədin nağılı*
1. Etana şahdır.	*Məlikməmməd şah oğludur.*

2. Etana həyat çiçəyini tapmaq arzusu ilə yola çıxır.	*Məlikməmməd cavanlaşdırıcı almanı əldə etmək üçün divi yarlayır və onu öldürmək üçün yola çıxır.*
3. Etana bir quyuya enir	*Qardaşları Məlikməmmədi quyuya endirib,ipini kəsərək onu orada saxlayırlar.*
4.Etana quyuda qartalın ilanın balalarını yediyi üçün ondan intiqam almaq istəyən ilanın qartalla savaşının şahidi olur.	*Məlikməmməd qaranlıq dünyada əjdahanın ağaca çıxaraq zümrüd quşunun balalarını yemək istədiyinin şahidi olur.*
5.Etana ilanı öldürüb qartalın belində göyə qalxır.	*Məlikməmməd əjdahanı öldürür, zümrüd quşunun belində göyə qalxır.*
6.Qartal göydə Etanadan yerə baxmasını və onun nəyə oxşadığını söyləməsini istəyir.	*Zümrüd quşu göydə Məlikməmmədə yerə baxaraq onun nəyə oxşadığını söyləməsini istəyir.*
7.Etana öncə yerin xəlbirə,daha sonra isə çörəyə oxşadığını deyir.	*Məlikməmməd yeri öncə xəlbirə, daha sonra çörəyə oxşadır.*

Diktor mətni:

"Etana şah,Məlikməmməd isə şah oğludur.

Onlardan birincisi həyat çiçəyin əldə etmək,ikincisi isə cavanlaşdırıcı almanı oğurlayan divi öldürmək üçün yola çıxırlar.

Etana quyuya düşür. Məlikməmmədi qardaşları quyuya endirib, onu orada saxlayırlar.

Şumer dastanının qəhrəmanı orada balaları qartal tərəfindən yeyilmiş ilanla qartalın savaşının şahidi olur.O,ilanı öldürür.Azərbaycan nağılının qəhrəmanı isə zümrüd quşunun balalarını yemək istəyən əjdahanı öldürür.

Etana qartalın,Məlikməmməd isə zümrüd quşunun belində göyə qalxırlar.

Qartal Etanadan,zümrüd quşu isə Məlikməmməddən yerə baxaraq onun nəyə oxşadığını söyləmələrini istəyirlər.Hər iki qəhrəman aşağı baxıb, yeri öncə xəlbirə,daha sonra çörəyə bənzədirlər."

Ekranda Moskvada,Silah palatasında saxlanan və üzərində Məlikməmmədin əjdahanı daşla öldrməsi və ağaca qonmuş zümrüd quşu təsvir edilmiş 16-cı əsrə aid Azərbaycan bədii parçasının əksi görünür.

Diktor mətni:

"Şumer dastanının qeydə alındığı gil kitabə qırıq olduğundan dastanın ardı məlum deyil.Odur ki,"Məlikməmməd nağıl"ının zümrüd quşunun belində uçuş hissəsindən sonrakı hissəsini müqayisəyə çəkmək doğru olmaz.Bu epizoda qədrki hissəni müqayisəyə çəkəsi olsaq, nağılda qara qoç və ağ qocla,eləcə də divlərlə bağlı süjetlərin sonrakı dövrlərin əlavəsi olduğunu görə bilərik. Qara və ağ qoçların işıqlı və qaranlıq dünyalarla əlaqəsi əski türk mifik təsəvvürləri ilə bağlıdır ki,bu barədə irəlidə söhbət açılacaqdır.Divlərə,eləcə də zamanla ilanın əjdahaya,qartalın isə zümrüd quşuna çevrilməsinə gəlincə, bəzi folklorşünas alimlər bu motivlərdə,ilk növbədə də div surətlərində zərdüştiliyin təsirini görürlər və onlar qismən haqlıdırlar.Fəqət bu təsir bəzilərinin düşündüyü kimi birbaşa "Avesta" ilə bağlı deyildir.Ümumiyyətlə, istər Azərbaycan folklorunda istərsə də bədii yaradıcılığında sezilən və zərdüştiliklə səsləşən motiv və süjetlərin "Avesta" və zərdüştiliklə birbaşa bağlılığı yoxdur.Bütün bu motiv və süjetlər Azərbaycan ədəbiyyatında fars şairi Əbülqasim Firdovsinin "Şahnamə"sinin təsiri ilə ortaya çıxmışdır."

Ekranda Zərdüştün"Avesta" və Ə.Firdovsinin "Şahnamə" kitabları görünür.
Diktor mətni:

"Təsadüfi deyil ki,nə şifahi, nə də yazılı ədəbiyyatımızda "Avesta terminologiyasına daxil olan bircə dənə də olsun söz və ifadəyə rast gəlinməmişdir. Ədəbiyyatımızda rast gəlinən və zərdüştiliklə bu və ya digər dərəcədə bağlı olan məfhumların hamısı yeni fars dilinin,başqa sözlə, "Şahnamə"nin qələmə alındığı dilin nümunələridir."

Ekranda yazılır:

	"Avesta"da	*"Şahnamə"də*
1.	*Ahura Məzda*	*Hörmüzd*
2.	*Anqra Manyu*	*Əhrimən*
3	*Dayva*	*Div*
4	*Qayomarta*	*Kəyumərs*
5.	*Yima*	*Cəmşid*
6.	*Zaratuştra*	*Zərdüşt*

7	*Aryana*	*İran*
8	*Turyana*	*Turan*
9	*Tranqasyan*	*Əfrasiyab*
10	*Xuvaşxatra*	*Keyxosrov*

Diktor mətni:

""Avesta"nın dili ilə yeni fars dili arasında göylə yer qədər fərq var və bu dillərdə eyni məfhumları ifadə edən söz və adlar da bir-birindən çox fərqlənir.Belə ki, "Avesta"da xeyir tanrısının adı Ahura Məzda,şər tanrısının adı isə Anqra Manyu ikən, "Şahnamə"də onlar müqabil olaraq Hörmüzd və Əhriməndir.Azərbaycan ədəbiyyatında Hörmüzd və Əhrimən adlarına sıx-sıx rast gəlindiyi halda, nə Ahura Məzda, nə də Anqra Manyu adlarına bircə dəfə də rast gəlinməmişdir.Eləcə də "div" sözü nağıllarımızda çox işlənir,fəqət "dayva" kəlməsinə yaxın bircə kəlmə belə yoxdur."Şahnamə"dən hər kəsə bəlli olan Kəyumərs,Cəmşid,Zərdüşt,Əfrasiyab, Keyxosrov kimi adlarla həm folklorumuzda,həm də yazılı ədəbiyyatımızda üzləşə bilirik,halbuki,Qayomarta,Yima,Zaratuştra,Tranqrasyan və Xuvaşxatra kimi adlar yalnız və yalnız dar mütəxəssilər dairəsinə məlumdur.Eləcə də ədəbiyyatımızda "Avesta"dakı Aryana və Turyana ölkə adlarna heç rast gəlinmir."Şahnamədəki İran və Turan adları hər bir Azərbaycan türkünə məlumdur.

Təkcə bu fakt "Avesta"nın Azərbaycan türklərinə heç bir aidiyyatı olmadığını,əcdadlarımızın ədəbi yaradıcılığına zərrə qədər də təsir etmədiyini sübut edir..Odur ki, ədəbiyyatımızda izlərinə rast gəlinən zərdüştilik motiv və süjetləri islamdan sonrakı təsirlər kateqoriyasına daxil edilməli və yeni fars ədəbiyyatının təsiri kimi gözdən keçirilməlidir.Təbii ki,"Məlikməmməd nağılı"ndakı və digər nağıllarımızdakı div surətləri də islamdan sonrakı dövrün əlavələridir."

Ekranda Nizami Cəfərov peyda olur.Ekranın alt tərəfində onun adı.soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Hər şeydən əvvəl qeyd edək ki, Azərbaycan ədəbiyyatı qədim türk ədəbiyyatının diferensiyasının nəticəsidir.Bu isə o deməkdir ki, qədim türk ədəbiyyatında ehtiva olunmayan onun etnokültüroloji hüdudlarından kənara çıxan hər hansı ədəbi abidə Azərbaycan ədəbiyyatının hadisəsi sayıla bilməz.Azərbaycan ədəbi-ictimai təfəkkür tarixinin sonrakı dövrlərində "Avesta" ideyalarının müəyyən dərəcədə ehtiva olunması bu abidənin İran mədəniyyətinin faktı olmasını inkar etmir."

Ekranda dilçi alim Firidun Ağasıoğlu görünür.Ekranın alt tərəfində onun adı, soy adı.elmi dərəcəsi yazılır.O deyir:

""Avesta"nın və Zərdüştün nə Azərbaycana, nə də türklərə heç bir dəxli yoxdur.Bu.fars,İran abidəsidir.Bunu belə bilmək, belə də qəbul etmək lazımdır."

Ekranda Suraxanıdakı atəşgah mütəlif tərəflərdən görüntülənir.Kamera-nın obyektivi bu abidənin kitabəsinin üzərinə,daha sonra isə damına bərkidilmiş üçdişliyə tuşlanır.

Diktor mətni:

"Bu gün Azərbaycanda tədqiqatçılar arasında hər bir qədim sənət abidəsində zərdüştiliyin izlərini axtarmaq və görmək meyli çox güclüdür. Suraxanıdakı atəşgədəni də zərdüştiliyin,yəni atəşpəəstliyin abidələrindən biri kimi görən və buna inanalar heç də az deyil. Halbuki. bu abidənin hind dilində yazılmış kitabəsindən açıq-aydın görünür ki,bu abidə bir-neçə əsr öncə hindli zəvvarlar tərəfindən tikilmiş Şiva məbədidir.Bu məbədin hindlilərin müharibə və intiqam tanrısı Şiva məbədi olmasını onun üzərindəki üçdişli də sübut edir.Məsələ burasındadır ki,üçdişli Şivanın simvollarından biridir."

Ekranda üçdişli tutmuş Şiva heykəlinin təsviri görünür.Diktor kadr arxasından sözünə davam edir:

"Bir sözlə, Suraxanıdakı abidənin nə atəşpərəstliklə,nə də zərdüştiliklə heç bir əlaqəsi yoxdur.Eləcə də kökü ən azı 5 min il öncəyə qədər uzanan və hələ qədim şumerlər tərəfindən qeyd edilən Novruz bayramını da zərdüştiliklə bağlamağa çalışanlar var."

Ekranda Azad Nəbiyev peyda olur.Ekranın altında onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"İlin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran, yeni əmək mövsümünün başlandığını tərənnüm edən nəğmələr mövsüm nəğmələri içərisində xüsusi yer tutmuşdur.Türk tayfaları içərisində hələ qədimlərdən ilin iki mövsümü - yazın gəlişi,yəni əmək mövsümünün başlanması və məhsul yığımının başa çatması ilə bağlı mərasimlər keçirilmişdir.Hər iki mərasimdə mövsümün xarakterik cəhətləri ilə bağlı nəğmələr oxunmuş,ayinlər icra edilmişdir.Əslində mövsümi mə-rasimlərlə bağlı nəğmələrin yaranması insanın əmək həyatının başlanması ilə bağlı olmuş,zaman keçdikcə o,yeni-yeni etiqadlarla,görüşlərlə,təsəvvürlərlə bağlanmışdır.

Daha qədimlərdə təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi,havaların istiləşməsi, təbiətin yenidən canlanması, yaşıllaşması ilə bağlı nəğmələr yaratmışlar.Qədim insanların mövsümlərlə bağlı ilkin nəğmələri nisbətən sonralar Novruz mərasimi ətrafında cəmlənmişdir.Novruz mərasimi və onun tarixindən müxtəlif tədqiqatçılar bəhs etmiş, bəziləri onu zərdüştiliklə,digərləri isə islam dini ilə bağlamışlar.

Din xadimləri onu Həzrət Əlinin xəlifəlik taxtına çıxdığı gün-yeni gün kimi qələmə verib islamla bağlı mərasimlərdən birinə çevirməyə çalışmışlar.Sonralar Novruz adını qəbul edən bu mərasim hələ zərdüştilikdən əvvəl mövcud olmuşdur. Qədim farslar zərdüştiliklə bu mərasimlər sistemini xalqın hafizəsindən silə bilmədikdə onu özünküləşdirmək,mərasimi zərdüştiliklə bağlamaq istiqamətində səylər göstərmişlər.Lakin bütün cəhdlərə baxmayaraq,Novruz mərasiminin ayrı-ayrı ayinlərində zərdüştilikdən çox-çox qədim təsəvvürlər qorunub saxlanmış, onların bir qismi dövrümüzədək gəlib çıxmışdır. Məsələn, su üstündən tullanmaq, üzərlik yandırmaq, qırx açardan su tökmək və sairə kimi ayinlər su kultu ilə bağlı olub,.daha ilkin təsəvvürlərin izlərini qoruyur."

Ekranda tədqiqatçı rəssam Elçin Aslan görünür.Alt tərəfdə onun adı, soy adı və məşğuliyyəti qeyd edilir.O deyir:

"Novruz yurdumuzda keçirilən ən qədim və ən geniş yayılmış kütləvi mərasim şənliyidir.El arasında bu bayram "İlbaşı" və "İlbaşında" adları ilə də məşhur olmuşdur."

Ekranda Novruz bayramında qalanan tonqalın üzərindən atlanan gəncləri əks etdirən süjet canlanır.

Diktor mətni:

"Bəzi tədqiqatçıların fikrincə, novruz bayramı zamanı tonqal üzərindən atlanılması zərdüştiliklə bağlıdır.Lakin bu fikir kökündən yanlışdır.Cünki mərasim zamanı tonqal üzərindən atlananlar "Ağırlığım,uğurluğum odda yansın!"-deyirlər ki, zərdüştiliyə görə oda belə demək günahdır.Çünki bu dinin kanonlarına görə atəş müqəddəsdir, ona hətta insan nəfəsi belə toxunmamalıdır, insan öz nəfəsi ilə müqəddəs odu murdarlaya bilər. Od üstündən hoppananların isə belə demələri odun təmizləyici qüvvəyə sahib olması barədə əski türk inancı ilə bağlıdır.

Məsələn, Türk xaqanının yanına göndərilən Bizans heyətinin başçısı olmuş Menandrın yazdığına görə,onları xaqanın yanına aparmamışdan öncə odla təmizləmə mərasimindən keçməyə, yəni iki od arasından keçməyə məcbur etmişdilər. Təbii ki, oda bu münasibət zərdüştilərin münasibətindən köklü surətdə fərqlənir. 7 -ci əsrin başqa bir yunan müəllifi Feofilat Simokattanın yazdıqları da çox maraqlıdır."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Türklər hər şeydən çox oda ehtiram edirlər,hava və suya da ehtiramları böyükdür,torpağa həsr edilmiş himnlər oxuyurlar.Sitayişi isə "Tək Tenqri" adlandırdıqları yeri və göyü yaradana edirlər.Ona at,qoc və öküz qurban verirlər.

Ekranda Binəqədi rayonundakı Yanardağdan görüntülər canlanır.Bu görüntüləri mifoloq alim,mərhum Mirəli Seyidovun şəkli əvəz edir.

Daha sonra ekranda yazılır:

"Oda inam, qeyd olunduğu kimi, əski və müxtəlifdir.Teleutlar inanırdılar ki, hər bir ocaqda yaşayan "ot ana"dan başqa daha böyük,yüksək od tanrısı vardır. Həmin od tanrısı daşın içində yaranan oddur ki,üç ocaq sahibidir, xanıdır.Həmin od tanrısı da dağ ruhu ilə birgə yaşayır.Altaylılarda dağa həsr olunmuş dualarda - alqışlarda odun daşla-dağla əlaqədar olması gözə açıqca çarpdırılır.

Mirəli Seyidov"

Diktor yazılanları olduğu kimi təkrarlayır.

Ekranda yenidən Yanardağ görünür.
Diktor mətni:

"Əski türklərin mifik görüşlərindən söz açan Türkiyə alimi Əbdülqadir İnan yazır ki,əski türklər odu yaratmağı onlara yuxarı dünyanın sahibi Ülgenin öyrətdiyinə inanmışlar. Altay əfsanələrində deyilir ki, Ülgen göydən bir ağac,bir qara daş gətirir və quru otu ovcinda əzir, daşları bir-birinə vurur,qığılcımdan od yaranır,insanlar ondan odu yaratmağı öyrənirlər."

Ekranda Herodotun "Tarix" kitabı görünür.Kitab açılır və səhifələr bir-birini əvəz edir.
Diktor mətni:

"Herodotun yazdığına görə, iskit panteonunda Tabiti adlı bir ilahə də olmuş və o odun və ailə ocağının hamisi hesab edilib.Tanınmış qaraçay-balkar alimi Miziyev bununla əlaqədar bildirir ki.qaraçay-balkar qadınları yaxın zamanlara qədər odun və ailə ocağının himayəçisi sayılan Tobadıya sitayiş etmişlər."

Ekranda yenidən Yanardağ görüntülənir.
Diktor mətni:

"Gördüyümüz kimi, qədim türk mifik təfəkküründəki odla bağlı inanc sistemi zərdüştiliyin kanonlarından bütün parametrləri ilə fərqlənir.Azərbaycanın zərdüştliyin mərkəzi hesab edənlər belə bir fakta da istinad edirlər ki, Atropatenanın, yəni Azərbaycanın paytaxtı qədim Şiz şəhərində içərisində əbədi odun yandığı bir məbəd olmuşdur.Lakin bu halda unudulur ki,zərdüştilərin fikrincə günəş çıxan zaman od yandırmaq günahdır.Od yalnız gün batdıqdan sonra yandırılmalıdır.İçərisində əbədi od yanan məbədlər isə manixeylərin "manıstan" adlanan məbədləri olmuşdur ki,bu da tamam başqa söhbətin mövzusudur.Bir sözlə Folklorumuzda ilk baxışdan zərdüştiliklə səsləşən kimi görünən motiv və süjetlərin,eləcə də nağıllarımızdakı,o cümlədən "Məlikməmməd nağılı"ndakı div surətlərinin "Avesta" ilə birbaşa bağlılığı yoxdur."

Ekranda müxtəlif qoç heykəlləri görüntülənir.
Diktor mətni:

""Məlikməmmədin nağıl"ında rast gəldiyimiz qara və ağ qoçlarla bağlı motivə gəlincə, bunlardan ağ qoç qəhrəmanı işıqlı dünyaya, qara qoç isə qaranlıq dünyaya aparmalıymış Məlikməmməd ağ qoça minməyi bacarmadığı üçün qara qoç onu qaranlıq dünyaya aparır. Burada qədim türk kosmoqonik inanc sistemində xüsusi yeri olan üçlü dünya modelinin-yuxarı,yəni işıqlı dünya,orta dünya və aşağı dünya,yəni qaranlıq dünya modelinin şahidi oluruq ki,qoçlar bu modeldə dünyalar arasında mediator,yəni vasitəçi rolunu oynayırlar.Məhz bu inancın nəticəsidir ki, əski türklər qəbir üstlərinə qoç heykəlləri qoyar və inanarmışlar ki, bu qoç ölünü o biri dünyada müşayiə edəcəkmiş."

Ekranda sənətşünas alim Rasim Əfəndi görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Azərbaycanda daş qoç fiqurları xüsusilə geniş yayılmışdır.onlara Azərbaycanın ən ucqar sərhədlərindən tutmuş şimal qərbinədək bir çox yerlərdə rast gəlirik.Bu fiqurlar vaxtilə Qərbi Azərbaycanda,yəni bugünkü Ermənistan ərazisində də geniş yayılmışdı.Eyni abidələrə Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərində də təsadüf edilir.Daşdan yonulmuş qoç fiqurlarımız haqda ilk yazılı məlumatlara biz hələ 19-cu əsrin əvvəllərində rast gəlirik. 1834- cü ildə Azərbaycanda olmuş fransız səyyahı Dyubua de Monpere Qarabağda çoxlu daş heyvan fiqurları gördüyünü və yerli əhalinin onlara çox böyük hörmət bəslədiyini qeyd etmişdir.

Daş qoç fiqurlarımız haqda maraqlı qeydlərə biz rus alimi Sısoyevin yazılarında da rast gəlirik. 1926-1927-ci illədə Azərbaycanın Naxçıvan, Ordubad, Laçın və sairə bölgələrində olmuş Sısoyev yazır ki,yerli əhali burada tez-tez rast gəlinən qoç fiqurlarını müqəddəs sayaraq onlara sitayiş edir.Onlar hətta bəzən bu fiqurları qədim qəbiristanlıq xarabalıqlarından,dağlardan gətirib hörmət əlaməti olaraq öz qohumlarının məzarı üstünə qoyurlar."

Ekranda yazılır:

"...Naxçıvanın şərqində köhnə qəbiristanlıq yaxınlığında qırmızı daşdan yonulmuş,uzunluğu 62 santimetr,eni 40 santimetr qıvrım buynuzlu bir qoç fiquru gördüm.Burada uşağı olmayan qadınlar arasında belə bir şayiə yayılmışdır ki,kim bu qoçun ayaqları arasından sürünərək o biri tərəfə keçsə,mütləq uşağı olacaqdır.
V.M.Sısoyev."

Diktor yazılanları təkrarlayır.

Ekranda yenidən peyda olan Rasim Əfəndi sözünə davam edir:

"Gəncə,Qazax,Ağdam,Laçın rayonlarında olan daş qoç fiqurlarının da bir çox özünəməxsus xüsusiyyəti vardır.Bu ərazinin daş qoç fiqyrları daha çox uzaq keçmişlərin arxaik sənət nümunələrini xatırladır. Uzunluğu 80-90 santimetr, hündürlüyü 50-60 santimetrə çatan bu abidələr öz monumentallığı, formalarının ümumiləşdirilmiş bir səpgidə icrası ilə diqqəti cəlb edir.

Naxçıvan,Ordubad,Şahbuz,Gədəbəy və Qərbi Azərbaycan ərazisindəki kəndlərdə təsadüf edilmiş daş qoç fiqurları başqa yerlərdəki bu tipli abidələrdən həm real təsviri, həm də zəngin bədii tərtibatı ilə fərqlənir.Həmin ərazidə olan daş qoç fiqurları ölçü etibariylə də çox müxtəlifdir.Onlardan ən böyüyünün uzunluğu 150 santimetr,hündürlüyü 110 santimetr,ən kiçiyinin uzunluğu 45 santimetr, hündürlüyü 30 santimetrdir.

Sözügedən fiqurların dekorativ bəzəklərini nəbati,həndəsi ornament motivləri, yazılı, bəzi hallarda isə əsl mənada süjet xarakterli kompozisiyalar təşkil edir.Bu fiqurların dekorativ bəzəkləri orta əsr Şərqinin ən gözəl monumental əsərləri kimi dəbdəbəli yox, yığcam və lakonik bir səpgidə icra edimişdir. Bu bəzəklərə yaxından baxdıqda onlar sanki canlanır,diqqəti daha çox cəlb edir və dəqiqləşir."

Ekranda bir vaxtlar Qərbi Azərbaycanın Sisiyan rayonunun Urud kəndində olan,1577-ci il tarixli qoç fiqurunun şəkli görüntülənir.

Kadr arxasından səsi eşidilən alim sözünə davam edir:

"Bu daş qoç fiqurlarının Azərbaycanın başqa yerlərində təsadüf edilən bu tipli abidələrə nisbətən xeyli real təsvir olunmasına baxmayaraq onlara da uzaq keçmişin sənətinə xas olan ənənəvi priyomlar nəzərə çarpır. Bu cəhətdən Qərbi azərbaycanın Sisiyan rayonunun Urud kənd qəbiristanlığında yerləşmiş 1577-ci il tarixli qoç fiquru xüsusilə diqqəti cəlb edirdi.

Sözügedən fiqurun dekorativ bəzəkləri qoçun belində stilizə edilmiş nəbati naxışlardan və sağ yan hissəsində həkk olunmuş süjetli kompozisiyadan ibarətdir.Üfiqi bir səpgidə qoçun quyruq hissəsindən tutmuş boynunadək uzanan bu kompozisiyada məzar daşlarında tez-tez rast gəlinən ov səhnəsi təsvir edilmişdir.Kompozisiyanınən maraqlı hissəsi qoçun sağ ayağı tərəfdə döşdə oyulmuş təsvirlərdir.Burada elə bil ki, mehrab qarşısında durub iki əlini yuxarı qaldırmış dik papaqlı bir kişi təsvir edilmişdir.Alimlər bu tipli dini ayinləri şamanizmlə əlaqələndirirlər."

Ekranda yenidə Rasim Əfəndi görünür və deyir:

"Maraqlı burasıdır ki,bu süjet Urud kəndində təsadüf edilən daş sənduqələrin əksəriyyətində əks olunmuşdu.Bu motiv Orta Asiyanın digər türk xalqlarının bədii yaradıcılığında da geniş yayılmışdır.Azərbaycan mədəniyyətinin Mərkəzi Asiyanın türk xalqlarının mədəniyyəti ilə sıx bağlılığını təkcə bu motivlər deyil,elə qoç fiqurlarının özü də göstərir.Məsələ burasındadır ki,indiyə qədər tapılmış daş qoç fiqurlarından ən qədimləri hələlik Xakasiya,Qazaxıstan.Tuva və

sairə yerlərdn tapılmışdır. Onlardan bəzilərinin yaşı eradan əvvəlki 2-ci minilliyə aid edilir."

Ekranda Cənubi Azərbaycanın Göytəpə yaşayış məskənindən tapılan və e.ə.10-cu əsrə aid edilən qoç fiqurunu təsviri canlanır.

Alim kadr arxasından deyir:

"Daş qoç fiqurlarına bundan əlavə Cənubi Azərbaycan və Şərqi Anadolu ərazilərində də rast gəlinmişdir.Son vaxtlar belə fiqurlara Avropanın ən ucqar yerlərində,İspaniyanın şimal əyalətlərində də təsadüf edilmişdir.

Elmi araşdırmalar göstərir ki,müxtəlif forma və şəkillərdə qoçu təmsil edən fiqur,qabartma və oymalara Azərbaycanda hələ eradan əvvəl 10,6,3 və sairə əsrlərdə təsadüf edilmişdir.Cənubi Azərbaycan ərazisində Göytəpədən tapılmış,eramızdan əvvəl 10-cu əsrə aid daş qoç fiquru ölkəmizdə tapılan hələlik ən qədim qoç fiquru hesab edilir."

Ekranda yenidən peyda olan rasim Əfəndi sözünə davam edir:

"1946-1947-ci illərdəMingəçevirdən tapılan və eradan əvvəl 4 -3-cü əsrlərə aid edilən qoç fiqurları da böyük elmi dəyərə sahibdir."

Ekranda yenidən çox sayda qoç heykəli görünür.

Diktor mətni:

"Haqqında söhbət ediən bu fiqurların qəbirüstü abidə kimi orta Tunc dövrün-dən, yəni eradan əvvəl 2-ci minillikdən etibarən geniş yayıldığını nəzərə alsaq, qoçlarla bağlı motivin "Məlikməmməd nağılına məhz həmin dövrdə və ya da sonra ,yəni son Tunc dövründə daxil olduğunu söyləyə bilərik."

Ekrandakı qoç heykəl təsvirlərini at heykəl təsvirləri əvəz edir.

Diktor mətni:

"Təqibən orta Tunc dövründən etibarən qəbir üstlərinə at fiqurlarının qoyulması da dəbə minmişdir.Bu da əski türk mifologiyasında ata da mediator, yəni dünyalar arasında vasitəçi kimi xüsusi funksiya biçilməsi ilə bağlı olmuşdur.

Rəşidədinin "Oğuznamə"sində Oğuz xanın zülmət olkəsinə-Qara Xuluna səfəri,bu səfərin atlarla bağlı olması,Altay və Sibir türklərinin əfsanələrində qəhrəmanın atının yeraltı dünya sakinləri tərəfindən-əsasən,Erlik xanın qızları, yəni albastılar tərəfindən oğurlanması və qəhrəmanın yeraltı dünyaya enərək atı ilə birlikdə geri dönməsi kimi motivlər məhz bu mifik təsəvvürlə bağlı olmuşdur.

Eyni süjet ən incə detallarına qədər xakas türklərinin "Altun Cağa və Çis Sibaldey" əfsanəsində də təkrarlanır.Qeyd etmək lazımdır ki. bu motiv şamanizmlə birbaşa bağlıdır."

Ekranda Herodotun "Tarix" kitabı görünür.Kitab açılır və səhifələr bir-birini əvəz edir.

Diktor mətni:

"Belə rəvayətlərdən birini ilk dəfə eramızdan əvvəl 5-ci əsrdə qədim yunan tarixçisi Herodot qələmə almışdır.Onun qeyd etdiyi qədim türk əfsanəsində iskitlərin əfsanəvi babası Tarqutayın yuxuya getməsi,o, yuxuda ikən atının qaçırılması səhnəsi təsvir edilir.Qəhrəman yuxudan ayıldıqdan və məsələdən hali olduqdan sonra nal izləri ilə gedib yeraltı dünyanın qapısı olan bir mağaraya yetişir. Mağaranın yarı insan,yarı ilan sahibəsi atın onda olduğunu bildirir və deyir ki,yalnız onunla evlənəcəyi halda atı geri qaytaracaq. Tarqutay əlacsöz qalıb buna razı olur və bu izdivacdan üç oğlan doğulur.Yalnız bundan sonra qəhrəman atını geri ala bilir."

Ekranda Rasim Əfəndi görünür və deyir:

"Azərbaycan ərazisində daş qoç fiqurlarından sonra ən çox yayılmış fiqurlar daş at fiquları olmuşdur.Tarixi mənbələr göstərir ki,xalqımız arasında at həmişə insanın şərəfi,qəhrəmanlığı və qələbəsinin rəmzi olduğu halda, atsızlıq zəifliyin,məğlubiyyətin ifadəsi olmuşdur.Keçmişdə Azərbaycanda dəfn edilən hər hansı qəhrəmanın qəbri üstünə daşdan at fiqurunun qoyulması bunun canlı timsalıdır.

Keçmişdə ata bəslənən bu məhəbbət və ehtiram "Kitabi-Dədə Qorqudda öz poetik ifadəsini çox gözəl tapmışdır."

Ekranda aktyor peyda olur və əlindəki kitabdan oxuyur:

" Açıq-açıq meydana bənzər sənin alıncığın,
İki şəbçırağa bənzər sənin gözciyəzin ,
İpəyə bənzər sənin yelincəyin ,
İki qoşa qardaşa bənzər sənin qulaqcığın,
Əri muradına yetirir sənin arxacığın.
At deməzəm sənə,qardaş derəm,
Qardaşımdan yey!
Başıma iş gəldi,yoldan derəm,
Yoldaşımdan yey!"

Ekranda aktyoru folklorşünas alim Vaqif Vəliyev əvəz edir.O deyir:

"Qəhrəman üçün ən əziz, müqəddəs hesab olunana şeylərdən biri onun atıdır.Atın quyruğunu,yalını kəsmək,onun ömrünü qısaltmaq,ölümə məhkum etmək kimi bir şey hesab olunur.Ümumiyyətlə,atın quyruğunu, yalının kəsilməsi onun sahibinə aid edilir.

Qədim əcdadlarımızın keçirdiyi yas mərasimlərində ölənin atının quyruğunu və yalını kəsərmişlər.Bu adət "Kitabi-Dədə Qorqud"da ölüm ayağında olan Beyrəyin dilindən çox mənalı bir şəkildə ifadə edilir."

Ekranda yenidən görünən aktyor oxuyur:

" Yigitlərim yerinizdən uru durun,
Ağ-boz atımın quyruğunu kəsin!
Qocanın divanına çapıb varın,
Ağ çıxarıb,qara geyin!
Sən sağ ol,Beyrək öldü - deyin!"

Ekranda "Dədə Qorqud" filmindən Beyrəyin öldürüldüyü səhnə canlanır. Süjet bitər-bitməz, yenidən peyda olan aktyor oxuyur:

"Beyrəyin babasına,anasına xəbər oldu.Ağ evi eşiyində şivən qopdu.Qaza bənzər qızı-gəlin ağ çıxardı,qara geydi,atının quyruğunu kəsdilər."

Ekranda Rasim Əfəndi görünür və deyir:

"Naxçıvanda,Kəlbəcərdə,Laçında,Qazaxda,Gəncədə,Tovuzda və sairə bölgə-lərimizdə qeydə alınmış daş at fiqurları atın keçmişdə el arasında nə qədər mü-qəddəs bir heyvan sayıldığını göstərir.

Daşdan yonulmuş bu heykəllərin Azərbaycanın müxtəlif yerlərində ayrı-ayrı sənətkarlar tərəfindən müxtəlif vaxtlarda hazırlanmasına baxmayaraq onları eyniləşdirən bir çox əlamətlər vardır.Bu da özünü onların ümumi ölçüsündə,statik ifasında və xüsusi dekorativ bəzəklərində büruzə verir.

At fiqurlarının dekorativ bəzəklərini əsas etibarilə at qoşumları təşkil edir.Onlar qabarıq bir səpgidə oyulub üzəri bəzədilmiş kəm,yüyən, quşqunluq,yəni quyruğun altından keçən qayış,tanqır,yəni qarnın altından keçən qayışlar,üzəngi,yəhər və yəhəraltı çuldan ibarətdir.Bəzi hallarda bu at qoşumlarının üzəri ardıcıl olaraq qabarıq səpgidə romb,üçkünc,dördkünc naxışlarla bəzədilirdi."

Ekranda çox sayda at fiqurları görüntülənir.
Diktor mətni:

"Azərbaycan ərazisində tapılmış ən qədim at fiquru orta Tunc dövrünə,başqa sözlə eradan əvvəl 2-ci minilliyə aid edilən gil heykəldir ki, Cənubi Azərbaycanın Maku şəhərindən əldə edilmişdir.Gil fiqurun uzunluğu 30 santimetr,hündürlüyü 20 santimetr,eni isə 11,5 santimetrdir.Heykəli maraqlı edən onun üzərində yəhərdən başqa, çul təsvirinin və bu çulun üzərində isə ov iti,ceyran və quş təsvirlərinin, eləcə də nəbati naxışların sezilməsidir."

Ekranda İçəri şəhərin balbal, at və qoç heykəllərinin bir arada olduğu "bazar meydanı" müxtəlif istiqamətlərdən görünür.

Diktor mətni:

"Qəbirlərin üstünə at və qoç heykəllərinin qoyulması orta Tunc dövründə Azərbaycan əhalisinin dünyagörüşündə baş vermiş dəyişikliklərlə, bu isə öz növbəsində məişət və təsərrüfatda baş vermiş yeniliklərlə bağlı olmuşdur."

Ekranda Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının sədaları altında hərəkət edən dəvə karvanı görünür və onun fonunda yazılır:

"DÖRDÜNCÜ SERİYANIN SONU"

5-ci seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Bütöv Azərbaycanın xəritəsi.Kadr arxasından diktorun səsi:

"Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını birmə-nalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmış-dır."

Ekrandakı xəritə öncə müxtəlif təbiət mənzərələri,daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur.Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

"Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dönyada insanın for-malaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu torpaq bəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir.

Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximi-

zin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uzanan zəngin folklor nümunələri əks etdirir.”

Ekranda arxüoloq alim Rəşid Göyüşov görünür.Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Artıq ilk Tunc dövründə dağətəyi və düzənliklər əkinçi tayfalar,dağ və yaylaqlar isə maldar tayfalar tərəfindən məskunlaşdırılmışdı. Orta Tunc dövründən etibarən isə yarımköçəri maldarlıq formalaşır.İsti yay aylarında dağlara köçən tayfalar,dağların əlverişli yerlərində daimi düşərgə üçün məskənlər salırlar. Beləliklə, orta Tunc dövründə dağlıq yerlərdə yaşayış məskənlərinin salınması geniş vüsət almağa başlayır.

Əkinçiliklə məşğul olan tayfalar isə yenə əvvəlki kimi dağ ətəyi vədüzən zonalarda oturaq həyat keçirməkdə davam edirdilər.Bu tayfalar arasında əkinçilik daha da təkmilləşir,süni suvarma şəbəkəsi genişlənirdi.

İqtisadi irəliləyiş ictimai münasibətlərdə dəyişikliklər yaradır,ixtisaslaşmış təsərrüfat sahələri ayrı-ayrı tayfaların arasında böyük mal-qara sürülərinin və ya ərzaq ehtiyatlarının toplanmasına ,tayfaların ziddiyyətlərin və toqquşmaların meydana gəlməsinə səbəb olurdu.Bu isə öz növbəsində yeni-yeni silah növlərinin və müdafiə qurğularının ortara çıxmasını təşviq edirdi.Beləcə yaşayış yerlərinin əksəriyyətində müdafiə divarları ucaldılırdı."

Ekranda qədim qala divarları görüntülənir.
Diktor mətni:

"Azərbaycanda artıq son Eneolit və ilk Tunc dövründən müşahidə edilən şəhərləşmə prosesi orta Tunc dövründə daha da genişlənir.Bu dövdən etibarən isə Azərbaycanda yarımköçəri,yəni elat və ya tərəkəmə mədəniyyəti də formalaşmağa başlayır.Bu vaxta qədər bütünlüklə oturaq həyat tərzi keçirən türk tayfaları içərisində köçərilik ortaya çıxır.Bu isə o deməkdir ki, türk əkincilik,sənətkarlıq və şəhər mədəniyyəti türk tərəkəmə və köçəri mədəniyyətindən daha və çox-çox qədimdir."

Ekranda yenidən Rəşid Göyüşov peyda olur və deyir:

"Orta Tunc dövrünə aid ən yaxşı öyrənilmiş abidələr Naxçıvan ərazisindəki 1-ci və 2-ci Kültəpə,Şortəpə,Oğlanqala,Ağdam rayonu ərazisindəki Üzərliktəpə abidəsidir.Bununla belə,bu dövrə aid mədəni təbəqələr Füzuli rayonu ərazisindəki Qaraköməktəpə,Günəştəpə,Xantəpə,Uzuntəpə,Şomutəpə,Cənub-Şərqi Azərbaycanda Mişarçay,Cəfərxanlı,Əlikömaktəpə,Qobustanda Böyükdaş abidələrində qeydə alınmışdır.

Orta Tunc dövrü 1-ci Kültəpənin 3-cü layında təmsil edilmişdir.burada çiy kərpicdən hörülmüş dördkünc formalı evlərə məxsus divar qalıqları, monoxrom və polixrom gil qablar,daş alətlər və yalnız 1 ədəd tunc əşya tapılmışdır.

Evlərin döşəməsi əvvəlki dövrlərdən fərqli olaraq daşdan olub,bir-birinə ağ rəngli,gəcə oxşar maddə ilə bərkidilmişdir.Kültəpənin daş alətləri dəvəgözü, tuf, bazalt cinsli daşlardan yüksək zövqlə hazırlanmışdır.Bunlar əsasən iti ağızlı bıçaq şəkilli lövhələrdən, dən daşlarından, sütgəclərdən və sairə ibarətdir."

Ekranda Naxçıvan mənzərələri canlanır.
Diktor mətni:

"1-ci Kültəpədə orta Tunc və son Tunc dövrlərinə aid iki qrup gil qablar əldə edilmişdir.Bunlar boyalı və sadə gil qablardır."

Ekranda Tunc dövrünə aid gil qablar nümayiş etdirilir.
Diktor mətni:

"Qablar çeşidlərinə görə də iki qismə-mətbəx və süfrə qablarına bölünür."

Ekranda yenidən Rəşid Göyüşov peyda olur:

"2-ci Kültəpə Cəhriçayla Naxçıvan çaylarının birləşdiyi yerdə 3 hektara yaxın bir sahəni tutur.Bu çoxtəbəqəli abidənin orta Tunc dövrünə aid təbəqəsinin qalınlığı 4 metrdən çoxdur.Bu, eradan əvvəl 2-ci minillikdə kültəpəlilərin həyat və məişətini özündə əks etdirən 4 inşaat mərhələsindən ibarətdir.Yaşayış yerinin ətrafına müdafiə divarı çəkilmişdir.Mədəni təbəqədə yaşayış evlərinin,təsərrüfat tikililərinin,istehsalat ocaqlarının qalıqları ilə yanaşı külli miqdarda boyalı gil qablar,daşdan.tuncdan və sümükdən hazırlanmış əmək alətləri,bəzəklər,silahlar və sairə üzə çəxarılmışdır."

Ekranda 1və2-ci Kültəpənin tikili qalıqları görüntülənir.
Diktor mətni:

"Mükəmməl tikinti texnikasına bələd olan 2-ci Kültəpə sakinləri inşaat materialı kimi çiy kərpicdən,möhrədən və daşdan istifadə etmişlər.Burada inşa edilmiş müdafiə istehkamı,yaşayış və təsərrüfat binaları yüksək memarlıq zövqünün məhsulu olub,dövrün inşaat işləri haqqında geniş təsəvvür yaradır.Mürəkkəb quruluşlu müdafiə istehkamı dördkünc bürclərlə daha da möhkəmləndirilmişdir."

Ekranda Naxçıvan Tarx-Diyarşünaslıq muzeyinin xarici görüntüsü,lövhəsi və iç görünüşü bir-birini əvəz edir.Sonra isə ayrı-ayrı eksponatlar,ən sonda isə son Tunc dövrünə aid maddi mədəniyyət nümunələri nümayiş olunur. Kamera qarşısına keçən muzey əməkdaşı eksponatları nümayiş etdirə-etdirə deyir:

"2-ci Kültəpədə həm monoxrom, həm də polixrom qablara təsadüf olunur. Onlar formaca olduqca müxtəlifdirlər.Qabların naxışları da zəngindir.Onların üzərində həndəsi bəzəklərlə yanaşı müəyyən məzmunlu süjetli naxışlar da var."

Ekranda peyda olan Rəşid Göyüşov deyir:

"Naxçıvan əazisində 2-ci Kültəpə ilə həmdövr olan daha bir neçə abidə tədqiq olunmuşdur.Çoxtəbəqəli Qızılvəng və Şahtaxtı abidələrində də orta Tunc abidələri öyrənilmişdir.

Orta Tunc dövrünün maraqlı abidələrindən biri də Ağdam şəhəri yaxınlığında tədqiq edilmiş Üzərliktəpə yaşayış yeridir.Buradan toplanan maddi mədəniyyət qalıqları eradan əvvəl 19-14-cü əsrlərdə yerli əhalinin yüksək əkinçilik və maldarlıq mədəniyyətinə malik olduğunu sübut edir.Bu abidə ellips formasında olub, hündürlüyü 8,5 metrdir.

1954-cü ildə Üzərliktəpə abidəsi öyrənilərkən oradan 5-6 metr qalınlığında zəngin mədəni təbəqə aşkar olunmuşdur.buranın ətrafına möhtəşəm qala divarı çəkilmişdir.Eni 2 metrdən çox olan bu divar saman qarışıqlı çiy kərpicdən tikilmişdir.

Abidədən çoxlu gil qab nümunələri,əmək alətləri, dənli bitki qalıqları və gil qadın fiquru aşkar edilmişdir.Buranın gil qab məmulatı iki hissəyə bölünür.Birinci qrupa Qızılvəng boyalı qablarının oxşarı olan qablar daxildir.Bunlar açıq qırmızı rəngdə olub,üzəri qara boya ilə həndəsi,nəbati və zoomorf formada bəzədilmişdir.

İkinci qrup gil qablar qara rəngdə bişirilmiş, üzəri cilalanmış və xüsusi nöqtələrlə həndəsi formada bəzədilmişdir.

Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, eradan əvvəl 2-ci minillikdə üzümçülük də geniş inkişaf etmişdir.Üzərliktəpədən çoxlu üzüm çərdəyi və Naxçıvan abidələrindən isə üzüməzən daşlar tapılmışdır."

Ekranda "Əhməd haradadır?" filmindən üzüm yığımı ilə bağlı səhnənin əks olunduğu qısa süjet çanlanır,daha sonra üzüm tarlaları görüntülənir.

Diktor mətni:

"Arxeoloqlarımız Azərbaycanda üzümçülük və şərabçılıq mədəniyyətinin izlərinə orta Tunc dövrünə aid abidələrdə rast gəlsələr də bu mədəniyyətin kökləri daha qədimdir və ən azı ilk Tunc dövrünə qədər uzanır.Təsadüfi deyil ki, eradan əvvəl 3-cü minillikdə qələmə alınmış "Bilqamıs dastanı"nda şərabdan da söhbət açılır.Qədim şumer dilində şərabı bildirən ayrıca bir ifadə də olmuşdur ki, onun paralelinə Azərbaycan türkcəsində rast gəlinməsə də, əski türk yazılı mənbələrində həmin ifadə cüzi fərqlə qorunub saxlanmışdır.

Şumerlər şəraba "qeştin" deyirdilər."

Ekranda yazılır: *"QEŞTİN"*

Diktor mətni:

"Qədim türk dilində bu sözə uyğun gələn "kestəm" kəlməsi olmuşdur."

Ekrandakı sözün yanına bir söz də əlavə olunur və onları bir-birindən defis ayırır:

" QEŞTİN - KESTƏM "

Diktor mətni:

"Mahmud Kaşğarlı "Divan"ında bu kəlmə "qonaqlara verilən içgi " kimi tərcümə edilmişdir."

Ekranda "Babək" filmindən şərab paylanması və içilməsi, eləcə də "Dədə Qorqud" filmindən Qıpçaq Məliyin qadınlarla eyş-işrət və şərab içmə səhnələri səssiz canlanır.

Diktor mətni:

"Əhəmənilər dövründə bütün türkləri "sak" adlandıran fars mənbələri üç sak xalqından söhbət açmaqdadır: dik papaq geyən saklar, dəniz arxasında yaşayan saklar və şərab bişirən saklar.Qədim yunan mənbələri farsların iskitləri,yəni türkləri "sak" adlandırdığını qeyd etməkdə,sakların əslində iskitlərin bir hissəsi olduğunu vurğulamaqda və dikpapaq saklarla şərab bişirən sakları xüsusi qeyd etməkdədir.İstər qədim fars,istərsə də yunan mənbələrindən türklər arasında şərabçılıq sənətinin geniş yayıldığı məlum olsa da, bu işlə məhz hansı türk boyunun məşğul olduğu məlum olmur.

Bu məsələyə aydınlıq gətirməyə isə Egey dənizi sahillərindən tapılan və hind-Avropa mənşəli olduğu ehtimal edilən bir ideoqrafik əlifba yardımçı olur.Elm aləmində şərti olaraq "Egey əlifbası" adlanan sözügedən əlifbada "şərab" sözünü bildirən ideoqram kimi oğuzların bayandur boyunun tamğası çıxış edir."

Ekranda bayandur boyunun tamğası əks olunur.

Diktor mətni:

"Elə bu fakt da söhbətin məhz bayandurlardan getdiyini, eləcə də hind-Avropa xalqlarının şərabla bayandurlar vasitəsi ilə tanış olduğunu söyləməyə əsas verir.

Maraqlıdır ki, bir sıra hind -Avropa mənşəli xalqların dilində şərab anlamında işlənən kəlmələr "bayandur" etnoniminin kökündə duran "bayan" kəlməsi ilə yaxın səslənməkdədir."

Ekranda yazılır:

B A Y A N

Dil	*Yazılışı*	*Oxunuşu*	*Mənası*
1. Alman	*Wein*	*Vayn*	*Şərab*
2 İngilis	*Wine*	*Vayn*	*Şərab*
3. Fars	*Mey*	*Mey*	*Şərab*
4. Rus	*Вино*	*Vino*	*Şərab*

6

Diktor mətni:

"Məsələn, hind-Avropa dil ailəsinin german qrupuna daxil olan alman və ingilis dillərində şəraba "vayn" deyilməkdədir."Vayn" kəlməsi ilə "bayan " kəlmə-sinin səslənişləri çox yaxındır. İran dilləri qrupuna daxil olan fars və slavyan qrupundan olan rus dillərindəki "mey" və "vino" kəlmələri də bu qəbildəndir.

Maraqlıdır ki, hind - Avropa xalqları öncə şərabla tanış olmuş, onların üzümlə tanışlığı isə bundan sonra baş vermişdir.Elə bu üzdən də bəzi hind-Avropa xalqlarının dilində üzümü bildirən ayrıca söz yoxdur. Mövcud olan sözlər isə şərab sözündən törəmədir."

Ekrandakı yazını aşağıdakı yazı əvəz edir:

Dil	*Yazılışı*	*Oxunuşu*	*Mənası*	*Hərfi Mənası*
1. Alman	*Weinrebe*	*Vaynrebe*	*Üzüm*	*Üzüm çuğunduru*
2. Rus	*Виноград*	*Vinoqrad*	*Üzüm*	*Üzüm qozası*

Diktor mətni:

"Məsələn,alman dilində üzüm mənasında işlənən "vaynrebe" kəlməsi hərfi mənada şərab çuğunduru anlamına gəlir.Rus dilindəki eynimənalı "vinoqrad" kəlməsi isə hərfi mənada şərab qozası kimi tərcümə edilir.

Hind-Avopa dillərindən fərqli olaraq, türk dillərində üzümçülük və şərabçılıqla bağlı onlarla təmiz türk mənşəli kəlmə bulunmaqdadır.Əgər dilimizdə-ki heyvandaelıq ,əkinçilk,toxuculuq,dulusçuluqla bağlı bir çox terminlər Neolit və Eneolit dövrlərinin yadigarıdırsa, üzümçülük və şərabçılıqla bağlı bəzi terminlər də, şübhəsiz ki Tunc dövrünün məhsuludur."

7

Ekranda Cənubi Azərbaycanın Cığamış məskənindən tapılan,üzərində musi-qiçilər qrupu və xanəndə əks olunana daş görüntülənir.

Diktor mətni:

" Azərbaycanın cənubu bu gün İranın tərkibində olduğundan tədqiqatçılar bu ərazidə yaranan qədim mədəniyyəti və dövlətləri çox vaxt İran mədəniyyəti və İran dövlətləri kimi qələmə verirlər.Bununla belə, bir çox hallarda həmin zəngin mədəniyyətin və ənənələrin Azərbaycan ərazisində formalaşdığını və ya onun mərkəzinin Azərbaycan olduğunu söyləməyi də unutmurlar.Bu baxımdan məşhur ingilis şərqşünası Vilsonun söylədikləri də istisna deyil."

Ekranda yazılır:

"Son arxeoloji tədqiqatlar sübut etmişdir ki, İranın incəsənəti Misir və Babilin incəsənətindən daha qədimdir.Şuş, Təxti-Cəmşid və Damğandan tapılmış maddi mədəniyyət abidələri göstərir ki, İran incəsənətinin 6 minillik tarixi vardır...İndi isə gəlin baxaq,bundan daha qədim mədəniyyət məlumdurmu?...Əldə olan məlumat və əlamətlər bu mədəniyyətin mərkəzinin Azərbaycan ərazisi olduğunu göstərir."

K.Vilson"

Diktor ekranda yazılanları sözbəsöz təkrara edir.

Ekranda Tunc dövrünə aid maddi mədəniyyət nümunələri görüntülənir.

Diktor mətni:

" Şübhəsiz ki, ingilis alimi 6 min illik mədəniyyət dedikdə, İlk Tunc dövrü mədəniyyətini nəzərdə tutur və bu mədəniyyəti Azərbaycanla bağlayır. Bu fikrə başqa bir ingilis alimi də şərik çıxmışdır. Söhbət Poupdan gedir.Bu alimin fikrincə, Tunc dövrü mədəniyyətinin döğuşu Azərbaycan ərazisi ilə bağlı olmuşdur."

Ekrandakı görüntüləri Qobustanın Mezolit dövrünə aid təsvirləri əvəz edir. Diktor sözünə davam edərək deyir:

"Lakin Azərbaycan incəsənət və mədəniyyətinin yaşını 6 min il kimi göstərmək,bu mədəniyyətin yaşını çox-çox azaltmaqdır.Çünki bu halda ölkəmizin

ərazisində təqribən 14 min il öncə yaranmış olan və 4 min il davam edən Mezolit dövrü mədəniyyəti, 10 min il öncə yaranaraq 2 min il davam edən Neolit və 8 min il öncə yaranaraq 2 min il sürən Eneolit mədəniyyətləri nəzərə alınmır."

Ekranda yenidən Tunc dövrünə aid maddi mədəniyyət nümunələi görüntülənir.

Diktor mətni:

"Bununla belə, bəşər tarixində Tunc dövrünün də özünəməxsus yeri olduğu, və bu dövrə aid edilən mədəniyyətin formalaşmasında Azərbaycanın özünəməxsus müstəsana rolu olduğu da danılması mümkün olmayan faktdır."

Ekranda tarixçi alim S.Aşurov peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Şimali Qafqazdan Suriya və Fələstinə qədər geniş bir ərazini əhatə edən Kür-Araz mədəniyyətinin uzun illərdən bəri tədqiq edilməsinə baxmayaraq, hələ də həllini tapmamış bir çox məsələ qalmaqdadır.ən əsas problem isə bu mədəniyyətin yaranma tarixi və yeri ilə bağlıdır.

İessen Cənubi Azərbaycandakı Göytəpə və Türkiyənin Ərzurum şəhəri yaxınlığındakı abidələrə istinadən sözügedən mədəniyyətin yaranmasını eradan əvvəl 28-21-ci əsrlərə aid etmişdi.Kuşnaryova və Çubinişvili eradan əvvəl 3-2-ci minillikləri, İsmayılov isə e.ə.3200-2300-cü illər tarixini göstərmişlər.Kuşnaryova və Kvataridzenin sözlərinə görə, sözügedən mədəniyyətin kökləri e.ə. 4- cü minilliyə qədər uzanmaqdadır.

Son illər Naxçıvan ərazisindəki Maxta 1, Ovçular təpəsi və Daşarx abidələrində apardığımız arxeoloji tədqiqatların nəticələri,eləcə də Cənubi Azərbaycanın Culfa şəhəri yaxınlığında yerləşən Gərgər-Ələmdar ərazisindən üzə çıxarılan maddi mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin yayılma arealı və yaranma tarixi barədə məsələyə bir qədər aydınlıq gətirmişdir.Bu ərazidə diqqəti ən çox çəkən sözügedən mədəniyyətə aid mədəni təbəqənin qalınlığıdır.Məsələn,Kültəpə 1-də bu təbəqənin qalınlığı 9,5 metr,Kültəpə 2-də 10 metr,Aşağı Daşarxda 7 metr,Maxta 1-də 4,6 metr,Kərəzdə 9 metr,Yanıqtəpədə 8 metr,Göytəpədə 6 metr,Gərgər-Əlamdarda isə 7 metrdir.

Kültəpə 1-in 8,5 metr dərinliyində yerləşən LE-163 mədəni təbəqəsindən götürülən nümunələrin radio-karbon üsulu ilə təhlili bu təbəqənin aşağı-yuxarı 224 il fərqlə, eradan əvvəl 3714 -cü ildə formalaşdığını göstərmişdir.Şərur rayonu ərazisindəki Ovçular təpəsindən əldə edilən analoji materialın təhlili Eneolit və ilk Tunc dövrləri arasındakı əlaqəni izləməyə imkan verir.Bu materiallardan çıxış edərək,Naxçıvan ərazisində Kür-Araz mədəniyyətinin eradan əvvəl 5-ci minilliyin sonlarında formalaşdığını ehtimal etməyə əsas verir."

Ekranda S.Aşurovu arxeolq-alim Rəşid Göyüşov əvəz edir.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

" Orta Tunc dövründə Üzərliktəpədə olduğu kimi, Qaraköməktəpədə də boz,qara rəngli,ştamplı naxışlı qablarla yanaşı,az da olsa,monoxrom boyalı qablar tapılmışdır.Buradan həmçinin iy başlıqları,muncuqlar,daş alətlər,gildən düzəldilən kiçik heykəllər və sairə aşkar edilmişdir.

Bu dövrün abidələrinə ölkəmizin bütün ərazisində təsadüf olunmuşdur.Dövrün qəbir abidələri də tədqiq olunmuşdur.Orta Tunc dövrünə aid qəbir abidələri əsasən Xaçınçay vadisində,Xoşbulaqda,Muğanda,Quruçay və Köndələnçay vadisində,Qobustanda, Naxçıvanda,Gəncə-Qazax zonasında və digər ərazilərdə öyrənilmişdir.Bu dövr üçün torpaq,daş qutu və kurqan abidələri səciyyəvidir.kurqanlar torpaq və daşdan tökülmüşdür.Kurqanaltı qəbirlər əsasən dördkünc planda olub,dəfn bükülü vəziyyətdə edilmişdir."

Ekranda Rəşid Göyüşovu tarixçi alim İ.Əliyev əvəz edir və ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Son Tunc dövrünə aid kurqanlara Abşeron yarımadasında da təsadüf edilir.Son illər bu kurqanların xarakteristika və tarixini dəqiqləşdirməyə yönəlik tədqiqatlar aparılmış və Türkan-Daş Karxanası sahəsində yrləşən 4 qədim daş-torpaq kurqanı öyrənilmişdir.Tədqiqatlar nəticəsində 1№-li kurqandan Cənubi Qaf-qazın orta Tunc dövrünə xarakterik olan Üzərliktəpə tipli qab fraqmentləri üzə çıxarılmışdır.Bu növ keramikaya Abşeron ərazisində ilk dəfə rast gəlinib.

2№-li kurqan digər kurqanlardan öz nəhəngliyi ilə fərqlənir.Onun diametri 30 metr,hündürlüyü isə 120-130 metrdir.Kürqanın kromlexinin diametri 16 metrdir və onun cənub qərb hissəsində qurbangah aşkar edilmişdir.Buradan müxtəlif həndəsi naxışlı keramika və antromorf heykəl tapılmışdır.

3 və 4№ -li kurqanlar bir-birinə bitişikdirlər.Tədqiqatlar bu kurqanların eradan əvvəl 3-cü minilliyin ortalarına aid olduğunu təsdiqləməkdədir."

Ekranda kurqanlar nümayiş etdirilir.

Diktor mətni:

"Artıq qeyd etdiyimiz kimi, indiyə qədər öyrənilmiş kurqanların ən qədimləri Ağstafa ərazisində yerləşən Soyuqbulaq kurqanlarıdır. Türklər son Eneolit dövründən başlayaraq İslama qədər, yəni təxminən 5000-5500 il ərzində öz ölüləini kurqanlarda basdırmışlar və bu mədəniyyətin xarakterik cəhətləri yeraltı hissənin əsasən dördkünc şəkildə daşdan inşa edilmiş olması,qəbrin üzərində daş və ya torpaqdan təpə ucadılması, ölünün qəbrə əsasən yarımbükülü vəziyyətdə qoyulması, meyidin baş tərəfində qab olması və sairədir."

Ekranda Herototun "Tarix" kitabı görünür, kitab yavaş-yavaş açılır və vərəqlər bir-birini əvəz edir.

Diktor mətni:

"Eradan əvvəl 5-ci əsrdə yaşamış böyük yunan tarixçisi Herodot iskitlərin, yəni türklərin dəfn adətindən söhbət açaraq,onların öz ölülərini dördkünc daş qəbirlərə qoyduqlarını və qəbrin üstündə böyük təpə ucaltdıqlarını qeyd etmişdir. Eyni şeyi orta əsr müsəlman ərəb müəllifi İbn Batutə də bildirməkdədir.Maraqlıdır ki, hun türklərinin dəfn adətindən söhbət açan qədim Çin mənbələrində söylənilənlər də Herodot və İbn Batutənin söylədikləri ilə üst-üstə düşür."

Ekranda yenidən kurqanlar görüntülənir. Bu görüntüləri tanınmış qazax ədibi Oljas Süleymenovun şəkli əvəz edir.

Diktor mətni:

"Tanınmış qazax ədibi Oljas Süleymanov Eradan əvvəl 3-cü minillikdə yaşamış şumer hökmdarı Meskalamduğun qəbri ilə İssık gölü ərafından tapılan, eradan əvvəl 5-ci əsrə və iskit-saklara aid edilən İssık kurqanını müqayisə edərək, hər iki məzarda dəfn edilmiş şəxsin yarımbükülü vəziyyədə,sağ böyrü üstündə uzadıldığını və hər ikisinin baş tərəfinə qab qoyulduğunu xüsusi vurğulamışdır."

Ekranda yenə də kurqanlar görünür.

Diktor mətni:

"Qədim türklərin son Eneolitdən islama qədər minillər boyu sürən bir dövr ərzində kurqan mədəniyyətini eyni qaydada yaşatmasının kökü, şübhəsiz ki, sarsılmaz ənənəçilikdən və konservatizmdən qaynaqlanır..."

Ekranda öncə Qobustanın yallı rəqsini əks etdirən təsvirləri,ardınca yallı ifa edən milli geyimli qız və oğlanlar canlanır.Diktor kadr arxasından sözünə davam edir:

"...Elə bu ənənəçilik və konsevatizmin nəticəsidir ki,xalğımız əcdadlarımızın ən azı Mezolit dövründən,yəni 14 min il bundan öncə rəqs etməkdə olduğu yallı rəqsini bu gün də sevə-sevə yaşatmaqdadır..."

Ekranda "Yeddi oğul istərəm" filmindən atlıların arxasnca su atılması səhnəsi görüntülənir.

Diktor mətni:

"...Elə bu konservatizm və ənənələrə bağlılığın nəicəsidir ki, xalqımız ən azı 6 min ildir ki, yola saldığı adamım arxasınca su atır,.."

Ekranda daş balballar və üzərində şəkil olan baş daşı görüntülənir.Diktor sözünü davam etdirir:

"...Ən azı 6 min ildir ki, məzarların başına baş daşları qoyur..."

Ekranda cənazə üstündə saçlarını yonan qadın canlanır.Diktorun səsi sözünə davam edir:

"...Cənazənin üstündə saç yolur..."

Ekranda öncə Cığamışdan tapılmış daşın üzərindəki musiqiçilər qrupunun ümümi şəkli,sonra bu qrupdan cəng çalan musiqiçinin böyüdülmüş tək rəsmi, Azərbaycan miniatürlərində təsvir edilən cəng calan rəsmi görüntülənir və ən nəhayət, "İrs" ansamblının cəngdə musiqi ifa edən üzvü görüntülənir.Bütün bu görüntüləri muğam sədaları müşayiət edir.

Diktor mətni:

"...Ən azı 5 min ildir ki, eyni ritmlərdən, eyni tərənələrdən zövq alır."

Ekranda milli geyimli oğlan və qızların ifasında "Tərəkəmə" rəqsi ifa edilir və bu rəqsi "Çoban" rəqsi əvəz edir.Rəqs ifa edilərkən də diktor sözünə ara vermir və deyir:

"...Təsadüfi deyil ki, ən azı Eneolit dövründə yaranmış folklor nümunələri və təsərrüfatın,məişətin ayrı-ayrı sahələrini əks etdirən terminlər bu gün də yaşarlılığını sürdürməkdə davam edir.Və istər- istəməz belə bir sual ortaya çıxır: Görəsən, dilimizdə daha qədim dövrlərə aid söz və ifadələr qalmışdırmı?

Madam ki, mədəniyyitimiz, adət-ənənələrimiz kimi dilimiz də öz konservatizmi ilə seçilr, deməli, belə bir ehtimalı qəbul etmək olar."

Ekranda İngiltərə istehsalı olan "Milyononcu illər" filmindən mağara həyatını əks etdirən kadrlar nümayiş etdirilir.

Diktor mətni:

"Dilin yaranması və ilkin vəziyyəti barədə bir çox nəzəriyyələr mövcuddur və həmin nəzəriyyələrin əsasında duran müddəaların ana dilimizin mövcud materialı ilə tutuşdurulması ağlasığmaz nəticələrə gətirib çıxarır və məlun olur ki, türk dilləri, o cümlədən Azərbaycan türkcəsi özünün ən qədim,yəni ilkin vəziyyətini əks etdirən və tarixi yüzminillərlə ölçülə biləcək bəzi elementlərini qoruyub saxlaya bilmişdir.

Dilin yaranması barədə nəzəriyyələrin bir qismi dilin təşəkkülünü insan orqanizminin-duyğu üzvlərinin, danışıq aparatı və beyinin bioloji və fizioloji təkamülü ilə bağlayırlar ki,belə nəzəriyyələrə bioloji nəzəriyyələr deyilir."

Ekranda insan və meymunun ağız-boğaz aparatlarının müqayisəli təsviri görüntülənir.

Diktor mətni:

"Həmin materialist nəzəriyyələrə görə, dil guya meymunun insana "çevrildiyi" dövrdə meydana çıxmışdır."

Ekranda "Meymunabənzər insan" və "İnsanabənzər meymun"lar mövzusunda çəkilmiş rəsmlər görüntülənir.

Diktor məni:

"Sözügedən nəzəriyyələrin əsasında "əcdad meymun" barədə darvinist təsəvvürlər durmaqdadır.Nəzərə alsaq ki, bunu və ümumiyyətlə Darvin nəzəriyyəsini təkzibedilməz şəkildə sübut edə biləcək bircə dənə də paleontoloji material tapılmamışdır və genetika elmi də birmənalı şəkildə bir növün digər növə çevrilməsini bütünlüklə təkzib edir, bu nəzəriyyələr ən azı inandırıcı deyil."

Ekranda yenidən "Milyonuncu illər" filmindən kadrlar nümayiş etdirilir.

Diktor mətni:

"Dilin yaranması və ilkin vəziyyəti barədə maraqlı nəzəriyyələrdən biri Səstəlqini nəzəriyyəsidir.Bu nəzəriyyəyə görə, dilin təşəkkülü eşitmə orqanlarının təkamülü ilə bağlı olmuş və guya dil heyvan səslərinin təlqin edilməsi ilə yaranmışdır.Bu nəzəriyyəni maraqlı edən bir çox dillərdə, eləcə də ana dilimizdə bəzi heyvan, quş və həşərat adlarının gerçəkdən də həmin heyvanların çıxardıqları səslərlə bağlı olması faktıdır."

Ekranda göl və qurbağalar görünür,qurbağaların çıxartdıqları "qur-qur" səsləri eşidilir.Ekranda yazılır:

" QUR-QUR ----- QURBAĞA"

Diktor mətni:

"Məsələn,dilimizdəki "qurbağa" termini qurbağanın çıxartdığı səsin təlqini ilə yarnmışdır..."

Ekranda göydə uçuşan və ağaca qonan qarğalar görünür.Onların çıxartdığı "qar-qar" səsləri eşidilir.Ekranda yazılır:

"QAR-QAR ------ QARĞA"

Diktor mətni:

"...Eyni sözləri qarğanın çıxartdığı səslərin təlqini ilə yaranmış "qarğa" termini barədə də söyləmək olar."

Ekranda ququ quşu görununr və onun çıxartdığı "qu-qu" səsi eşidilir.Ekranda yazılır:

"QU-QU ----- QUQU QUŞU"

Diktor mətni:

"Ququ quşunun adının da onun çıxartdığı səsdən törədiyini söyləyə bilərik."

Ekranda qazlar görüntülənir, onların çıxartdığı "qa-qa" səsləri eşidilir.Ekranda yazılır:

"QA ---- QAZ"

Diktor mətni:

"Qazın çıxartdığı səsdən də bu quşun adı törəmişdir."

Ekranda cücələr görünür və "cib-cib" səsləri eşidilir.
Ekranda yazılır:

"CİB-CİB ---- CİPCİP(Türkiyə türkcəsində cücə)

Diktor mətni:

" Anadolu türkcəsində cücəyə "cipcip" deyilir və bu ad onların çıxartdıqları səsin təlqini ilə yaranmışdır."

Ekrandakı yazını "Cücələrim" uşaq ansamblının ifasında "Cücələrim" rəqsi və mahnısı əvəz edir.Mahnının səsi tədricən azalır və onun fonunda diktorun səsi eşidilir:

"Səstəlqini nəzəriyyəsi dilimizdəki bəzi zooloji terminlərin mənşəyini düzgün izah etsə də, ümumilikdə dilin mənşəyini bu nəzəriyyə əsasında izah etmək doğru deyil, məntiqdən uzaqdır.

Başqa bir nəzəriyyəyə görə isə dilin yarnmasının əsasında hiss və həyacanı ifadə edən müxtəlif səslər durmaqdadır və guya kəlmələr bu səslərin təkmilləşərək semantik məna yükü qazanması ilə ortaya çıxmışdır."

Ekranda "Sehirli xalat" filmindən xanın şosse yoluna çıxması və sürətlə yaxınlaşmaqda olan avtobusu görərək "Vay,şeytan arabası!"-deyə qşqırması və qaçmağa başlaması səhnəsi çanlanır.
Ekranda yazılır:

"VAY!"

Ekranda "O olmasın, bu osun" filmindən Məşhədi İbadın Gülnazla tanışlıqdan öncə güzgü qabağında papağını müxtəlif formalarda başına qoyması və "Vay-vay-vay!" edərək üz-gözünü turşutması səhnəsi göstərilir.

Ekranda yazılır:

"VAY-VAY-VAY!"

Ekranda "Uzaq sahillərdə" filmindən alman zabitinin Mixaylo və Visilinin sənədlərini yoxlaması və "O! cənab Şultsun verdiyi vəsiqə..." deməsi səhnəsi canlanır və ardınca yazılır:

"O!"

Ekranda "Uşaqlığın son gecəsi" filmindən Fəflə yeməkxanasında masa arxasında Rüfətin Murada təpinməsindən sonra masadan qalxan və gedən Muradın birdən geri dönərək Rüfət tərəfə "Hü!" səsi çıxararaq acıq verməsi səhəsini əks etdirən kadrlar görüntülənir və ardınca yazılır:

"HÜÜÜ!"

Ekranda eyni filmdən Rüstəmin kombinatdan gizli şəkildə çıxartdığı quzunu Elyaya verməsi və sonuncunun quzunu alarkən "Ay-ay-ay!" etməsi səhnəsi nümayiş etdirilir və ardınca yazılır:

"AY-AY-AY!"

Yenə eyni filmdən qazıntı aparılan yerdən yüksək gərginlikli elektrik kabelinin keçdiyini eşidən Rüstəmin qaçaraq özünü çuxura atması və Muradı yerə yıxması,tərəflərin adama bir cümlə söyləməsindən sonra Muradın "əh!" etməsi səhnəsi canlanır.Daha sonra ekranda yazılır:

"ƏƏH!"

Ekranda yenidən "Milyonuncu illər" filmindən fərqli epizodlar görüntülənir.

Diktor mətni:

"Hər bir dildə olduğu kimi, ana dilimizdə də hiss-həyacan ifadə edən çox sayda səslər bulunmaqdadır.Məsələn,bir şeydən xoşlandığımız zaman "bəh-bəh-bəh!", xoşlanmadığımız zaman "vay-vay-vay!",qorxduğumuz zaman "vay!", zəhlətökən bir işlə rastlaşdığımız zaman "əh!", təəccübləndiyimiz zaman "a!" edərək keçirdiyimiz hissləri ifadə etmiş olururuq.Maraqlıdır ki,türk dillərində bu

zaman istifadə etdiyimiz səslərin bəzilərinin zamanla müəyyən bir məna ifadə edən müstəqil bir leksem kimi işləndiyi müşahidə edilmişdir."

Ekranda Mahmud Kaşğarlının "Divan-ul Lüğət-ət Türk" kitabı görünür. Kitab yavaş-yavaş açılır və vərəqlər bir-birini əvəvz edir.

Diktor mətni:

"Məsələn, Mahmud Kaşğarlı "Divan"ında tək bir səsdən ibarət olan, təəccüb hissi ifadə edən uzun "a" səsinin təəccüb mənasını verən müstəqil bir leksem kimi işləndiyinin şahidi olururq"

Ekranda yazılır:

" O məni a: kıldı ---- O məni təəccübləndirdi"

Diktor mətni:

"O məni aaa kıldı,yəni o məni təəccübləndirdi.

Bu halda hissi ifadə edən bir səsin semantik yüklü leksemə çevrildiyini və dilimizə ərəb dilindən keçmiş "təəccüb" kəlməsinin verdiyi mənanı ifadə etdiyini görürük.Və bu fakt yeganə fakt deyildir."

Ekrandakı yazıları "Azərbaycan nağılları" kitabının üz qabığı görünür.

Diktor mətni:

"Bənzər halla "Oxayın" nağılı adlı bir Azərbaycan nağılında da rastlaşırıq. Məlum olduğu kimi, azərbaycanlılar müəyyən bir çətinlikdən sonra dinclik tapdıqdan sonra bəzən duyduqları rahatlıq hissini "ox-ay!" səsləri ilə ifadə edirlər. Sözügedən nağılda isə "ox-ay" səslərinin mifik bir məxluqun adına transformasiyasının şahidi oluruq. Nağılda həmin məxluqun adı Oxaydır.

Haqqında söz açdığımız nəzəriyyə türk dili materialı əsasında müəyyən mənada təsdiqini tapır.Fəqət bu nəzəriyyə bütövlükdə dilin əmələgəlmə mexanizminə aydınlıq gətirə bilmir, sadəcə bəzi terminlərin ortaya çıxması prosesni əks etdirir.Odur ki,elm aləmində "Refleksiv nəzəriyyə" adı ilə məşhur olan bu nəzəriyyə də digər nəzəriyyələr kimi kamil nəzəriyyə hesab edilə bilməz.

Lakin onun faktoloji əsasa sahib olduğunu, bu əsas rolunda türk dilləri materialının çıxış edə bildiyini və həmin nəzəriyyənin köməkliyi ilə ana dilimizin ən qədim qatlarının müəyyənləşdirilməsinin mümkünlüyünü söyləyə bilərik."

Ekranda alman fizioloq və filosofu Vilhelm Vundun şəkli görüntülənir.

Diktor məni:

"Bu nəzəriyyənin ortaya çıxmasında görkəmli alman fizioloq və filosofu Vilhelm Vundun fikirlərinin böyük rolu olmuşdur.Vund hesab edirdi ki, dil ilk öncə

iki istiqamətdə inkişaf etmişdir.Birinci istiqamət jestlərin dilidir ki, bura əllərin və mimikanin hərəkətləri daxildir.İkinci istiqamət isə səslərin dilidir ki,bura dil və dodaqların hərəkəti ilə çıxarılan səslər sistemi daxildir.Alimin fikrincə, ibidai insanlar səslərlə öz hisslərini, jestlərlə isə haqqında söhbət açılan əşyaları bildirməyə çalışmışlar."

Ekranda "Milyonuncu illər" filmindən deyilənlərə uyğun gələn kadrlar nümayiş etdirilir.Daha sonra ekranda yenidən Vundun şəkli görünür.

Diktor məni:

"Vund ilkin jestləri üç yerə bolmüşdür..."

Ekranda yazılır:

" 1.İşarəvi jestlər (Məsələn, bu və ya digər şeyə barmaqla işarə edilməsi);
2.Təsviri jestlər (Məsələn, əllə dairəvi hərəkət);
3.Simvolik hərəkət (Məsələn, barmağın dodağa söykənilməsi)."

Diktor ekranda yazılanları oxuyaraq təkrar edir.

Ekranda yenidən Vundun şəkli görünür.
Diktor mətni:

"Bu nəzəriyyəyə görə, dilin təkamülü prosesində səsli dil tədricən təkmilləşmiş, jestləin dili isə əvvəlki əhəmiyyətini itirirərək, yardımçı rol oynamağa başlamışdır.Şübhəsiz ki, bu fikirlərdə məntiq var.
Deməli, ilkin çağda jestlər əşyaların vizual, səslər isə qeyri vizual xarakterini açıqlamağa xidmət etmiş və bu zaman daha çox işarəvi informasiya ötürülmüşdür..."

Ekranda "Milyonuncu illər" filmindən kadrlar nümayiş etdirilir. Diktor sözünə davam edərək deyir:

"...Aydın məsələdir ki, qeyri-vizual informasiya abstrakt xarakter daşıdığı üçün bu dövrdə səslərlə konkret fikirlərdən daha çox hisslər ifadə olunmuş, müxtəlif hissləri, yəni abstrakt anlayışları bir-birindən fərqləndirmək üçün səslərin müxtəlif yüksəklik və uzunluq tembrlərindən istifadə emək lazım olmuşdur. Bu, nitqin musiqidən hələ ayrılmadığı dövr idi.Şübhəsiz ki,uzun və yüksək səslərə sami səslərin köməkliyi ilə nail olmaq çox çətin məsələdir və əslində heç mümkün də deyildir. Odur ki, məntiqə görə sait səslər samit səslərdən daha tez yaranmışdır. Sait səslərin samit səslərdən öncə yarandığı fikri dilçilik elminin aksiom kimi qəbul etdiyi fikirdir və dilçilər arasında belə bir fikir də mövcuddur ki,ilk öncə bir və ya bir-neçə sait olmuş,zamanla onların sayı artmışdır, sonrakı mərhələdə samit səslər də ortaya çıxmışdır.

Deməli, Paleolit, yəni qədim daş dövrü insanı bir və ya bir neçə səslə onu əhatə edən yüzlərlə əşyanı ifadə etməyə çalışmış və bu zaman onları bir-birindən fərqləndirmək üçün səsin uzunluq və yüksəklik tembrini tez-tez dəyişməli olmuş və bugünkündən çox-çox zəngin olan jestikulyativ arsenaldan istifadə etmişdir.Çoxgüman ki, dilimizin "ilk kərpici" rolunu ifa etmiş ilkin səs "o" səsi etməyə çalışmışlar.Maraqlıdı ki,çağdaş Azərbaycan türkcəsində,eləcə də bir çox digər türk dillərində məhz bu səs işarə və şəxs əvəzliyi kim çıxış etməkdə və ana dilimizdə həmin əvəzliklə hər bir şey ifadə edilə bilinməkdədir..."

Ekranda "o" hərfi yazılır və ondan müxtəlif tərəflərə ox işarələri çəkilir və bu oxların hər birinin uc tərəfində müxtəlif canlı və çansız əşyaların kiçik təsvirləri canlanır; ağac,cicək,dovşan,quş,ox, günəş,ulduz.ay və sairə. Diktor sözünə davam edir:

"...Əlbəttə, belə bir uyğunluq təsadüf də ola bilərdi.lakin bir sıra faktlar var ki,bu halın təsadüf olduğunu bütünlüklə istisna edir.Məsələ burasındadır ki,türk dilinin müxtəlif ləhcələrində bu əvəzliyin "u",klassik ədəbiyyatımızda isə "a" variantlarına da rast gəlinir.Eyni variantlara tamam başqa dil ailə və qruplarına aid olan fars və yapon dillərində də rast gəlinmişdir..."

Ekranda yazılır:

Azərbaycan türkcəsi	*Fars dili*	*Yapon dili*
O(A,U)	*U*	*A*

Diktor mətni:

"...HindAvropa dil ailəsinin İran dilləri qrupuna daxil olan fars dilində "u" variantı ilə rastlaşırıq. Fərqli bir dil ailəsinə daxil olan yapon dilində isə "a" varian- tı mövcuddur. Təkcə bu fakt sözügedən məsələyə ciddi yanaşmağı zəruri edir.

Azərbaycandan üzə çıxarılan Quruçay mədəniyyətinin yaşının 1,5 milyon il olduğunu nəzərə alsaq, dilimizdəki "o" kəlməsini dilimizin ən qədim kəlməsi olduğunu və onun yaşının ən azı 1,5 milyon ilə bərabər olduğunu söyləyə bilərik.Bu kəlmənin "a" və "u" variantları olduğunu diqqətə alsaq, 1,5 milyon il öncə dilimizdə ən azı üç saitin mövcud olduğunu söyləmək olar .Maraqlıdır ki,əski türk yazılı mənbələrində bir sait səslə ifadə olunan daha bir neçə kəlmə təsbit edilmişdir..."

Ekrandakı yazını aşağıdakı yazı əvəz edir:

" U ----- YUXU "

Diktor mətni:

"... Bu kəlmələrdən biri "U" kəlməsidir ki, əski mətnlərdə yuxu mənasında işlənmişdir..."

Ekranda Tonyukuk abidəsi görüntülənir.Abidənin təsvirinin fonunda yazılır:

" QIRQIZIQ UDA BASDIMIZ ----- QIRĞIZLARA YUXUDA İKƏN HÜCUM ETDİK "

Diktor mətni:

"...Məsələn, Tonyukuk abidəsində yaılıb: Qırqızıq uda basdımız, yəni qırğızlara yuxuda ikən hücum etdik..."

Ekrandakı təsvir və yazılarını Mahmud Kaşğarlı "Divan"ının təsviri əvəz edir. Təsvirin fonunda yazılır:

" AĞIR UNI UÇURSADIM ---- AĞIR YUXUNU QOVDUM "

Diktor mətni:

"...Kaşğarlı "Divan"ında isə belə bir cümləyə rast gəlirik: Ağır unı uçurdum, yəni ağır yuxun qovdum..."

Ekrandakı təsvir və yazıları manixey yazıları əvəz edir.Yazıların fonunda yazılır: "İ"

Diktor mətni:

"Türkdilli manixey mətnlərində isə bir səslə-"i" səsi ilə ifadə edilən və cicəkləmək anlamında işlənən bir kəlmə ilə rastlaşırıq.Deyilənlərə Mahmud Kaşğarlının təsbit etmiş olduğu və təəccüb mənasında işlənən "a" kəlməsini də əlavə etmək lazımdır.Deməli, 1,5 milyon il öncə dilimizdə ən azı dörd səs, yəni a,o,y və i səsləri olmuş və onar müxtəlif və çoxfunksional semantik yükə sahib olmuşlar.Bumlardan yalnız "o" kəlməsi dövrümüzədək ulaşmışdır.Təkcə bu fakt türk dillərinin kökünün ən azı 1,5 milyom il bundan öncələrə uzandığını, yəni dilimizin yaşının ən azı 1,5 milyon il olduğunu təkzibedilməz bir şəkildə sübut edir."

Ekranda tanınmış danimarka dilçisi O Espersin şəkli canlanır.

Diktor mətni:

"Dilin təşəkkülünün ikinçi mərhələsi samit səslərin ortaya çıxması və hecaların yaranmasıdır.Hecanın yaranması barədə bir neçə nəzəriyyə mövcuddur ki, onlardan Sonor və Əzələ nəzəriyyələri daha geniş yayılmış və özünə daha çox tərəfdar toplaya bilmişdir.Sonor mnəzəriyyəsinə görə,heca gur səsin az səslə birləş-məsi nəticəsində yaranmışdır. Bu nəzəriyyənin banisi tanınmış Danimarka dilçisi Espers olmuşdur.

Digər bir nəzəriyyə isə Əzələ Nəzəriyyəsidir..."

Ekrandakı şəkli fransız dilçisi M.Qrommonun şəkli əvəz edir.Diktor sözünə davam edir:

"...Bu nəzəriyyənin əsası isə məşhur fransız dilçisi Qrommon tərəfindən qoyulmuşdur..."

Bu dəfə ekranda Espers və Qrommonun şəkilləri yanaşı görüntülənir.Daha sonra ekranda yazılır:

"VC (V- sait +C- samit)

Diktor mətni:

"Hər iki məktəbin nümayəndələri hecanın ilk mərhələdə VC modeli əsasında qurulduğuna tərəfdar çıxmış,sonralar bu fikir digər məktəblərin nümayəndələri tərəfindən də qəbul olunmuşdur.Bu sxemə əsasən "V" sait səsi, "C" isə samit səsi ifadə edir.Yəni ilk hecalar bir sait və bir samit səsdən ibarət olmuşdur.Belə hesab olunur ki, ən qədim sözlər təkhecalı olmuş və VC sxemi, yəni sait+samit modeli üzrə qurulmuşdur."

Ekandakı yazını aşağıdakı yazılar əvəz edir:

Azərbaycan tükcəsində: at,it,ət,ot,od,ad,əl, el,üz,ox,uç,iş,ov,oy,eş,al,iy və sairə.
Şumer dilində: ut(günəş),ut(od),an (göy) və sairə.

Diktor mətni:

"Heç kəsə sirr deyil ki, çağdaş türk dillərində onlarca VC sxemi üzrə qurulmuş söz vardır. Məsələn,Azərbaycan türkcəsində at, it, ət, ot, od, ad, əl, el, üz, ox, uç, iş, ov, oy, eş, al, iy və sairə.Bənzər model əsasında qurulmuş sözlərə şumer mixi yazılarında da rast gəlinir.Məsələn, od və günəş mənalarında işlənmiş "ut", göy mənasında işlənmiş "an" və sairə.

Eyni zamanda dilimizdə hiss-həyacan bildirən ah, of, eh, əh, oy və sairə kimi bir sıra ara sözlər də eyni sxem üzrə qurulmuşdur ki, bu da önə sürülən fikri

təsdiq edir,yəni bu halda da nəzəriyyənin doğruluğunu türk dili materialı sübut eməkdədir.Üstəlik də sözügedən nəzəriyyələrin məntiqi bizə ana dilimizdə Paleolit dövrünə aid onlarla leksemin yaşamaqda olduğunu iddia etməyə imkan verir.Yəni əgər "o", "a", "u", "i" səsləri dilimizin ilk səsləri və sözləridirsə, onların yaşı ən azı 1 milyon-1 miyon 500 min il arasındadırsa, bu sözlərin də bir qismi dilimizdə mühafizə olunmuş orta və son Paleolit dövrlərinin kəlmələridir və onların on və həta yüzminillərcə yaşı vardır."

Ekranda Bakının fəvvarələr meydanında gəzişən gənclər və oynaşan kiçik uşaqlar canlanır:

Diktor məni:

"Bəli, biz dünyanın ən qədim dilinə,folkloruna,mədəniyyət və incəsənəinə sahib olan millətik və əcdadalarımızın yüzminilliklər boyu yaratmış olduğu mənəvi dəyərləri nəsildən-nəslə ötürərək bu günlei daşımağı və dünya sivilizasiyanın əsasını qoyaraq onu zaman-zaman zənginləşdirməyi bacarmış böyük bir millətin övladlarıyıq. Biz bu torpaqlarda ən azı 1,5 milyon ildir ki, yaşayırıq."

Ekranda Gəncə yaxınlığındakı Quruçay vadisi canlanır.

Diktor mətni:

"Arxeoloji tədqiqatlar nəticəsində məlum olmuşdur ki, əcdadlarımız təqibən 1,5 milyon il bunda öncədən ta 1milyon 200 min il öncəyə qədər Gəncə yaxınlığındakı Quruçay vadisində yaşamış və 300 min il boyunca burada arasıkəsilməyən yaşayış olmuşdur."

Ekranda Azıx mağarası görünür.

Diktor məni:

"1 milyon 200 min il öncə iqlim şərtlərinin dəyişməsi ilə quruçaylılar Azıx mağarasına köçmüş və burada həyat arası kəsilmədən orta Paleolitə qədər,yəni 1 milyon ildən artıq bir zaman içərisində davam etmişdir."

Ekranda Kiçik Qafqaz dağları görüntülənir.

Diktor məni:

"Orta Paleolit dövründə onların yaşayış arealı genişlənmiş və bu areal ən azı Kiçik Qafqazın cənub ətəklərindən Ceyrançölə qədər geniş bi ərazini əhatə etmişdir.Dünyanın heç bir ölkəsində bu qədər uzun bir dövrü əhatə edən davamlı oturaq həyaın izlərinə rastlanmamışdır.Və ölkəmizin ərazisində bu yeganə fakt deyildir."

Ekranda Qobustan təsvirləri bir-birini əvəz edir və ən sonda kameranın obyektivi "7 gözəl" təsvirinin üzərində durur.

Diktor mətni:

"Məsələn araşdırmalar nəticəsində məlum olmuşdur ki,Qobustanda həyat son Paleolit dövründən orta Tunc dövrünədək aramsız olaraq davam etmişdir.Buna bənzər fakta da dünyanın heç bir yerində rast gəlinməmişdir.Məhz bu davamlılığın, bu ənənəçiliyin nəticəsində də dilimiz və mədəniyyətimiz ağlasığmaz bir konservativlik qazanmış, bu konsevativliyin nəticəsində isə dilimizin ən qədim qatları,ən qədim folklor nümunələrimiz dövrümüzədək qorunub saxanıla bilmiş-dir. Təsadüfi deyil ki, hələ Mezolit dövründə, yəni 12-14 min il öncə Qobustanda 8 oğuz soyunun birləşməsi ilə ortaya çıxan, adını bir piktoqramda əbədiləşdirən və tarixin ilk soybirləşmlərindən olan səkkizoğuzlar minillər boyunca bu birliyi və adı qoruyub saxlayaraq Orxon-Yenisey mətnlərində yenə də bu adla yad edilmişlər."

Ekranda Orxon-Yenisey abidələri görüntülənir.
Diktor məni:

"Səkkizoğuzlar Azərbaycanda ortaya çıxan və minillər sonra adları Orxon-Yenisey abidələrində adı həkk edilən yeganə türkdilli etnos deyildir.Eyni abidələr-də ən qədim türk boylarından olan az boyunun da adına rast gəlinir."

Ekranda yazılır:

" Əcdadlarımızın tutduğu Yer-Su sahibsiz qalmasın deyə az xalqı təşkil edib...(Kül Təkin abidəsi,şərq tərəf, 19-cu sətir);
Az xalqı yağı oldu (Eyni abidə,şimal tərəf,2-ci sətir);
Az xalqı orada yox oldu (Eyni abidə,eyni tərəf,3-cü sətir)."

Diktor ekranda yazılanları oxuyaraq təkrar edir.

Ekranda mərhum alimimiz,profeessor Cəfər Cəfərovun şəkli peyda olur.
Diktor mətni:

"Mərhum professor Cəfər Cəfərovun yazdığına görə,Azərbaycan ərazisində qeydə alınmış qədim türk tamğaları içərisində ən qədimi az boyunun soy tamğasıdır və bu tamğanın təqribən 10 min il yaşı vardır.Yəni bu türk xalqı Azərbaycanda ən azı 10 min il bundan öncə məskun idi."

Ekranda az boyunun tamğası görünür.Diktor sözünə davam edərək deyir:

"Maraqlıdır ki, minillər öncə ölkəmizdə yaşamış bu boyun adı təkcə Mon-qolustan ərazisində yerləşən Kül Təkin abidəsində deyil, eyni zamanda 13-cü əsrdə yaşamış məşhur İslandiya tarixçisi Snorri Sturlusonun "Kiçik Edda" əsərində də çəkilir və belə məlum olur ki, bu türk boyunun bir qismi Sibir,Alay və Monqolustan

istiqamətində hərəkət etdiyi kimi, digər bir qismi də Avropaya-Skandinaviya və İslandiya tərəflərə köçmüdür."

Ekranda dilçi alim Firidun Ağasıoğlu peyda olur.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır:

"Qədim Azərbaycanda formalaşan az boyları Kür-Araz mədəniyyətindən sonrakı çağlarda qəribə tale yaşamışlar.Onların bir qismi Azərbaycan-Kiçik Asiya-Avropa xəti üzrə İslandiyaya qədər gedib çıxmış,digər qismi Quzey Qafqaz və Türküstana köç etmişdir.

Azərbaycan türkləri ilə yanaşı,özbək,altay,qaraqlpaq,noqay və sairə türk xalqlarının da etnogenezində yaxından iştirak emiş azların adına Orxon-Yenisey abidələrində "az budun", yəni az xalqı və ya "az əri",yəni az kişisi şəklində rast gəlinir.Kuban epiqrafiyasında isə belə bir cümlə vardır: Eren az ayrıltım,yəni az ərənlərindən,igidlərindən ayrıldı.

Müxtəlif türk xalqlarının boy-soy,yəni tayfa-nəsil bölgüsü kimi diqqəti çəkən və tərkibində az komponentini yaşadan etnonimlər böyük maraq doğurur. Məsələn, başkord-katay boyundakı as,assı soyları,balkarların osetinlər ərəfindən as adlandı-rılması,Vamberinin özbəklərin 32 əsas boyu sırasında asları qeyd etməsi və sairə.

Urartu mixi yazılarında qərbi Azərbaycanın bir hissəsi Aza kimi qeyd edilmişdir və tədqiqatçılar bu adı enotoponim hesab edirlər.Strabon isə eyni ərazidən Azar adı altında bəhs edir."

Ekranda Snorri Sturlusonun "Kiçik Edda" kitabı göüntülənir.Alim kadr arxa-sından sözünə davam edir:

"İslandiyaya qədər gedib çıxan az boyları haqqında da maraqlı tarixi məlumatlar vardır. 13-cü əsrdə yaşamış İslandiya tarixçisi Snorri Sturlusonun 1222-1225-ci illər arasında qədim saqalara istinadən yazdığı "Kiçik Edda" adlı kitabda göstərir ki, alar Troya ölkəsindən çıxıb Avropanın quzeyindəki Saks ölkəsinə gəlib çıxır,sonra yerli əhali ilə qaynayıb qarışan azlar çoxalaraq daha quzey bölgələrə,indiki İsveç və Norveç əazilərinə yayılırlar.Buradan isə İslandiya-ya üz tuturlar.Həmin kitabda azların etnik mənsubiyyəti barədə çox maraqlı məlumatlar vardır."

Ekranda yazılır:

"Troya türk ölkəsidir (səh.10).

Türklərin ölkəsini tərk edib...(səh.11)... Avopaya gələn azlar buraya türk adət-ənənələrini gətirdilər və burada türklərin vərdiş etdikləi qanunlar tətbiq edildi (səh.12).

Diktor səhifə nömrələrini oxumadan yazılanları təkrar edir.

Ekranda "Vikinqlər" filmindən kadrlar nümayiş edirilir.
Diktor:

"Qədim Skandinav dastanlarında azlar ilahiləşdirilmlş və tanrılar səviyyəsinə qaldırılmışdır.Azların başçısı, şimal germanlarının dövlətçiliyinin və ilk kral sülaləsinin əsasını qoymuş Azir Odin isə baş tanrı hesab edilmişdir."

Ekranda məşhur Norveç səyyahı və alimi Tur Heyerdalın şəkli görünür.
Diktor:

"Məşhur Norveç alimi və səyyshı Tur Heyerdalın bildirdiyinə görə,Skandinav saqalarında, yəni rəvayətlərində Azir Odinin mənşəyi barədə çox maraqlı bir məlumat var.Belə məlum olur ki, bu şəxs Qara dənizdən şərqdə,Qafqaz dağlarından cənubda yerləşən Azər ölkəsindən gəlmişdir."

Ekranda Orxon-Yenisey yazıları görünür.
Diktor mətni:

"Qədim Azərbaycanın Orxon-Yenisey abidələrində adına rast gəldiyimiz digər bir boyu da sonrakı əsrlərdə adını bütün türk xalqlarına verən türklərdir. Adlarına ilk dəfə eradan əvvəl 2-ci minilliyə aid akkad və aşşur mixi yazılarında "turukku" kimi və eradan əvvəl 1-ci minilliyə aid Urartu mənbələrində "truxi" kimi rast gəlinən və haqlarında Azərbaycan ərazisinin sakinləri kimi söz açılan bu xalq 6-8 ci əsrlərdə böyük xaqanlıq qurmuş və bu xaqanlığın mərkəzi indiki Monqolustan ərazisi olmuşdur."

Ekranda yazılır:

" TANRI TƏK GÖYLƏRDƏ DÖĞULMUŞ TÜRK MÜDRİK XAQANI BU VAXT TAXTA OTURDUM (KÜL TƏKİN ABİDƏSİ, CƏNUB TƏRƏF,1-Cİ SƏTİR);
TÜRK XAQANI ÖTÜGEN ORMANINDA OTURSA, ELDƏ KƏDƏR YOXDUR (EYNİ ABİDƏ,EYNİ TƏRƏF,3-CÜ SƏTİR);
TÜRK BƏYLƏRİ,XALQI,EŞİDİN! TÜRK XALQININ DİRÇƏLİB EL TUTACAĞINI BURADA HƏKK ETDİM (EYNİ ABİDƏ,EYNİ TƏRƏF,10-CU SƏTİR)."

Diktor ekranda yazılanları oxuyaraq təkrarlayır.

Ekranda Orxon-Yenisey abidələri görüntülənir.
Diktor mətni:

"Qədim Çin mənbələrində Orxon-Yenisey abidələrini yaratmış türk xalqının mənşəyi barədə türklərin öz dilindən bəzi əfsanələr qeydə alınmışdır və onların hamısı bir ağızdan bu xalqın Qərbdən-Xəzər dənizinin qərb sahillərindən gəldiklərini bildirməkdədir."

Ekranda tanınmış cərrah və türkoloq Cavad Heyət görünür.Ekranın alt tərəfində onu tanıdan qısa məlumat yazılır.O deyir:

" Böyük Türk Xaqanlığının əsasını qoyan göytüklərin mənşəyi ilə bağlı qədim Çin mənbələrində iki rəvayət qeydə alınmışdır.Birinci rəvayətdə deyilir ki. hunlarla eyni soydan olan göytürklər hun yurdunun şimalındakı Su ölkəsindən çıxmışlar.Başbuğlarının,yəni sərkərdələrinin adı Kapan Pu idi və onun 16 qardaşı vardı.Bunlardan birinin anası boz qurd idi. Bu gənc yellərə və yağışlara hökm edərdi.

Göytüklərin düşmənləri bir həmlə ilə qardaşları aradan apardılar, Bu fəlakətdən yalnız bu gənc qurtuldu.Bu gəncin iki arvadı vardı.Biri yaz tanrısının,digəri qış tanrısının qızı idi.Onun bu arvadlardan iki oğlu oldu və xalq böyük oğlu özünə xaqan seçdi.O, Türk adını aldı. Onun 10 arvadı vardı və bu arvadlardan türk xalğı törədi.

İkinci rəvayətdə isə deyilir ki, türkləin ilk atası Qərb dənizinin,yəni Xəzər dənizinin qərb sahillərində yaşayırdı.Bunun xalqı hunların bir bölümü idi və Asina adlanırdı.Bu xalq qonşu xalqlardan biri tərəfindən məhv edilir.Bunlardan yalnız bir oğlan uşağısağ qalır.Bir dişi qurd həmin uşağı tapıb ona qulluq edir,onu böyüdür və onunla evlənir.Oğlandan hamilə qalan qurd onu götürüb dənizin şərq tərəfinə keçirir və Altaya aparır.Orada dişi qurd 10 oğul doğur. Bu oğullardan türk xalqı törəyir."

Ekranda Böyük Türk Xaqanlığının xəritəsi göstərilir.Sonra həmin xəritənin Xəzər dənizinə bitişik hissəsi böyüdülmüş şəkildə nümayiş etdirilir.

Diktor mətni:

"Çin mənbələrində türk xalqının mənşəyi ilə bağlı qeydə alınmış bu iki rəvayətdə dörd məqam diqqəti cəlb edir. 1-ci məqam türklərin ulu babalarının Xəzərin şərqində, yəni Azərbaycanda yaşamış olması faktıdır ki, bu faktı eradan əvvəl 2-ci minilliyə aid akkad və aşşur mənbələri, eləcə də eradan əvvəl 1-ci minilliyə aid Urartu mənbələri təsdiqləyir.

Diqqəti çəkən ikinci önəmli məqam türklərin 10 qardaşdan törəmiş olması faktıdır ki, bu məlumat da Xəzər xaqanı İosifin yazdıqları ilə üst-üstə düşür. Xatırladaq ki, İosifin sözlərinə görə, türklər Həzrət Nuhun nəvəsi Toqarmanın 10 oğlundan törəmişlər. Onu da xatırladaq ki, Musa Kağankatlının yazdığına görə, Toqarma Azərbaycanın 4- cü şahı idi.

Üçüncü maraqlı və son dərəcə önəmli məqam tüklərin Su adlı bir ölkədən çıxmış olması faktıdır. Mövzumuz baxımından bu fakt o qədər böyük əhəmiyyət daşıyır ki, onun üzərində bir qədər ətraflı durmaq lazımdır.

Su ölkəsi harada yerləşmişdir?"

Ekranda mixi yazılar əks olunur.
Diktor mətni:

"Bu sualın cavabını da mixi kitabələrdə tapırıq. Məsələ burasındadır ki, eradan əvvəlki 3-2-ci minlliklərə aid mixi yazılarda Azərbaycan ərazisində yaşamış kuti, lulu və turukku, yəni türk xalqları ilə yanaşı su xalqından da söz açılmaqda və Su ölkəsinin adı çəkilməkdədir."

Ekranda Yusif Yusifovun şəkli görüntülənir.
Diktor mətni:

"Mixi yazıların gözəl bilicisi, mərhum alimimiz Yusif Yusifovun yazdığına görə, qədim qaynaqlarda "Su ölkəsinə mənsub lullu" ifadəsi işlənməkdədir."

Ekranda yazılır:

"Bəzi hallarda Aratta ölkəsinin adı "Su ölkəsi" mixi işarələri ilə göstərilmişdir.Deməli,Aratta... və Su ölkəsi Urmiya gölü hövzəsində mövcud olmuş geniş bir ərazinin müxtəlif adları olmuşdur.Sular da turukku və lullu tayfa birləşməsinə daxil idilər.

Yusif Yusifov"

Ekranda mixi yazılar görünür.
Diktor mətni:

"Mixi yazılardan göründüyü kimi, göytürklərin öz əski vətənləri saydıqları, qədim Çin mənbələrində haqqında söz açılan və Xəzər dənizindən qərbdə yerləşdiyi vurğulanan Su ölkəsi Azərbaycan ərazisində mövcud olmuş ən qədim dövlətin-Aratta dövlətinin başqa bir adıdır."

Ekranda Roma şəhərinin simvolu olan boz qurd heykəli göstərilir.
Diktor mətni:

"Qədim Çin mənbələrində türklərin mənşəyi ilə bağlı rəvayələrdə diqqəti ən çox çəkən dördüncü məqamsa türklərin öz soylarının dişi canavardan törəməsini söyləmələridir.Maraqlıdır ki, az boyu kimi türk boyunun da bir qolu Şərqə köç etmiş, digər bir qolu isə üzünü Qərbə - Avropaya tutmuşdur.Avropaya üz tutanlar öncə Anadolu ərazisində Troya şəhərini və dövlətini qurmuş,bu dövlətə qədim yunanlar tərəfindən son qoyulduqdan sonra onların nəsilləri Apenin yarımadasına gəlmiş və burada Roma şəhərinin əsasını qoymuşlar.Şərqə gedənlər kimi,Qərbə köçənlər də dişi boz qurd haqqında əfsanəni özləri ilə aparmış və nəticədə dişi qurd Roma şəhərinin gerbinə çevrilmişdir.Qədim Roma, yəni latın mənbələri bu

xalqdan "etrusk" adı ilə bəhs etməkdədir. German mənbələrində isə onlar "türk" adlandırılır."

Ekranda qədim Roma görüntüləri canlanır.
Diktor mətni:

"Roma şəhərini tikən, qədim Roma mədəniyyətinin və dövlətinin əsaslarını qoyan etruskların İtaiyaya köçməsi qədim Roma şairi Vergiliyin "Eneida" əsərində öz əksini tapmışdır."

Ekranda yazıça və tədqiqatçı Əlisa Nicat görünür.Ekranın alt tərəfində onun haqqında zəruri məlumat yazılır.O qədim etrusklar,onların tarixi,mədəniyyətləri və Azərbaycanla bağlılığı haqqında ətraflı məlumat verir.

Ekranda Roma şəhərinin simvolu olan dişi qurdun tunc heykəli görünür.
Diktor mətni:

"Rim,Romul və dişi qurdla bağlı əfsanənin Azərbaycanda doğduğunu və buradan Appenin yarımadasına köç etdiyini söyləyə bilmək üçün əlimizdə çox gözəl bir fakt var..."

Ekrandakı təsviri Şamaxının Xınıslı kəndi ərazisindən tapılan və üzərində qurd və iki oğlan uşağının başı təsvir edilən kubok təsviri əvəz edir.Diktor sözünə davam edir:

"...Şamaxının Xınıslı kəndi ərazisindən tapılmış bir kubok deyilənlərə ən gözəl faktdır.Məsələ burasındadır ki,sözügedən kubokun üzərində qurd və iki oğlan uşağının başları həkk olunmuşdur."

Ekranda Troya və etrusk zərgərlik, təsviri sənət və heykəltaraşlıq nümunələri nümayiş etdirilir.
Diktor mətni:

"Dünya sivilizasiyasının,xüsusən də Avropa mədəniyyətinin inkişafında misilsiz rol oynamış etrusklara aid qəbirlərdəki skeletlərdən DNT nümunəsi götürərək onları bölgədə yaşan xalqların genləri ilə müqyisələr aparan italiyalı mütəxəssislərin keçirdikləri çoxsaylı testlər nətcəsində məlum oldu ki, etruskların genləri Anadolu türklərinin genləri ilə eynilik təşkil edir.Beləcə, etruskların Anadoludan,yəni qədim Troyadan indiki İtaliya ərazisinə köçdükləri barədə qədim Roma tarixçilərinin məlumatları öz təsdiqini tapmış oldu.Eyni zamnda eruskları türk adlandıran qədim german mənbələrinin məlumatları da təsdiqlənmiş oldu."

Ekranda etrusk yazıları görüntülənir.
Diktor mətni:

"İndiyə qədər Appenin yarımadasından, Alp dağlarından və Misirdən etrusklara aid minlərcə yazı nümunəsi tapılmışdır.Fəqət bu yazıların demək olar ki, hamısı fraqmentar xarakter daşıdığı üçün bu yazıları oxumaq mümkün olmurdu.Etrusk dilinin türk dili olduğu barədə fikri ilk dəfə Avstriya türkoloqları səsləndirmişlər.Etrusk yazılarının oxunmasında Türkiyə alimi Kazım Mirşan, Başqırdıstanlı tədqiqatçı Latıpov Azərbaycan dilçi alimi Firidun Ağasıoğlunun xidmətləri çox böyükdür."

Ekranda dilçi alim Firidun Cəlilov peyda olur.Alt tərəfdə onun adı.soy adı və elmi dərəcəsi yazılır.O, etrusk yazıları,onların dili və oxunuşu barədə ətraflı məlumat verir.

Ekranda İohannes Fridrixin "Yazı tarixi" kitabının üz qabığı ardınca müəllifin öz şəkli görünür.

Diktor mətni:

"Yazı tarixinin gözəl bilicisi İohannes Fridrixin yazdığına görə,latınlar yəni romalılar öz mədəniyyət və incəsənətlərini etrusklardan əxz etdiyi kimi yazını da bu qədim xalqdan əxz etmişdir."

Ekranda yazılır:

"Bu gün latın əlifbasını etrusk əlifbasının bir qolu hesab etmək qəbul edilmişdir.Bunu, eynən etrusk yazısında olduğu kimi, latın yazısında da "g" və "k" yerinə "c"işarəsindən istifadə edilməsi,eləcə də "a" və "r"- dən öncə və sözlərin sonunda "k" yazılması sübut edir. Eynən etrusk yazılarında olduğu kimi, latın yazılarında da "e" və "i"- dən öncə "c", "u"-dan öncə isə "q" yazılır...

İohannes Fridrix"

Ekranda yenidən İohannes Fridrixin sözügedən kitabının üz qabığı və ardınca isə müəllifin öz şəkli görünür.

Diktor mətni:

"İohannes Fridrixin yazdığına görə qədim keltlər və germanlar da latın əlifbasına keçməmişdən öncə istifadə etdikləri run yazı sistemini etrusklardan əxz etmişlər."

Ekranda "Vikinqlər" filmindən kadrlar nümayiş etdirilir.

Diktor mətni:

"Məlumat üçün bildirək ki, run əlifbası ilə yazılmış ən qədim mətnlərdən birincisi Reyn çayının aşağı sahillərindən tapılan və 230-cu ilə aid edilən bir nizə ucluğu üzərində,ikincisi isə Rumıniya ərazisindən əldə edilən və 375-ci ilə aid olan

üzük üzərində qeyd edilmiş mətnlərdir.5-7-ci əsrlərdən etibarən run yazısından artıq təkcə cənub germanları deyil,eləcə də şimal germanları istifadə etməyə başlamışdılar.

Danimarka ərazisində bu yazı sistemi ilə qələmə alınmış son mətnlərə 1100-cü ilə aid abidələrdə rast gəlinmişdir.İsvecdə isə həmin sistemdən bir-neçə əsr sonra imtina etmişdilər.Run əlifbası ilə qeydə alınmış ən son əsərlər 1150-1216-cı illər arasında qələmə alındığı ehtimal edilən "Sakson qrammatikası", 14-cü əsrə aid Danimarka təqvimi və 15-ci əsrə aid "Məryəmin iztirabları" əsərləridir."

Ekranda yazılır:

"Hələ 19-ci əsrin 70-ci illərdə Danimarka alimi run yazısının latın mənşəli olduğunu sübut etməyə girişmiş, fəqət ayrı-ayrı işarələri müqayisə edərkən böyük çətinliklərlə üzləşmişdi.Başqa alimlər runların yunan mənşəli olmasından və ilk öncə Qara dənizi sahillərində yaşayan germanlar tərəfindən istifadə edildiyindən bəhs edirdilər.Fəqət onların da cəhdi uğursuzluqla sona çatdı.Çünki ən qədim run yazıları Almaniya ərazisindən tapılmışdı və qotlaraqədərki dövrə aid idi.Elmi dairələr run yazı sisteminin yuxarı Reyn və yuxarı Dunay ərazisində yaranması və şimali etrusk-Alp yazısından törəməsi barədə Norveç alimi Marstranderin ehtimalı-nı isə çox böyük rəğbətlə qarşıladı.Bu fikrin rəğbətlə qarşılanmasına səbəb Neqaudan tapılan və eradan əvvəl 200-cü ilə aid edilən bir dəbilqənin üzərində Alp əlifbası ilə qədim german dilində yazılmış mətnin sübut kimi ortaya qoyulması idi.

İohannes Fridrix"

Diktor yazılanları sözbəsöz, "şimali etrusk-Alp yazısı" ifadəsini xüsusi vurğulayaraq təkrar edir.O bu ifadəni xüsusi vurğu ilə tələffüz etdikdən sonra yazıda həmin ifadənin altından qırmızı xətt çəkilir.

Ekranda Orxon-Yenisey əlifbası ilə german- run əlifbasının müqayisəli cədvəli görüntülənir.

Diktor mətni:

"Germanların run əlifbasının hərfləri ilə türklərin Orxon-Yenisey əlifbasının hərflərinin vizual müqayisəsi run əlifbasının türk əlifbasından törədiyini açıq şəkildə ortaya qoyur.Maraqlıdır ki, türk Orxon -Yenisey əlifbasından təkcə german run əlifbası yox, həm də macar əlifbası törəmişdir.Sözügedən əlifba ilə türkcə yazıb- oxumaq ənənəsi isə Avropada 16-cı əsrə qədər yaşamışdır.Nə qədər təccüblü olsa da, bu faktdır.Bəli,fakt!!!"

Ekranda tanınmış qumuq tədqiqatçısı Murad Aci peyda olur.Alt tərəfdə onunadı,soy adı və məşğuliyyəti yazılır.O deyir:

"Мюнхенский востоковед-любитель Франц Бабингер,работая в семей-ном архиве князей и графов Фуггеров в Аугсбурге,наткнулся на некие старинные тексты,которые относились к событиям 1553-1555 годов.Эти тексты былт срисованы со стены одного здания, служившего, видимо конюшней, и никто никогда не придовал им значения,принимая их за экзотическую картинку из Стамбула, либо за затейлтвый орнамерт. Словом,ерунда, случайно оказавшаяся среди деловых бумаг.

Но Франц Бабингер не называл бы себя востоковедом,не читай он книг профессора Томсена и не узнай в найденном тексте древнетюркские руническое письмо! Он отправил фотокопии Вилгельму Томсену в Копенгаген.Но и тот был поставлен в тупик.Присланные руны при их сходстве с древнетюркскими все таки отличались.Лишь специальное исследование все расставило по местам : перед учеными предстал европейский диалект тюркского языка."

Diktor mətni sinxron tərcümə edir:

"Münhendən olan həvəskar şərqşünas Frans Babinger Ausburqda Fuqqerlərə mənsub knyaz və qrafların arxivində işlərkən 1553-1555-ci illərin hadisələrindən bəhs edən qədim mətnlərə rast gəldi.Bu mətnlər əvvəllər,çox güman ki,tövlə olmuş bir binanın divarlarından kopiyalanmışdı və heç kəs onlara heç bir əhəmiyyət vermirdi.Lakin Babinger Tomsenin əsərləri ilə tanış olduğundan bu mətnin hərflərinin qədim türk əlifbasının hərflərini xatırlatdığını dərhal sezdi və onları Kopenhagenə-Vilhelm Tomsenə göndərdi.Mətnləri alan Tomsen çətin vəziyyətə düşdü.Yazının hərfləri türk hərflərini xatırlatsa da, onlardan bir qədər fərqlənirdi.Yalnız xüsusi tədqiqatlardan sonra hər şey aydın oldu: Alimlərin önünə türk dilinin Avropa dialekti çıxmışdı."

Ekranda Avropa türk əlifbası görüntülənir.
Diktor mətni:

"Alimlər çaş-baş qalmışdılar.Bu yazı Avropada nə gəzir?

Tapılan mətn macar salnamələrindən məlum olan bir hadisədən söhbət açdığı üçün onun Avropa mənşəliliyinə heç bir şübhə yox idi.Mətnin dilini Tomsen "qədim macar dili" adlandırdı.Sonralar məlum oldu ki, bu sekellərin dilidir. Sekellər artıq çoxdan macarlaşmış olsalar da və türk dilini unutsalar da özlərinin türk mənşəliliyini unutmamışdılar.Məlumat üçün bildirək ki, sekellər haqqında ilk yazılı məlumat eradan əvvəl 5-ci əsrə aiddir və Herodotun qələminə məxsusdur. Herodot bu xalqdan "skolot" adı ilə bəhs etmiş, onu iskit,yəni tük xalqı adlandırmışdır.Ərəb müəllifləri isə bu türk xalqının adını "eskil" və "eşkil" kimi çəkir və onların bulqar türklərinin bir qolu olduğunu qeyd edirlər."

Ekranda hərəkət edən karvanın günəşin fonunda silueti görünür.Bu süjeti Soltan Hacıbəyovun "Karvan" simfonik suitası müşayiət edyr.

Ekranda "Qlozel daşları" və onların üzərindəki maral təsvirləri və yazıları görüntülənir.

Diktor mətni:

"16-cı əsrə və türk-sekellərə aid olan türkcə yazılar əldə olan ən son yazılar olsa da, İtaliya və Avstriyadan tapılan və ən əskiləri eradan əvvəl 7-ci əsrə aid edilən etrusk yazıları isə Avropanın heç də ən qədim türk yazıları deyil.

Avropa ərazisindən üzə çıxan və tükcə olduğu təsbit edilən ən qədim yazı nümunələri Fransanın Vichy adlı məntəqəsindən tapılmışdır və onların yaşı nə aznə çox, düz 4 min 5 yüz ildir və bu yazılar elmə məlum ən qədim fonetik əlifba ilə yazılmışdır."

Ekranda filoloq alim Elməddin Əlibəyzadə peyda olur.Alt tərəfdə onun adı,soy adı və elmi dərəcəsi yazılr.O deyir:

"1924- cü ildə Fransanın Vichy bölgəsində bir ərazi,mülk sahibi 3 min parçadan ibarət olan kitabələr aşkar etmişdir."Qlozel" muzeyində saxlanılan bu kitabələrin oxunması problem olaraq qalırdı.Miladdan öncə 2500-ci ilə aid edilən bu kitabələr.Türkiyə alimləri Xaluq Tarcan və Kazım Mirşan tərəfindən oxunaraq əlifbanın "öntürkcə" olduğu təsdiq edildi.Sarbon Universitetində keçirilən "Əlifba yazının başlanğıcı və Qlozel kitabələri" adlı konfransda kitabədəki hərflərlə bağlı illər boyu davam edən mübahisələrə son qoyuldu.Kitabələrdəki hərflərin qarşılıqlı müqayisəsi, arlarındakı qabarıq bənzərliyin sübutu salondakı müxtəlif millətlərdən olan elm adamlarını inandırdı,verilən izahat,gətirilən dəlil və sübutlar böyük alqışa səbəb oldu.

Kazım Mirşan kitabələrdəki hərflərin "öntürk" hərfləri olduğunu aydınlaşdıraraq dedi:"Kitabələrdəki əlifba etrusk əlifbasına çox yaxındır.Etrusk əlifbası daha gec çağlara aid olan latın əlifbasını doğurmuşdur.Etruskca ilə heç bir bağlılığı olmayan yunan əlifbasının da öntüklərə əsaslandığını bilirik.Finikiya və kiril əlifbaları da xüsusi bir istisna təşkil emir, bunun bir çox nümunələrini verən çoxlu kitabələr mövcuddur."

Ekranda Oxon-Yenisey və "Qlozel" əlifbalarının müqayisəli sxemi görüntülənir. Alim sözünə kadr arxasından davam edir:

"Türkiyənin "Hürriyyət" qəzetində həmin kitabələrdən nümunələr verilib. Qəzetdə qədim türk-"Orxon-Yenisey"lə "Qiozel" əlifbalarının müqayisəli sxemi də var."

Ekranda yenidən görünən Elməddin Əlibəyzadə sözünə davam edir:

"Bu alqışa layiq kəşf,açıqlamalar və elmi fikir məlum Orxon-Yenisey əlifbasının miladdan sonrakı dövrün məhsulu deyil, məh zçox-çox qədimlərin məhsulu

olduğunu, minillərin sınağından çıxdığını sübut edir."

Ekranda "Qlozel" yazıları görüntülənir.
Diktor mətni:

"Öncələr belə hesab edilirdi ki,dünyada ilk fonetik əlifba sami mənşəli finikiyalıların icadıdır. Fəqət "Qlozel" kitabələri sübut edi ki, bi kəşf məhz əcadlarımıza məxsusdur. Qərbi Azərbaycan ərazisindən, Göyçə gölü ətrafından tapılan türkcə yazılar "Qlozel" yazıları qədər qədim olmasa da, qədim türk yazı sisteminin formalaşdığı areala ölkəmizin ərazisinin də daxil edilməli olduğunu göstərməkdədir.Qeyd edək ki, ermənilərin dünyaya "qədim erməni yazı nümunələri" kimi sırımağa çalışdıqları bu yazıların düzgün oxunuşunu verən və onun türkcə olduğunu sübut edən görkəmli Azərbaycan dilçisi Firidun Ağasıoğlu olmuşdur."

Ekranda Firidun Ağasıoğlu görünür və "Göyçə yazıları", onların tarixi, oxunma metodologiyası və məzmunu barədə ətraflı məlumat verir.

Ekranda mixi yazılar görünür.
Diktor mətni:

"Eradan əvvəl 2-ci minilliyə aid mixi yazılarda turukkularla, yəni türklərlə əlaqədar Tukris ölkəsinin, eyni adlı xalqın və onun hökmdarı Arisenin adı çəkilir..."

Ekrandakı təsvirləri Yusif Yusifovun şəkli əvəz edir.Diktor sözünə davam edir:

"Yusif Yusifovun yazdığına görə, mütəxəssislər Tukris ölkəsi və xalqını Orxon-Yenisey abidələrində adına rast gəlinən türkişlərlə, bu ölkənin hökmdarı Arisenin adını isə Arslan adı ilə eyniləşdirmişlər."

Ekranda Orxon-Yenisey yazıları görünür.
Diktor mətni:

"Türkişlərin adına Kül Təkin abidəsinin şərq tərəfinin 18,36,37,38 və 40-cı, şimal tərəfinin 13-cü,Bilgə Xaqan abidəsinin şərq tərəinin 27-ci,şimal tərəfinin 9 --cu, Tonyukuk abidəsinin 21,28,29,30 və 40-cı sətirlərində və başqa abidələrdə rast gəlirik."

Ekranda yazılır:

"...Qırğız xaqanını öldürdük,elini aldıq.Həmin il türkişlərə qarşı Altun ormanı üzüyuxarı qalxaraq, İrtış çayını keçərək yürüdük.Türkiş xalqını yuxuda

basdıq. Türkiş xalqının qoşunu Bolcuda od kimi, şərab kimi gəldi, döyüşdük. Kül Təkin Başqu boz atı minib hücum etdi.

Kül Təkin abidəsi"

Diktor yazıları oxuyaraq təkrar edir.

Ekranda yenidən mixi yazılar görüntülənir.

"Mixi yazıları Tunc dövründə,eləcə də erkən dəmir dövründə Ön Asiya və Qafqazda, o cümlədən Azəbaycan ərazisində yaşamış və Azərbaycan türklərinin etnogenezində bilavasitə iştirak etmiş türk soy və boylarının "ensiklopediyası" adlandırsaq yanılmarıq. Bu "ensiklopediya"da biz təkcə kəngər,subar,türk, su, iç - oğuz və türkiş etnonimlərinə rast gəlmirik,eyni zamanda kuman,maday,qamər,sak və sairə türk soy və boyları haqqında da ən qədim yazılı məlumatları əldə etmiş oluruq. Məhz bu mənbələr sayəsində məlum olur ki, bütün türk xalqlarının etnogenezində bu və ya digər dərəcədə yaxından iştirak etmiş bu soy və boylar heç də iddia edildiyi kimi, Altayda formalaşmamış, əksinə Altay və Sibirə onlar çox-çox sonralar ön Asiya və Avropadan köç etmişlər.Məsələn, qədim Çin mənbələri göytürkləri dəmirçi xalq kimi tanıyırdı. Deməli,onların Xəzərin qərb sahilindən Altaya köçü Dəmir dövründən tez olmamışdır."

Ekranda Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının sədaları altında hərəkət edən dəvə karvanı görünür və onun fonunda yazılır:

"BEŞİNCİ SERİYANIN SONU"

6-cı seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun “Karvan” simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Bütöv Azərbaycanın xəritəsi.Kadr arxasından diktorun səsi:

“Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını

birmənalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmışdır.”

Ekrandakı xəritə öncə müxtəlif təbiət mənzərələri,daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur.Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

“Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dönyada insanın for-malaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu torpaq bəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir.

Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximi-zin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uza-nan zəngin folklor nümunələri əks etdirir.”

Ekranda Musa Kağankatlının "Alban tarixi", Rəşidəddinin "Cəmi ət-Təvarix", Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" kitabları ümumi planda nümayiş etdirilir.

Diktor mətni:

"Xristian və müsəlman tarixçilər Nuh oğlu Yafəsin şahlığından,onun oğul-larından və onların soylarından yazanda nə mixi yazılardan, nə də bu yzılanlardan xəbərləri yox idi.Onlar sadəcə özlərindən əvvəlki tarixçilərə istinad edirdilər.Təbii ki,ağıllarına belə gəlmirdi ki,çox-çox əsrlər sonra arxeoloqlar qədim mixi yazıları tapacaq, bu yazılar oxunacaq və onların söylədikləri təsdiqini tapacaqdır."

Ekranda Musa Kağankatlının Alban tarixi" kitabı iri planda görüntülənir. Kitab açılır və vərəqlər bir-birini əvəz edir.

Diktor mətni:

"Musa Kağankatlının yazdığına görə, Yafəsin oğullarından biri Qamər idi. Qamərlər onun soyudur.Maraqlıdır ki, bu soyun adına eradan əvvəl 1-ci minilliyə aid aşşur mənbələrində "qmirra", Herodotda isə "kimmer" formasında rast gəlirik. Aşşur mənbələri onlardan Azərbaycan sakinləri kimi söz açır. Herodot isə onların Qara dəniz sahilində yaşadıqlarını söyləyir, fəqət iskitlərin onları Araz çayı sahillərindən sıxışdıraraq, Qara dəniz sahillərinə köçə zorladıqlarını qeyd etməyi də unutmur. Dünyaya "İlliada" və "Odiseya" kimi iki nəhəng poema bəxş emiş Homer bu xalqdan "at südü sağanlar" kimi bəhs etmişdir.At südündən kımız hazılayanların isə məhz türk xalqları olduğu bəllidir.Əlbətə,qamərlərin,başqa sözlə kimmerlərin Yafəsin oğlu Qamərin nəslindən olmaları faktı onların türk xalqlarından biri olduğunu söyləmək üçün yetərlidir. Fəqət elm daha dəqiq və təkzib edilməz faktlar tələb edir.Belə fakt isə ,əlbəttə ki,var!"

Ekranda Kamal Əliyevin "Antik müəlliflər Azərbaycan barədə" kitabı görünür.Kitab açılır və səhifələr bir-birini əvəz edir. Daha sonra isə ekranda yazılır:

"...Saqinlərdən sonra ölkədə çoxluq təşkil edən Meotiy bataqlığından Tanais çayının bataqlığa tökülən yerinə qədər çoxlu hun tayfaları yerləşmişlər.Burada yaşayan xalqları qədimdə kimmer,indi isə utiqur adlandırırlar."

Diktor yazıları oxuyaraq təkrarlayır.

Ekranda at çapan ox atan türklər görüntülənir.
Diktor mətni:

"Prokopiyanın verdiyi məlumatdan göründüyü kimi, hun türkləri,o cümlədən hunların bir qolu olan utiqurlar qədimdə kimmer, yəni qamər adlanmışlar.Bu isə o deməkdir ki,qamərlərin türklüyü antik müəlliflərd heç bir şübhə oyatmamışdır."

Ekranda Tövrat görünür.O yavaş-yavaş açılır və vərəqlər bir-birini əvəz edir.
Diktor mətni:

"Müqəddəs "Tövrat" kitabında Yafəsin oğullarından söz açılarkən, onlardan birinin Maday olduğu bildirilir.Eradan əvvəl 9-8-ci əsrlərə aid mixi yazılarda Madayın soyundan gələn xalqdan-maday xalqından və eradan əvvəl 7-6-cə əsrlərə aid mixi yazılarda isə bu xalqın Azərbaycanın cənubunda qurduğu Madayya dövlətindən söhbət açılır.Qədim yunan müəllifləri,o cümlədən eradan əvvəl 5-ci əsrdə yaşamış Herodot bu dövləti Midiya dövləti,xalqını isə midiyalılar kimi qeyd etmişlər."

Ekranda Qazaxıstanın paytaxtı Astana şəhərindən görüntülər və qazax türklərinin həyatından bəhs edən qısa süjet canlanır.Diktor sözünə davam edərək deyr:

"Azərbaycanda formalaşan digər türk soy və boyları kimi madayların da izlərinə sonrakı əsrlərdə Türküstanda rast gəlirik.Sonralar hansısa səbəbdən Azərbaycanı tərk edən bu qədim türk soyu qazax türklərinin etnogenezində yaxından iştirak etmişdir.Qazax xalqını təşkil edən türkdilli soylardan biri də madaylar olmuşlar."

Ekranda Qazaxstanla bağlı başqa görüntülər nümayiş etdirilir.
Diktor sözünə davam edir:

"Qazax xalqının etnogenezində iştirak etmiş Azərbaycan mənşəli, türkdilli soylardan biri də sarmatlar olmuşlar.Musa Kağankatlının yazdığına görə, sarmat-ların soy babası Yafəsin başqa bir oğlu olan Askenazdır.

Antik müəlliflərin fikrincə, sarmatlar iskitlərlə, yəni türklərlə amazonkaların izdivacından törəmişlər və iskit dilində,yəni türkcə danışırdılar..."

Ekranda Kalmıkiya Respublikası,Rostov,Stavropol,Həştərxan vilayətlərinin, Xəzər dənizinin və Qazaxıstanın şimal-şərq bölgəsinin bir arada bulunduğu xəritə görünür.

Diktor sözünə davam edir:

"Bu müəlliflərin yazdığına görə,sarmatlar Qara dəniz iskitlərindən və Don çayından şərqdə məskun idilər.Eyni mənbələrin təhlilindən belə aydın olur ki, onların torpaqları bugünkü Rusiyanın Kalmıkiya,Həştərxan,Stavropol və Rostov bölgələrini əhatə edirdi.

Antik müəlliflərin bəziləri sarmatları "savromat" da adlandırmışlar..."

Ekranda at ilxısını sürən atlı tüklər görünür.

Diktor mətni:

"...Məsələn,Herodot "savromat" yazdığı halda, eradan əvvəl 4-cü əsrdə yaşamış Skilak Karianidli "sarmat" ifadəsini işlətmiş,Ovidiy Nazon isə hər iki addan istifadə etmişdir.Pliniy isə yunanların sarmatları "savromat" adlandırdıqlarını bildirmişdir."

Ekranda qədim Midiyanın xəritəsi canlanır.

Diktor mətni:

"Diodor Siciliyalı və Pliniyin bildirdiklərinə görə,sarmatlar Midiyadan,yəni Cənubi Azərbaycandan iskitlər tərəfindən köçə zorlanmışlar.Elə bu səbəbdən də bəzi antik müəlliflər sarmatları midiyalılarla, yəni madaylarla eyniləşdirmişlər. Məsələn,Pliniy və Yuliy Solin sarmatları midiyalıların törəmələri hesab etmişlər. Pliniy türkləri sarmatların bir qolu saymış,Pomponiy Mela isə türklərlə sarmatların qonşu olduqlarını yazmışdır.Eradan əvvəl 2-ci əsr müəllifi Dionisiy Pereqet isə sarmatları hunlarla eyniləşdirmişdir.Fakt isə budur ki,qazax soylarından biri də sar- matlardır və onlar qazaxların içərisində "şermat" və "sarmat teleu" adları ilə məşhur idilər"

Ekranda Avropanın Atlantik okeandan Ural dağlarına və Xəzər dənizinə qədər olan xəritəsi görünür.Bu xəritədə sarmat torpaqları açıq qırmızı rəngdədir və üzərində "Sarmatiya" sözü yazılmışdır.Sarmatiyadan üç istiqamətə eyni rəngli üç ox ayrılır.Bu oxlardan biri qazaxıstan ərazisinə, digəri İspaniyaya, başqa biri isə Britaniya adasına doqru uzanır.Xəritədə Qazaxıstan,İspaniya və Böyük Britaniyanın adları yazılıb.

Diktor:

"Azərbaycandan iskitlər tərəfindən köçə zorlanan və Şimali Qafqaz ərazisində məskunlaşan sarmatlat hunlar tərəfindən darmadağın edildikdən sonra üç istiqamətə yayılmışlar.Bunların bir hissəsi Qazaxıstan ərazisinə köçərək qazax xalqnın etnogenezində yaxından iştirak emiş, ikinci bir hissəsi İspaniyaya mühacirət edərək uzun müddət bu ərazidə hökm sürmüşlər.Üçüncü qrup isə Britaniya istiqamətinə yürüş edərək orada Britaniya dövlətçiliyinin əsasını qoymuşdular."

Ekranda ingilislərin ilk əfsanəvi kralı ser Artur və onun Kamelot dövləti barədə çəkilmiş çoxsaylı bədii və elmi-kütləvi filmlərdən hər hansı birindən kadrlar, ardınca isə ser Arturun dəfn edildiyi hesab edilən böyük kurqan nümayiş etdirilir.

Diktor:

"İngilis mənbələrinə görə, Britaniyanın ilk əfsanəvi kralı, əfsanəvi Kamelot şəhər-dövlətinin və kral sülaləsinin əsasını qoyan ser Artur sarmat idi.O öldükdən sonra əsl türk kimi dəfn edilmiş və məzarının üzərində böyük bir kurqan ucaldılmışdı.Həmin kurqan Britaniyada bu günə qədər durmaqdadır.

Şimali Qafqaz ərazisindən üzə çıxarılan sarmat qəbirlərindən üzərində müxtəlif türk tamğaları cızılmış çox sayda əşya tapılmışdır.

Ekranda yenidən Astana şəhərindən və qazaxların həyatından bəhs edən kadrlar görüntülənir.Ardınca isə Qafqaz Albaniyasının xəritəsi görünür.

Diktor:

"Azərbaycanda yaşayan və sonradan qazaxların,qırğızların,özbəklərin, eləcə də qaraqalpaqların etnogenezində yaxından iştirak etmiş soylardan biri də albanlardır. Yafəsin soylarından biri olan albanların adı yazılı mənbələrdə miladdan sonrakı mənbələrdə qeyd edilsə də,onlar eradan əvvəl 4-cü əsrdə baş vermiş olaylarla əlaqədar yad edilirlər."

Ekranda qədim Albaniyanın xristian kilsələri və digər memarlıq abidələri görüntülənir.

Diktor:

"Qazaxlardan öncə Azərbaycan türklərinin və enogenezində iştirak etmiş albanlar əsasən,Azəbaycanın Araz çayından şimaldakı ərazilərində və Dağıstanda məskun olmuş və bu ərazilərdə yaşayan digər türk soylarını- qarqarları,utiləri,massagetləri,dondarları və sairə, eləcə də bir sıra qafqazdilli tayfa-ları- udinləri, çilbləri,qatları,leqləri, ubıxları və sairə öz ərafında birləşdirərək tarixi mənbələrdə "Albaniya" adı altında yad edilən dövlət qurmuşlar."

Ekranda yenidən Qafqaz Albaniyasının xəritəsi görüntülənir.
Diktor:

""Kitabi-Dədə Qorqud"da albanlardan türk xalqlarından biri kimi söhbət açılr və əsərin baş qəhrəmanlarından Qazan xan alpanların, yəni albanlaın başçısı kimi yad edilir."

Ekranda şərqşünas alim Süleyman Əliyarov görünür.Ekranın alt tərəfində onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

""Dədəm Qorqud" kitabının araşdırılması Azərbaycanda uzun sürən etno-tarixi inkişafın yeni,"gözlənilməz" bir axarını üzə çıxarmışdır.

Drezden nüsxəsində 4-cü boyda Qazan xan ovda olarkən cəsus öz taqavoruna belə bir xəbər gətirir:"Hey, nə oturursan? İtüni ulatmayan,çətügini mövlatmayan alpanlar başı Qazan oğlancuğu ilə sərxoş olub yaturlar."

"Alpanlar" etnik adının başqa bir yerdə də işlənməsi bu anlayışa bu anlayışa diqqətlə yanaşmağı tələb edir. 7-ci boyda oxuyuruq: "Ağ-boz atlar çapdırur alpanlar gördüm, ağ işıqlı alpları yanıma saldum.

Bütün tədqiqatçılar sanki gözlərinə inanmayaraq burada işlənən "alpanlar" sözünü "alplar kimi oxumuşlar.Kitabın rusca çapında isə alpın sinonimi olan "vit-yazi şəklində çevrilmişdir.

Türkiyəli tədqiqatçı Ergin Drezden nüsxəsində felən rastlaşdığı "alpanlar" sözünü "alplar" sözü ilə əvəz emişdir.lakin ədalə xatirinə söyləyək ki, o öz kitabının müvafiq yerlərində səhifəaltı elmi-tənqidi şıxarışlarında Drezden əlyazmasında hər iki halda "alpanlar" yazıldığını bildirmişdir.

Kitabda "alpanlar" etnoniminə rast gəlinməsi onun Azərbaycanda baş verən hadisələrlə bağlı olduğunu və Azərbaycanda ərsəyə gəldiyini sübut edən dəlildir.Bu xalq eradan əvvəl 4-cü əsrdən etibarən 10-cu yüzilliyə qədər 1500 illik bir vaxt ərzində Azərbaycanda yaşamışdır."

Ekranda Süleyman Əliyarovu şərqşünas alim Məşədixanım Nemətova əvəz edir.Alt tərəfdə onun adı,soy adı və elmi dərəcəsi yazılır.O, vaxilə Qərbi Azərbaycanın Sisiyan rayonu ərazisində yerləşən Urud kəndi ərazisindən tapılan iki məzar daşının tarixi, üzərindəki yazılar və həmin yazıların dili barədə məlumat verir.

Ekranda Qubanın Alpan kəndindən mənzərələr görüntülənir.
Diktor;

"Qədim albanların adı bu gün qubanın "Alpan" kəndinin adında yaşamaqda-dır.Qədim albanların birbaşa varisləri olan bu kəndin sakinləri Azərbaycan türkcəsində danışırlar.Nəzərəalsaq ki,Quba rayonu ərazisində yaşayan bütün qafqazdilli xalqlar, o cümlədən sayları bir neçə min olan

xınalıqlılar vı buduqlar öz dillərini qoruyub saxlamışlar,albanların başqa bir dildə danışdığı və guya sonradan türkləşdiyini düşünmək,əlbəttə ki, gülüncdür."

Ekranda Albaniya dövrünə aid maddi mədəniyyət nümunələri görüntülənir.
Diktor mətni:

"Albanların ən azı 6-cı əsrdən Azərbaycan hüdüdlarını aşaraq Türküstan tərəflərə də yayıldığını söyləmək olar.Məsələ burasındadır ki,6-cı əsr müəllifi İordan İskitlər ölkəsinin çox böyük ərazini əhatə ediyini, hunların, sirlərin və albanların gedib çatdıqları uzaq hüdudlara qədər uzandığını yazır.Bu məlumatdan açıq -açıq aydın görünür ki, albanlar iskitlər,yəni türklər ölkəsinin son hüdudlarına qədər,yəni Çinə qədər yayılmışdılar . Təsadüfi deyil ki ,bu gün qazaxların "alban" adlandırılan qolu məhz Çin ərazisindəki Uyğur Muxtar Vilayəti ərazisində, başqa sözlə, Şərqi Türküstanda və Monqolustanda, eləcə də Qazaxıstanın Çinlə sərhəd bölgələrində yaşayırlar."

Ekranda Çinin və onun tərkibindəki Sintzyan-Uyğur Muxtar Vilayətinin, eləcə də Çinə və muxtar vilayətə bitişik olan Monqolustanın, Qırğızıstanın və Qazaxıstanın şərq əyalətlərinin xəritələri bir arada grüntülənir.
Diktor söünə ara vermədən deyir:

"İordanın sözlərinə görə,iskitlər,yəni türklər ölkəsinin şərq sərhədləri sirlər olkəsinə qədər uzanır.Tarixçi bildirir ki, sirlər öncə Xəzər sahillərində yaşamış, sonra şərqə köcmüşlər."

Ekranda Orxon-Yenisey abidələri canlanır.Diktor ara vermədən sözünə davam edir:

"Sir xalqının kim olduğunu isə biz Monqolustanın paytaxtı Ulan-Batordan 66 kilometr aralıda yeləşən Tonyukuk abidəsindən öyrənirik.Böyük türk xaqanları İltəris xan,Kapağan xan və Bilgə xanın vəzirləri olmuş Tonyukuk tərəfindən qoyulmuş bu abidədən belə aydın olur ki, sirlər türk xalqlarından biri idi və adı çəkilən xaqanlar bu xalqın nümayəndəsi olmuşdur."

Ekranda yazılır:

" Tanrı belə demiş:Xan verdim,xanını qoyub Tabğaca tabe oldun.tabe olduğu üçün Tanrı oldürmüş.Türk xalqı öldü,məhv oldu.Türk-sir xalqının yerində boy qalmadı (Tonyukuk abidəsi, 3- cü sətir.);
Türk-sir xalqı yerində yiyə qalmasın (Eyni abidə, 11-ci sətir);
Kapağan xaqanın türk-sir xalqının yerində bir nəfər də,xalq da,adam da sahib olmayacaqdı (Eyni abidə, 60-cı sətir).
Diktor yazılanları sözbəsöz təkrar edir.

Ekranda Çokan Bəlixanovuv seçilmiş əsərlərinin toplandığı 4 cildlik kitabının (Валиханов Ч.Ч. "Сочинения", тт 1-4) bütün cildləri yanaşı nümayiş etdirilir.

Diktor:

"Alban-türk xalqının qazax türklərinin etnogenezində yaxından iştirak etdiyini sübut edən məlumatları görkəmli qazax maarifçisi Çokan Vəlixanovun "Seçilmiş əsərləri"nin 4-cü cildinin 326-cı səhifəsində,..."

Ekrandakı kitabları "Qırğızıstan arxeoloji və etnoqrafik ekspedisiyası" elmi məcmuəsinin (Труды Киргизской археологической и этнографической экспедиции) 1960-cı il, 4-cü buraxılışı əvəz edir.Diktor sözünə qaldığı yerdən davam edir:

"...qırğızların etnogenezində oynadıqları rol barədə məlumatları isə Abromzonun "Qırğızıstan arxeoloji və etnoqrafik ekspedisiyası" məcmuəsinin 1960 cı il, 4-cü buraxılışında dərc edilmiş "Qırğızların etnik tərkibi..." adlı məqaləsində tapmaq olar."

Ekranda Karmışevanın "Tacikistanın özbək-lokay xalqı"(Кармышева В.Х. "Узбеки-локайцы Таджикистана",Москва,1954) kitabı görünür.

Diktor:

"Karmışevanın "Tacikistanın özbək-lokay xalqı" kitabının 16-cı səhifəsindəki 2-ci cədvəlidə isə albanların özbək türklərinin etnogenezində oynadığı rol barədə mütəxəssisləri maraqlandıra biləcək məlumat bulunmaqdadır."

Ekranda Jdankonun "Qaraqalpaqların tarixi etnoqrafiyası barədə oçerklər" (Жданко Т.А. "Очерки исторической этнографии каракалпаков",Москва, 1950) kitabı görüntülənir.

Diktor:

"Jdanko özünün qaraqalpaqların tarixi etnoqrafiyasına həsr etdiyi kitabının 41-ci səhifəsində albanların qaraqalpaq türklərinin də etnogenezində iştirak etdiyini bildirir."

Ekranda karvan görünür və Soltan Hacıbəyovun "Karvan" əsərinin sədaları eçidilir.Daha sonra Musa Kağankatlının "Alban tarixi" kitabı görünür.Kitab açılır və səhifələr bir-birini əvəz edir.

Diktor mətni:

"Musa Kağankatlı özünün "Alban tarixi" kitabında Yafəs soyundan olan Albaniya hökmdarı Aranın adını çəkərək bildirir ki, albanlar,utilər və qarqarlar bu hökmdarın nəslindəndirlər.Bu məlumatı əldə əsas tutan və utiləri qafqazdilli

udinlərlə eyniləşdirən bəzi mütəxəssislər utilərlə birlikdə albanları və qarqarları da qafqazdilli xalq hesab etmişlər.Halbuki, utilər və udinlər ayrı-ayrı xalqlar olmuş və Albaniyanın öz adları ilə adlanan iki fərqli bölgəsində yaşamışlar.Bu bölgələrdən biri Bərdə ətrafında yerləşirdi və Uti vilayəti adlanırdı. Digəri isə Şəki ətrafında idi və Udin vilayəti adlanırdı."

Ekranda yazılır:

"Müqəddəs Ruhun mərhəməti ilə üç xalqa,yəni ermənilərə,albanlara və gürcülərə əlifba düzəldən ...şəxs sonralar Qüds şəhərinə ziyarətə gedir...Qüdsdən qayıdanda Ermənivyəni keçir və Şərq ölkəsinin Uti vilayətinə gəlir...O, xaçpərəstliyi burada yenidən canlandırıb, möhkəmləndirir və Udin vilayətində Albaniya,Lpiniya,Kaspiya,Çola keçidinə qədər uzanan torpaqlarda... İncili təbliğ edir.

Musa Kağankatlı"

Diktor yazılanları oxuyur və deyir:

"Gördüyümüz kimi, Uti və Udin Şərq ölkəsinin, yəni Albaniyanın fərqli vilayətləri idilər və burada fərqli xalqlar yaşayırdı."

Ekranda qədim Albaniyanın xəritəsi çanlanır.Xəritədə Bərdə şəhəri tərəfdə yazılıb: utilər.Şəki tərəfdə isə yazılıb: udinlər.

Diktor:

"Sovet dövrü elmi ədəbiyyatında bilərəkdən və ya bilməyərəkdən bir çox hallarda "udin" əvəzinə "uti", "uti" əvəzinə isə "udin" yazılıb, odur ki, düzgün nəticə çıxarmaq üçün tədqiqatçıların istinadlardan əl çəkməsi, ilk mənbələri müstəqim şəkildə incələməsi vacibdir.Məsələn Rusiya arxivlərində udinlərin rus çarı 1-ci Pyotra yazdıqları məktub qorunmaqdadır.Udinlərin müsəlmanlardan şikayət etdikləri və rus çarını köməyə çağırdıqları bu məktubda udinlər özlərini "biz-udin millətindən olan albanlar" adlandırsalar da, sovet elmi ədəbiyyatında bu ifadə "biz- uti millətindən olan albanlar" şəklində təhrif edilmiş şəkildə təqdim edilmişdir.Eyni zamanda Pliniy utiləri iskit, yəni türk xalqı adlandırır. Sovet elmi ədəbiyyatında Pliniyə məxsus "iskit xalqı utilər" ifadəsi hər yerdə "iskit xalqı udinlər" kimi təhrif edilmişdir. Bu yolla da utilərlə udinlərin guya eyni xalq oduğu təsəvvürü yaradılmağa çalışılmışdır."

Ekranda mixi yazılar peyda olur.

"Türk-utilərin adına hələ eradan əvvəl 3-cü minilliyə aid şumer-akkad mixi yazılarında Aratta sakinləri kimi rast gəlinir.Mixi yazılar onları "kuti" adı aldında yad edir.Mixi yazılarda onların adı eradan əvvəl 1-ci minilliyn ortalarına qədər yad edilməkdə davam edir."

Ekranda dilçi alim Firidun Ağasıoğlu görünür.O kutilər,onların dili, mədəniyyətləri,qurduqları dövlət və dünyada ilk demokratik seçki sistemləri barədə ətraflı məlumat verir.

Ekranda yenidən mixi yazılar görüntülənir.
Diktor mətni:

"Mixi yazılarda adlarına rast gəlinən digər türk xalqı bəzən "ku", bəzən də "kumen" kimi yad edilən kumanlardır.İstər "ku", istərsə də "kuman" etnonimi bəzi türk xalqları arasında çox yayğın olan qu quşu totemi ilə bağlıdır..."

Ekranda göldə üzən qu quşları və qazlar görünür.Diktor sözünə davam edərək deyir:

"Məsələn, tədqiqatçı Dorn yazır ki,qu quşu və qaz kultları qədim zamanlarda türk və monqol xalqları arasında geniş yayılıbmış. onun yazdığına görə,qədim türk əfsanələrində hun xaqanının qardaşı oğlu qu quşuna çevrilir və yeni bir türk soyunun əsasını qoyur. Həmin türk qəbiləsi "ku" adlanmışdır.Tədqiqatçı bildirir ki, Tuva türklərinin toci boyuna bağlı soylardan biri kezek-kuular özlərini bu soydan hesab edirlər.Sayan-Altay ərazisində yaşayan bir çox türk xalqlarında-tuvalılarda, xakaslarda, teleutlarda, kumandinlərdə qu quşu barədə totemik-mifik təsəvvürlər bu günə qədər yaşamaqdadır..."

Ekranda Sibir türklərinin şaman rəqslərini əks etdirən kadrlar canlanır. Diktor sözünə davam edir:

"...Türkoloqların bir çoxunun fikrincə, ku və kuman etnonimləri də qu quşu totemindən qaynaqlanır.Görkəmli rus türkoloqu Rodionov çuvaş mənbələrinə istinad edərək ku və kuman etnonimlərini eyniləşdirmişdir.Bu fikri Dorn da dəstəkləmişdir."

Ekranda yenidən mixi yazılar görüntülənir.
Diktor mətni:

"Kumanların adı mixi yazılarda ilk dəfə eradan əvvəl 13-12-ciəsrlərdə "kumen" kimi çəkilmişdir."

Ekranda Yusif Yusifovun şəkli görünür.
Diktor:

"Yusif Yusifov bu halda söhbətin məhz kuman türklərindən getdiyini bildirərək bir sıra maraqlı mülahizələr irəli sürmüşdür."

Ekranda yazılır:

" Bu etnonim... ku kökü və türk dillərində etnik ad düzəldən "man"(men) şəkilçisinin birləşməsindən düzəlmişdir və sarımtıl,ağımtıl mənalarını daşıyır.
Yusif Yusifov"

Diktor yazılanları oxuyur.

Ekranda ox atan atlı türklər görünür.
Diktor mətni:

"Bu gün də eyni adı daşımaqda olan türk etnosları vardır.Bu baxımdan Altayda yaşayan kumandinləri və özlərini bu günəcən "kuman" adlandırmaqda davam edən qaraçay türklərini misal gətirmək olar.Onu da xüsusi qeyd etmək lazımdır ki, kumanlar orta əsrlərdə də ön Asiya və Avropanın siyasi tarixində son dərəcə böyük rol oynamış, Avropanın etno-siyasi coğrafiyasının formalaşmasında yaxından iştirak emişlər.Bu rol o qədər böyük olmuşdu ki,təqribən eyni vaxtda həm xristian Avropada, həm də müsəlman Asiyada kumanların dili ilə bağlı iki ayrı lüğət tərtib edilmişdir.Bu lüğətlərdən göründüyü kimi, kumanların dili qıpçaq türkcəsi olmuşdur."

Ekranda qopuzda qazax xalq mahnısı ifa edən qazax akını (ozanı) görünür.
Diktor:

"Maraqlıdır ki,qazaxların etnik tərkib hissəsi olan qədim Azərbaycan qəbilələrindən alban, maday və sarmatların da dili məhz qıpçaq türkcəsidir. Görünür, qədim Azərbaycanda oğuz türkcəsi ilə yanaşı qıpçaq türkcəsi də yayğın olmuşdur.Hər halda "Kitabi-Dədə Qorqud"da oğuzlarla yanaşı qıpçaqlardan da gen -bol danışıldığı,bu iki türk xalqı arasında güclü rəqabət hissi olduğu danılmaz faktdır."

Ekranda "Dədə Qorqud" filmindən Qıpçaq Məliyin kef məclisini əks etdirən kadrlar nümayiş etdirilir.
Diktor:

"O da faktdır ki,alban əlifbası məhz qıpçaq-qarqar dili əsasında yaradılmış-dı və bu dil Albaniyanın ədəbiyyat və dövlət dili funksiyasını ifa etmişdir.Doğrudur, əski rus-sovet elmindən gələn ənənəyə əsaslanaraq bir çoxları qarqarları qafqazdilli xalq hesab etməkdə davam edirlər. Lakin cənab fakt tamam başqa şeyi diqtə edir."

Ekranda "Manas" dastanını ifa edən qırğız akını (ozanı) peyda olur.
Diktor:

"Fakt budur ki, məşhur qırğız-türk dastanı "Manas"da əsərin qəhrəmanı Manasın atasının adı Qarqardır.Manasın mənsub olduğu xalq isə dastanda gah qarqar, gah da qıpçaq adlanır."

Ekranda böyük rus şərqşünası Bartoldun şəkli, ardınca isə onun qələminə məxsus 4 cildlik "Сочинения " (Əsərləri) kitabı görüntülənir.

Diktor:

"Bu fakt akademuk Bartoldun əsələinin toplandığı 4 cildliyin 2-cicildinin 1-ci hissəsinin 541-ci səhifəsində,55-ci qeyddə təsbit edilmişdir."

Ekranda Abramzonun "Киргизы и их этнографические и историко-культурные связи" (Moskva 1971) adlı kitabı görünür.

Diktor mətni:

"Abramzonun "Qırğızlar və onların etnoqrafik və tarixi-mədəni əlaqələri" adlı 46-cı səhifəsində isə 16-cı əsrdə Qaraqışlaqda baş verən hadisələrlə əlaqədar qıpçaq-qarqar xalqının adı çəkilir."

Ekranda qopuzda qırğız xalq nəğmələrini ifa edən akın (ozan) görünür.O bir qədər çalıb-oxyduqdan sonra onu Filoloq alim Nizami Cəfərov əvəz edir.alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Azərbaycanda qıpçaq-oğuz münasibətlərinin ən gərgin dövrü 9-10 -cu əsrləri əhatə edir.Həmin dövrün etnosiyasi, linqvokulturoloji proseslərini əks etdirən "Kitabi-Dədə Qorqud"da qıpçaq-oğuz münasibətləri ümumi şəkildə qeyri-müəyyən coğrafiyada deyil,Azərbaycan miqyasında təqdim olunur.

Qıpçaqlar tarixi mənbələrdə daha çox xəzərlər kimi təqdim olunur ki,bunun da əsas səbəbi qıpçaqların Şimali Qafqaz və ətraf regionları əhatə edən Xəzər siyasi birliyinin,dövlətinin mövcudluğu idi.Ümumiyyətlə, qıpçaqlar 1-ci minilliyin sonu, 2-ci minilliyin əvvəllərindən mənbələrdə müxtəlif adlarla adlanmışlar: beçeneqlər,kumanlar, polovatslər,xəzərlər və sairə."

Ekranda dilçi alim Tofiq Hacıyev görünür.Alt tərəfdə onun adı,soy adı və elmi dərəcəsi yazılır.O, türk-oğuz mənşəli Azərbaycan dilində müşahidə edilən qıpçaq layı barədə məlumat verir, Azərbaycan dilini oğuz-qıpçaq mənşəli dil hesab etmiş alimlər və onların fikirləri barədə ətraflı məlumat verir.

Ekranda "Oğuz,qıpçaq,uyğur,tatar-bunlar bir soydur" misrası ilə başlanan türk mahnısına çəkilmiş klip nümayiş etdirilir.Klip bitər-bitməz ekranda Musa Kağankatlının "Alban tarixi" kitabı görünür.

Diktor mətni:

"Çox təssüflər olsun ki, Musa Kağankatlının "Alban tarixi" kitabı dövrümüzədək orijinalda yox, erməni dilinə tərcümədə gəlib çıxmışdır.Bu kitab haqqında bizdə olan təsəvvür emənidilli mətnin rus dilinə ermənilər tərəfindən edilən tərcüməsinə,eləcə də rus dilindən Azərbaycan dilinə Ziya Bünyadovun etdiyi tərcüməyə əsaslanır.Ermənilər kitabı rus dilinə çevirərkən bilərəkdən bir necə ciddi təhrifə yol vermişlər.onlardan 3-ü üzərində xüsusi durmağımıza ehtiyac var."

Ekranda yazılır:

" 1.Mesrop Maştots ermənilərə əlifba düzəltdikdən sonra Albanyada qarqarların dilinin bəzi səsləri üçün xüsusi işarələr yaradır.Tərcümədə isə qarqar dili əsasında ayrıca bir əlifba yaradıldığı bildirilir.

2.Bu məsələdə kömək üçün Zəngəzurdan tarkman,yəni türkmən Bünyamin dəvət olunur.Tərcümədə "tarkman", yəni "türkmən" ifadəsi "tərcüməçi " ifadəsi ilə əvəz edilmişdir.

3.Qarqarların dili "akxazur dili", yəni ağ xəzər dili adlandırılır. Tərcümədə "akxazur dili", yəni "ağ xəzər dili" ifadəsi əvəzinə "son dərəcə uyumsuz bit dil" ifadəsi işlədilmişdir."

Diktor ekranda yazılanları oxumaqla sözünə davam edir və əlavə edir:

"Bu saxtakarlığın üstünü erməni dilini təmiz bilən vətənsevər Azərbaycan dilçisi Firidun Ağasıoğlu açmışdır."

Ekranda yenidən Musa Kağankatlının sözügedən kitabı görüntülənir.

Diktor:

"Deməli,Musa Kağankatlının sözündən belə çıxır ki, Maştots artıq ermənilər üçün yaratmış olduğu əlifbanı bir qıpçaq xalqı olan qarqar-ağ xəzərlərin dilinə uyğunlaşdırır.Bunun üçünsə erməni dilində olmayan bəzi qıpçaq səsləri üçün ayrıca işarələr yaradır.Bu işdə ona türkmən Bünyamin kömək edir.

Bu isə odeməkdir ki, "Alban yazılı ədəbiyyatı" adlandıra biləcəyimiz şey qıpçaq dilində və erməni əlifbasından sadəcə bir neçə işarə ilə fərqlənən əlifa ilə yazılmış mətnlər olmalıdır. Xoşbəxtlikdən bu mətnlər günümüzədək qorunub saxlanmışdır. Fəqət bu yazılı mətnlərin Alban ədəbiyyatının nümunələri olduğu heç kəsin ağlına gəlməmiş, onlar elmi ədəbiyyata "erməni qıpmacası"adı altında daxil edilmişdir."

Ekranda görkəmli Azərbaycan türkoloqu mərhum Fərhad Zeynalovun şəkli görünür.

Diktor:

"Bu mətnlər barədə Azərbaycan elmi ictimaiyyətinə ilk dəfə görkəmli Azərbaycan türkoloqu mərhum Fərhad Zeynalov məlumat vermişdir."

Ekranda yazılır:

"Xalis qıpçaq abidələri azdır.Qərbi qıpçaq tayfalarının dilini əks etdirən "Kodeks-Kumanikus", Məmlük qıpçaqcasını əks etdirən ərəbcə-qıpçaqca lüğətlər və eləcə də erməni qıpçaqcasına aid abidələr bir növ istisnalıq təşkil edir...

Xalis qıpçaq xüsusiyyətləri daşıyan abidələrdən bir qismi də erməni qıpçaqcası kimi tanınan abidələrdir. Bu abidələrin əksəriyyəti Ukraynada, Kiyev Universitetinin kitabxanasında mühafizə olunurdu. Onların böyük bir qismi 1944-cü ildə alman-faşist işqalçıları tərəfindən məhv edilib. İndi isə cəmi 28 erməni qıpçaqcası ilə yazılmış abidə qeydə alınıb."

Ekranda yenidən mərhum türkoloqun şəkli görünür.
Diktor:

"Yeri gəlmişkən qeyd edək ki, mərhum türkoloq ana dilimizin oğuz mənşəli olması, lakin qıpçaq təsirinin də açıqaydın şəkildə sezilməsi barədə də maraqlı fikirlər söyləmişdir."

Ekranda yazılır:

"Bugünkü müasir dilimizin spesifik fonetik, leksik və qrammatik xüsusiyyətləri, əlbəttə, onun xalis oğuz mənşəli olmasını sübut edir.Lakin unutmaq olmaz ki, Azərbaycan dili təkcə oğuz dilləri qrupu əsasında formalaşmayıb və formalaşa da bilməzdi. Hələ bu gün də dilimizdə qıpçaq və qismən də karluq-uyğur qrupu dillərinin ünsürləri də qalmaqdadır."

Ekranda alban yazılı mətnləri (erməni qıpçaqcası) görünür.
Diktor mətni:

"Musa Kağankatlını sözündən belə çıxır ki, qarqarların daha bir adı olmuş-dur-ağ xəzərlər.Xəzərlərə xüsusi kitab həsr etmiş rus alimləri Artomonov və Pletneva, eləcə də əsərlərində xəzərlərə geniş yer ayırmış Lev Qumilyov xəzərlərin ağ xəzərlər və qara xəzərlər deyə iki əsas yerə bölündüyünü qeyd etmişlər.Lev Qumilyov isə "erməni qıpçaqcası"nın xəzərlərə aid olduğunu göz önündə tutaraq hətta "erməni xəzərləri" kimi qeyri-elmi bir ifadə işlətməkdən də çəkinməmişdir. Əlbəttə ki, bu halda söhbət Albaniya xəzərlərindən-ağ xəzərlərdən, yəni qarqarlardan söhbət getməlidir."

Ekranda Firidun Ağasıoğlu peyda olur və xəzərlərin Azərbaycanla bağlılığı barədə geniş məlumat verir.Eləcə də Koroğlunun türkmən variantında Koroğlunun Azərbaycanı, yəni öz vətənini "Xəzərbaycan" adlandırması faktı barədə söz açır.

Ekranda "Dədə Qorqud" filmindən Qıpçaq Məliyin kef məclisini əks etdirən kadrlar nümayiş etdirilir.
Diktor:

"Ermənі tarixçsi Moisey Xorenatsi Azərbaycan ərazisində xəzərlərin adını 3-cü əsrdə, gürcü tarixçisi Leonti Mrovelli isə eradan əvvəl 7-ci əsrdə baş vermiş hadisələrlə əlaqədar çəkmişdir.Xəzərlərin adı bugünədək Lerik rayonu ərazisindəki Xəzəryaylaq, Ordubad rayonu ərazisindəki Xəzəryurd, Hadrut və Füzuli rayonları ərazilərindəki Xəzərdağ toponimlərində və ən nəhayət, Xəzər dənizinin adında yaşamaqdadır.

Ekranda Göyçə gölündən mənzərələr görüntülənir.
Diktor mətni:

"Maraqlıdır ki, şərti olaraq "ermənі qıpçaqcası" adlandırılan qıpçaqdilli alban ədəbiyyatı nümunələrinin bir qismi - əsasən müxtəlif "İncil" nüsxələri,dua kitabları və digər xristian məzmunlu mətnlərin bir qismi bu yaxınlara qədər Qərbi Azərbaycan ərazisində,yəni indiki Ermənistan ərazisində də var idi."

Ekranda Murad Aci görünür.O deyir:

"В Армении есть древние священные книги, написанные армянской графикой, но на тюркском языке.Похоже,не сирийский, тюркский язык был при богослужении у армян, раз на нем писали молитвы в ранней Армении."

Diktor deyilənləi sinxon tərcünə edir:

"Ermənistanda ermənі qrafikası ilə,fəqət türkcə yazılmış qədim müqəddəs kitablar var.Madam ki, erkən Ermənistanda dualar türkcə yazılmışdı, deməli, ibadət heç də suryani dilində yox, türkcə edilirdi."

Ekranda Qərbi Azərbaycanda yerləşən kilsələrin divarlarında yer alan türk tamğaları görünür.Murad Aci kadr arxasından sözünə davam edir:

"Кто построил армянам их первые храмы?Почему их орентировали на восток?...Ответы на эти вопросы на стенах древнеармянских храмов-там тюркские тамги! Знаки строителей. До 23-х знаков насчитывают на стенах разных храмов."

Ekranda yenidən Murad Aci görünür.O, sözünə davam edərək deyir:

"Руническое письмена найдены в Звартнотце, Двине, Котаванке, Джвари и других поселениях."

Diktor söylənilənləri tərcümə edir:

"Ermənilər üçün ilk məbədləri kimlər tikmişlər?Nə üçün onların istiqaməti şərqədir?...Bu sualların cavablarını onların divarlarında tapmaq olar-orada türk tamğaları təsvir edilmişdir.

Zvartnotsda,Dvində,Cvaridə,Kotavankda, digər yerlərdə türk run yazıları var."

Ekranda yenidən Qərbi Azərbaycan kilsələrindən tapılmış tamğalar görünür.

Diktor mətni:

"Şübhəsiz ki, Qərbi Azərbaycandakı kilsələri türklər tikmişlər.Ermənilər isə həmin ərazilərə 19-cu əsrdən ruslar tərəfindən köçürülmüş və türk kilsələrinə sahib çıxmışlar."

Alban yazıları(erməni qıpçaqcası) görüntülənir.

Diktor ara vermədən sözünə davam edir:

"Həmin ərazidə mövcud olan erməni qrafikalı türkdilli dini ədəbiyyata gəlincə, onlar alban ədəbiyyatı nümunələrindən başqa bir şey deyildir.Bu ədəbiyyatın qələmə alındığı əlifbanın erməni əlifbası ilə eyni mənşəli olması,eləcə də ortaq din xristian albanların zamanla ermənilləşməsinə səbəb olmuşdur.Bununla belə, ən azı 28 nümunəsi qorunub saxlanmış qıpçaqdilli alban ədəbiyyatını tədqiqatlara cəlb etmək,onları dərindən öyrənmək ən azı Albaniyanın tarixini, azərbaycanda baş vermiş etnik və etnolinqvistik prosesləri dərindən başa düşmək baxımından çox vacibdir. Biz "Kitabi-Dədə Qorqud" sayəsində Azərbaycanda oğuz-qıpçaq münasibətlərində oğuzların rolundan xəbərdarıq. İndi isə qıpçaqdilli alban ədəbiyyatını araşdırıb proseslərə digər tərəfin də gözü ilə baxmağın vaxtı çatıb.Üstəlik də bu ədəbiyyatı Azərbaycan ədəbiyyatının tərkib hissəsi kimi gözdən keçirməyin də vaxtı artıq çoxdan çatmışdır. Eyni sözləri Alp Ər Tonqaya həsr edilmiş ağı barədə də söyləmək olar.Eradan əvvəl 7-ci əsrin yadigarı olan bu türk- oğuz ədəbiyyatının şah əsəri ədəbiyyat tariximizdə öz layiqli yerini tutmalıdır."

Ekranda "Oğuz,qıpçaq, uyğur, tatar-bunlar bir soydur" sözləri ilə başlayan türk mahnısına çəkilmiş klip görüntülənir.

Ekranda yenidən alban (erməni qıpçaqcası) mətnləri görüntülənir.

Diktor:

"Erməni əlifbası ilə eyni mənşəli əlifba ilə qələmə alınmış qarqar-ağxəzər, daha dəqiq desək,alban mətnlərinin dili bugünkü azərbaycanlılar üçün bir qədər çətin anlaşılan olsa da, tam anlaşılmayan da deyildir."

Ekranda "Dədə Qorqud " filmindən qıpçaqların əsir götürdükləri oğuz qadınları içərisində Burla Xatunu aramaları səhnəsini əks etdirən kadrlar nümayiş olunur.

Diktor:

"Ağ xəzərlərin həm də qarqar adlandırılmasının səbəbi qarqar quşunun bu qıpçaq boyunun totemi olması ilə bağlı idi.Ümumiyyələ qədim türk soy və boylarının hər biri bir quşu öz totemi hesab etmişdir.Eyni hal oğuz tükləndə daha qabarıq gözə dəyməkdədir.

Qədim müəlliflərin yazdıqlarından və bəzi yer adlarından belə aydın olur ki, qarqarlar Albaniyadan, yəni Azərbaycandan başqa Anadolu, Gürcüstan,Şimali Qafqaz və Orta Asiyada da yaşamışlar.Məsələn, 1- əsrdə yaşamış Strabon əsərinin bir yerində albanların, digər yerində isə qarqarların amazonkaların qonşuluğunda yaşadığını söyləməkdədir.Erməni tarixçisi Moisey Xorenatsi 3-cü əsrdə Albaniya ərazisində baş vermiş hadisələrdən söhbət açarkən, "qarqarlar düzü" və "qarqar xanlığı" ifadələrini işlətmişdir."

Ekranda yazılır:

"Bunlar isə Nuhun üçüncü oğlu Yafəsin soyundan gələn xalqlardır.Onların torpaqları Midiyadan Speriyaya qədər,okeandan Akvilona qədər geniş ərazini əhatə edir: midiyalılar, albanlar, qarqarlar...

Pamfila oğlu Evseviy.lV əsr.

Emond dağlarından Qanq çayı ilə suvarılan torpaqlara qədər olan ərazidə qarqarlar yaşayırdılar.

Dionisiy Perieqet.Xll əsr.

Beyləqan şəhəri yaxınlığında Qarqar şəhəri yerləşir.

Yaqut Həməvi. Xlll əsr."

Diktor yazıları olduğu kimi oxuyur.

Ekranda yenidən "Oğuz,qıpçaq,uyğur,tatar-bunlar bir soydur..." sözləri ilə başlayan türk mahnısına çəkilmiş klip nümayiş etdirilir.

Diktor:

"Azərbaycan xalqının etnogenezində yaxından iştirak etmiş türk soy və boylarından biri də bulqarlardır.Azərbaycanın 3-cü şahı Toqarmanın 10 oğlundan birinin-Bulqarın nəsli olan bulqarların adı "Kitabi-Dədə Qorqud"da da çəkilməkdədir."

Ekranda şərqşünas alim Süleyman Əiiyarov peyda olur.Alt tərəfdə onun adı,soy adı və elmi dərəcəsi yazılır.O deyir:

""Dədəm Qorqud" kitabının Vll boyunda etnogenez baxımından belə bir tutarlı yazıya rast gəlirik: "Altı başı balqar bir ər gördüm.Ol ərə bağdum.Dayım Əmən imiş."

Bu parçanı Ergin və Gökyay "alnı başı balkır bir ər gördüm" kimi yamışlar. Bartold isə rus dilinə "muja s blestyaşim çelom i qolovoy" kimi çevirmişdir. Yalnız Bakı çaplarını hazırlayan Həmid Araslı parçanı "balqar bir ər" oxumuş, ancaq bu "balqarın" kimliyi və nə demək olması barədə bir söz söyləmədən keçinmişdir.

Vll boyda "altı başı balqar bir ər" dedikdə, Azərbaycan xalqının yaranmasında iştirak edən bulqarların adı bir eponim kimi çəkilir.

Bu bulqarlar sonrakı Volqaboyu bulqarları deyil, qədim bir etnosdur, onları protobulqar, yəni ilk bulqar adlandırmaq daha düzgün olar.Onların adını ilkin olaraq lV əsrin Suriya tarixçisi Mir Abas Katina çəkmişdir.Onun yazısı gəlib bizə çatmasa da ,Moisey Xorenatsinin "Ermənistan tarixində qalmışdır.Burada deyildiyinə görə,Yuxarı Ormansız-Basean deyilən yerdə "sonralar Bexendur Bulqar Vəndin köçürüb gətiediyi ailələr yerləşmiş, onun adı ilə bağlı olaraq onlar Vənəd adlanmışdı.""

Ekranda Biləsuvar rayonu ərazisindəki Bolqarçay çayı ilə bağlı mənzərələr görüntülənir.

Diktor:

"Biləsuvar rayonu ərazisindən axan Bolqarçay bu günədək bu qədim türk soyunun adını yaşatmaqdadır. Yaxın keçmişlərə qədər bu bölgədəBolqar, Bolqar-kənd və Bolqar-Göytəpə adlı etnotoponimlər mövcud olmuşdur."

Ekranda "Dədə Qorqud"filmindən Qaraca çobanın qıpçaqlarla döyüş səhnəsini əks etdirən kadrlar görüntülənir.

Diktor:

"Tarixi faktlar,qədim yazılı mənbələr, arxeoloji tapıntılar Azərbaycan ərazisinin ən qədim türk yurdu olduğunu, ayrı-ayrı türk ləhcə və şivələrinin məhz ölkəmizin ərazisində kök dildən ayrıldığını söyləməyə əsas verir."

Ekranda dilçi alim Elbrus Əzizov grünür.Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Dilçilik tariximizdən bəllidir ki,yaxın areallarda yerləşmiş qohum dillərin uyğun xüsusiyyələri daha çox olur.Lakin bir-birilədən uzaq areallarda yerləşmiş qohum dillərdə elə uyğun əlamələrə təsadüf edilir ki,bunları heç də həmişə dillərin müasir vəziyyəti və daxili inkişaf qanunauyğunluqları ilə izah etmək mümkün olmur.Bəzən də elə olur ki, eyni dil xüsusiyyəti müxtəlif areallarda təkrar olunur.Belə rəngarəng mənzərə türk dillərində çox aydın müşahidə edilir və bu hal sinxronik yox,daha çox diaxronik baxımdan şərh olunmalıdır.Müxtəlif türk

dillərinin və dialektlərinin izoqlos təşkil edən bəzi xüsusiyyətləri həmin dillərin formalaşmasında iştirak etmiş eynicinsli tayfa dilləri ilə bağlı olaraq meydana çıxır.Bu bir tərəfdən müxtəlif qəbilə və tayfaların uzun sürən qaynayıb qarışması ilə,miqrasiyalar ilə bağlıdırsa,digər tərəfdən müxtəlif dialektlərin eyni bir kökdən nəşət etməsi ilə, tarixən onların yaxın areallarda yerləşməsi ilə əlaqədardır.

Bu baxımdan görkəmli ədəbiyyatşünas alim Zeynallının 1926-cı ildə dərc edirdiyi bir məqalədə söylədiyi fikirlər çox maraqlıdır."

Ekranda yazılır:

"Bu günkü dilçilərimizin, demək olar ki, hamısı Azərbaycanı cənub türklər qrupundan sayırlar.Lakin bir az dərin araşdırılsa,bunun bir yanlışlıq nəticəsi olduğu görünəcəkdir.Azərbaycandakı ləhcə və şivələrin son dərəcə müxtəlif olması, bir şəhərin özündə bir yerdə "əv". o biri yerdə "ev", üçüncü bir yerdə isə "öv" və yaxud "öy" deyildiyinə diqqət olunsa,bu surətlə Azərbaycanın hansı dil qrupundan olduğu məsələsi də gələcəyin ən pırtlaşıq və ilşik işi olacaqdır.O zaman bəlkə də Azərbaycan ləhcəsini bütün türk ləhcələrinin ortası sayacaqlar ki, bu da yeni mövzu olacaqdır."

H.Zeynallı"

Diktor yazıları təkrarlayır.

Ekranda yenidən Elbrus Əzizov görünür və deyir:

"Elə həmin il, yəni 1926-cı ildə Samoyloviç yzırdı ki,iranın və Azərbaycanın türk şivələri özünün əsas əlamətlərinə görə türk dillərinin cənub-qərb qrupuna daxil olsa da son vaxtlar aydınlaşır ki,Azərbaycanda son dərəcə qarışıq mənşəli türk ləhcələrinin qalıqları öz əlamətlərini saxlamışdır. Bunlar hazırda şimal-şərq və uyğur da daxil olmaqla tamamilə başqa qruplarda mövcuddur."

Ekranda "Oğuz, qıpçaq, uyğur,tatar-bunlar bir soydur" sözləri ilə başlayan türk mahnısına çəkilmiş klip nüayiş etdirilir.

Diktor mətni:

"Türk ləhcə və şivələrinin kök türkcədən ayrılma tarixi və məkanı barədə alimlər arasında fikir birliyi yoxdur.Məsələn, Nizami Cəfərovun fikrincə, bu, l minilliyin sonu, ll minilliyin əvvəllərində baş vermişdir."

Ekranda akademik Nizami Cəfərov peyda olur.Alt tərəfdə onun adı, soy adı

və elmi dərəcəsi yazılır.O deyir:

"Qədim ümumtük dilinin bölünməsi prosesi l minilliyin sonu, ll minilliyin əvvəllərində əsasən üç türk dilinin formalaşması ilə başa çatmışdır:oğuz dili,

qıpçaq dili, karluq dili. Lakin həmin dillər bir-birinə o qədər yaxın və əlaqələri o qədər sıx, intensiv olmuşdur ki, ümumi bir dilin - ümumtürkcənin dialektləri təsəvvürünü yaradırlar."

Ekranda at çapan,ox atan türklr görünür.
Diktor:

"Nizami Xudiyev isə bir qədər fərqli düşünür.Onun fikrincə, bu proses ən geci eradan əvvəl l minilliyin ortalarında baş vermişdir."

Ekranda Nizami Xudiyev görünür.Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır. O deyir:

"Ümumi türk dili tarixinə həsr olunmuş tədqiqatlar, xüsusilə professor Əhməd Cəfəroğlunun tədqiqatları göstərir ki, müxtəıif türk etnik-mədəni regionlarında meydana çıxan türk ədəbi dillərinin tarixi ümumi türk dili tarixi anlayışını istisna etmir, əksinə, tamamlayır və belə qənaəti möhkəmləndirir ki, müstəqil türk ədəbi dilləri ümumi bir türk ədəbi dil mühitinin məhsulu olub, məhz həmin mühitin əks olunduğu coğrafi arealda formalaşır, etnik-mədəni ehtiyacı ödəyir, sonra isə məhv olub gedir, dəyişikliyə uğrayır, yerinə yeni ədəbi forma gəlir.Lakin hər bir yeni forma mütləq özündən əvvəlki normativ formanın təcrübəsinə və ümumi tük ədəbi dili ünsürlərinin inkişafına əsaslanır.

Qədim türk dili ən qədim zamanlardan eramızdan əvvəl V əsrə qədərki dövrü əhatə edir.Təqribən eradan əvvəl l minilliyin ortalarından geç olmayaraq bu dilin differensasiyası başlamışdır."

Ekranda Nizami Xudiyevi Elbrus Əzizov əvəz edir.Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Fuad Köprülüzadə 1926-cı ildə Bakıda çap olunmuş "Azərbaycan ədəbiyyatına dair tədqiqlər" adlı kitabçasında Azərbaycan dilinin təmiz oğu dili olduğunu gösərmişdir.Sonralar Çobanzadə və onun ardınca Dəmirçizadə Azərbaycan dilinin oğuz- qıpçaq dili olduğunu təsdiq etdilər.Əhməd Cəfər ana dilimizin oğuz-qıpçaq mənşəli dil olmasını təsdiq eməklə yanaşı, bidirmişdir ki, ancaq bu dilin uyğur dili ilə kiçicik müqayisəsi bizi Azərbaycan dilinin əmələ gəlməsində uyğur dili qatının çox işləməsi barədə düşünməyə məcbur edir."

Ekranda yazılır:

"Dialektlərin faktlarına əsasən mən bu qənaətdəyəm ki, Azərbaycan dili əsas əlamətlərinə görə, türk dillərinin Qərb qrupuna aid olsa da, bu dil müəyyən dərəcədə türk dillərinin Qərb və Şərq qruplarını bağlayan halqadır.

Əhməd Cəfər"

Diktor yazıları oxuyaraq təkrarlayır.

Ekranda yenidən Elbrus Əzizov peyda olur və sözünə davam edir:

"Müasir Azərbaycan dilində uyğur elementlərinin olduğunu Nəcib də göstərməkdədir. Azərbaycan və uyğur dillərinin ötəri müqayisəsi daha çox bu iki dil üçün əlamətdar olan izoqloslar aşkara çıxarmağa imkam verir.Məsələn, "a-e" səsdəyişməsini gözdən keçirək.Uyğur dili üçün xarakerik olan bu hal özünü Azərbaycanın cənub, şərq və şimal şivələrində də göstərməkdədir."

Ekranda yazılır:

Bakı,Quba,Şamaxı: qeyçi-qayçı, qeymağ-qaymaq, qeyiş-qayış, qeynata-qaynata, qeynana-qaynana, qeytan-qaytan, qeynəmək-qaynamaq, qeysi-qaysı və s.
Qaz-Zaqatala: yey-yay, yeyma-yayma,yeş-yaş, yeşil-yaşıl, yez-yaz və s.
Ağsu: eyax-ayaq.

Diktor yazılanları bircə-bircə oxuyur.

Ekranda yenidən Elbrus Əziziov görünür və sözünə davam edir:

"Eyni hala Anadolu şivələrində də rast gəlinir.Bundan başqa Azərbaycanın ayrı-ayrı şivələrində uyğur dili üçün xarakterik olan "a-ə", "a-o", "o-a", "e-ə", "e-ö", "d-ç", "k-ç" və sairə əvəzlənmələr də müşahidə edilməkdədir."

Ekranda Uyğurustanın paytaxtı Urumçi şəhərindən və uyğurların həyatından görüntülərin əks olunduğu kadrlar göstərilir.

Diktor:

"Uyğur türkləri hazırda əsasən Çinin Sintzyan-Uyğur Muxtar Vilayətində, qismən də Qazaxıstan və Özbəkistanda yaşayırlar.Rəsmi statistikaya görə,sayları 15 milyon civarındadır.Qeyri-rəsmi məlumatlara əsasən isə, sayları 30 milyonla 100 milyon arasında göstərilir.Uyğurlaın tarixdə qurduqları ilk dövlətin Vlll əsrdə qurulan Onuyğur-Doqquzoğuz xaqanlığı olduğu hesab edilir.Bu dövlətin ərazisi Monqolustan, Sibir və İndiki Uyğurustan ərazilərini əhatə etmişdir.Dövltin qurulmasında doqquzoğuzlarla onuyğurlar fəal rol oynamışlar.On uyğur soyunun birləşməsi ilə ortaya çıxan onuyğurların adına Orxon-Yenisey abidələrində sıx-sıx rast gəlinməkdədir."

Ekranda Moyonçur abidəsi görünür.Onun fonunda yazılır:

"Su...orada qalmış xalq onuyğur,doqquzoğuz xalqlarının üzərində yüz il oturub...Orxon çayı...

Moyunçur abidəsi, 3-cü səir"

Diktor yazılanları oxuyur.

Ekrandakı yazılar itir,təsvir isə qalır.
Diktor:

"Onuyğurların adının əks olunduğu Moyunçur abidəsi bəzən "Selenqa daşı" da adlanır.Monqolustan ərazisindən, Selenqa çayı sahilləri yaxınlığından tapılmış bu abidə 744-759-cu illər arasında qoyulmuşdur.

Onuyğurların adına daha əvvəlki dövrlərə aid Qərb mənbələrində də rast gəlinməkdədir.Bu isə uyğurların, eləcə də onuyğurların Şərqə köçməmişdən öncə Qafqazda, o cümlədən Azərbaycan ərazisində yaşamış olduqlarından xəbər verməkdədir.İstər qədim erməni abidələrində, istərsə də Musa Kağankatlının "Alban tarixi"ndə onların adı Albaniyada baş verən hadisələrlə əlaqədar çəkilir.Bu mənbələrdə onların adı "honoğur" kimi qeyd edilmişdir.Yeri gəlmişkən qeyd edək ki, Xəzər xaqanı İosifin məktubunda uyğurlar Azərbaycanın 4-cü şahı Toqarmanın 10 oğlundan biri olan Uyğurun soyu kimi təqdim edilməkdədir.

Ekranda Maninin qələminə məxsus "Ərtəng" kitabından şəkil və yazı görüntülənir.
Diktor mətni:

"Tarixi mənbələrdən onuyğurların lll əsrin böyük Azərbaycan şairi və filosofu Maninin qurmuş olduğu maniçilik, başqa sözlə, manixeizm dininə sitayiş etdikləri və bu dini öz dövlətlərinin rəsmi dini elan etdikləri məlumdur.Görünür, öncələr Albaniyada yaşamış onuyğurların bu ölkəni tərk edib Şərqə köçmələrinə də elə bu din səbəb olmuşdur. Çünki V əsrdə Albaniya hökmdarı Vaçaqanın dövründə xristianlığın rəsmi dövlət dini elan edilməsindən sonra bütün qeyri din və məzhəb nümayəndələrinə qarşı, o cümlədən maniçilərə qarşı dəhşətli təqib və təzyiqlər başlamışdı.Bu üzdən də başqa din və təriqətlərin nümayəndələri ölkəni tərk etmək məcburiyyətində qalmışdılar."

Ekranda Nizami Xudiyev görünür və deyir:

"lX-Xll əsrlərdə ümumi türk dilinin inkişafında maniçi türk ədəbiyyatı müəyyən rol oynamışdır.Bu ədəbiyyatın dili qədim türk dilidir.Bununla belə, həmin dil artıq başqa mədəniyyət tipologiyasına xidmət edir.Ümumiyyətlə, lX-Xll əsrlərdə türklər qədim türk Tanrı dininin yerinə islam, buddizm, maniçilik, xristianlıq kimi dinləri qəbul edirlər və qədim türk dilinin əsas lüğət fondu, hətta ümumən leksikası dəyişmir.Eləcə də bir çox maniçi mətnlərdə yeni dinin xüsusi terminologiyasına

xas elementlərə rast gəlinmir.Yəni maniçilik türk ədəbiyyaında əksər hallarda öz terminologiyası ilə təmsil olunmuşdur."

Ekranda Nizami Xudiyevi Nizami Cəfərov əvəz edir.O deyir:

"Maninin təlimində qədim türk mifologiyası,xüsusilə dünyanın yaranması haqqındakı təsəvvürlərlə səsləşən məqamlar kifayət qədərdir.Tanrının qaranlığın, şərin, bədənin deyil, məhz işığın, xeyrn, ruhun yaradıcısı olması; insanın mahiyyətinin bədəndə yox, ruhda təzahürü, dünyanın xaos, mükəmməl insanın kosmos səciyyəsi daşıması qənaətinə gələn Mani, görünür, yalnız müqəddəs kitabları öyrənməklə kifayələnməmiş. öz təlimini yaradarkən qədim təsəvvürlərdən, miflərdən də istifadə etmişdir.

Maniliyin Şərqi Türküstanda yayılmasının ən intensiv dövrü l minilliyin son əsrlərinə düşdüyündən güman etmək olar ki, maniçi türk ədəbiyyatı da əsasən həmin əsrlərdə yaranıb yayılmışdır."

Ekanda Nizami Cəfərovu Cavad Heyət əvəz edir. O deyir:

"Uyğur dili göytürkcənin davamıdır .Lakin yavaş-yavaş onda bəzi dəyişikliklər zühur edib yeni dinlərin təsirilə göytürklərdən fərqlənib və 2-3 ləhcənin yaranmasına səbəb olmuşdur. Bununla belə, göytürk və uyğur türkcəsinə əski türkcə adı verilmişdir.

Tarım hövəsində yaşayan uyğurların ədəbiyyatı 2 qismə ayrılır:

1.Maniçi ədəbiyyat, yəni Mani dininə inanan uyğurların meydana gətirdiyi ədəbiyyat;

2.Buddaçı ədəbiyyat.

Maniçi ədəbiyyat mənzum və mənsur olaraq iki yerə ayrılır.Maniçi şerlər daha çox ilahilərdir və dördlük şəklində olub, misrabaşı qafiyəlidir.Bundan başqa ahəng ünsürü də vardır.Bəzən iç qafiyə və iç alterasyon da vardır.Misralarda heca sayı eyni deyil, 3-dən 15-ə qədər dəyişir.

Bu dövrün ən mühüm şairi Alpinçur Təkindir. Uyğur ədəbiyyatında müəllifi bəlli olan ilk şerlər onun iki şeridir."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Bizim Tenqrimiz edqüsi redni tiyor,
Bizim Tenqrimiz edqüsi redni tiyor.

Rednidə yig mening edqü Tenqrim, adlım,
bekrəgim,
Rednidə yig meninq Tenqrim, alpım, bekrəgim.
Beleküsuz yiti vajir tiyor.
Beleküsuz yiti vajir tiyor.
Vajirdə ötüy bilikligim,tüzünüm, yarukum

Vayirdə ötüy bilikligim,bilgəm,yanqam..."

Aktyor oxuduqca, ekranın alt tərəfində şerin Azərbaycan türkcəsində tərcüməsi yazılır:

"Bizim Tanrımızın yaxşılığı cövhərdir deyirlər,
Bizim Tanrımızın yaxşılığı cövhərdir deyirlər.
Cövhərdən daha üstün gözəl Tanrım,igidim, qüdrətlim,
Cövhərdən daha üstün gözəl Tanrım,igidim, qüdrətlim.
İtilənməmiş itidir almaz deyirlər,
İtilənməmiş itidir almaz deyirlər.
Almazdan daha kəskindir mənim hikmət sahibim,əsillim,igidim,
Almazdan daha kəskindir mənim hikmət sahibim,müdrüküm,filim.

Ekranda manixey (maniçi) əlifbası ilə, türkcə yazılmış mətn görüntülənir.
Diktor:

"Maniçilik və ya manixeizm Onuyğur-Doqquzoğuz dövlətində və Sibir-Yenisey Xaqanlığında rəsmi din səviyyəsində tutulsa da bundan çox-çox öncələr o, Azərbaycan, İran, Orta Asiya və Avropada yayılmışdı.Təbii ki o dövrdə və o məkanda da manixey ədəbiyyatı nümunələri yaranmamış deyildi.Ən azı bu dinin əsasını qoymuş Maninin şer yazdığı və öz dini- fəlsəfi görüşlərini qələmə almış olduğu məlumdur.Lakin çox təssüflər olsun ki, məsələnin bu tərəfi tədqiqatçıları düşündürməmiş və bu üzdən də "Manici türk ədəbiyyatı " adı altında məlum olan bütün əsərlər ucdantutma Vlll əsrdən sonra Şərqdə yaradılan və ya başqa dillərdən tərcümə edilən əsərlər kimi qəbul edilmişdir."

Ekranda Musa Kağankatlının "Alban tarixi" kitabı görünür.Kitab yavaş-yavaş açılır və səhifələr bir-birini əvəz edir.
Diktor mətni:

"Musa Kağankatlının verdiyi məlumatdan aydın olur ki,Qafqaz Albaniyasında, yəni Azərbaycanın Araz çayından şimalda yerləşən ərazilərində xristianlığı möhkəmləndirən Vaçaqan cadugər, sehirbaz və büpərəstlərə qarşı mübarizə aparmış, onların kitablarını yandırmış, övladları üçün isə xristian məkəbləri açmışdı.Müəllif həmin dövrdə Nestorla bərabər Maninin də lənətləndiyni bildirməkdədir.

Madam ki, Qafqaz Albaniyasında digər din ,məzhəb və təriqətlər kimi Maninin tərəfdarlarına qarşı da təqiblər başlanmışdı və onların kitabları yandırılırdı, təbii ki, bu dinin mənsubları canlarını və kitablarını xilas etmək üçün mühacirət etməyə məcbur idilər.Belələrindən biri də onuyğurlar idilər."

Ekranda uyğur əlifbası ilə yazılmış mətnlər görünür.

Diktor:

"Albaniyada təqib və təzyiqlərə məruz qalan icmalardan biri də monofizit xristianlar, yəni nestorianlar idilər.Maraqlıdır ki,bu təzyiqlər nəticəsində Azərbaycanı tərk edərək Şərqə üz tutan uyğurların bir qismi də nestorian idilər və onlar da maniçilər, yəni manixeistlər kimi öz kitablarını da özləri ilə aparmışdılar."

Ekranda Orxon-Yenisey əlifbası görüntülənir.Əlifbanın üst tərəfində yazılır: "Orxon-Yenisey (Göytürk) əlifbası."

Diktor:

"Uyğurların bir qismi əski dinlərinə-Göy Tenqri dininə sitayiş edir və Orxon-Yenisey əlifbasından istifadə edirdilər."

Ekrandakı əlifbanı soğd və uyğur əlifbaları əvəz edir və onların hər birinin üst ərəfində hansı əlifba olduğu yazılır.Diktor sözünə ara vermədən davam edir:

"Xristianlığın nestorian qoluna mənsub olan uyğurlar soğd və onun əsasında tərtib edilmiş uyğur əlifbalarından istifadə edirdilər.

Soğd əlifbası İran mənşəli əlifbalardan biridir və bu əlifbanın yaradıcıları Orta Asiyada yaşayan irandilli söğdlar idilər.Xristian uyğurlar bir müddət bu əlifbadan istifadə etdikdən sonra onun əsasında özlərinə yeni bir əlifba yaratdılar ki, bu da elm aləmində "uyğur əlifbası" adı ilə məşhur olan əlifbadır."

Ekranda İohannes Fridrixin "Yazı tarixi" kitabı, ardınca isə öz şəkli görünür.

Diktor:

"Uyğur əlifbasının soğd əlifbası əsasında tərtib edildiyini yazı tarixinin gözəl bilicisi İohannes Fridrix də təsdiqləyir.O bu barədə yazır..."

Ekranda yazılır:

"Soğd yazısı...soldan sağa yazılır və o, Suriya əlifbası ilə qohumdur.Lakin bu qohumluğun xarakteri belədir ki, həm Suriya, həm soğd yazısı arami yazısının qədim və hələ məlum olmayan formasından qaynaqlanır və bir-birindən müstəqil, lakin paralel inkişaf etmişlər...

İndi uyğur yazısının soğd əlifbası əsasında yaradıldığı ehimalı daha ağlabatan görünür, belə ki, uyğurlar da digər türk xalqları kimi "p" səsini "b" səsindən və "k" səsini "q" səsindən ayırsa da, uyğur əlifbasında eynən soğd əlifbası kimi bu səslər eyni işarələrlə-"p" və "k" hərfləri ilə yazılırdı...Çünki soğd dilində "b" və "q" səsləri yox idi.Bundan başqa soğd dilində "l" səsi də olmamışdır.Odur ki, onlar xarici sözlərdəki "l" səsini ifadə emək üçün "r" hərfinin dəyişik

formasından istifadə edirdilər...Uyğur yazısında da..."l" səsini ifadə etmək üçün "r" hərfinin dəyişik formasından istifadə edilmişdir.

İohannes Fridrix"

Diktor yazılanları sözbəsöz oxuyaraq təkrar edir.

Ekranda manixey əlifbası görünür.
Diktor:

"Maninin dinini qəbul emiş türklər isə elm aləmində "manixey əlifbası" adı ilə tanınan və Maninin özü tərəfindən tərtib edilmiş olan əlifbadan istifadə edirdilər və uyğurlar bu əlifbanı özləri ilə birlikdə Azərbaycandan gətirmişdilər. Soğd və uyğur əlifbalarından fərqli olaraq, bu əlifbada "p" və "b" səsləri, eləcə də "k" və "q" səsləri ayrı-ayrı hərflərlə ifadə olunurdu. Bu əlifbada digər türk əlifbalarında olduğu kimi, "l" səsi üçün də ayrıca işarə var idi."

Ekranda İohannes Fridrixin şəkli görünür və onun fonunda yazılır:

"Şərqi Türküstandan İran və şərqi türk dilləində , arami mənşəli ayrı-ayrı əlifbalarla yazılmış maniçi mətnlər tapılmışdır.Onlardan biri manixey əlifbası adlanır.

Ona Babilistanın Nippur şəhərində üzə çıxarılan maqik gil fincanların üzərində də rast gəlinmişdir ki, bu da onun mənşəyi məsələsi baxımından çox önəmlidir. M. Lindzbarski göstərmişdir ki, sağdan sola yazılan bu yazı arami kursiv yazısından qaynaqlanır və dekorativ Palmir yazısı ilə qohumdur...Bu yazıda bütün saitləri ifadə edən işarələr var.

İohannes Fridrix"

Diktor mətni sözbəsöz oxuyaraq təkrar edir, sadəcə "M.Lidzbarski" ifadəsini "Lidzbarski" kimi oxuyur.

Ekranda yenidən manixey əlifbası görünür.
Diktor:

"Qeyd emək lazımdır ki, bu əlifba ilə yazılmış bütün mətnlər türkcədir.Nəzərə alsaq ki, Mani gəncliyini Babildə keçirmiş və orada təhsil almışdı, onun yaratdığı əlifbanın arami mənşəli olmasında təəccüblü bir şey yox-

dur.Maraqlıdır ki, mənbələrdə Maninin öz əsələrini məhz bu əlifba ilə qələmə aldığı birmənalı şəkildə vurğulanır.Bu isə o deməkdir ki, o, əsərlərini türkcə qələmə almışdır. Çünki soğd və toxar dillərində yazılmış maniçi ədəbiyyat nünunələrinə də rast gəlinməsinə baxmayaraq, onlar soğd və toxar əlifbaları ilə yazılmışdır. Manixey əlifbası ilə qələmə alınmış mətnlərin isə hamısı istisnasız olaraq türkcədir."

Ekranda manixey əlifbası ilə yazılmış türk mətnləri görünür.
Diktor:

"Soğd və toxar dillərində olan mətnlərin hamısının türkcə qarşılığı var.Yəni həmin mətnlər tük dilindən tərcümədən başqa bir şey deyildir.Lakin Avropa və rus alimləri türk abidələrinin tərcümə olduğunu israr edirlər.Halbuki türk mətnlərinin bir çoxunun müəllifləri bəllidir və onlar türkdürlər.Bunlardan biri Alpınçur Tə-kindir və onun iki şeri dövrümüzədək yetişmişdir."

Ekranda peyda olan aktuor əlindəki kitabdan oxuyur:

"...Barayın tisər, bac anrakım,
Baru yimə uma mən,
Bağırsakım!
Kirəyim tisər, kiçiqkiyəm,
Kirü yimə umaz mən,
Kin, yıpar yıldığım..."

Aktyor şeri oxuduqca, ekranın alt tərəfində onun Azərbaycan tükcəsində tərcüməsi yazılır:

"...Gedim desəm də,gözəl sevgilim,
Gedə bilmərəm,
Mərhəmətlim,
Gəlim desəm də, kiçiciyim,
Gələ bilmərəm,
Ənbər,müşk qoxulum..."

Ekranda manixey əlifbası ilə yazılmış mətnlər görünür.
Diktor:

"Şübhəsiz ki, bu şerin dili Vlll-X əsrlər uyğur dili nümunəsidir.Eyni sözü müəllifi bilinən başqa manixey mətni- nəsr formasında qələmə alınan "Xuastuanift", yəni "Maniçilərin tövbə duası" barədə də söyləmək olar."

Ekranda yenidən peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"...Tenqrim,suyda baru bilmətin kün ay tenqrikə, iki yaruk ordu içrə oluruğma tenqrilərkə neçə yazınımız ersər, yemə kirtü erklik küçlüq tenqri tipənkirtkimədimiz ersər,neçə öküş yavlak, çulvu sav sözlədimiz ersər... yemə kün ay ölür tidimiz ersər,..kentü özümüü küntə,ayda önqi biz tidimiz ersər...bu ikinti bitmətin yazınmış yazukuq boşunu önütür biz: manastar ğırza!"

Aktyor oxuduqca, alt tərəfdə mətnin Azərbaycan türkcəsində tərcüməsi yazılır:

"Tanrım,günah ediyimizi bilmədən gün,ay tanrılara-iki işıqlı sarayda əylə-şən tanrılara qarşı nə qədər günah işləsək də, əsl qüvvəli, qüdrətli Tanrı deyib iman gəirməsək də, nə qədər çoxlu pis, rüsvayçı sözlər söyləsək də...həmçinin gün,ay tanrılar ölür desək də...hünərsizliyindən doğub-batır, hünəri varsa doğmasın desək də...özümüzü öyüb biz gündən, aydan yüksəyik desək də...bu ikisi qarşısında etdiyimiz günahları bilmədən yalvarırıq: günahlarımızı bağışla."

Ekranda yenidən manixey yazılı mətnlər görünür.
Diktor:

"Bu nəsr əsərinin də dili Vlll-X əsrlərin uyğu dilidir və şübhəsiz ki, köçdən sonra Şərqdə ərsəyə gətirilmişdir. Onu ərsəyə gətirən Bötürmüş Tərxan əsərin sonunda adını yazmağı da unutmamışdır."

Ekranda yazılır:

"...Suçdan, günahlardan indi azad olaraq işıq tanrılarına, din səadətinə, pak dindarlara yalvarırıq: günahlarımızı bağışla! Bötürmüş Tərxan niğosakların günahları, suçları haqqındakı duaları-xuastuanifti bitirdi."

Ekranda Nizami Cəfərovun "Qədim Türk ədəbiyyatı" kitabı görünür.Kitab açılır, səhifələr bir-birini əvəz edir və ən nəhayət ekranda 284-cü səhifə görüntülənir.Orada yazılıb; Türk maniçi nəsri. Xuastuanift (Tövbə duası).
Diktor:

"Əsərin müəllifi adını açıq-aydın yazsa da bəzi rus və Avropa alimləri onun tərcümə olduğunu iddia etmişlər. Bəziləri bu əsərin suryani dilindən, bəziləri isə guya soğd dilindən tərcümə edildiyini irəli sürmüşlər, lakin onun nə soğd dilində, nə suryani dilində variantlarını göstərə bilməmişlər.Göstərə də bilməzdilər, çünki belə variantlar yoxdur və heç vaxt olmayıb da.Əsər orijinaldır və müəllifi onu türkcə qələmə alıb.Əgər söhbət Tenqridən gedirsə, qədim türk mifologiyasından qaynaqlanan Gün tenqri, Ay tenqri, Yer-Sub obrazlarına rast gəlinirsə, əsəri tərcümə hesab etmək və ümumiyyətlə maniçiliyin yaranmasını türk mühitindən ayrı təsəvvür etmək, əlbəttə ki, yanlışdır."
Ekranda Nizami Cəfərov peyda olur və deyir:

"Qədim türk ədəbiyyatına hiss ediləcək qədər təsir göstərmiş gəlmə dini dünyagörüşlərdən birincisi,yəqin ki, manilikdir. lll əsrdə Şərq ölkələrində yaymağa başladığı maniliyin əsasında zərdüştilik - xeyirlə şərin, işıqla qaranlığın mübarizəsi dayansa da, burada qədim dövrün müxtəlif dinlərindən əxz olunmuş ideyalar komolektləşdirilmişdir.Özünü "Həqiqət Tanrısının elçisi" sayan Mani

dünyada mövcud olan bütün dini dünyagörüşlərini birləşdirərək universal "dünya dini" yaratmaq iddiası ilə çıxış edirdi ki, bu da "Dünya dövləti" qurmaq istəyən türklər üçün maraqlı olmaya bilməzdi."

Ekranda Maninin şəkli görünür.Diktor deyir:

"Elmi ədəbiyyatda səhvən iranlı kimi qələmə verilən Mani 215-ci ildə Sasanilər imperiyasının paytaxtı olan Mədain şəhərində, yəni qədim Babil torpağında dünyaya göz açsa da, onun atası əslən Cənubi Azərbaycanın Həmədan şəhərindən idi. O. qüdrətli Part, başqa sözlə Parfiya dövlətini qurmuş Arsaklar sülaləsindən idi."

Ekranda dilçi alim Firidun Ağasıoğlu peyda olur.O, Arsaklar sülaləsi və Part dövlətini quran tayfaların iskit, yəni türk olmaları barədə antik müəlliflərin verdiyi məlumatları diqqətə çatdıraraq, Arsaklar sülaləsini qədim türk sülaləsi, Part dövlətinin də qədim türk dövləti olduğunu əsaslandırır.

Ekranda Firidun Ağasıoğlunu dilçi alim Tofiq Hacıyev əvəz edir və Arsaklar sülaləsindən törəyən xalqın Şərqi Türküstanda, yənu Uyğurustanda yaşaması və orada onların adını daşıyan yaşayış məntəqəsinin olduğu barədə məlumat verir.

Ekranda "300 spartalı" filmindən fars-Əhəməni ordusunun spartalıları məhv etməsi səhnəsini əks etdirən kadrlar (səssiz) nümayiş edirilir.

Diktor mətni:

" İlk fars-Sasani şahı Ərdəşir türk-Arsaklar sülaləsindən sonuncu Part. yəni Parfiya hökmdarı Ərdabanı məğlub etdikdən sonra Arsakların Ön Asiya, Güney Qafqaz və Mərkəzi Asiya üzərində 500 ildən artıq sürən hakimiyyətinə son qoyuldu və farslar böyük türk imperatorluğunun bütün torpaqlarının sahibinə çevrildilər. Arsakların əlində sadəcə Ermənistan və Albaniya qalmışdı.

Məğlub sülalənin əksər üzvləri o dövrdə Arsakların paytaxtı olmuş Həmədan şəhərində yaşayırdılar.Farslar onların xalqı üsyana təhrik edə bilmə ehtimallarını göz önündə tutaraq sülalənin bütün üzvlərini öz imperiyalarının paytaxtına sürgen etdilər.Sürgün edilən ailələr içərisində Maninin atası Pətiyin ailəsi də vardı.Mani sürgündə anadan oldu.Onun dünyagörüşü də bu şəhərdə, yəhudi, xristian və zərdüşti filosoflarının mübahisələrinin qızğın keçdiyi Mədain şəhərində formalaş-dı."

Ekranda manixey əlifbası ilə yazılmış mətnlər, daha sonra isə Maninin öz şəkli göünür.

Diktor:

"Mani farsların gücünün onların dinlərində, yəni zərdüştilikdə olduğunu çox tez başa düşdü. Odur ki, bu ideoloji sistemə qarşı onu çürüdə biləcək, eləcə də

tükləri fars hakimiyyətinə qarşı mübarizəyə səfərbər edə biləcək alternativ dini-ide- oloji bir sistem qurmaq qərarına gəldi.

Maninin dininin əsil mahiyyətini başa düşməyə bizə Bötürmüş Tərxanın qələminə mənsub "Xuastuanift" əsəri kömək edir..."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Hörmüz tanrı beş tanrı ilə bütün tanrıların gücünü toplayıb şeytanlara qarşı vuruşmağa enib,gəldi.Bəd əməllər şeytanı Şimnu beş cür şeytana qarşı vuruşdu. Tanrı, şeytan işıq o vaxt bir-birinə qarışdı.Hörmüz tanrı əsgərləri, beş tanrı bizim ruhumuz günah şeytanları ilə vuruşub başlarından yaralandılar."

Ekranda Suraxanıdakı "atəşgah" müxtəlif nöqtələrdən göüntülənir.

Diktor:

""Xuastuanift" məhz bu cümlələrlə başlayır.Əsərdə zərdüştiliyin baş tanrısı Hörmüzün adı çəkilir və o, əsərin, eləcə də maniçilik fəlsəfəsinin əsas personajlarından biri kimi çıxış edir.Elə bu fakt da bir çox tədqiqatçıları maniçiliyi zərdüştiliyin bir təriqəti və bu dinin törəməsi hesab etməyə sövq etmişdir.Məsələ də elə bundadır. Yəni bütün səhf mülahizələr də elə buradan qaynaqlanmaqdadır.

Fəqət tədqiqatçıların gözdən qaçıtdıqları və ya böyük əhəmiyyət vermədikləri bir detala xüsusi diqqət yetirmək kifayədir ki, məsələnin tamam başqa cür olduğunu anlayasan."

Ekranda "Odisseyin məcaraları" filmindən Odiseyin və dostlarının təpəgözün mağarasında əsir olduqları və ondan can qurtarmaq üçün tədbir gördükləri səhnənin əks olunduğu kadrlar (səssiz) göstərilir.

Diktor sözünə ara vermədən davam edir:

"Məsələ burasındadır ki, maniçilikdə "Avesta"dakı Əhrimən obrazının yerinə türk mifologiyasının ən məşhur mənfi qəhrəmanlarından biri olan, ayrı-ayrı türk əfsanə və nağıllarında bəzən Şimnu, bəzən Şimnus və ya Şulbus, bəzən də Çulbus, Kəlləgöz və ya Təpəgöz adları ilə adlandıran obraz daxil edilmişdir. Maniçilikdə bu obrazın "Şimnu" adından istifadə edilmişdir.Görəsən, Əhrimən obrazını Təpəgözlə, yəni Şimnu ilə əvəzləmək Maninin nəyinə lazım idi?

Məlumat üçün bildirək ki, "Avestada" iblis, şeytan, şər qüvvələrin başçısı kimi təqdim edilən Əhrimən bu varlığın yeni fars dilindəki adıdır. Zərdüştilərin

müqəddəs kitabında, yəni Avestada bu qüvvənin adı Anqra Manyudur. "Anqra Manyu" adı isə türk Tenqrisinin farsca bir qədər təhrif edilmiş adıdır."

Ekranda yazılır:

Qədim türkcə	*Yakut türkcəsində*	*Avestada*
Tenqri Menqu	*Tanqra Menqu*	*Anqra Manyu*

Diktor:

"Qədim türklər sitayiş etdikləri tək Tanrıya çox vaxt "Tenqri Menqu" da deyirdilər. "Menqu" qədim türk dilində əbədi deməkdir. Odur ki, bu halda söhbət əbədi olan Tanrıdan gedir. Bəzi türk ləhcə və şivələrində, o cümlədən yakut türkcəsində "Tenqri Menqu" ifadəsi "Tanqra Menqu" kimi səslənməkdədir.

Qatı bir fars milliyətçisi olan və əsərindən də göründüyü kimi, türklərə dərin nifrət bəsləyən Zərdüşt öz saxta dinində Tanqra Menqunu "Anqra Manyu" adı altında iblis elan etmiş, ona qarşı Babil-Aşşur mifologiyasından götürdüyü Ahura Məzdanı, yəni Hörmüzü, eləcə də Arti, Anahid, Mitra, Vritraqan və sairə fars tanrılarını qoymuş, Hörmüzü və fars tanrılarını xeyrin,işığın rəmzi kim qələmə vermişdi. Avestada turanlılar, yəni türklər şərin və qaranlığın ,iranlılar, yəni farslar isə xeyrin və işığın əsgərləri kimi qələmə verilir, turanlıların Anqra Manyuya sitayiş etdikləri qeyd edilir."

Ekranda yenidən "Odisseyin Məcaraları" filmindən Təpəgözlə bağlı səhnələr görüntülənir (səssiz).

Diktor aralıqsız davam edir:

"Maninin öz dinində Əhrimənin, yəni Anqra Manyunun yerinə Şimnunu, yəni təpəgözü iblis elan etməsinin əsil səbəbi türk Tanrısını Zərdüştn ona biçdiyi iblis obrazından xilas etmək idi. Türk Mani bununla da yetinməmiş, Tenqrini Hörmüzdən də, digər fars tanrılarından da yuxarı qaldırmış, ikinci yerə türk mi-fologiyasından götürdüyü Gün, Ay tanrılarını və Yer-Suyu yerləşdirmiş, Hörmüzü və onun beş tanrısını, yəni fars tanrılarını isə onlardan aşağı tutmuşdur."

Ekranda aktyor peyda olur və oxuyur:

"...Gün, Ay tanrılara, iki işıqlı sarayda əyləşən tanrılara, bütün bürhanların müqəddəs adının, ləyaqətli ruhların, Yer-Su nurunun əsası Tanrı məkanına gedəndə ilk qapı Gün, Ay tanrısının olacaqdır.Beş tanrını qurtarmaq, işığı-zülməi ayırmaq üçün işıq göydə dolanır."

Ekranda Maninin şəkli görünür.

Diktor:

"Maninin təliminə görə, beş tanrı Şimnu ilə, yəni təpəgözlə və onun beş şeytanı ilə döyüşdə yaralandıqları və murdarlandıqları üçün onların qurtarılmağa, təmizlənməyə ehtiyacları var.Yalnız bundan sonra onlar Gün,Ay qapılarından keçib Tanrı dərgahına qalxa bilərlər.Gördüyümüz kimi, maniçilikdə Əhrimənin

yerini Şimnu tutduğu kimi, Hörmüzün də yerini işıq tanrısı, yəni türk Tenqrisi tutur.O, Tanq Tenqri, yəni dan tanrısı adlandırılır."

Ekranda manixey əlifbası ilə qələmə alınmış mətnlər görüntülənir.Diktor sözünə ara vermədən davam edir:

"Manixey əlifbası ilə, türkcə yazılmış mətnlərin heç də hamısı sırf uyğur türkcəsində deyildir. Bəzi mətnlər var ki, onların dili oğuz türkcəsinə daha yaxındır və oğuz türkcəsi ilə uyğur türkcəsinin bir-birindən hələ tam ayrılmadığı vəziyyəti əks etdirir.Şübhəsiz ki, onlar daha arxaikdirlər."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Tanq Tenqri kəlti,Tanq tenqri özi kəlti!
Tanq Tenqri kəlti,Tanq Tenqri özi kəlti!
Turunqlar,kamağ bəglər,kadaşlar,
Tanq Tenqriq ögəlim!
Körünüqmə Kün Tünqri,siz bizi küzədinq!
Körünüqmə Ay Tenqri,siz bizi kurtarınq!..."

Aktyor şeri oxuduqca alt tərəfdə şerin çağdaş Azərbaycan dilində tərcüməsi yazılır:

"Dan Tanrı gəldi,Dan Tanrı özü gəldi!
Dan Tanrı gəldi, Dan Tanrı özü gəldi!
Şəhərlər,bütün bəylər,qardaşlar,
Dan Tanrını öyəlim!
Parlaq Gün Tanrı, siz bizə nəzər salın!
Parlaq Ay Tanrı,siz bizi qurtarın!..."

Ekranda manixey əlifbası ilə yazılmış mətnlər görünür.

Diktor:

"Bu şerin dili Alpınçur Təkinin şerlərinin və Bötürmüş Tərxanın "Xuastu-anift"inin dilindən daha sadə və daha anlaşıqlıdır və şübhəsiz ki, lll-V əsrlərdə Azərbaycanda qələmə alınmışdır. Fəqət onun Maninin qələminə mənsub olub-olmadığını tam qətiyyətlə söyləmək mümkün deyildir.Lakin əldə olan və dili bu şe-

rin dilindən fərqlənməyən daha bir şer var ki, onun Maninin qələminə məxsusluğu heç bir şübhə oyatmır."

Ekranda yenidən peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Tüzün bilgə kişilər, ürilə̇lim,
Tenqrinin bitiqin biz işidəlim.

Törən iliq tenqrilərkə tapınalım,
Tört uluq emgəkdə kurtulalım.
Tört iliq tenqrilərdə tanıqmalar,
Tenqri nomun todaqmalar.
Tünerliq yeklərkə tapunuqmalar,
Tümənliq irincü kılıqmalar
Tüpüntə olunma ölməki bar,
Tünərliq tamuğa tüşməki bar.
Tümərlq yeklər gəlir tiyür,
Tumanlıq yeklər ayar tiyür."

Aktyor şeri oxuduqca, alt tərəfdə onun çağdaş Aərbaycan tükcəsində ərcüməsi yazılır:

" Düzülun bilikli kişilər,nəfəs dərəlim,
Tanrının kitabını biz eşidəlim.
Təntənə ilə tanrılara tapınalım,
Dörd ulu əzabdan qurtulalım.
Dörd ...tanrını tanımayanlar,
Tanrı qaydasına uymazlar.
Dörd zülm iblisinə tapınanlar,
On min günaha baş vurarlar.
Dibində olumun ölməyi də var,
Qaranlıq cəhənnəmə düşməyi də var.
Zülmət iblisləri gəlir deyir,
Duman iblisləri iş görür deyir."

Ekranda manixey mətnləri və ardınca da onların fonunda Maninin şəkli peyda olur.

Diktor:

"Bu şerdə "Tenqri bitiyini", yəni Tanrı kitabını eşitməyə dəvət olduğu üçün onun maniçiliyin müqəddəs kitabından, yəni Maninin öz qələminə məxsus kitabdan bir parça olduğuna heç bir şübhə yoxdur.Şerin leksik bazası da Şərqdə yaranan və içi soğd və soğd dili vasitəsi ilə alınan arami sösləri ilə dolu olan maniçi ədəbiyyatın dilindən fərqli olaraq, bütünlüklə türk kəlmələrindən ibarətdir. Yalnız qayda mənasını verən "nom" kəlməsi istisnalıq təşkil edir ki, bu söz də fars-Pəhləvi dilindən götürülmüşdür. Bu dil Sasanilər dövlətinin rəsmi dili idi və mətndə bu dildən alınan bir kəlmənin olması təbiidir.

Mətnin dilinin saflığı onun məhz Mani tərəfindən yarandığını təsdiq edir.Çünki şərq uyğurları soğd mədəniyyətinin təsiri altında idilər, əlifbalarını soğdlardan əxz etdikləri kimi, dillərinə də bu dildən çox sayda söz keçmişdi. Əlbəttə, uyğurlar yalnız şərqdə yaşamırdılar, Avropa və Qafqazda da çox sayda uyğur yaşamaqda idi.Məsələn Prisk və Menandr onlardan "oqur" adı alında bəhs

etmişlər. Bu müəlliflərin əsərlərində hazırda Şərqi Türküstanda yaşamaqda olan sarı uyğurların adına da "saroqur" formasında rast gəlinir."

Ekranda Əlisa Nicatın "Ruhların Məhkəməsi" televiziya tamaşasından səssiz kadrlar görüntülənir.

Diktor:

"Maninin dili özündən 1000 il öncə ərsəyə gəlmiş "Alp Ər Tonqaya ağı"nın dili ilə cüzi fərqlə eyniyyət təşkil etsə də, Minillər öncə, Eneolit və Tunc dövrlərində yaanmış folklor dilimizdən önəmli dərəcə də fərqlənir.Bu da təbiidir. Söhbət ədəbi dildən, elitanın, xaqanların dilindən gedir.Alp Ər Tonq böyük türk xaqanı idi və ona həsr edilən ağı da məhz ona layiq olan dildə-türk elitasını dilində yaranmalı idi.Mani isə 500 ildən artıq Ön və Mərkəzi Asiyada qüdrətli bir dövlət quran, dünyanı Roma imperiyası ilə öz arasında bölən Arsak xaqanları sülaləsinə mənsub idi və təbii ki, elitanın dilində yazmalı idi.Məhz bu dil sonrakı əsrlərdə ümumtürk ədəbi dili rolunu oynamış,Türk xaqanları bu dildə fərmanlar vermiş və Kaşğarlı Mahmud da onu "Xaqaniyyə türkcəsi" adlandırmışdır.Həmin dil Göytürklərin və Qaraxanlıların rəsmi dili kimi də çıxış etmişdir.

Eneolit və Tunc dövrlərində formalaşan folklor nümunələrimizin saf, gözəl və baldan şirin dilinə gəlincə isə, bu dil maldarların, əkinçilərin, sənəkarların,bir sözlə,sadə xalqın dili idi."

Ekranda "yağış çağırma" və "yağış kəsmə" ilə bağlı səhnəcik yenidən təkrarlanır,çay qırağında durmuş milli geyimli qızlar görünür.Onlar xorla deyirlər:

"Suda daşım,
Baba daşım,
Gələr,getməz
Yağışım.
Suda daşım,
Yaş başım,
Yaş oldu
Üst-başım."

Ekranda ocaq başına yığışmış milli geyimli qızlar görünür.Onlardan biri ocaqdakı daşların üstünü közlərlə örtə-örtə oxuyur:

"Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı."

Sonra qızlar birlikdə oxuyurlar:

"Budu daşı,
Bulutların
Kudu daşı,

Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Godu başı,
Gətirsin
Qızıl günü,
Aparsın
Yağışı.
Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı."

Ekranda hərəkətdə olan karvan görünür və Soltan Hacıbəyovun eyniadlı əsəri səslənir. Bu görüntünün fonunda yazılır:

6-CI SERİYANIN SONU

7-ci seriya

Yarıya qədər doğmuş günəşin fonunda hərəkət edən dəvə karvanının silueti. Bu kadrların fonunda filmin adı və ardınca da yaradacı heyət və şirkət barədə məlumat verən titrlər göünür.Bütün bunlar Soltan Hacıbəyovun "Karvan" simfonik suitasının müşayiəti ilə cərəyan edir.

Bütöv Azərbaycanın xəritəsi.Kadr arxasından diktorun səsi:

"Azərbaycanın maddi və mənəvi mədəniyyəti,incəsənəti,ədəbiyyatı xalqımızın tarixi qədər qədim və zəngindir.Yaxın və Orta Şərqin qədim tarixinin bütün istiqamətlərdə öyrənilməsi və tədqiqi nəticəsində əldə edilən bilgilər ölkəmizin istər cənubunun,istərsə də şimalının ən qədim sivilizasiyaların təşəkkül tapıb inkişaf etdiyi ərazilərdən olduğunu göstərməkdədir.Arxeoloji qazıntılar nəticəsində ən qədim zamanlardan günümüzə qədər Arazın hər iki tərəfində eyni mədəniyyətə sahib olan,eyni dildə danışan,eyni inancları paylaşan vahid bir etnosun yaşadığını birmə-nalı şəkildə sübut edən çox sayda əvəzsiz maddi mədəniyyət nümunəsi tapılmış-dır."

Ekrandakı xəritə öncə müxtəlif təbiət mənzərələri,daha sonra isə Qobustan və Gəmiqayanın qayaüstü təsvirlərindən seçmələrlə əvəz olunur.Təsvirlər növbə ilə ekranda canlanır.Buna paralel olaraq diktor mətni davam edir:

"Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dönyada insanın for-malaşdığı ilk məskənlərdəndir.Arası kəsilmədən yaşayış məskəni olmuş bu

torpaq bəşər tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr ölkəsidir.

Söhbət ən azı 2 milyon illik bir tarixdən getsə də,onun yalnız son 5 min ili yazılı mənbələrdə bu və ya digər dərəcədə əks olunmuşdur.Ondan öncəki tariximizin mənzərəsini isə arxeoloji abidələr və kökü minilliklərin dərinliklərinə qədər uzanan zəngin folklor nümunələri əks etdirir.''

Ekranda "Dədə Qorqud" filmindən kadrlar görüntülənir.

Diktor:

"Azərbaycan ərazisində eradan əvvəl Vll-Vl əsrlərdə yaranan və Alp Ər Tonqaya ağı" ilə ortaya çıxan ortaq ədəbi türkcə lll əsrdə Maninin yaradıcılığı sayəsində fəlsəfi məzmun qazanır.V əsrdə eyni ərazidə yaşayan qıpçaqlar da ədəbi dillərinə qovuşurlar və beləcə Alban ədəbiyyatı formalaşır.Tarixi minillərlə ölçülən zəngin folklor irsinə sahib olan oğuzlar isə öz ədəbi dillərini daha gec, yalnız Vll- Vlll əsrlərdə qazanırlar.Söhbət ozan Dədə Qorqudun düzüb əsəyə gətirdiyi və onun adı ilə adlanan dastandan gedir.Və bu dastanın dili də folklor dilimizdən, yəni xalq dilindən önəmli dərəcədə fərqlənir. Bu artıq oğuz elitasının-Bayandır xanın, Qazan xanın, yəni oğuz xanlarının dilidir.Bu dili Maninin dili ilə birləşdirən əsas cəhət hər iki dilin Alp Ər Tonqaya ağının dilindən törəmiş olmasıdır.

"Dədə Qorqud" eposunun tarix səhnəsinə çıxışı ilə Azərbaycan ədəbi dili də yaranmış oldu.Bu məsələdə dilçilərimizin fikirləri əsasən üst-üstə düşsə də, ümumxalq dilinin təşəkkül tarixi ilə bağlı fikirlər haçalanır."

Ekranda Nizami Xudiyev görünür.Alt tərəfdə onun adı, soy adı, elmi dərəcəsi yazılır.O deyir:

"Azərbaycan türk dili formalaşdığı bir dövrdə ədəbi dilin ünsürləri də yaranırdı.Azərbaycan ədəbi dil tarixinin görkəmli tədqiqatçısı Dəmirçizadənin fikrincə,dilimiz ümumxalq dili kimi V-lX əsrlərdə formalaşmışdır.

Azərbaycan ümumxalq dilinin təşəkkülü təkcə Azərbaycan ərazisindəki lokal etnolinqvistik proseslərlə izah edilə bilməz, həm də ümumtürk səviyyəli, böyük coğrafiyanı əhatə edən proseslərlə bağlıdır ki, Dəmirçizadə Azərbaycan ümumxalq dilinin təşəkkül tarixini V-lX əsrlərə aid edərkən, məhz həmin münasibəti nəzərə almışdır.Onun bu fikri ilə razılaşmayan Mubatzadə həmin tarixi Xl-Xll əsrlərə qədər geri çəkir."

Ekranda manixey yazıları, sonra isə onların fonunda Maninin şəkli görüntülənir.

Diktor:

"Maninin əsasını qoyduğu din sonrakı əsrlərdə də Azərbaycanın ictimai-siyasi həyatına öz dərin təsirini gösərmişdir.Belə ki, bir neçə əsr sonra fars-Sasani

hakimiyyətinə qarşı Xorasanda baş qaldıran və tez bir zamanda Azərbaycanı da bürüyən məzdəkilər üsyanının ideoloji-siyasi bazasını təşkil edən məzdəkilik maniçilik ideologiyasının davamı idi.Eyni sözləri ərəb işğalına qarşı Azərbaycanda üsyan qaldıran Babək və tərəfdarlarının "xürrəmilik" adı altında tanınan ideologiyaları barədə də söyləmək olar.

Çox təssüflər olsun ki, elm aləmində "erməni qıpçaqcası" adı altında tanınan gerçək alban ədəbiyyatı kimi, Mani və onun yaradacılığı da Azərbaycanda heç vaxt ciddi tədqiqat obyektinə çevrilməmişdir. Eyni sözləri Alp Ər Tonqaya ağı barədə də söyləmək olar.Hər üç ədəbiyyat faktının bilavasitə Aərbaycanla bağlı olduğunu sübut edən təkzibedilməz faktlar həmişə diqqətdən kənarda qalmış,bu ədəbi əsərlərdən hər zaman yad mədəniyyət nümunəsi kimi söz açılmış, söz açılanda da rus müəlliflərinin qeyri-elmi mülahizələri təkrarlanmışdır.Əvəzində isə nə Azərbaycana, nə də türklərə heç bir aidiyyatı olmayan Zərdüşt və Avesta az qala Azərbaycan ədəbiyyatının şedevri kimi qələmə vüerilmişdir..."

Ekrandakı təsviri Bisitun kitabəsindən görüntülər əvəz edir.Diktor sözünə ara vermədən davam edir:

"Halbuki bir sadə həqiqəti başa düşmək üçün fars hökmdarı Daranın bisüun qayalarına həkk edirdiyi kitabəni gözdən yetirmək kifayətdir.Bu kitabədə türklər sak adlandırılır və Dara V sütunun 30-33-cü sətirlərində açıq bir şəkildə yazır..."

Ekranda yazılır:

" Saklar qəsbkar idilər və Ahura Məzdaya hörmət etmirdilər.Mən Ahura Məzdaya hörmət edirdim. Ahura Məzdanın mərhəmətilə mən onlarla öz istəyimə uyğun rəftar etdim."

Diktor yazıları olduğu kimi oxuyur və əlvə edir:

"Gördüyümüz kimi, farsların şahı sakların, yəni türklərin Ahura Məzdaya, yəni zərdüştilərin baş tanrısı Hörmüzə sitayiş etmədiklərini, yəni onların zərdüşti olmadığını qeyd edir.Bu isə bir daha sübut edir ki, türklər heç vaxt zərdüşti olmamışlar..."

Ekranda yenidən Bisitun kitabəsi görüntülənir. Diktor sözünə aralıqsız davam edir:

"Maraqlıdır ki, Dara Midiyada üsyan qaldıran Qam Atanın farsların məbəd-lərini, yəni atəşgahları dağıtmasını, özünün isə həmin məbədləri bərpa etməsini xüsusi qeyd edir.Bu məlumat isə midiyalıların atəşpərəst olmadığını təsdiq edir.Üstəlik də midiyalı üsyançının şaman olduğu da üzə çıxır."

Ekranda Firidun Ağasıoğlu peyda olur və Qam Ata və onun şaman olması barədə ətraflı məlumat verir.

Ekranda İqrar Əliyevin "Midiya tarixi" kitabı görünür.
Diktor:

"Eradan əvvəl Vlll-Vl əsrlərdə Cənubi Azərbaycan ərazisində madayların qurmuş olduqları qüdrəli Midiya dövlətinin, eləcə də ondan əvvəl, eradan əvvəl lX-Vll əsrlərdə həmin ərazidə mövcud olmuş Mana dövlətinin şahlarının adlarının təhlili onların məhz şamanist olduqlarını söyləməyə ciddi əsas verir."

Ekranda öncə növbə ilə yəhudu sinaqoqu, müsəlman məscidi və xristian kilsəsi, ardınca müxtəlif dinlərin məbədləri görüntülənir. Diktor bu görüntülərə paralel olaraq deyir:

"Məlum olduğu kimi,əksər xalqların milli adları içərisində həmin xalqın sitayiş etdiyi dindən qaynaqlanan adlar önəmli yer tutur.Məsələn, yəhudilər içərisində Tövratdan götürülmüş Moşe, Aaron, İsaak,İzmail, Yakov və sair peyğəmbər adları geniş yayılmışdır.Eyni adlar müsəlmanlarda da Qurandakı səsləniş formasında yayğındır: Musa, Harun, İshaq, İsmayıl, Yaqub və s.

Xristian ruslar arasında məşhur olan İvan, Matvey, Pyotr, Pavel və s.bu kimia dlar da İncildən qaynaqlanır. Müsəlmanlar içərisində Yusif, Yunus, Adəm, Məhəmməd, İsa və s.peyğəmbər adları ilə yanaşı,Əbubəkr, Ömər, Osman, Əli, Həsən, Hüseyn və sairə din böyüklərinin adlarına da sıx-sıx rastlanır.Eyni zamanda biz uşaqlarımıza Allahın 99 gözəl adlarından olan Rauf, Qafar, Kərim,Rəhman, Rəhim və s. teofor adlar da qoyuruq.

Övladlara teofor adlar, yəni Tanrının və ya tanrılaın adlarından düzəldilmiş adlar vermək ən qədim zamanlardan bütün xalqlara xas olub.Ən çox da belə isimləri hökmdar nəslindən olan uşaqlara verərdilər..."

Ekrandakı təsvirləri növbə ilə Misir ehamları, Ramzes, Aşşur-Babil mixi yazıları və Bisitun kitabəsinin elamca yazılmış hissələrinin təsvirləri əvəz edir. Diktor aralıqsız davam edir:

"...Məsələn, qədim Misir fironu Ramzesin adında Misirin baş tanrısı-günəş tanrısı Ranın adına rast gəlirik.Mitridat adında farsların günəş tanrısı Mitranın adı gözə çarpır.Babil hökmdarı Marduk-Apla-İddinin adında babillilərin baş tanrısı Mardukun adını görməmək mümkün deyildir.Elam şahı Humbaniqaşın adında isə Elamın baş tanrısı Humbanın adını görürük."

Ekranda şaman rəqsi görüntülənir.
Diktor:

"Mana və Midiya şahlarının adlarında isə türk-şaman pantenuna daxil olan adlar açıq-aydın sezilməkdədir.Bu isə həmin dövrlərdə Cənubi Azərbaycanda şamanizmin hakim ideologiya olduğunu göstərməkdədir."

Ekranda yazılır:

Mana-Midiya hökmdarlarının adları	*Mənbə*	*Şaman panteonuna daxil olan adlar*
1.İranzu	*Aşşur-Babil*	*Oranəəzi (Tuva)*
2.Aza	*Aşşur-Babil*	*Aza (Tuva, kumandin)*
3.Ullusunu	*Aşşur-Babil*	*Ulu Toyon (yakut)*
4.Deyok	*Herodot*	*Dayık (Altay)*
Dayaukku	*Aşşur-Babil*	*Dayuççı (teleut)*
5.Kaştariti	*Herodot*	*Xarsatördö (yakut)*
Xşatrita	*Aşşur-Babil*	
6.Kiaksar	*Herodot*	*Kööskara (Altay)*
7.Astiaq	*Herodot*	
İştivequ	*Aşşur-Babil*	*Adjiraybuxe (yakut)?*
		İstemi Bögü(?)

Diktor:

"Tarixi mənbələrdən adı məlum ilan ilk Mana hökmdarı İranzu olmuşdur.Bu antroponimi Melikaşvili Qafqaz, Dyakonov isə İran dilləri əsasında izah etməyə calışmışlar.Fəqət bir nəticə əldə etməmişlər.

Halbuki, Aşşur-Babil mixi yazılarında qeydə alınmış bu adın analoquna cüzi fərqlə türk-şaman panteonunda Oranəəzi formasında rast gəlirik.Bu mifik varlıq Tuva türklərinin inanc sistemində yer almaqdadır və onun adı Tuva türkcəsində "kainatın yiyəsi,ağası" mənasını verir.

İranzudan sonra Mana taxtına onun böyük oğlu Aza sahib olmuşdur.Onun adna isə eyniylə şaman panteonunda rast gəlinir.Aza Tuva şamanlarının inanc sistemində aşağı dünyanı təmsil edən ruhlardan hesab olunur.

Azadan sonra onun yarinə qardaşı Ullusunu hökmdar olmuşdur. Ullusunu adına yakut türklərinin şaman panteonunda Ulu Toyon formasında rast gəlinməkdədir.Yakut mifologiyasına görə qara şamanlar Ulu Toyona tabedirlər. Yakut türkcəsində "Ulu Toyon" böyük cənab deməkdir.

Xronologiya baxımından sonrakı yerdə Herodotun Deyok adlandırdığı, Aşşur-Babil mixi yazılarında isə adı Dayaukku kimi çəkilən hökmdar gəlir.Herodota görə o, Midiya, Aşşur-Babil mənbələrinə görə isə Mana hökmdarı olmuşdur.Bu hökmdarın adı Dayık formasında Altay türklərinin şaman panteonunda da yer almaqdadır.Altay türkcəsində Dayık "qurucu" deməkdir.Maraqlıdır ki, teleut

türkləri bu mifik varlığın adına Dayuççı deyirlər ki, bu da Deyokun Aşşur-Babil mənbələrində qeydə alınmış adına, yəni Dayaukku adına uyğun gəlir.

Mənbələrdən adı məlum olan növbəti hökmdar Midiya xaqanı Kaştaritidir.Kaştariti adını Herodot çəkmiş, mixi yzılarda isə bu ad Xşatrita kimi qeyd edilmişdir.Yakut şaman panteonunda isə eyni ada Xarsatördö şəklində rast gəlirik.

Herodotun yazdığına görə, Kaştaritidən sonra oğlu Kiaksar Midiya xaqanı olmuşdur.Bu ad da Altay kijilərin şaman panteonunda Kööskara kimi qeydə alınmışdır.Adın Altay türkcəsindəki mənası köksü, sinəsi poladdan olan,yəni polad sinəli, polad kökslü deməkdir.

Herodot sonuncu Midiya hökmdarının adını Astiaq, Aşşur-Babil mənbələri isə İştivequ kimi çəkməkdədirlər. Bu adlar Yakut panteonundakı Ajdiray Buxe adına bənzəsə də sonuncu midiyalı hökmdarın adı, çox güman ki, sonrakı dövrlərdə türk xaqanları içərisində geniş rast gəlinən İstemi Bögü olmuşdur və şamanizmlə bağlı deyildir.

Unutmaq lazım deyil ki,Mana və Midiya xaqanlarının adları dövrümüzədək yad mənbələrdə ulaşmışdır və təbii ki, bir qədər təhrif olunmuşdur. Bunula belə, şaman panteonunda rast gəlinən adlarla o qədər böyük yaxınlıq var ki, deyilənlər heç bir şübhə oyatmır..."

Ekranda yazılır:

İncil	rusca	fransızca	italyanca	ingiliscə
İohan	İvan	Jan	Covanni	Con

Diktor aralıqsız davam edir:

"...Bu sözlərlə demək istədiyimiz isə budur ki, eyni ad ayrı-ayrı xalqların dillərində fərqli cür səslənir.Məsələn, İncildə İohan kimi qeyd edilən adı ruslar İvan, fransılar Jan, İtalyanlar Covanni, ingilislər isə Con kimi tələffüz edirlər..."

Ekrandakı yazıları aşağıdakı yaı əvəz edir:

Tövrat	*italyanca*	*fransızca*	*ispanca*	*ərəbcə*
İosif	*Cüzeppe*	*Jozef*	*Xose*	*Yusif*

Diktor yenə aralıqsız davam edir:

"...Tövratda İosif kimi çəkilən ad isə italyanlar tərəfindən Cüzeppe, fransızlar tərəfindən Jozef kimi təlffüz edilir. İspanların tələffüzündə eyni ad Xose, ərəblərin tələffüzündə isə Yusif kimi səslənir..."

Ekranda şaman rəqsi canlanır.
Diktor yenə aralıqsız danışır:

"Nəzərə almaq lazımdır ki, türk şaman panteonundakı adları rus alimləri XlX-XX əsrlərdə qeydə almağa başlamışlar.Bu isə o deməkdir ki, Mana və Midiya hökmdarlarının qeydə alındığı dövrlə həmin dövr arasında 2500-3000 il keçmişdir. Buna və Mana-Midiya şahlarının adlarının dövrümüzədək yad dillərdə gəlib çatmasına baxmayaraq, ortadakı fərq o qədər cüzidir ki, heyrət etməyə bilmirsən, Deməli, Mana və Midiyada şamanizmin hakim ideologiya olması öz təsdiqini tapır.Məhz buna görə də farslara qarşı midiyalıların üsyanına şaman başçiliq etmişdir."

Ekranda Maninin təsviri görünür.
Diktor:

"Qurduğu dinin mərkəzinə türk Tenqrisini gətirən Mani şamanizmdən də genbol yararlanmışdır.Təsadüfi deyil ki, onun ierarxik sistemində Tenqridən sonrakı ikinci yerə şamanizmdə xüsusi yeri olan Gün və Ay tanrıları və Yer-Su tutmaqdadır.Sonrakı yerdə isə zərdüştilərin Hörmüzü qərar tapmışdır."

Ekranda öncə manixey yazıları,ardınca Bisitun kitabələri görünür.
Diktor:

"Maniçi ədəbiyyatda Hörmüzün adı Xormusta kimi çəkilir.Bu da təsadüfi deyil. Çünki Mani Sasanilər dövründə yaşayıb yaratmışdır.Sasanilər orta fars dilində, yəni pəhləvi dilində danışırdılar və onların dövründə "Xormusta" adı keçərli idi. "Hörmüz" adı isə yeni fars dilindəki sələniş formasıdır. Bu formaya Firdovsidə rast gəlirik. Qədim fars ləhcələrində-Əhəmənilərin dilində və Avesta dilində,yəni qədim pəştu dilində isə bu tanrının adı Ahura Məzda idi..."

Ekranda yazılır:

Avestada və Bisitun kitabəsində	*Pəhləvi dilində*	*Yeni fars dilində*
Ahura Məzda	*Xormusta*	*Hörmüz*

Diktor ara vermədən sözünə davam edir:

"...Yəni zərdüştilərin baş tanrılarının adı fars dili təkamül etdikcə bir neçə dəfə dəyişikliyə uğramışdır; Ahura Məzda-Xormusta-Hörmüz.

Maniçi ədəbiyyatda məhz Xormusta adı işlənir."

Ekrandakı yazıları müxtəlif "Həzrət Məryəm körpə Həzrət İsa ilə" və "Həzrət İsa çarmıxda" mövzulu ikonalar əvəz edir və müxtəlif kilsələr görüntülənir.

Diktor:

"Maninin dinində Həzrət İsaya xüsusi önəm verilməkdə və onun Tanrı elçisi olduğu təsdiqlənməkdədir.Bunu etmək Maniyə başqalarına özünün gerçək peyğəmbər olduğunu qəbul etdirmək üçün lazım idi.Məsələ burasındadır ki, Yəhya İncilinin əvvəlində Məsihdən, yəni Həzrət İsadan sonra gəlməli olan "gözlənilən peyğəmbər"dən söhbət açılır.Eyni İncildə Həzrət İsa özündən sonra gələcək bir peyğəmbərdən söz açır və yunandilli incillərdə həmin peyğəmbər Parakletos adı ilə təqdim olunur."Parakletos" kəlməsi isə yunan dilində "həmd olunan" deməkdir və bu kəlməni ərəb dilinə tərcümə etdikdə "Əhməd" alınır.Bu ad isə Həzrət Məhəmmədin adlarındandır. Yəni sözügedən İncildə Həzrət İsanın dili ilə Həzrət Məhəmməd müjdələnir.

Mani isə iddia edirdi ki, Yəhya İncilində müjdələnən gözlənilən peyğəmbər Parakletos o özüdür və buna çoxlarını inandıra bilmişdi.Bu üzdən də onun təlimi xristian Avropada və digər xristian ölkələrdə, o cümlədən Albaniyada,eləcə də Şərqdə xristian soğdlar və xristian uyğurlar içərisində daha çox tərəfdar toplaya bilmişdi.Suriya və Misirdə də onun çox sayda tərəfdarı vardı.Ən çox tərəfdarı isə, təbii ki, Atropatenada, yəni Azərbaycanda idi."

Ekranda müxtəlif dinlərə aid məbədlər bir-birini əvəz edir.

Diktor:

"Mani, dininin zərdüşti və buddist mühitlərdə də yayıla billməsi və böyük müqavimətlə üzləşməməsi üçün Zərdüşt və Buddanı da "gerçək" peyğəmbərlər sırasına daxil etmişdi.Buna baxmayaraq, maniçilik mahiyyətcə bu dinlərə zidd idi və onları aradan apararaq vahid bir dinin bərqərar olmasına çalışırdı.Bu üzdəndə bütün dinlərin din adamları tərəfindən nifrətlə qarşılanırdı. Odur ki, Mani tərəfdarları bütün tarix boyu hər yerdə təqib və təzyiqlərə məruz qaırdı.Özü də bu təzyiq və təqiblərin arxasında təkcə din adamları durmurdu.Mani tərəfdarlarına ən çox nifrət edənlər isə feodallar, mal-mülk sahibləri idilər. Çünki Mani əmlakın və bütün sərvətlərin insanlar arasında bərabər bölünməsini və hüquq bərabərliyini təbliğ edirdi."

Ekranda Sasanilər imperatopluğunun xəritəsi göünür.Xəritədə imperiyanın paytaxtı Mədain şəhəri də qeyd olunub.Qərbdə Roma imreratorluğunun, şimalda isə Albaniya dövlətinin və Hun imperatorluğunun sərhəd əraziləri əks olunub və bu ərazilərin hansı dövlət və imperiyalara aid olduğu da yazılıb.

Diktor:

"Sasani şahlarının rəqibləi - Roma və Hun imperatorları maniçilərin fars imperiyasını daxildən sarsıtmaq potensialına sahib olduqlaını çox tez başa düşdülər və bu üzdən də Mani və tərəfdarları hər iki imperator tərəfindən dəstəklənməyə başladılar, nəticədə isə maniçilər bu ölkələrdə sərbəst dolaşa və öz dinlərini rahat şəkildə təbliğ edə bilirdilər.Nəticədə isə manicilik həm Azərbaycanda və İranda, həm Türküstanda, həm də Anadoluda və Roma imperatorluğunun digər bölgələrində sürətlə yayılmaqda idi."

Ekranda Sasanilər imperiyasını xəritəsini Roma imperiyasının xəritəsi əvəz edir.

Diktor:

"Zamanla maniçilər Romada o qədər gücləndilər ki, artıq bu imperiya üçün də daxili təhlükə mənbəyinə çevrildilər.Maniçilərin böyük əksəriyyətinin türk olması, Roma imperiyasında çox sayda tükün yaşaması və onların özləri kimi türk olan hun xaqanı tərəfindən dəstəklənməsi gələcəkdə baş verə biləcək böyük fəlakətlərdən xəbər verməkdə idi. Odur ki, imperator Diokletianın dövründə xristianlar necə təqib edilirdilərsə, maniçilər də o qədər çox təqib olunmağa başladılar.

Diokletianın əsasını qoyduğu bu ənənə sonralar Romada hakimiyyəti ələ keçirən xristian imperatorlar tərəfindən də davam etdirildi."

Ekrandakı xəritəni Albaniyanın və tarixi Armeniyanın xəritəsi əvəz edir.

"Maniçilər ilk dövrlərdə özlərini Albaniya və Ermənistanda da rahat hiss edirdilər.Öncələr türk-maday sülaləsi tərəfindən idarə edilən, sonra Roma,daha sonra isə türk-Part, yəni Parfiya imperiyalarının müstəmləkəsinə çevrilən,Part imperiyasının çöküşündən sonra isə müstəqillik əldə edən Ermənistanda da Albaniyada olduğu kimi, türk-Arsaklar sülaləsi hakimiyyətdə idi. Maninin də bu sülalədən olması, eləcə də Arsakların farslara nifrət etməsi maniçilərin bu ölkələrdə sərbəst fəaliyyətinə şərait yaratmışdı.bu hal albaniya və Ermənistanda xristianlığın hakim mövqeyə qalxmasına qədər davam etdi."

Ekranda əjdahanı öldürən Müqəddəs Georginin müxtəlif ikonaları, eləcə də onun Moskva və Gürcüstanın gerblərindəki təsvirləri bir-birini əvəz edir.

Diktor:

"Romalılar Albaniya və Ermənistanı xristianlaşdırmaq üçün bu ölkələrə missioner dalınca missioner göndərsələr də, böyük uğur əldə edə bilmirdilər.Ən nəhayət bu iş Arsaklar sülaləsindən olan türk Müqəddəs Georgiyə tapşırıldı və o hər iki ölkənin, eləcə də gürcülərin, osetinlərin və digər Qafqaz xalqlarının xristianlığı qəbul etməsində böyük rol oynadı.Azərbaycanda "Cərcis Peyğəmbər" adı ilə məşhur olan və qəbri bu günə qədər Beyləqanda pir kimi ziyarət edilən bu

şəxsin xristianlar arasında son dərəcə böyük hörməti vardı və təsadüfi deyil ki, onun rəsmi bu gün Gürcüstanın və Moskvanın gerblərini bəzəməkdədir."

Ekranda qədim alban kilsələri görüntülənir.
Diktor:

"Albaniya və Ermənistan hökmdarları öz ölkələrində milli birliyə nail olmaq və hakimiyyətlərini möhkəmləndirmək üçün dindən bir vasitə kimi istifadə edilə biləcəyini artıq anlamışdılar.Odur ki, maniçilik və xristianlıq arasında bir seçim etməli idilər və bu seçim sonda xristianlığın xeyrinə edildi.Maniçilər bu ölkələrdən qovuldular."

Ekranda Sasanilər imperatorluğunun xəritəsi görünür.
Diktor:

"Təqiblər İranda olduğu kimi,, Roma imperiyasında da, sonrakı əsrlərdə Bizans imperiyasında da şiddətlə davam edirdi.Sasani şahı Şapurun dövründə Mani və tərəfdarları hakimiyyəti ələ keçirməyə çox yaxın idilər.Mani Şapuru özünün peyğəmbərliyinə və dininin yeganə haqq din olduğuna inandıra bilmiş və bundan istifadə edərək öz tərəfdarlarını dövlətin bütün orqanlarına yerləşdirə bilmişdi. Sa- sanilər tarixində ilk dəfə idi ki, türklər bu qədər böyük vəzifələr tuturdular.Orduya rəhbərlik edən Bəhram da Mani kimi Arsaklar sülaləsindən idi.Hər şey sonda Bəhrəmaın hakimiyyətə gətirilməsi ilə bitdi.Lakin Manini rəqib və öz hakimiyyəti üçün böyük təhlükə sayan Bəhram Manini öldürtdür- dü.Tərəfdarlarının bir qismi qətlə yetirildi, bir qismi isə Albaniya və Türküstana qaçaraq canlarını qurtardı.Beləcə, fars hakimiyyəti yenidən bir türkün əli ilə möhkəmləndi."

Ekrandakı xəritəni Roma imperiyasının xəritəsi əvəz edir.
Diktor:

"Roma imperiyasında da vəziyyət fərqli deyildi.Feodosiyin dövründə maniçilik dininə mənsub olanların qətlə yetirilməsi barədə hökm çıxarıldı. Qnori- yin dövründə maniçilik dövlətə qarşı cinayət hesab edilirdi.Vandalların kralı Qunnarix Şimali Afrikada maniçiləri qılıncdan keçirdi.Yalnız İtaliyaya qaça bilənlər canlarını qurtardılar."

Ekranda Vatikandan görüntülər canlanır.
Diktor:

"Vl əsrdə Lombardiya Avropa manixeyçilərinin mərkəzinə çevrildi.X əsrdə Bolqarıstan, Cənubi Fransa və İtaliyada önəmli güc halına gələn maniçilərin xalqa təsir qüvvəsi o qədər güclü idi ki, Roma papası öz qəsrini tərk etməkdən

ehtiyat edirdi. Çünki hər dəfə qəsrini tərk etdikdə, kütlənin ehtiraslı təhqirlərinə məruz qalırdı."

Ekranda Vatikan görüntülərini İtaliyanın Milan şəhərindən görüntülər əvəz edir.

Diktor:

"Xl əsrin ortalarında Lombardiya, demək olar ki, maniçilər tərəfindən idarə edilirdi.Burada xristian keşişlər də artıq gizli maniçi olmuşdular.Təsadüfi deyil ki, 1062-ci ildə keşiş Ariald Milanda çıxış edərkən keşişlərin evlənməsinin əleyhinə açıq şəkildə təbliğat apardığına görə arxiyepiskop Qvidonun qəzəbinə gəldi və öldürüldü.

Mübarizə davam edirdi.Arxiyepiskopu və xələfini gizli satanist olan imperator lV Henrix, reformatorları isə papalar ll Aleksandr və Vll Qriqori dəstəkləyirdilər. Hər şey Milan şəhəri üçün faciə ilə nəticələndi.Qarşı tərəflər arasında 1075-ci ildə baş verən küçə döyüşlərində şəhər yandırıldı."

Ekranda orta əsrlər Avropasında dəbdə olan inkvizisiyaları (diri-diri odda yandırılma) səhnələrini əks etdirilən kadrlar və ya şəkillər görüntülənir.

Diktor:

"Orta əslər Avropasında geniş yayılmış inkvizisiyaların qurbanlarına əksər hallarda maniçilər çevrilirdilər.Məsələn, Fransanın Orlean şəhərində 1022-ci ildə odda 10 nəfər maniçi diri-diri yandırılmışdır.Maraqlıdır ki, onları satanlar öz şagirdləri idilər və içlərində kral l Robertin mənəvi tərbiyəçiləri Etyen, Lizoy və Geribert də var idilər."

Ekrandakı görüntüləri Roma şəhərinin görüntüləri əvəz edir.

Diktor:

"İtaliyada "padarlar" adlandırılan maniçilər Xll əsrdə bu ölkənin bütün əyalətlərində önəmli icmaya çevrilmişdilər və Roma şəhərində də müəyyən nüfuza sahib idilər."

Ekranda yenidən Vatikandan görüntülər peyda olur.

Diktor:

"Xlll əsrdə maniçiliyi tərk edib katolikliyi qəbul edən Rober Le Buqr, Varonalı Peter və Rayner tarixə adlarını ən qəddar inkvizitorlar kimi yazdırmışlar.Onların əli ilə yüzlərlə maniçi diri-diri odda yandırılmışdır.Milanda 20 il maniçi kimi fəaliyyət göstərmiş Le Buqr maniçilərə qarşı apardığı qəddar mübarizəyə görə 1223-cü ildə papa lX Qriqori tərəfindən inkvizitor təyin edilmişdi.

Avropa tarixinin ən mühüm hadisələrindən biri olan Albiqoy müharibəsi maniçilərin adı ilə bağlı olmuşdur."

Ekranda "Çingiz xan" filmindən kadrlar nümayiş etdirilir.
Diktor:

"Əldə olan mənbələr maniçilərin Çingiz xanın Xlll əsrdə qurduğu imperatorluqda da mühüm rol oynadığını söyləməyə əsas verir."

Ekranda hərəkət edən karvan görünür və Soltan Hacıbəyovun eyniadlı əsəri çalınır.Bu görüntüləri "Azərbaycan tarixi" kitabı əvəz edir. Kitab yavaş-yavaş açılır və səhifələr bir-birini əvəz edir.
Diktor:

"İslamdan öncə Azərbaycanda şamanizm, maniçilik və xristianlıqdan başqa tək Tanrı inancının da izlərinə rast gəlmək mümkündür.
Tarixi mənbələrdən belə aydın olur ki,tək Tanrıya inam, başqa sözlə Tenqriçilik türklərin əsas dini olmuşdur.Professor Osman Turan özünün türk cahan hakimiyyəti məfkurəsi tarixi" adlı 2 cildlik kitabının l cildinin 48- ci səhifəsində yazır..."

Ekranda yazılır:

"Hunlar dövründə "tanrı" kəlməsi həm göyü, həm də Allahı ifadə edirdi.Bu dövrün hökmdarlarına verilən "tanrı qulu" ünvanı da türklərin ilahi hakimiyyət şüurunun formalaşmasını ,göylə bağlı olduğunu və tək Allah inancına doğru bir təkamülün mövcudluğunu göstərir.Eləcə də göytürklər dövründə göylə əlaqəsi olmaqla bərabər, mücərrəd mənası ilə, tək bir Tanrının varlığı inancı çıxmışdı.
Professor Osman Turan"

Diktor yazılanları oxuyur və deyir:

"De Quiqnes isə özünün "Türklərin ümumi tarxi" kitabında bildirir..."

Ekrandakı yazını aşağıdakı yazı əvəz edir:

"...Türklər bu dövrdə yüksəliş və süqutlarını, qabiliyyətli və ya qabiliyyətsiz xaqan və bəylərin özləri-özlərinə vasitə olmasını ilahi himayə və cəzanın nəticəsi olduğuna və Tanrının qadiri-mütləq olduğuna inanırdılar.
De Quiqnes"

Diktor yazılar oxuyur və əlavə edir:

"İbn Fədlan da bu barədə öz müşahidələrini qeydə almışdır."

Ekranda yazılır:

"Bir türk zülmlə üzləşdiyi və çətinliyə düşdüyü zaman göyə baxıb, "Bir Tanrı" deyərək dua edir.

İbn Fədlan"

Diktor yazıları oxuyur.

Ekranda "Qlozel" kitabələri görüntülənir.

Diktor:

"Türklərin tək Tanrı inancları barədə ilk yazılı mənbə Fransadan tapılan və eradan əvvəl 2500-ci ilə aid edilən "Qlozel" kitabələri hesab edilməlidir.Oradakı türkcə qələmə aiınmış bir cümlə xüsusi diqqət çəkir..."

Ekranda yazılır:

"Oda tapınarkən Tək Tanrını bulduq."

Diktor yaını oxuyur və əlavə edir:

"Bu cümlədə ifadə edilən fikir təqribən 3200 il sonra Bizans salnaməçisi Feofilakt Simokattanın söylədikləri ilə, demək olar ki, üst-üstə düşür."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Türklər hər şeydən çox oda ehtiram edirlər,hava və suya da ehtiramları böyükdür,torpağa həsr edilmiş himnlər oxuyurlar.Sitayişi isə "Tək Tenqri" adlandırdıqları yeri və göyü yaradana edirlər.Ona at,qoc və öküz qurban verirlər."

Ekranda Çingiz xan filmindən kadrlar canlanır.
Diktor:

"Eyni inancın moğol-tatarlar arasında da hakim inanc olduğunu söyləmək üçün əldə bəzi əsaslar var.Məsələn, tatarların arasında missionerlik fəaliyyəti ilə məşğul olmuş İohan de Plano Karpini 1246-cı ildə yazmışdır..."

Ekranda yazılır:

"Onlar görünən və görünməyən bütün şeylərin yaradıcısı olan tək bir Tanrıya inanır,onu həm bütün ləzzət və sərvətlərin, həm də əzabların yaradıcısı hesab edirlər.Fəqət onlar Onu həmd və ayinlərlə zikr etmirlər."

Diktor yazıları oxuyur və davam edir:

"...Vilhelm de Rubruk da tatarlaın inanc sistemi barədə təqribən eyni şeyləri söyləmişdir..."

Ekrandakı yazını aşağıdakı yazı əvəz edir:

"Mən soruşdum:
-Siz Allaha necə inanaırsınız?
Onlar cavab verdilər:
-Biz yalnız bir və tək olan Tanrıya inanıq.
Soruşdum:
-Siz onun mənəvi-ruhani, yoxsa maddi bir varlıq olduğuna inanırsınız?
Dedilər:
-Biz onun mənəvi-ruhani bir varlıq olduğuna inanırıq.
O zaman mən yenə soruşdum:
-Siz onun heç bir vaxt insan qiyafəsinə girmədiyinə inanırsınızmı?
Onalar cavab verdilər:
-Heç vaxt!"

Diktor yazını oxuyur və əlavə edir:

"Teologiya tarixi üzrə böyük mütəxəssis Derferin fikirləri isə çox böyük maraq doğurur."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Göy Tanrı dini öz forma və məzmununa görə, Ön Asiya mənşəli dinlərə, xüsusən də xristianlıqla bənzər xüsusiyyətlərə malikdir...Lakin bu din, deyəsən, həm xristianlıqdan, həm də musəvilikdən daha qədimdir...İşin ən maraqlı tərəfi isə budur ki, bu dinə sitayiş edən Sibir və Altay türkləri içərisində Bibliya süjetlərindən, demək olar ki, heç nə ilə fərqlənməyən süjetlər də yer almaqdadır.
Derfer."

Ekranda "Nuh Peyğəmbər" filmindən kadrlar canlanır.
Diktor:

"Türklərin böyük əksəriyyətinin sitayiş etdikləri Göy Tanrı dininin əsasının Həzrət Nuh əleyhissəlam tərəfindən qoyulduğu heç bir şübhə oyatmır.Hər halda, həm Tövrat, həm İncil, həm də Qurani-Kərim bu şəxsin Tanrı elçisi olsuğunu və Tövhid dinini, yəni təktanrıçılığı təbliğ etdiyini təsdiq etməkdədir.

Doğrudur, "Bilqamıs" dastanında Hərət Nuh çoxtanrıçı və bütbərəst kimi təqdim edilir və bu fakt ortaya cavabını gözləyən çox sayda sual çıxarır.Çox güman ki, qədim şumerlər məlum süjeti öz dinlərinin kanonlarına uyğun şəkildə dəyişdirmiş, bu üzdən də Nuh tövhidi təbliğ edən peyğəmbərdən çoxtanrıçı bir dastan qəhrəmanına çevrilmişdir.Fakt isə budur ki, şumerlərin böyük bir qismi

çoxtanrıçı olsalar da, onların da içərisində təktanrıçılar olmuşdur.Beləki, şumer kitabələrinin içərisində belə bir cümləyə də rast gəlinmişdir..."

Ekranda yazılır :

" DİNGİR TAQ TANQI YOQ"

Diktor cümləni oxuyur və əlavə edir:

"...Yəni Tanrı təkdir, bərabəri yoxdur."

Ekranda müxtəlif dinlərin məbədləri görünür.
Diktor:

"Azərbaycanda ən qədim zamanlardan təktanrıçılığın yayıldığını zərdüştilərin müqəddəs kitabı sayılan Avesta da təsdiq edir.Məlum olduğu kimi, bu kitabda türklərin, yəni turanlıların sitayiş etdikləri Tanrı iblis kimi qələmə verilir.Həmin kitabda Alp Ər Tonqanın Anqra Manyuya, yəni Tanqra Menquya, başqa sözlə, türklərin tək Tanrısına sitayiş etdiyi və ona at,qoyun və öküz kəsdiyi qeyd edilir."

Ekrandakı təsvirləri növbə ilə Romanın simvolu olan qurd heykəli və Şamaxının Xınıslı kəndindən tapılan və üzərində bir qurd və iki oğlan uşağının başı olan kubokun qoşa təsviri, Qobustandakı öküz və günəş gəmi təsvirləri, rəqs edən şaman təsviri və Həzrət Nuhun gəmisinin (bədii filmdən) təsviri əvəz edir.
Diktor:

"Deməli, qədim Azərbaycanda əcdad qurd, əcdad öküz, döğum ilahəsi Umay, günəş tanrısı Qodu kultları və şamanizmlə yanaşı, Göy Tanrı dini də yayğın olmuşdur.Sonuncu bilavasitə Həzrət Nuh əleyhissəlamın adı ilə bağlıdır.

Maraqlıdır ki, qədim türk dilində digər tövhid, yəni təktanrıçı dinlərində, o cümlədən İslamda mövcud olan bütün dini terminlərin təmiz türkcə qarşılığı olmuşdur ki, bu da Göy Tanrı dininin təkmil bir din olduğunu sübut edir.Üstəlik də bu terminlər sayəsində həmin dinin ayrı-ayrı elementləri barədə ətraflı məlumat almaq mümkündür."

Ekranda yazılır:

	İslam terminologiyası	*Tenqriçilik terminologiyası*
1.	*Allah*	*Tenqri*
2.	*Peyğəmbər, nəbi*	*Yalavac,Yalmac*
3.	*Rəsul*	*Elçi*
4.	*Kitab (müqəddəs kitablardan biri)*	*Biti, Bitiq*

5.	*Cənnət,*	*Uçmaq*
6.	*Cəhənnəm*	*Tamağ*
7.	*Din xadimi, ruhani*	*Tenqirkən*
8.	*İbadədgah (məscid, came)*	*Tenqirlik*
9.	*Qurban*	*Yağışlıq*
10.	*İbadət*	*Tapıq*
11.	*Sitayiş*	*Tapınmaq*
12.	*Müqəddəs*	*Iduq, İduq-Qut*
13.	*Oruc*	*Baçaq*
14	*Şəriət*	*Törü, Törə*
15.	*Ruh, Can*	*Qut*
16.	*Günah*	*Yazuq, Yazınc*
17.	*Həmd*	*Alqış*
18.	*Axirət*	*Mengü ajun*
19.	*Mələk*	*Yumışçı*
20.	*Qeyb*	*Örtüklük*
21.	*Ehsan*	*Basan*
22.	*İblis*	*Yekkə*

Diktor:

"Məsələn, qədim türklər Allaha "Tenqri" demişlər və bu kəlmə təmiz türkcədir.Bu kəlməyə Orxon-Yenisey abidələrində sıx-sıx rast gəlinir."Peyğəmbər" və "nəbi" kimi ərəb və fars mənşəli sözlərinin qarşılığında isə "yalavac" və ya "yalmac" kimi təmiz türk kəlmələri işlənmişdir..."

Ekrandakı yazını müvəqqəti olaraq aşağıdakı yazılar əvəz edir:

"Tenqri yalavac itdi.
Kaşğarlı Mahmud.
Mühəmməd yalavac xəlaiq başı.
Yusif Balasaqunlu."

Diktor aralıqsız davam edir:

"...Mahmud Kaşğarlı "Divan"ında belə bir cümlə ilə rastlaşırıq: Tenqri yalavac itdi, yəni Tanrı peyğəmbər göndərdi.Yusif Balasaqunlunun "Qutaduqu Bilik " əsərində isə belə bir ifadə yer almaqdadır.Mühəmməd yalavac xəlaiq başı, yəni Məhəmməd peyğəmbər xalqların başçısı.

Kaşğarlı Mahmud bu kəlməni "peyğəmbər", "nəbi" kimi tərcümə etmişdir..."

Ekranda yenidən öncəki yazı, yəni İslam terminologiyasının Tenqriçilik terminologiyasının müqayisə edildiyi cədvəl görünür. Diktor sözünə ara vermədən davam edir:

"Qədim türklərdə rəsul mənasında "elçi " kəlməsinin olduğu da məlumdur. Bu kəlmənin işləndiyi mətnlərdən biri 1-ci Yenisey abidəsidir ki, orada belə bir maraqlı cümlə yer almaqdadır..."

Ekranda Orxon-Yenisey mətnlərindən biri görünür və onun fonunda yazılır:

"Tenqri elkə elçisi erdim."

Diktor bu cümləni oxuyur və əlavə edir:

"...Yəni elimə,xalqıma Tanrı elçisi kimi döndüm."

Ekranda yenidən İslam və Tenqriçilik terminlərinin qarşılıqlı cədvəli görünür.

Diktor:

" Qədim türk dilində yazı və kitab mənalarını verən "biti" və "bitiq" kimi sözlər xüsusi hallarda səmavi kitab mənasında da işlənmişdir ki, bu halda, çox güman ki, Gök Tanrı dininin nə zamansa mövcud olmuş və sonradan itmiş müqəddəs kitabı nəzərdə tutulur.

Ana dilimizdə mövcud olmuş "uçmaq" və" tamuğ" kimi kəlmələr isə müqabil olaraq cənnət və cəhənnəmi ifadə etmişlər. Bu terminlərə klassik Azərbaycan ədəbiyyatında, o cümlədən Şah İsmayıl Xətai və İmadəddin Nəsimidə də rast gəlinir.

Bundan başqa qədim türk dilində digər dinlərdə, o cümlədən İslamda rast gəlinən əksər terminlərə uyğun gələn terminlərin olduğu da bəllidir.Məsələn, din xadimi- tenqirkən, ibadətgah- tenqirlik, qurban-yağışlıq, ibadət-tapıq, sitayiş-tapınmaq, müqəddəs-ıduq,oruc-baçaq, şəriət- törü və ya törə, ruh-qut,günah-yazuq, həmd- alqış,axirət-mengü ayun, mələk-yumışçı,qeyb-örtüklük,ehsan-basan, iblis-yekkə və sairə.

Maraqlıdır ki, bu terminlərdən bir çoxu təktanrıçılığa keçişdən öncə də öncəki dinlərin terminləri kimi işlənmiş, yeni dinin yayılması ilə həmin terminlər yeni məzmun və mahiyyət qazanmışlar. Bu baxımdan qurban mənasında işlənən "yağışlıq" kəlməsi böyük maraq döğurur.Bir vaxtlar yağış "çağırmaq", yağış "kəsmək" və "Qodu-Qodu ayinlərinin icrası zamanı günəş tanrısı Qoduya verilən xəmiraşı, bal və yağ qurbanlarını ifadə edən bu kəlmə sonrakı dövrlərdə, yəni təktanrıçılığa keçdikdən sonra həm də Göy Tanrıya kəsilən at, öküz və qoyunları da ifadə etmişdir."

Ekranda əski süjetlərdən biri təkrar olunur.Ocaq başına yığışmış milli geyimli qızlar görünür.Onlardan biri ocaqdakı daşların üstünü közlərlə örtə-örtə oxuyur:

“Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”

Sonra qızlar birlikdə oxuyurlar:

“Budu daşı,
Bulutların
Kudu daşı,
Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Godu başı,
Gətirsin
Qızıl günü,
Aparsın
Yağışı.
Qodu daşı,
Odu daşı,
Qodu kəssin
Yağışı.”

Ekranda eyni süjet bu dəfə səssiz təkrar olunur.
Diktor:

"Qədim türklərin təktanrıçılığa keçməmişdən öncə günəş tanrısına da eyni qurbanları verdikləri, yəni at, öküz və qoyun kəsdikləri məlumdur.Məsələn Musa Kağankatlının yazdığına görə, massaqet türkləri günəşə sitayiş edir və ona sözügedən qurbanları verirdilər."

Ekranda üzərində ideoqrafik yazı (üçbucaqlar, quş, ağac, maral təsvirləri) olan l əsrə aid Mingəçevir qəbir küpünün ideoqramları görünür.
Diktor:

"İstər Mingəçevir ideoqrafik yazısında, istərsə Orxon-Yenisey mətnlərində, istərsə də klassik Azərbaycan ədəbiyyatında rast gəldiyimiz, cənnət mənasında işlənən "uçmaq" termini də təktanrıçılıqdan əvvəlki mifik təsəvvürlərlə bağlıdır və bu kəlmə qədim mifoloji sistemdə ruhun quş kimi, o biri dünyadakı insanların isə quş qanadlı təsəvvür edilməsindən qaynaqlanmışdır."

Ekranda mixi yazılar görünür.
Diktor aralıqsız davam edir:

"Bu təsəvvürlərin izinə təqibən 5000 il öncə qələmə alınmış "Bilqamıs" dastanında rast gəlirik. Dastanda öləcəyini yuxusunda görən Enkidunun yuxusunu Bilqamısa danışdığı səhnə deyilənlərə ən gözəl misaldır."

Ekranda peyda olan aktyor əlindəki kitabdan oxuyur:

"Gecə öz yatağına tənha uzanan zaman,
Enkidunun içinə bir ağrı doldu yaman.
O, dərdini açaraq öz dostuna söylədi,
"Gecə yuxu görmüşəm,əziz dost,eşit,-dedi,-
Göylər haray salırdı,nida qalxırdı yerdən,
Onların arasında dayanmışdım təkcə mən.
Bir də bir adam vardı,tutqun idi üz-gözü,
Mən fırtına quşuna bənzətdim onu,düzü.
İti caynağı vardı, qartal kimi qanadı,
Saçımdan yapışaraq göz açmağa qoymadı.
Onu vurdum,tullanıb tez sıçradı kənara,
Sonra o məni vurdu, o dəm sağaldı yara.
Sonra vəhşi öküz kimi yeriyib məni yıxdı.
Ağır məngənə kimi başımı bərk sıxdı.
Dedim "Məni xilas et!" Sən xilas edəmmədin,
Onunla vuruşmağa, qorxdun, gedə bilmədin.
O mənə toxunaraq, məni quşa çevirdi,
Qanad taxtı çiynimə,adəti quş qanadı.
Üzümə baxdı,baxdı, sonra məni apardı,
İrkallanın evinə-zülmətevinə vardı."

Ekranda A.K. Borovkovun X-Xl əsrlər "Orta Asiya təfsirinin dili" (Лексика среднеазиатского Тефсира X-Xl в.в. Москва, 1963.) adlı kitabının üz qabığı görünür.

Diktor:

"X-Xl əsrlərdə Orta Asiyada qələmə alınmış bir Quran təfsirinin leksikonunu gözdən keçirən rus şərqşünası Borovkovun yazdığına görə, sözügedən təfsirdə bütün Quran terminlərinin türkcə olduğunu vurğulamış və türk dilinin dini terminologiya baxımından zənginliyindən duyduğu heyrəti gizlədə bilməmişdir.

Yeri gəlmişkən qeyd edək ki, bu əsərdə əsasən, təmiz oğuz kəlmələrindən istifadə edilmişdir və bu kəlmələrin bir çoxu ədəbi ümumtürkcənin müvafiq terminologiyasından fərqlənlir..."

Ekranda yazılır:

Ümumtürk ədəbi dilində	*Oğuz türkcəsində*	*Mənası*
Yalamac	*Savçı*	*Peyğəmbər,nəbi*
-----	*Ev budunu*	*Əhli-Beyt*

Diktor sözünü aralıqsız davam etdirir:

"... Bu baxımdan Təfsirdə yer alan və peyğəmbər mənasında işlədilən "savçı" sözünü misal çəkmək olar.Ümumtürk ədəbi dilindəki "yalamac" kəlməsinə uyğun gələn bu kəlmə sırf oğuz terminidir.Diqqəti çəkən başqa bir ifadə isə Qurandakı "Əhli-Beyt" ifadəsinin qarşılığında işlədilmiş "ev budunu" sözbirləşmə-sidir.Həzrət Məhəmmədin ev sakinlərini, yəni ailə üzvlərinin cəmini ifadə etmək üçün istifadə edilmiş bu birləşmə son dərəcə uğurlu seçilmişdir.Bu sözbirləşməsi oğuz türkcəsi nümunəsi olmaqla yanaşı, həm də ümumtürk mahiyyəti daşımaqdadır."

Ekranda Soltan Hacıbəyovun "Karvan" əsərinin sədaları altında hərəkət edən karvan görüntülənir.Daha sonra onu şaman rəqsi əvəz edir.

Diktor:

"Azərbaycanda şamanizmin izləri də ən qədim zamanlardan izlənməkdədir. Bəziləri yanlış olaraq şamanizmlə Göy Tanrı dinini eyniləşdirirlər.Əslində isə şamanizm bir din yox, Spritualist maqiya sənətidir.

Elmi ədəbiyyatda daha çox yayğın olan "şaman" kəlməsi türk sözü deyil, tunqus-mancur mənşəli bir termindir.Onun mənşəyini sanskrit dilinə bağlayanlar da var.Türklər isə şamana ən qədim zamanlardan "qam" demişlər.Bu kəlməyə Turfandan tapılan qədim uyğur mətnlərində, Yusif Balasaqunlunun "Qutaduqu-Bi-lik" və Mahmud Kaşğarlının "Divan ül-Lüğət ət-Türk" kitablarında, eləcə də "Ko-deks Kumanikus " və "Kitab ül-İdrak"da rast gəlinir."Qam" kəlməsi Radlovun "Qədim Türk lüğətində də yer almaqdadır.Bir çox dillərdə, o cümlədən hind-Avropa dillərində rast gəlinən "maq" kəlməsi də bu kəlmənin metatezası ilə ortaya çıxmışdır."

Ekranda Yusif Balasaqunlunun "Kutaduqu-Bilik" və Mahmud Kaşğarlının "Divan ül-Lüğət ət-Türk" kitabları görünür.

Diktor:

"Yusif Balasaqunluya görə, qam xəstəni sağaldan həkim,Mahmud Kaşğarlıya görə isə, qeybdən xəbər verən,falçılıq edən adamdır..."

Ekranda Radlovun şəkli görünür.Diktor sözünə davam edir:

"Görkəmli türkoloq Radlov isə bu sözü "şaman" kimi tərcümə edir və onun daha geniş məna daşıdığını bildirir."

Ekranda təbil çalaraq rəqs edən şaman görünür.
Diktor:

"Təbil şamanın vazkeçilməz aləti və əlamətidir.Təbilin içi və xarici müxtəlif naxış və rəsmlərlə bəzədilir.Həmin naxış və rəsmlər nəsildən nəslə ötürülərək, demək olar ki, heç dəyişmir.Yəni bu halda ənənəviliyə ciddi əməl olunur.Məsələn, Koybal şamanlarının təbillərinin birinin üzərində çəkilmiş maraqlı bir rəsm Qobustan təsvirlərindən biri ilə inanılmaz dərəcədə bənzərlik təşkil edir..."

Ekranda Qobustandakı Böyükdaşın aşağı mərtəbəsində 9№-li daşın üzərindəki pkitoqramın və Koybal şamanlarının təbili üzərində həkk edilən və XlX əsrin sonlarında üzü köcürülmüş piktoqramın yanaşı təsvirləri əks olunur.Diktor sözünə davam edir:

"...Hər iki rəsmin piktoqrafik yazı nümunəsi olması və eyni elementlərdən təşkil edilməsi diqqəti xüsusi ilə cəlb edir, eyni zamanda Sibir və Altay türklərinin şamanizm ənənələrinin qədim Qobustan ovçularının ovsunçuluq ənənlərindən qaynaqlandığını sübut edir."

Ekranda sənətşünas alim Nəsir Rzayev görür.Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O deyir:

"Qobustanda, Böyükdaşın aşağı mərtəbəsində 9№-li daşdakı Tunc dövrünə aid petroqlifdə piktoqram xaraktrli böyük təsvir kompozisiyası verilmişdir.Bu təsvirdə qədim rəssam əl-ələ vermiş silahsız adamların iki cərgədən ibarət bir sədd təşkil edərək sağ tərəfdəki çəpərlə keçinin yolunu kəsməsini əyani surətdə nəql edir.heyvanın boğazına ip keçirilmişdir..."

Ekranda sözügedən Qobustan piktoqramı ayrıca göüntülənir.Alimin səsi kadr aexasından eşidilir:

"...Mürəkkəb kompozisiyalı bu piktoqramda qədim rəssam təsvir vasitələrinin köməkliyi ilə qəbilədə baş vermiş mühüm bir hadisə-heyvanların əhliləşdirilməsi barədə qəbilə üzvlərinə xəbər verir..."

Ekranda yenidən peyda olan Nəsir Rzayev sözünə davam edir:

"...Tunc dövrünə aid bu petroqlifdə insanlar siluet şəklində, heyvanlar isə konturlu xətlərlə kiçik miqyasda, həm də çox sxematik və statik vəziyyətdə təsvir edilmişdir."

Ekranda Koybal şamanlarının təbilindəki təsvir ayrıca nümayiş etdirilir.
Diktor:

"Şamanizmin Katanov və Alekseyeva kimi görkəmli tədqiqatçılarının fikrincə, təbildəki təsvir də piktoqrafiya nümunəsidir və burada üçlü dünya sistemi barədə şamanist təsəvvürlər öz əksini tapmışdır.

Şaman təbilləri bir qayda olaraq, dağ keçisi dərisindən düzəldilir.Ətrafı qayın ağacından olur.Təbilin səsi boğuq çıxsın deyə, çubuğunun başına samur və ya dövşan ayağının dərisi taxılır..."

Ekranda yenidən şaman rəqsi canlanır.
Diktor:

"Şamanist xalqlarda qamlar iki qrupa ayrılır: ağ qamlar və qara qamlar.

Ağ qamlar Ülgenin hakim olsuğu işıq aləminə, yəni xeyirxah ruhlara qamlıq edirlər.Onların qiyafələri nisbətən az bəzəkli və sadə olur.Onlar özləri ilə təbil daşımırlar.Qara qamlar isə yeraltı dünyanın və zülmətin hakimi Erliyə ona bağlı olan şər ruhlara qamlıq edirlət.Onların geyimi saysız amuletlər,rəmzlər, muncuqlar metal lövhələr,heyvan və quş sümükləri, quş lələkləri və sairə ilə bəzədilmiş olur.Çox zaman papaqları və libasları elə bəzənir ki, nəticədə şaman quşa bənəmiş olur.Lakin bunsuz da onun guya yuxarı və aşağı dünyalara uça bildiyinə inanılır.

Şaman vəcdə gəlmiş halda olarkən,dua edərsə, dinləyənlər "dediklərin olsun,Qam ata!"-deyirlər.Məhz bu müraciət formasına, yəni "Qam ata" ifadəsinə Bisitun kitabəsinin Elamdilli mətnində, midiyalı üsyançıdan söhbət açılan yerdə rast gəlirik.Bu mətndə üsysnçı "kam adda", yəni "Qam ata" adlandırılır."

Ekranda Qobustan və Gəmiqaya təsvirləri bir-birini əvəz edir.Bu, qavaldaşda ifa edilən ritmlərin müşayiəti ilə baş verir.Sonda kamera Böyükdaşın aşağı mərtəbəsindəki 9-li daşın üzərindəki təsvirə kilidlənir və diktor sözə başlayır:

"Azərbaycan ən qədim zamanlardan müxtəlif türk soy və boylarının oylağı olmuş, onların dini-mifoloji görüşlərinin ən qədim kökləri bu ərazidə formalaşmışdır.Faktlar kök türkcənin də bu ərazidə şaxələndiyini, ayrı-ayrı ləhcə və şivələrə parçalandığını söyləməyə əsas verir.Hər halda, ən qədim qıpçaq mətnlərinin, yəni alban ədəbiyyatı nümunələrinin, eləcə də protouyğur manixey mətnlərinin, yəni Maninin qələminə məxsus əsərlərin Azərbaycanda meydana çıxdığı danılmaz faktdır.O da faktdır ki, bütün bu ləhcə və şivələrin qalıqlarına ölkəmizin şivələrində rast gəlinir.Üstəlik də Azərbaycan ədəbi dilinin formalaşmasında həmin şivələrin bu və ya digər dərəcədə rolu olmuşdur."

Ekranda Nizami Cəfərov peyda olur və deyir:

"Kitabi-Dədə Qorquddan başlayaraq Füzuliyə qədər Azərbaycan yazılı abidələrində qıpçaq sözləri ilə oğuz sözləri paralel işlənmişdir.Məsələn, payız-küz,yaxşı-iyi, getmək-varmaq, aytmaq- demək,ata-baba,çöl-yazı, çağırmaq-oxumaq, etmək-qılmaq,vermək-sunmaq,doymaq-qanmaq,bayır-dışarı,çatdırmaq-ilətmək, isti- sıcaq,qabaq-qarşı və sairə..."

Ekranda yazılır:

Qıpçaq kəlmələri	*Oğuz kəlmələri*
1.PAYIZ	*KÜZ*
2.YAXŞI	*İYİ*
3.GETMƏK	*VARMAQ*
4. AYTMAQ	*DEMƏK*
5.ATA	*BABA*
6.ÇÖL	*YAZI*
7.ÇAĞIRMAQ	*OXUMAQ*
8.ETMƏK	*QILMAQ*
9.DOYMAQ	*QANMAQ*
10.BAYIR	*DIŞARI*
11.ÇATDIRMAQ	*İLƏTMƏK*
12.İSTİ	*SICAQ*
13.QABAQ	*QARŞI*

Diktor:

"Təqdim olunan cədvəldə uzun müddət Azərbaycan ədəbiyyatında paralel işlənmiş qıpçaq və oğuz kəlmələrini görürük.Maraqlıdır ki, hazırda bu kəlmələrdən məhz qıpçaqca olanları oğuz kəlmələrini sıxışdıraraq həm danışıq, həm də ədəbi dilimizdə möhkəmlənmişdir.Bu baxımdan qıpçaq mənşəli "aytmaq" və "çağırmaq" kəlmələri üzərində qələbə çalmış "demək" və "oxumaq" kimi oğuz mənşəli sözlər istisandır.Digər hallarda isə qıpçaq kəlmələrinin üstünlük qazandığını görməkdəyik."

Ekranda yenidən peyda olan Nizami Cəfərov sözünə davam edir:

"Araşdırmalar göstərir ki,ilk orta əsrlərin Bizans,erməni və gürcü mənbələrin-də bu və ya digər münasibətlə işlənmiş türk sözləri onların dilinə məhz qıpçaq türkcəsindən keçmişdir.Həmin sözlər nə qədər dəyişikliyə məru qalsa da, yenə qıpçaq türkcəsinin fonetik xüsusiyyətlərini əks etdirir:ot-xot, voçxor-koçxor, alp, xaqan,tenq, cicək, tarxan, ayıt və sairə."

Ekranda mərhum dilçi alim,akademik Şirəliyevin şəkli görünür və şəklin fonunda yazılır:

"V əsrdən başlayaraq Azərbaycanın şimalında Azərbaycan ümumxalq dilinin formalaşmasında fəal rol oynamış qıpçaq tipli ayrı-ayrı türk dilləri mövcud olmuşdur.Şimal bölgələrimizdə və qismən də Azərbaycan dilinin şərq ləhcə və şivələrində qıpçaq xüsusiyyətləri açıq şəkildə hiss edilməkdədir.

Akademik Şirəliyev."

Ekranda növbə ilə Gəncə,Qazax, Təbriz, Şamaxı, daha sonra isə yenidən Qazax şəhərlərindən görüntülər canlanır.

Diktor:

"Qıpçaq xüsusiyyətləri Gəncə-Qazax ləhcələrində daha aydın hiss olunmaqdadır.Bu ləhcələrdə "c" səsinin "j", "b" səsinin isə "f" kimi tələffüz edilməsi qıpçaqlardan qalma əlamətlərdir.Bu günə qədər gəncəlilər "gedib" əvəzinə "gedif", "gedəcəyəm" əvəzinə isə "gedəjəm" söyləyirlər. Təsadüfi deyil ki, Gəncə şəhərinin adı "gencək" qıpçaq soyunun adından törəmişdir.Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın qədim şəhərlərinndən Təbriz və Şamaxının da adları ayrı-ayrı qıpçaq etnonimlərindən törəmiş etnotoponimlərdir. Bunlardan birincisi "tavrej" qıpçaq soyu ilə, ikincisi isə başqa bir qıpçaq soyu kimaklarla bağlıdır.Şamaxının adı islama qədər Kimakiya olmuşdur.Qazax şəhərinin adı da qıpçaq soylu qazaxlarla bağlıdır."

Ekranda Qəbələ şəhərindən görüntülər və şəhərin qədim qala xarabalıqları görünür.

Diktor:

"Orta əsrlərin məşhur ərəb tarixçisi Bəlazuri Qəbələ şəhəri və ətrafında qıpçaqdilli xəzərlərin yaşadığını bildirərək,Qəbələni xəzər şəhəri adlandırmışdır.Yeri gəlmişkən qeyd edək ki, bu şəhərin ən qədim mənbələrdə adı Kabalaka şəklində qeyd edilmişdir.Kabalaka adında "balaka" ifadəsi diqqəti çəkir ki, bu ifadə qədim türkcə "balık" kimi səslənən sözün bir qədər təhrif olunmuş formasıdır."Balık" isə əski qıpçaq dilində və ümumtürkcədə şəhər deməkdir."Kabalaka" kəlməsi isə "Xanbalıq", yəni xan şəhəri, paytaxt kəlməsinin təhrifi ilə ortaya çıxmışdır.Qəbələnin Albaniyanın ilk paytaxtı olduğu məlumdur."Qəbələ" adına gəldikdə isə bu, Xanbalığın ərəbləşmiş və təhrif edilmiş formasıdır."

Ekranda "Oğuz, qıpçq, uyğur, tatar-bunlar bir soydur" misrası ilə başlayan türk mahnısına çəkilmiş klip nümayiş olunur.Bir müddət sonra klipin səsi azalır və onun fonunda diktorun səsi eşidilir:

" Antik müəlliflərin ayrı-ayrı türk soy və boyları və onların dilləri haqqında verdikləri ötəri məlumatlar ən azı eradan əvvəl 1-ci minilliyin ortalarında çeşidli

türk ləhcə və şivələrinin mövcud olduğunu göstərməkdədir.Məsələn,Pompey Troq Part, yəni Parfiya dilinin Midiya dili ilə İskit dilinin ortasında bir şey olduğunu və hər ikisinin qarışığından yarandığını yazdığı halda, Herodot sarmatlaın iskitlərlə qohum olduğunu, onların iskitlərlə amazonkaların izdivacından törədiyini,iskit dilində,fəqət səhv danışdıqlarını,Yuliy Solin isə sarmatlarla midiyalıların bir kökdən olduğunu qeyd etmişlər.

Təkcə bu məlumatlar türk dillərinin 2500 il öncəki differfnsiyası haqqında müəyyən təssəvvürlər əldə etmək üçün yetərlidir.2700 il öncəyə aid etrusk mətnlərinin dili isə bu fərqliliyin hansı səviyyədə olduğunu dərk eməyə kömək edir."

Ekranda öncə etrusk, daha sonra isə şumer mətnləri görünür.
Diktor:

"Eneolit və Tunc dövrlərində formalaşan oğuz folklorunun dili ilə şumer mətnlərinin dilinin müqayisəsi isə differensasiyanın biz düşünə biləcəcəyimizdən də çox-çox öncələr başladığını əyani şəkildə ortaya qoymaqdadır.

Məlum olduğu kimi diliçi alimlərin bir çoxu şumer dilini türk dili saysa da və ya türk dili ilə müqayisə etsə də buna qarşı çıxanlar da az deyildir.Bu da təbiidir.Çünki bu iki dil arasında ortaq cəhətlər nə qədər çoxdursa, fərqli cəhətlər də bir o qədər çoxdur.Odur ki, şumer dilini türk dili ilə Messopatamiyanın tufandan öncəki əhalisinin dilinin qarışığı hesab etmək daha doğru olar.Bu məsələ barədə ilk dəfə söz açan Yusif Yusifov şumer dilində qədim Messopatamiya əhalisinin dilinə məxsus çox sayda söz olduğunu da xüsusi vurğulamış, bu sözlərin türk mənşəli sözlərdən ahəng qanununa tabe olmamaqla fərqləndiyini diqqətə çatdırmışdır.

Fakt isə budur ki, şumer dili özünün 5000 il öncəki halı ilə çağdaş türk dillərindən heç də çuvaş və yakut dillərindən daha çox uzaq görünmür.Fin-uqor dilləri ilə qarışmış çuvaş türkcəsi və tunqus-mancur,eləcə də monqol dilləri ilə qarışmış yakut türkcəsi nə qədər türk dilidirsə, şumer dili də bir o qədər türk dilidir. Bu halda söhbət türk dilinin kökdən daha çox uzaqlaşmış üç ləhcəsindən, yəni şumer, çuvaş və yakut dillərindən gedir."

Ekranda Soltan Hcıbəyovun "Karvan" simfonik suitasının sədaları altında yırğalana-yırğalan hərəkət edən karvan görünür.Karvanı tədricən Bisitun kitabələri əvəz edir və diktorun səsi eşidilir:

"Azərbaycan xalqının enogenezində yaxından iştirak etmiş türk qəbilələrindən biri də antik müəlliflərin "massaqet" və ya "maskut" adlandırdıqları, Avestada isə adı "besak" kimi çəkilən massaqetlər olmuşlar. Nuh oğlu Yafəsin övladlarından olan Mesexin soyundan olduqları hesab edilən bu xalqın adı Bisitun kitabəsində, eləcə də Aşşur-Babil mixi yazılarında saka kimi çəkilir."

Ekranda "Spartak" bədii filmindən Qney Pompeyin başçılıq etdiyi Roma ordusunun üsyançı qulların üzərinə yürüşə çıxdığı səhnədən səssiz kadrlar nümayiş etdirilir.Bu kadrların fonunda yazılır:

"Pompey albanların və indi bizim "alban" adlandırdığımız massaqetlərin torpaqlarından keçərək ...Xəzər dənizinə yetişdi.

Ammian Marsellin"

Diktor yazıları oxuyur və əlavə edir:

"Ammian Marsellinin verdiyi bu məlumatda albanların və massaqetlərin adlarının ayrı-ayrı soylar kimi, fəqət birlikdə çəkilməsi hər iki qəbilənin Azərbaycanın iki ayrı qəbiləsi olduğunu, onların eyni tayfa ittifaqında birləşdiklərini, bu üzdən də massaqetlərin də digər qəbilələr kimi "alban" adlandırıldığını göstərir.Bu o deməkdir ki, "alban" adı ayrıca bir türk qəbiləsinin adı olmaqla, həmin qəbilənin başçılığı ilə qurulan tayfa ittifaqına və dövlətə daxil olan digər qəbilələrə də ümumiləşdirici ad kimi şamil edilmişdir..."

Ekrandakı kadrları "l Pyotr" bədii filmindən çar Pyotrun görüntüləndiyi kadrlar əvəz edir və diktor sözünə ara vermədən davam edir:

"...Elə bu səbəbdən də Rusiya çarı l Pyotora müraciət edən udinlər yazdıqları məktubda özlərini udin milliyətindən olan albanlar adlandırmışdılar..."

Ekrandakı kadrları "300 spartalı" bədii filmindən spartalıları oxa tutan oxçuların əks olunduğu kadrlar əvəz edir.

Diktor:

"...Massaqetlər barədə orta əsr tarixçilərindən Favst Buzandın qeydlərində də rast gəlirik..."

Həmin kadrların fonunda yazılır:

"Maskutlar və ya massaqetlər iskit qəbiləsidir və Xəzər sahillərində yaşayırlar.

Favst Buzand."

Diktor yazını oxuyur və davam edir:

"Favst Buzandın verdiyi məlumatdan massaqetlərin iskit, yəni türk xalqı olduğu məlum olur."

Ekrandakı kadrları "Dədə Qorqud" filmindən səssiz kadrlar əvəz edir.

Diktor:

"Bu məlumatı V əsr erməni tarixçisi Aqafengel də təsdiq edir.O, massaqetləri "masxa-hun" adlandıraraq hun türkləri ilə eyniləşdirir. Favst Buzand isə massaqet hökmdarı Sanesanın çoxsaylı hun ordusunun başçısı olduğunu yazmışdır.Musa Kağankatlı və Moisey Xorenatsi isə massaqetlər ölkəsini "hunlar ölkəsi" adlandırmışlar."

Ekranda mixi yazılar görünür.
Diktor:

"Mixi yazılarda Azərbaycan türklərinin etnogenezində yaxından iştirak etmiş saklardan da ölkəmizin ən qədim sakinlərindən biri kimi geniş söz açılmaqdadır."

Ekranda dilçi alim Firidun Ağasıoğlu görünür.Alt tərəfdə onun adı, soy adı, elmi dərəcəsi yazılır.O, saklar barədə mixi yazılarda verilən məlumatlar, bu türk qəbiləsinin Azərbaycandakı fəaliyyəti, eləcə də antik müəlliflərin onlar barədə söylədikləri, sakların Orta Asiya və Hindistana qədər gedib çıxmaları, Cəvahirləl Nehrunun onlardan söz açması və onların türk olduğunu söyləməsi haqqında ətraflı danışır.

Ekranda Qazaxıstandakı İssık kurqanından tapılmış qızıl geyim, daha sonra isə gümüş qab və onun üzərindəki yazılar görüntülənir.
Diktor:

"Sakların etnik mənsubiyyəti barədə iranşünaslarla türkoloqlar arasında uzun illər ərzində sürən mübahisəyə Qazaxıstandakı saklara aid İssık kurqandan tapılan gümüş qab üzərindəki əski türkcə yazılar bir dəfəlik son qoymuş, sakların türk mənşəli xalq olduğu təkzibedilməz dəlillər əsasında sübut edilmişdir."

Ekranda filoloq alim Elməddin Əlibəyzadə peyda olur.Alt tərəfdə onun adı, soy adı və elmi dərəcəsi yazılır.O, İssık mədəniyyəti barədə qısaca məlumat verərək sözü gümüş qabın üzərinə gətirir və deyir:

"Qazax alimi Amanjolov kurqanda aşkara çıxan yazını belə təqdim edir:

Kəsmə tirdən tikilən kurqanın içində dəfn edilmiş əsilzadə döyüşçünün taxta qəbri tapılmışdır.Həmin kəsmə tirlərin içində otuza yaxın qab-qacaq və runa oxşar yazısı anlaşılmayan gümüş cam var idi.., Bütün əlamətlərinə görə bu qəbir, təxminən miladdan öncə V-lV əsrlərə aiddir.

Tədricən bu yazı oxundu, anlaşıldı, hansı dildə olduğu və məzmunu aşkar oldu.Kurqandakı gümüş cam üzərindəki yazı belədir:Ağa sana oçuq.Bez çök bukun içrə azuk.Fikir müasir dilimizdə belə səslənir:Ağa, sənə bu otaq, qəbir,sən rahat yat!Yad düşmən, sən diz çök! Hökmdar həlak olsa da xalqın çörəyi olacaq.

Mətn türk xarakterinə,mənəvi aləminə tam uyğun nikbinlik ruhunda qürur hissi ilə yazılıb."

Ekranda Elməddin Əlibəyzadəni Murad Aci əvəz edir.Alt tərəfdə onun barədə məlumat yazılır.O deyir:

"Очень любопытно исследование археолога Акишева, он расставил точки над "и" в так называемой скифской теме.Ученый в кургане Иссык в Семиречье в Казахстане нашел чашу с четкой рунической надписью на тюркском языке .Находке, как и кургану 2500 лет!Таким образом надпись стала певым письменным памятником скифов и саков, она свидетельствует об их языке.

Это было первая, но не единственная находка.

В Кара-тепе, вблизи Термеза археологи нашли буддийский центр ll-lV веков, где среди прочего материала были сосуды с такими же руническими письменами...Мало того, французские геологи сообшили о находке в Афганистане стены с такими же руническими знаками...Точно такие же руні были обнаружены на территории Востсчной Франции, в бывшей Бургундском королевстве. И в Румынии, и на Украине. Везде их язык был один. Тюркский!"

Murad Aci danışdıqca diktor onun söylədiklərini sinxron tərcümə edir:

"Arxeoloq Akişevin tədqiqatları böyük maraq çəkməkdədir.O, iskit məsələsindəki bütün mübahisələrə birdəfəlik son qoydu.Alim Qazaxıstanda, Jetisu ərazisindəki İssık kurqandan üzərində səlis runlarla türkcə yazı olan bir cam tapdı. Yazının yaşı da kurqanın yaşı qədər qədim idi.2500 il.Beləcə, bu abidə iskit və sakların dili barədə dəqiq məlumat verən ilk abidə oldu.İlk olsa da, təbii ki, yeganə olmadı.Özbəkistanda, Termez yaxınlığından arxeoloqlar ll-lV əsrlərə aid buddist məbəd aşkarladılar və oradan bir çox maddi mədəniyyət nümunəsi ilə yanaşı, üzə-rində run əlifbası ilə yazılmım yazılar olan saxsı qablar da tapıldı.Bu azmış kimi, fransız geoloqlar Əfqanıstanda üzə çıxan eyni tipli yazılar barədə məlumat verdilər. Eyni yazılara Şərqi Fransada, qədim Burqundiya krallığı ərazisində,Rumı- niya və Ukrayna ərazilərində də rast gəlinmişdir.Və hər yerdə bu yazıların dili birdir-Türk dili!"

Ekranda yenidən Elməddin Əlibəyzadə peyda olur və divardan asılmış "İssık hərfləri ilə Orxon-Yenisey hərflərinin müqayisəsi" cədvəli əsasında İssık əlifbası ilə Orxon-Yenisey əlifbası arasındakı təkamül fərqlərini izah edir.

Ekranda "Amrapali" hind filmindən döyüş səhnələrini əks etdirən kadrlar nümayiş olunur.

Diktor:

"Qədim hind mənbələrində eradan bir neçə yüzillər öncə sakların bir qisminin Hindistanın şimalında məskunlaşaraq tez bir zamanda burada yeni türk dövləti yaratmalarından söhbət açılmaqda və buddizmin əsasını qoyan Şakya Muninin də bir sak şahzadəsi olduğu qeyd edilməkdədir."

Ekranın sağ tərəfində Buddanın heykəli, sol tərəfində isə hind-brahmi əlifbası peyda olur.

Diktor:

"Hindistanda buddizmin yayılmağa başladığı dövrlərdən etibarən paralel olaraq, elm aləmində hind-brahmi əlifbası adlanan əlifba da istifadə edilməyə başlamışdır.Bu əlifbada bir sıra qrafemlərin Orxon-Yenisey əlifbasının qrafemləri, eləcə də bəzi qədim türk tamğaları ilə üst-üstə düşməsi ilk dəfə azərbaycanlı alimlər Əbülfəz Hüseyni və Cəfər Cəfərovun diqqətlərini çəkmişdir."

Ekranda İohannes Fridrixin şəkli görünür və şəklin fonunda yazılır:

"Eradan əvvəl lV əsrə aid sikkələrin üzərindəki brahmi yazıları...sağdan soladır, Aşoki dövrünə aid yazılarda isə bunun tam əksini görürük.Öncələr bu əlifbanın arami əlifbasından törədiyi hesab edilirdi,indi isə hesab edilir ki, onun əsasında finikiya yazısı durur.

İohannes Fridrix."

Diktor mətni oxuyur:

Ekranda brahmi yazısı ilə hind dilində yazılmış yazılar görünür.

Diktor:

"Yazı tarixinin gözəl bilicisi İohannes Fridrixin qeyd etdiyi kimi, bu yazının ən qədim nümunələrinə qədim sikkələrin üzərində rast gəlinmişdir.Və bu yazılar sonrakı dövrə aid olan və soldan sağa yazılan hinddilli mətnlərdən fərqli olaraq sağdan sola yazılmışdır.Bu mətnlərin hind dilində olmadığı məlumdur və onların dilini müəyyəmləşdirmək mümkün olmamışdır."

Ekrandakı mətnləri eyni əlifba ilə, türkcə yazılmış mətnlər əvəz edir.Diktor sözünə davam edir:

"Maraqlıdır ki, dövrümüzədək eyni əlifba ilə türkcə yazılmış mətnlər də çatmışdır və bu mətnlərdə yazının istiqaməti hinddilli mətnlərdəki yazıların istiqamətindən fərqli olaraq, soldan sağa deyil, qədim sikkələrdə olduğu kimi sağdan soladır.Elə bu fakt da sözügedən əlifbanın saklar tərəfindən əski türk əlifbası əsasında, yeni dini-buddizmi təbliğ etmək üçün icad edildiyini sübut edir.

Yeri gəlmişkən qeyd edək ki, türkdilli brahmi yazılarının da dili uyğurcadır, yəni bu mətnlər türk elitasının dilində-xaqaniyyə türkcəsindədir.Mətnlərdə çox

sayda hind sözünə də rast gəlinir ki, bu da onların Hindistan mənşəli olmasından, yəni Hindistan sakları tərəfindən yaradıldığı faktından qaynaqlanır."

Ekranda hərəkətdə olan karvan görünür və Soltan Hacıbəyovun eyniadlı əsəri səslənir.Bu görüntünün fonunda yazılır:

FİLMİN SONU